# MÜNDƏRİCAT


**RƏSMİ XRONİKA**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DİPLOMATİK FƏALİYYƏTİ** 5

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri** _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 5

08/04/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Romada Vatikan Dövlətinin başçısı, Zati-müqəddəsləri Papa II İohann Pavelin dəfn mərasimində iştirakı _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 5

12-13/04/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına rəsmi səfəri _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 5

21-22/04/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasına rəsmi səfəri _ 9

22/04/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin GUÖAM ölkələri dövlət başçılarının zirvə görüşündə iştirakı _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 12

09/05/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Qələbənin 60 illiyinə həsr olunmuş tədbirlərdə iştirakı_ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 15

15-17/05/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Şurasının üzvü olan ölkələrin Varşavada keçirilən dövlət və hökumət başçılarının növbəti zirvə görüşündə iştirakı_ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 15

10-12/06/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri _ 15

13/06/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9-cu Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirakı _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 18

16/06/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kiyevdə keçirilən "Fövqəladə Ukrayna dəyirmi masası" adlı beynəlxalq investisiya forumunda iştirakı_ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 18

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüşləri**_ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 18

**Xarici ölkələrin dövlət və hökumət başçılarının Azərbaycan Respublikasına səfərləri** _ _ _ _ _ _ _ _ _ _ 22

24-25/05/05 – Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycan Respublikasına rəsmi səfəri _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 22

30/06/05 – Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 25

**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi** _ 30

Azərbaycanın yeni neft strategiyasının təntənəsi – üç dənizin əfsanəsi reallığa çevrilmişdir Heydər Əliyev adına Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasim_ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 30

Qars-Axalkalaki-Tbilisi-Bakı birləşdirici dəmir yolu xətti layihəsi haqqında Bəyannamənin və Şərq-Qərb enerji dəhlizinin inkişaf etdirilməsi və genişləndirilməsi haqqında Bakı Bəyannaməsinin imzalanması _ _ _ _ _ 41

**AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN DİPLOMATİK FƏALİYYƏTİ** _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 43

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun səfərləri** _ _ _ _ _ _ _ _ _ _ _ _ 43

3-5/04/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Oman Sultanlığına rəsmi səfəri _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 43

6-7/04/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 43

29-30/04/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Çili Respublikasında keçirilən Demokratiya Cəmiyyəti üzrə xarici işlər nazirlərinin 3-cü konfransında iştirakı_ _ _ _ _ _ _ _ _ _ _ 44

15-16/06/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Strasburqa işgüzar səfəri _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 45

27/06/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Türkiyə Respublikasına işgüzar səfəri _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 46

28/06/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Yəmən Respublikasında keçirilən İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin 32-ci konfransında iştirakı_ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 46

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun görüşləri**_ _ _ _ _ _ _ _ _ _ _ _ 47

**28 MAY – RESPUBLİKA GÜNÜ**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 may Respublika günü münasibətilə Azərbaycan xalqına təbriki _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 49

Respublika günü Səudiyyə Ərəbistanı Krallığında qeyd edilmişdir _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 50

ABŞ-in bəzi şəhər və ştatları mayin 28-ni "Azərbaycan Respublikasının milli günü" elan etmişdilər_ _ _ _ _ _ 50

Azərbaycanın milli bayramı Cenevrədə qeyd olunmuşdur_ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 51

Kiyevdə Respublika günü şərəfinə təntənəli qəbul təşkil edilmişdir _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 51

Ankarada Respublika günü qeyd olunmuşdur _ _ _ _ _ 51

Respublika günü Strasburqda da qeyd edilmişdir_ _ _ _ 52

Macarıstan paytaxtında bayram tədbiri_ _ _ _ _ _ _ _ _ 52

Respublika günü Özbəkistanda da qeyd edilmişdir _ _ _ 52

Gürcüstanda Respublika günü qeyd olunmuşdur_ _ _ _ 52

Azərbaycanın Misir Ərəb Respublikasındakı səfirliyində rəsmi qəbul keçirilmişdir _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 53

Azərbaycanın milli bayramı İslamabadda qeyd olunmuşdur _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 53

Respublika günü Aşqabadda qeyd edilmişdir _ _ _ _ _ _ 53

Respublika günü Azərbaycanın Qarsdakı baş konsulluğunda qeyd olunmuşdur _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 54

Azərbaycanın milli bayramı Almaniyada qeyd olunmuşdur _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 54

## MÜSAHİBƏLƏR


Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Pakistan Televiziyasına müsahibəsi 55

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirmişdir 58

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Türkiyənin "Samanyolu" Televiziyasına müsahibəsi 63

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "CNN-Türk" Telekanalına birbaşa yayımla müsahibə vermişdir 68

Ответы министра иностранных дел Азербайджанской Республики Э.Мамедъярова на вопросы информационного агентства «Интерфакс – Азербайджан» 75


## ÇIXIŞLAR


Statement by Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan, at the Summit of the GUUAM heads of state. Kishinev, 22 April 2005 78

Statement by Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan, at the Third Summit of Heads of State and Government of the Council of Europe. Warsaw, 16-17 May 2005 80

Выступление Президента Азербайджанской Республики Ильхама Алиева на Девятом Петербургском Международном Экономическом Форуме. Санкт-Петербург, 13 июня 2005 г. 81

Statement by Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan, at the opening of the first enlarged meeting of International Investment Forum's "Extraordinary Ukraine Roundtable". Kiev, 16 June 2005 83

Statement by Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan, at the Panel discussion "Regional Organizations. Responding to threats to democracy and promoting democracy". Santiago, 29 April 2005 84

Statement by Minister of Foreign Affairs of the Republic of Azerbaijan Mr. Elmar Mammadyarov at the International Conference on Iraq. Brussels, 21-22 June 2005 86

Statement by Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan, at the XXII Conference of the OIC Foreign Ministers. Sanaa, 28-30 June 2005 87


## ERMƏNİSTAN – AZƏRBAYCAN MÜNAQİŞƏSİ


**ŞUŞA VƏ LAÇIN ŞƏHƏRLƏRİNİN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALININ 13-cü İLDÖNÜMÜ** 89

Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 13-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı 89

Statement by the Milli Mejlis of the Republic of Azerbaijan on the occassion of the thirteenth anniversary of the occupation of Shusha by the armed forces of Armenia 94

Qahirədə Şuşanın işğalı ilə bağlı tədbir keçirilmişdir 98

Kiyevdə Şuşanın işğalının 13-cü ildönümü ilə əlaqədar tədbir keçirilmişdir 99

Fransada Şuşanın işğalının 13-cü ildönümü ilə bağlı tədbir keçirilmişdir 99

Kiyevdə Laçının işğalının ildönümü ilə bağlı anım tədbiri keçirilmişdir 99

**BƏYANATLAR** 100

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı 100

Statement of the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan 100

**MÜRACİƏTLƏR** 101

Avropa Şurasının Parlament Assambleyasına Azərbaycan Respublikası Milli Məclisin müraciəti 101

Appeal of the Milli Mejlis of the Republic of Azerbaijan to the Parliamentary Assembly of the Council of Europe 102

**ERMƏNİSTAN – AZƏRBAYCAN MÜNAQİŞƏSİ MƏTBUATDA** 103

ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanat yayıblar 103

V.Oskanyan E.Məmmədyarovla görüşdən növbəti dəfə yayındı 103

Frankfurt görüşündə sülh planının konkret detalları müzakirə edilibdir 104

Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan Prezidenti Robert Koçaryanla görüşü 104

Xarici İşlər Nazirliyində brifinq keçirilmişdir 105

AŞPA-nın bürosu qondarma "Dağlıq Qarabağ Respublikası"nın müraciətini rədd etmişdir 105

Türkiyənin Xarici İşlər Nazirliyi qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilməsi planlaşdırılan seçkiləri qeyri-qanuni hesab etmişdir 105

Xarici İşlər Nazirliyində brifinq keçirilmişdir 105

Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi separatçı erməni rejiminin Dağlıq Qarabağda keçirdiyi "seçkiləri" ifşa edən bəyanat yaymışdır 106

GUAM təşkilatı ATƏT-in konfransında Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair bəyanatla çıxış etmişdir 107

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ problemi üzrə AŞPA alt komitəsinin iclası keçirilmişdir 107

**AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNİN ARXİV MATERİALLARI** 108

Рассказ Мешади Абушбека Новрузова, очевидца четырех армяно-азербайджанских столкновений в городе Шуше 108


## XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ


Xarici işlər nazirinin müavini MDB-nin İcraiyyə Komitəsinin sədri - icraçı katibini qəbul etmişdir 112

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası üzrə iki ölkənin Dövlət Komissiyalarının 9-cu birgə iclası keçirilmişdir 112

Azərbaycan BMT-nin İqtisadi və Sosial Şurasının İnsan Hüquqları üzrə Komissiyasının 15 yeni üzvündən biri seçilmişdir 112

Xarici işlər nazirinin müavini Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirini qəbul etmişdir 113

Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında narkotiklərə nəzarət və hüquq-mühafizə fəaliyyətinə yardım haqqında saziş imzalanmışdır 113

Azərbaycan ilə Yaponiya arasındakı münasibətlərin müqavilə-hüquq bazasının təməli qoyulmuşdur 113

BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası üzrə Azərbaycan Respublikası hökumətinin məruzəsi BMT-nin Baş katibinə təqdim olunmuşdur 114

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu çərçivəsində siyasi dialoq davam etdirilmişdir 114

2007-ci ildə Bakıda Avropa İttifaqının nümayəndəliyi açılacaq 115

Xarici işlər nazirinin müavini ölkəmizə yeni təyin olunmuş səfirləri qəbul etmişdir 115

**BRİFİNQLƏR** 116

**TƏDBİRLƏR** 116

"Cənubi Qafqazda təhlükəsizlik və sabitlik" mövzusunda konfrans. Bakı, 20-21 may 2005 116

Azərbaycanda "NATO həftəsi". Bakı, 6-12 iyun 2005 117

**AZƏRBAYCAN RESPUBLİKASININ XARİCDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNDƏ**

**TƏYİNATLAR** 119

F.İ.Qurbanovun Beynəlxalq Mülki Aviasiya Təşkilatında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 119

Fəxrəddin Qurbanov: Tərcümeyi-hal 119

İ.B.Vahabzadənin Azərbaycan Respublikasının Moldova Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 120

İsfəndiyar Vahabzadə: Tərcümeyi-hal 120

T.N.Zülfüqarovun Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 121

Tofiq Zülfüqarov: Tərcümeyi-hal 121

**ETİMADNAMƏLƏRİN TƏQDİM EDİLMƏSİ** 122

Azərbaycan Respublikasının Avstriya Respublikasındakı səfiri Avstriya Prezidentinə öz etimadnaməsini təqdim etmişdir 122

Azərbaycan Respublikasının Vatikan Dövlətindəki səfiri Roma Papasına öz etimadnaməsini təqdim etmişdir 122

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı səfiri Misir Prezidentinə öz etimadnaməsini təqdim etmişdir 122

**MƏQALƏLƏR**

Алимирзамин Аскеров, Основные направления деятельности консульской службы Азербайджанской Республики на современном этапе 123

Eldar Şahbazov, Azərbaycanda milli təhlükəsizliyin təmin olunması baxımından əsas ixrac neft və qaz boru kəmərlərinin istismar risklərinin qiymətləndirilməsi 127

Həsən Məmmədzadə, Kəşmir münaqişəsi və onun tənzimlənməsinə dair səslənən bir sıra təkliflər 133

Mammad Ahmadzada, Azerbaijan – Italian relations 138

Hikmət Hacıyev, Saloğlu "NATO/Sülh naminə tərəfdaşlıq Etimad fondu" layihəsi 144

Nüsrət Süleymanov, Şimali Atlantika Alyansının rəhbərliyi ilə Əfqanıstanda həyata keçirilən missiya, Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin fəaliyyəti 146

**YENİ NƏŞRLƏR**

T. Kocharli, Armenian Deception (continuation) 148

**AZƏRBAYCAN DİPLOMATİYASININ TARİXİ**

Azərbaycanın İstiqlal Bəyannaməsi 171

Declaration of Independence of Azerbaijan 172

Актъ независимости Азербайджана 173

**AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLƏRİ** 174

Tofiq Nadir oğlu Zülfüqarov 174

Vilayət Muxtar oğlu Quliyev 174

**REDAKSİYA ŞURASI**

**Elmar Məmmədyarov**
Nazir (Baş redaktor)

**Novruz Məmmədov,** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının
Xarici əlaqələr şöbəsinin müdiri
**Araz Əzimov,** Nazir müavini,
**Xələf Xələfov,** Nazir müavini,
**Mahmud Məmməd-Quliyev,** Nazir müavini,
**Vaqıf Sadıqov,** Nazir müavini

**REDAKSİYA HEYƏTİ**

**Samir Məlikov,** Mətbuat və informasiya siyasəti idarəsinin ikinci katibi
**Samir Məlikli,** Mətbuat və informasiya siyasəti idarəsinin üçüncü katibi
**Elçin Hüseynli,** Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) attaşesi
**Cavid Nəsirov,** Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) referenti
**Nurlan Əliyev,** Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) referenti (məsul katib)
**Kamilə Məmmədova,** Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) referenti

© Müəllif hüquqları qorunur.
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun gəlməyə bilər.
Qeyri-dəqiq faktlara görə yazıların müəllifləri məsuliyyət daşıyırlar.
“Diplomatiya Aləmi” jurnalı 2002-ci ildən çıxır.
**Qeydiyyat № 1161, 14 yanvar 2005-ci il**

**Ünvan:** Xarici İşlər Nazirliyi, Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsi (Mərkəz),
Ş.Qurbanov küç. 4, Bakı AZ 1009;
**Tel.:** 492 73 28; 492 80 35; **e-poçt:** t_musayev@mfa.gov.az

**Jurnalın satışı, nəşri, abunə yazılması və ya digər texniki məsələlər:**
Tel. 492 96 92 (21-28), **Səlim Əlizadə**
Korrektor: **Nazir Məmmədov**



# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DİPLOMATİK FƏALİYYƏTİ

## AZƏRBAYCAN RESPUBLIKASININ PREZIDENTI İLHAM ƏLIYEVIN SƏFƏRLƏRI

### 08/04/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Romada Vatikan Dövlətinin başçısı, Zati-müqəddəsləri Papa II İohann Pavelin dəfn mərasimində iştirakı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Romada Vatikan Dövlətinin başçısı, Zati-müqəddəsləri Papa II İohann Pavelin dəfn mərasimində iştirak etmişdir.

Papa ilə vidalaşmaq üçün Romaya 200-dən çox nümayəndə heyəti gəlmişdir. Mərasimdə müxtəlif ölkələrdən 70-dən çox dövlət və hökumət başçışı, dörd kral və beş kraliça iştirak etmişdir.

Matəm ibadəti başa çatdıqdan sonra Papa II İohann Pavelin cənazəsi olan tabut çiyinlərdə Müqəddəs Pyotr məbədinə gətirilmişdir. Cənazə palıddan, sinkdən və sərv ağacından hazırlanmış iç-içə üç tabuta qoyulmuşdur.

Məbədin qarşısındakı üçsaatlıq matəm liturgiyası başa çatdıqdan sonra kardinallar kollegiyasının dekanı Yozef Ratzinger vida sözü söyləyərək, başçısını itirmiş kilsəyə Tanrıdan ümid və inam təsəllisi diləmişdir. Papa II İohann Pavelin cənazəsi torpağa tapşırılmışdır.

Dünyanın müasir tarixində misli görünməmiş, milyonlarla insanın iştirak etdiyi matəm mərasimi 150 ölkənin televiziya kanalları ilə birbaşa yayımlanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev mərasim zamanı Almaniyanın kansleri Gerhard Şröder, Fransanın Prezidenti Jak Şirak, Böyük Britaniyanın Baş naziri Toni Bleyer, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Ukraynanın Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 8-də gecə Bakıya qayıtmışdır.

**XİN-in Mətbuat Mərkəzinin**
**09.04.05 tarixli məlumatı**

### 12-13/04/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına rəsmi səfəri

**Səfər zamanı keçirilmiş görüşlər:**

Pakistan İslam Respublikasının xarici işlər naziri Xurşid Mahmud Kasurini ilə görüş
Pakistan İslam Respublikası parlamentinin Milli Assambleya palatasının spikeri Çoudri Əmir Hüseyn ilə görüş
Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf ilə təkbətək görüş
Pakistan Müdafiə Nazirliyinin nəzdində Hərbi ixraca yardım təşkilatında görüş
Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əziz ilə təkbətək görüş

**Səfər zamanı imzalanmış sənədlər:**

Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında memorandum
Azərbaycan Respublikası Təhsil Nazirliyi və Pakistan İslam Respublikası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş
Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş
Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Pakistan İslam Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş
Azərbaycan Respublikası və Pakistan İslam Respublikası aviasiya hakimiyyətləri arasında əməkdaşlıq haqqında anlaşma memorandumu

## *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikası Prezidenti Pərviz Müşərrəfin birgə mətbuat konfransı*

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf İslamabadda birgə mətbuat konfransı keçirmişlər. Dövlət başçıları əvvəlcə nitqlə çıxış etdilər.



**Azərbaycan Prezidenti İlham Əliyevin və Pakistan Prezidenti Pərviz Müşərrəfin təkbətək görüşü**

### Pakistan İslam Respublikası Prezidenti Pərviz Müşərrəfin nitqi

Bismillahir-rəhmanir-rəhim!

Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevi burada salamlayıram. Prezident Əliyev mənim dəvətimlə Pakistana səfərə gəlmişdir. Mən bu dəvəti ötən ilin iyul ayında Azərbaycan kimi gözəl ölkəyə səfərim zamanı etmişdim.

Siz hamınız bilirsiniz ki, Pakistan və Azərbaycan qardaş ölkələrdir. Bizim ümumi baxışlarımız, mədəniyyətimiz və tariximiz var. Məhz buna görə də iki məmləkətin münasibətlərinin bütün sahələrdə – həm siyasi, həm də ticarət-iqtisadi sahələrdə bu qədər yaxın olmasının səbəbini əlavə izah etməyə ehtiyac yoxdur. Biz əməkdaşlığımızın bütün mümkün sahələrini müzakirə etdik. İki tərəf arasında siyasi əlaqələrin və siyasi, diplomatik anlaşmanın səviyyəsindən məmnun olduğumuzu vurğuladıq.

Mən Pakistana Kəşmir məsələsində verdiyi daimi dəstəyinə görə Prezident Əliyevə təşəkkürümü bildirdim. Eyni zamanda, birmənalı və aydın şəkildə bəyan etdim ki, Pakistan da Dağlıq Qarabağ məsələsində Azərbaycanı, bu ölkədəki qardaşlarımızı daim dəstəkləyəcəkdir. Çünki haqq-ədalət Azərbaycanın tərəfindədir. Bu işdə ədalət zəfər çalmalıdır. Pakistan Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanı bütün beynəlxalq forumlar çərçivəsində dəstəkləməkdə davam edəcəkdir.

Eyni zamanda biz müəyyən etdik ki, siyasi münasibətlərimizin ən yüksək səviyyədə olmasına baxmayaraq, iki ölkə arasındakı iqtisadi-ticarət əlaqələri çox zəif inkişaf etmişdir. Beləliklə, biz hər iki tərəfin özəl sektorunun nümayəndələrini bir araya gətirməklə bu əlaqələri gücləndirməliyik. Onlar özləri qarşılıqlı maraq doğuran sahələri müəyyən edə bilər və bu yolla ticarət əlaqələrinin də genişləndirilməsinə nail olmaq mümkün olar. İş adamları birgə müəssisələrin yaradılması imkanlarını da bir yerdə araşdıra bilər.

Eyni zamanda biz müdafiə sahəsində əməkdaşlığımızı müzakirə etdik. Mən Prezident Əliyevə bildirdim ki, Pakistan təhsil kurslarının keçirilməsi sahəsində işbirliyinə hazırdır. Bizim bütün hərbi təlim institutlarımız hərbi təhsil sahəsində Azərbaycan üçün açıqdır. Bizim hərbi sənaye imkanlarımız var. Mən Prezidentə bildirdim ki, biz istənilən hərbi sahədə qarşılıqlı fayda məqsədi ilə əməkdaşlıq üçün qapılarımızı açıq saxlayacağıq.

Beləliklə, bu əməkdaşlıq sahələri mənim tə-

rəfimdən bəyan edildi. Prezident Əliyev bildirdi ki, ölkələrimiz turizm və turistlərin mübadiləsi sahəsində birgə işləyə bilər. Tərəflər təhsil sahəsində, xüsusən elm və texnologiya sahəsində də əməkdaşlıq edə bilərlər.

Nəhayət, sonda onu demək istəyirəm ki, biz siyasi əlaqələrimizi daha da gücləndirmək niyyətindəyik. Bundan başqa, ikitərəfli münasibətlərimizi, – o cümlədən iqtisadi və ticarət sahələrində, təhsil, turizm və mədəniyyət sahələrində, – möhkəmləndirmək əzmindəyik. Biz bir-birimizə yardımçı olacağıq. Biz Azərbaycandakı qardaşlarımızla olan əlaqələrimizi gələcəkdə daha da genişləndirmək əzmindəyik.

Xanımlar və cənablar, çox sağ olun.

## Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi

Hörmətli Prezident!

Hörmətli xanımlar və cənablar!

Əvvəlcə, qardaş Pakistan ölkəsində olmağımdan çox məmnun olduğumu bildirmək istəyirəm. Məni səfərə dəvətinə görə Prezident Müşərrəfə minnətdaram. Səfərin ilk anlarında mənə göstərdiyiniz xoş qonaqpərvərliyi duydum.

Cənab Prezidentin ötən ilin iyulunda Azərbaycana səfərini hamımız çox yaxşı xatırlayırıq. Səfər zamanı iktərəfli münasibətlərə, regional əməkdaşlığa, regionda təhlükəsizlik və sabitliyə aid bir çox məsələlər ətrafında geniş müzakirələr apardıq. Mən çox şadam ki, bu iki səfər arasındakı müddət ərzində ölkələrimizin dialoqu davam etdirilmiş və daha da intensivləşmişdir. Biz qarşılıqlı maraq doğuran məsələlərlə və regional problemlərlə bağlı çox sıx ünsiyyətdə olmuşduq.

Azərbaycan müstəqilliyini bəyan etdikdən sonra biz hər zaman Pakistanın dəstəyini hiss etmişik. Pakistan bizi müstəqil ölkə kimi tanıyan ilk dövlətlərdən biri olmuşdur. Həmin vaxtdan etibarən iki ölkə arasındakı əlaqələr çox uğurla inkişaf etmişdir. Biz ölkələrimiz üçün vacib hesab olunan məsələlərdə bir-birimizi daim dəstəkləyirik. Azərbaycan Kəşmir məsələsində Pakistanı həmişə dəstəkləyib və dəstəkləyəcəkdir. Eyni zamanda, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini daim dəstəklədiyinə görə biz Pakistana minnətdarıq.

Cənab Prezident çıxışında müzakirə etdiyimiz məsələlərin hamısını əhatə etdi. Mən onları təkrar etmək istəmirəm. Sadəcə, xatırlatmaq istəyirəm ki, ölkələrimiz arasında siyasi münasibətlər ən yüksək səviyyədədir. Biz ikitərəfli məsələlər üzrə çox sıx işləyirik. Müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində birgə işləyirik. Bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatında aparılmış müzakirələr zamanı Dağlıq Qarabağ məsələsində Pakistan qətiyyətlə bizim mövqeyimizi dəstəklədi. Bu dəstək əlaqələrimizin səmimi olduğunu, qəlblərimizin bir-birinə açıq olduğunu bir daha təsdiq edir. Biz dost və qardaşıq.

Cənab Prezident qeyd etdi ki, yeganə çatışmazlıq birgə sərhədimizin olmamasıdır. Lakin nə edə bilərik, bu, coğrafiyadır. Hesab edirəm ki, bu məsafə bizi bir-birimizdən uzağa salmır. Hazırkı səfərim, apardığımız müzakirələr və cənab Prezidentlə sıx səmimi münasibətlərimiz gələcək inkişaf üçün çox güclü potensialın olmasından xəbər verir.

İqtisadi əlaqələrimiz qarşılıqlı maraq doğuran məsələdir. Onlar siyasi münasibətlərimizin səviyyəsinə uyğun deyildir. Hesab edirik ki, bu sahədə çox çalışmalıyıq. Biz iqtisadi əlaqələrin inkişafına təkan verəcək praktiki tədbirlərin həyata keçirilməsini müzakirə etdik. Beləliklə, biz iqtisadi münasibətlərimizin səviyyəsini siyasi münasibətlərin səviyyəsinə çatdıra bilərik. Bizim bir çox oxşarlıqlarımız var. Ümumi tariximiz və adət-ənənələrimiz var. Əlbəttə ki, Azərbaycan və Pakistan xalqları bir-birini daha yaxından tanımalıdır. Səyahətlər olmalıdır, ünsiyyət saxlanılmalıdır, qarşılıqlı görüşlər keçirilməlidir. Xalqlarımız münasibətlərimizin yüksək olmasından və səmimi əlaqələrdən bəhrələnməlidir. Mən tamamilə əminəm ki, gələcəkdə Pakistan və Azərbaycan bu müsbət əlaqələri daha da inkişaf etdirəcək və ölkələrimiz bir-birinə daha da yaxın olacaqdır.

Məni ölkəsinə dəvət etdiyinə və mənə, habelə nümayəndə heyətimizin üzvlərinə göstərilmiş qonaqpərvərliyə görə cənab Prezidentə bir daha təşəkkürümü bildirirəm. Tam əmin olduğumu bildirmək istəyirəm ki, gələcəkdə Pakistan və Azərbaycan regional inkişafa, regiondakı sabitliyə və təhlükəsizliyə öz töhfəsini verəcək və bunun nəticəsində xalqlarımız daha yaxşı yaşayacaq, Pakistan və Azərbaycan çiçəklənən ölkələrə çevriləcəkdir.

Çox sağ olun.

**Pərviz Müşərrəf:** Sağ olun. Suallara keçməzdən əvvəl mən iki əlavəni etmək istərdim. Pakistan və Azərbaycan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsinə müsbət yanaşır. Mən eyni

zamanda, Pakistanın TRASEKA nəqliyyat dəhlizinə qoşulmasına verdiyi dəstəyə görə və bu il aprelin 21-22-də TRASEKA-nın Bakıda keçiriləcək illik iclasına Pakistanı da dəvət etdiyinə görə cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, mən Sizə minnətdaram.

Sonra Azərbaycan və Pakistan prezidentləri jurnalistlərin suallarına cavab verdilər.

**Sual:** Cənab Müşərrəf və cənab Əliyev, Siz qeyd etdiniz ki, görüşünüz zamanı Dağlıq Qarabağ problemini müzakirə etdiniz. Sizin fikrinizcə, BMT Dağlıq Qarabağ və Kəşmir problemlərinin həllində hansı rolu oynaya bilər?

**Pərviz Müşərrəf:** Birləşmiş Millətlər Təşkilatı dünya təşkilatı sayılaraq, hər hansı münaqişənin həll olunmasında məsuliyyətlidir. Azərbaycan da belə bir münaqişə ilə üzləşmişdir və BMT bu problemin aradan qaldırılmasında müəyyən rol oynamağa çalışmışdır. Hazırkı vəziyyəti nəzərə alsaq, mənə elə gəlir ki, bu təşkilat çərçivəsində əməkdaşlığımızı davam etdirməliyik. Biz Azərbaycanın bu münaqişənin həll olunmasında tutduğu mövqeyinin BMT çərçivəsində daha da möhkəmləndirilməsinə öz yardımımızı göstərməliyik. Məhz buna görə də mən BMT-nin bütün iclaslarında Azərbaycanı dəstəkləyəcəyimizə Prezident Əliyevi əmin etdim. Biz əminik ki, bu təşkilat Dağlıq Qarabağ probleminin həllində daha da böyük rol oynayacaqdır.

**İlham Əliyev:** Hesab edirəm ki, BMT tərəfindən qəbul olunmuş qətnamələrin həyata keçirilməsi mexanizmlərinin müəyyən edilməsi çox vacibdir. Cənab Prezidentlə BMT-də mümkün olacaq islahatlar məsələsini müzakirə etdikdə, biz bu problemə də toxunduq. Əfsuslar olsun ki, BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələr bu gün kağız üzərində qalmaqdadır. Bu qətnamələrin həyata keçirilməsi mexanizmləri mövcud deyildir. Kəşmir və Dağlıq Qarabağla bağlı qətnamələr var. Lakin heç bir irəliləyiş və ya həyata keçirilmə mexanizmi yoxdur. Bu qətnamələrin hansı formada həyata keçirilməsi mexanizmləri hələ ki, mövcud deyildir.

Beləliklə, belə münaqişələrin həllində BMT-nin oynayacağı rolun vacibliyini nəzərə alaraq, biz bu qətnamələrin həyata keçirilməsi haqqında düşünməliyik. Biz qəbul olunmuş sənədlərə müvafiq mövqeyin bildirilməsi məqsədi ilə islahatlar zamanı hansı addımların atılmasını bilməliyik.

**Sual:** Mənim sualım Azərbaycan Prezidentinədir. Zati-aliləri, Prezident Müşərrəfin rəhbərliyi altında Pakistan beynəlxalq terrorizmə qarşı elan edilmiş qlobal müharibə də ön cəbhə xəttindədir. Bu baxımdan Siz Pakistanın göstərdiyi səyləri necə qiymətləndirirsiniz? Bu bəla nəinki Pakistana, ümumiyyətlə, bütün regiona təsir edir. Mən bilmək istərdim ki, regiondakı dövlətlər bu problemin tam aradan qaldırılması üçün hansı ümumi mövqe tutmalıdır?

**İlham Əliyev:** Biz Pakistanın terrorizmə qarşı mübarizədə oynadığı rolu yüksək qiymətləndiririk. Hesab edirəm ki, Pakistanın rolu vacibdir və həlledicidir. Pakistan konkret addımları ilə onu göstərdi ki, beynəlxalq terrorizmə qarşı mübarizə çox önəmlidir. Azərbaycan və Pakistan beynəlxalq terrorizmin qurbanı olmuşdur. Ermənistanın terrorçu təşkilatları Azərbaycanda 32 terror aktı törətmişlər. Bunun nəticəsində 2000 nəfər Azərbaycan vətəndaşı həlak olmuş, minlərlə həmvətənimiz yaralanmışdır.

Yəni biz bu bəlanın nə olduğunu yaxşı bilirik. Eyni zamanda, onu da anlayırıq ki, yalnız bütün beynəlxalq ictimaiyyətin birgə səyləri nəticəsində biz bu bəla ilə mübarizə apara bilərik. Əfsuslar olsun ki, bəzən müəyyən təşkilatlarda terrorçulara fərqlər qoyulur. Terrorçu yalnız o şəxs deyil ki, təkcə öz ölkəsinə qarşı terror aktı törətsin, qonşu xalqlara və dövlətlərə qarşı cinayətlər törətmiş şəxslər də terrorçudur. Yalnız səylərimizi birləşdirərək, səfərbər edərək və terrorçunun müəyyən olunması məqsədi ilə ümumi meyarlardan istifadə etmək yolu ilə bu sahədə uğurlu mübarizə apara bilərik. Azərbaycan bu mübarizəyə verdiyi töhfəni davam etdirməyə hazırdır. Biz antiterror koalisiyasının fəal üzvləriyik. Bu bəlanın aradan qaldırılması üçün çox çalışmışıq. Bir daha deyirəm ki, beynəlxalq səviyyədə Pakistanın bu sahədə oynadığı rol mühümdür.

**"AzərTAC" 14.04.05**

## 21-22/04/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasına rəsmi səfəri

**Səfər zamanı keçirilmiş görüşlər:**
Moldova Respublikasının Prezidenti Vladimir Voronin ilə təkbətək görüş
Moldova Respublikasının Baş naziri Vasile Tarlev ilə görüş
Moldova Respublikası parlamentinin sədri Marian Lupu ilə görüş
Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimdə iştirak

**Səfər zamanı imzalanmış sənədlər:**
Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında Moldova Respublikasının ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasının ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında saziş
Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında baytarlıq-sanitariya konvensiyası
Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında hava əlaqəsi haqqında saziş
Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş
"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Teleradio-Moldova" İctimai Şirkəti arasında əməkdaşlıq haqqında saziş

## *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Moldova Respublikası Prezidenti Vladimir Voroninin birgə mətbuat konfransı*

Aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Moldova Respublikasının Prezidenti Vladimir Voronin Kişineuda birgə mətbuat konfransı keçirmişlər. Dövlət başçıları əvvəlcə nitqlə çıxış etdilər.



### Moldova Respublikası Prezidenti Vladimir Voroninin nitqi

Hörmətli İlham Heydəroviç!

Sizi bir daha ürəkdən salamlayıram. İkitərəfli münasibətlərimizin tarixində Moldova Respublikasına ilk rəsmi səfərə gəlməyinizə şadam. Mən azərbaycanlı dostlarımızı salamlayıram və sizi ikitərəfli münasibətlərimizi daha da genişləndirəcək və dərinləşdirəcək beş mühüm sazişin imzalanması münasibətilə təbrik edirəm.

Ötən dəfə, Azərbaycan Respublikasına mənim rəsmi səfərim zamanı biz 9 saziş imzaladıq və bugünədək bizim 30 sazişimiz vardı və indi 5-i də əlavə edildi və ümumilikdə 35 sazişimiz var. Mən kütləvi informasiya vasitələrinin nümayəndələrinə bunu da bildirməyimə çox şadam ki, yeni yaradılan Azərbaycan – Moldova hökumətlərarası komissiyasının dünən və srağagün ilk iclası olmuşdur. Komissiya ikitərəfli münasibətlərimizlə bağlı bütün problemləri, məsələləri müzakirə etmişdir. Düşünürəm ki, bu hüquqi baza – 35-dən çox saziş və hökumətlərarası komissiyanın yaradılması bizə birgə fəaliyyət yolu ilə daha da irəliləməyə imkan verəcəkdir.

İlham Heydəroviç, əminəm ki, Sizin iştirak edəcəyiniz GUÖAM ölkələrinin sabahkı sammiti də ikitərəfli münasibətlərin dərinləşməsində və genişlənməsində ciddi addım olacaqdır.

Bizi Azərbaycanla çoxdankı dostluq bağlayır. Bundan başqa, Azərbaycan diasporu Moldova Respublikasının ən fəal vətəndaşları sırasındadır, çox nizam-intizamlı, sosial baxımdan çox fəaldır. Digər diasporlarla birlikdə gənc dövlətimizi demokratiya, insan hüquqlarına əməl olunması və ölkəmizdəki bütün millətlər-

dən olan vətəndaşlar arasında hərtərəfli münasibətlərin inkişaf etdirilməsi prinsipləri əsasında qurmaq üçün bütün işləri görür.

Curculeşt terminalının başlıca sərmayəçisi olmaq barədə Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan hökumətinin qəbul etdiyi cəsarətli qərar Moldovaya yönəldilən sərmayələrin həcmi baxımından misilsizdir, bir də o cəhətdən misilsizdir ki, bu terminalın köməyi ilə biz ölkəmizin yanacaq ehtiyatları ilə təmin olunması sahəsində çox ciddi problemləri həll edəcəyik. Bu, ölkələrimizi daha da birləşdirəcəkdir.

Bizim bütün sahələrdə bütöv bir fəaliyyət proqramımız var. Bizim tariximiz və gələcək üçün perspektivlərimiz var.

Prezident Əliyevlə biz beynəlxalq səviyyədə, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında qarşılıqlı fəaliyyət haqqında razılığa gəlmişik. Ərazilərimizdəki silahlı münaqişələr məsələsini BMT Baş Məclisinin müzakirəsinə birgə çıxarmaq qərarındayıq, Birləşmiş Millətlər Təşkilatının müəyyən komitələrinə seçkilər zamanı bir-birimizi dəstəkləyəcəyik, Avropaya inteqrasiya yolunda təcrübə mübadiləsi üzrə birgə işləyəcəyik. Bəyannaməni və GUÖAM sammitində qəbul olunacaq qərarları nəzərə alaraq, biz, əlbəttə, həmin istiqamətdə əməkdaşlığı da inkişaf etdirəcək və birgə işləyəcəyik.

Bizim həll etməli olduğumuz çoxlu problemimiz var. Ərazi bütövlüyü məsələsini xüsusi qeyd etmək istəyirəm. Biz ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyirik və bu problemin həllinə təkan verə biləcək bütün tədbirlərdə iştirak etməyə hazırıq. Biz onları dəstəkləyir və başa düşürük, çünki bizim də belə çox ciddi, sağalmayan yaramız vardır. Mən Dnestryanı bölgə problemini nəzərdə tuturam. Bu məsələdə Azərbaycanla həmişə birlikdə işləyəcək və çalışacağıq ki, bizdəki və Azərbaycandakı bu münaqişələr həll olunsun.

İlham Heydəroviç, yaxın dostlarımdan biri kimi Sizi Moldovada bir daha ürəkdən salamlayıram və düşünürəm ki, Sizin səfəriniz münasibətlərimizdə yeni səhifə açacaq, ölkələrimizin xalqlarının rifahı naminə münasibətlərimizin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə qalxmasına kömək edəcəkdir.

## Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi

Çox sağ olun, hörmətli Vladimir Nikolayeviç!

İlk növbədə, dost və qardaş ölkəyə – Moldovaya dəvətə görə bir daha təşəkkür etmək istərdim. Biz bu səfərə böyük əhəmiyyət verir və ümid edirik ki, bu səfər, danışıqlar və əldə olunacaq razılaşmalar ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

Sizin ötən il Azərbaycana uğurlu səfərinizi və onun gedişində ikitərəfli, regional və beynəlxalq xarakterli çox geniş əhatəli məsələlər barəsində fikir mübadiləsi aparıldığını hamımız xatırlayırıq. Həmin səfər, əslində, bütün mövcud problemlərdə mövqelərimizin nə qədər yaxın olduğunu aydın şəkildə göstərdi. Biz ikitərəfli əməkdaşlığımıza çox böyük əhəmiyyət veririk. Bu yaxınlarda Azərbaycanın Moldovada səfirliyinin açılması haqqında qərar qəbul etməyimiz buna sübut ola bilər. Düşünürəm ki, səfirlik yaxın vaxtlarda işinə başlayacaqdır. Həmçinin demək istəyirəm ki, Azərbaycan parlamentində Moldova – Azərbaycan dostluq qrupu fəaliyyət göstərir. Əminəm ki, deputatlarımız arasında əməkdaşlığa bu qrup da kömək edəcəkdir.

Siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. Regionumuzda baş verən proseslər barədə baxışlarımız uyğun gəlir, Avropaya inteqrasiya məsələlərində bir-birimizi dəstəkləyirik. Azərbaycan Avropa İttifaqının yeni qonşuluq proqramına daxil edilmişdir və Avropa İttifaqı ilə münasibətlərimiz uğurla inkişaf edir. Biz bu istiqamətdə Moldovanın uğurlarına da şadıq. Başqa sözlə, strateji xəttimiz çərçivəsində yollarımız uyğun gəlir. Biz GUÖAM çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət veririk. Şübhə etmirəm ki, GUÖAM-ın sabahkı sammiti regional işlərdə getdikcə daha böyük nüfuz qazanan bu təşkilatın fəaliyyətində yeni mərhələ olacaqdır. Bu təşkilatın yaradıldığı ilk gündən Moldova da, Azərbaycan da burada çox mühüm və fəal rol oynamışlar.

Regional əməkdaşlıq məsələləri də ölkələrimiz üçün çox böyük əhəmiyyət kəsb edir və bu baxımdan bizim aramızda tam qarşılıqlı anlaşma var. Deməliyəm ki, biz iqtisadi əməkdaşlığa böyük diqqət yetiririk. Hökumətlərarası komissiya var və ümidvarıq ki, bu komissiyanın, habelə müxtəlif kommersiya və biznes qurumlarının fəaliyyəti ölkələrimizin daha güclü qarşılıqlı əlaqələrinə kömək edəcəkdir. Vladimir Nikolayeviç dedi ki, Azərbaycan sərmayəçiləri Moldovada həyata keçirilən layihələrə böyük maraq göstərmişlər və bu layihələr beynəlxalq maliyyə təsisatları tərəfindən dəstəklənmişdir və gerçəkləşdirilməyə başlanmışdır.

Düşünürəm ki, bu, həm ikitərəfli əməkdaşlı-

ğın, həm də regional kooperasiyanın çox mühüm cəhətidir, habelə GUÖAM çərçivəsində əməkdaşlığın çox mühüm elementi kimi qiymətləndirilə bilər. Bizim energetika sahəsində, nəqliyyat dəhlizlərində əməkdaşlıqda çox yaxşı perspektivlərimiz var və bu istiqamətdə çox böyük iş görülür. Buna görə də Vladimir Nikolayeviçlə ötən il Bakıda başlanmış dialoqumuzu bu gün davam etdirmək, mövqelərimizin yaxınlaşdığını bir daha vurğulamaq mənim üçün çox xoş idi. Bizim aramızda heç bir fikir ayrılığı yoxdur, biz beynəlxalq aləmdə bir-birimizi dəstəkləyirik və razılığa gəlmişik ki, gələcəkdə də müxtəlif beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik.

Amma təəssüflər olsun ki, bizi ümumi problemlər, ümumi yaralar da birləşdirir. Söhbət Azərbaycanda və Moldovadakı təcavüzkar separatizmdən gedir. Bu, dövlətlərimizin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmışdır. Biz təcavüzkar separatizmdən zərər çəkən ölkələrik. Biz Moldovanın ərazi bütövlüyünün bərpa edilməsi, Dnestryanı bölgə probleminin nizama salınması sahəsində fəaliyyətini tamamilə dəstəkləyirik. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın fəaliyyətini və mövqeyini aydın şəkildə dəstəklədiklərinə görə Moldova Prezidentinə və hökumətinə də çox minnətdarıq. Bu münaqişələrdən insanlar zərər çəkmişlər, ölkələrimiz zərər çəkmişlər. Münaqişələrin nəticələrinə nəzər salsaq görərik ki, separatçılar heç nə qazanmayıblar. Haqq bizim tərəfimizdədir, beynəlxalq normalar bizim tərəfimizdədir, ədalət bizim tərəfimizdədir. Düşünürəm ki, məsələnin mahiyyətinin başa düşülməsinə, habelə onun tənzimlənməsi yollarına dünya ictimaiyyətinin mümkün qədər daha geniş dairəsini cəlb edərək, birgə səylərlə biz ölkələrimizin ərazi bütövlüyünün bərpasına nail olacağıq.

Mən səfərə dəvətə görə, səmimi qəbula görə şəxsən Prezident Vladimir Nikolayeviç Voroninə bir daha dərin təşəkkür etmək istəyirəm. Aramızda, həqiqətən, çox mehriban dostluq münasibətləri, səmimi münasibətlər yaranmışdır və biz bu münasibətləri çox əziz tuturuq. Ümidvaram ki, sizin gözəl ölkənizə səfərim də ikitərəfli münasibətlərin inkişafında növbəti mərhələ olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra Azərbaycan və Moldova prezidentləri jurnalistlərin suallarına cavab verdilər.

**Sual:** Mənim sualım cənab Əliyevədir. Moldova Azərbaycanın sərmayə qoyduğu ilk ölkədir. Əvvəla, məni maraqlandıran odur ki, bu, sadəcə olaraq, təsadüfdür, yoxsa strateji addımdır? İkincisi, terminaldan başqa, konkret olaraq, daha hansı biznes layihələri həyata keçiriləcəkdir?

**İlham Əliyev:** Bu gün biz həmin məsələni müzakirə etdik və belə bir ümumi rəydə olduğumuzu bildirdik ki, siyasi münasibətlər yüksək səviyyədə olmasa, regional əməkdaşlıq məsələlərində ümumi mövqelər olmasa, ümumi strateji xətt olmasa, əlbəttə, belə irimiqyaslı layihələri həyata keçirmək mümkün olmazdı. Yəni ikitərəfli əlaqələrimiz, regionda baş verən proseslərə vahid mövqedən yanaşmalarımız Azərbaycan sərmayəçilərinin Moldova iqtisadiyyatına arxayınca vəsait qoymaları üçün çox yaxşı baza yaratmışdır. Bu layihənin, əlbəttə, kommersiya dəyəri var, çünki belə biznes layihələrində ancaq strateji, siyasi məsələləri əsas tutmaq çətindir. Sözsüz ki, bu, çox böyük strateji əhəmiyyətə malikdir. Şübhə etmirəm ki, bu layihənin həyata keçirilməsi və bütün lazımi infrastrukturun yaradılması regionda tamam yeni şərait yaradacaq, ölkələrimiz arasında, regionun ölkələri arasında əməkdaşlıq üçün yeni imkanlar açacaq, əlbəttə, iqtisadiyyatın digər sahələrində də əlaqələrimizin qaydaya düşməsinə təkan verəcəkdir.

Bu gün mən dedim ki, biz tezliklə Moldovada səfirlik açacağıq. Bu da bizi birləşdirən çox mühüm cəhətdir. Aviasiya xidmətlərinin rəhbərləri arasında saziş imzalanması da əlaqələr və qarşılıqlı gediş-gəliş üçün yaxşı imkanlar yarada bilər. Yəni, bütün bunlar ümumi strateji münasibətlərimiz çərçivəsində görülən işlərdir.

**Sual:** Mənim sualım hər iki prezidentədir. Ölkələrimizin Avropa qurumlarına inteqrasiya sahəsində əməkdaşlığının perspektivləri necədir?

**Vladimir Voronin:** Fevralın 22-də Moldovada biz Avropa İttifaqı ilə iş planı imzaladıq. Bu iş planı onun həyata keçirilməsinə aidiyyəti olan hər bir nazirlik, idarə üçün konkret tapşırıqlarda öz əksini tapmışdır. Azərbaycan Prezidenti cənab Əliyevlə strateji cəhətdən belə bir məsələdə razılığa gəldik ki, Avropaya inteqrasiyanın bu strateji vektoru bizim üçün müəyyənedicidir. Biz bu barədə GUÖAM-ın sammitində də danışacağıq. Biz belə bir məsələdə də ilkin razılığa gəldik ki, bu və ya digər problemlər, müxtəlif layihələrin həyata keçirilməsi, Avrointeqrasiya yolunda uğurlar və uğursuzluqlar barədə daim informasiya mübadiləsi aparacağıq. Biz bu

məsələdə əməkdaşlıq edəcək, nail olduğumuz bütün müsbət təcrübəni bölüşəcəyik. Düşünürəm ki, bu xətt və birgə işimiz Avropa İttifaqının ölkələri tərəfindən də alqışlanacaq və dəstəklənəcəkdir. Həm də, bu cür dəstək qarşılıqlı olacaqdır. O, Avropaya inteqrasiya yolunu daha az səhvlərlə, yaxud böyük səhvlər olmadan keçməkdə, yəqin ki, bizə kömək edəcəkdir.

**İlham Əliyev:** Avropaya inteqrasiya yolu ilə birlikdə getmək təklikdə getməkdən daha rahat və asan olacaqdır. Bu istiqamətdə baxışlarımız və strateji xəttimiz uyğun gəldiyinə görə, Moldova kimi, Azərbaycan da öz gələcək inkişafını Avropa, Avratlantik qurumlarına inteqrasiyada görür. Əlbəttə ki, biz daim təcrübə mübadiləsi və məsləhətləşmələr aparacaq, Avropaya inteqrasiya üzrə birgə layihələr həyata keçirəcəyik. Zənnimcə, belə, bu yolu tez keçmək bizə daha rahat olacaqdır. Əlbəttə ki, ölkələrimizin Avropaya inteqrasiyasına mane olan məsələlərin öz həllini tapması da vacibdir. Hamıya aydındır ki, ərazi bütövlüyü bərpa edilmədən, münaqişələr nizama salınmadan bu proseslər istədiyimiz kimi və ümidvaram ki, Avropa qurumlarının da istədiyi kimi tez getməyəcəkdir. Odur ki, Moldovada Dnestryanı bölgə münaqişəsinin və Azərbaycanda Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli təkcə ölkələrimizə aid olan məsələlər deyildir. Bu məsələlər həm də regional təhlükəsizlik üçün problemdir, Avropaya tam inteqrasiya yolunda problemdir. Ümidvaram ki, Avropaya inteqrasiya prosesi sürətləndikcə bu münaqişələrin beynəlxalq hüquq normaları və prinsipləri əsasında ədalətli həlli üçün daha əlverişli şərait yaranacaqdır.

**“AzərTAC” 23.04.05**

## 22/04/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin GUÖAM ölkələri dövlət başçılarının zirvə görüşündə iştirakı

### *Кишиневская Декларация глав государств ГУУАМ «Во имя демократии, стабильности и развития»*

Главы государств Азербайджанской Республики, Грузии, Республики Молдова и Украины,

Руководствуясь целями и принципами, закрепленными в Уставе Организации Объединенных Наций, основополагающих документах Организации по безопасности и сотрудничеству в Европе и ГУУАМ, в частности Ялтинской Хартии,

Потверждая приверженность государств ГУУАМ европейским нормам и ценностям и их стремление продолжать движение по пути европейской интеграции,

Отмечая возрастающую роль в общеевропейских процессах регионального сотрудничества на основе взаимного уважения суверенных прав государств, и подчеркивая, что такое сотрудничество способствует развитию демократии в целях укрепления безопасности и стабильности, экономического развития, культурного и социального процветания,

Выражая стремление утверждать демократические ценности во всех сферах деятельности государства и в жизни общества, неукоснительно соблюдать права человека, укреплять дух доверия и толерантности, безоговорочного приоритета верховенства закона как во внутренних, так и в международных делах,

Выражая глубокую озабоченность продолжающимися кризисами и возрастающими рисками безопасности, особенно угрозами международного терроризма, агрессивного сепаратизма и экстремизма и связанными с ними опасными явлениями,

Подчеркивая, что неурегулированные конфликты в ряде государств ГУУАМ подрывают суверенитет, территориальную целостность и независимость этих государств ГУУАМ, осложняют полномасштабное осуществление демократических реформ и экономическое развитие региона, негативно влияют на европейские интеграционные процессы и представляют собой вызов международному сообществу,

Приветствуя расширение Европейского Союза и отмечая взаимную готовность к сближению и развитию сотрудничества на основе европейских норм и стандартов,

Отмечая открытость ГУУАМ для других стран и объединений, разделяющих те же цели и принципы,

1. Заявляют о приверженности принципам демократии, верховенства закона и уважения основных прав и свобод человека, неуклонном стремлении укреплять демократическую стабильность и развивать экономическое сотрудничество государств ГУУАМ в интересах своих народов.

2. Подтверждают необходимость дальней-

шего укрепления и расширения сотрудничества государств в противодействии международному терроризму и экстремизму и связанным с ними таким негативным явлениям, как незаконный оборот наркотиков, транснациональная организованная преступность, торговля людьми, нелегальная миграция, распространение оружия массового уничтожения, незаконная торговля оружием, отмывание денег и коррупция, во исполнение положений Декларации о совместных усилиях по обеспечению стабильности и безопасности в регионе и Соглашения о сотрудничестве между Правительствами государств-участников ГУУАМ в сфере борьбы с терроризмом, организованной преступностью и иными опасными видами преступлений.

3. Выражают твердую решимость вносить совместный вклад в поддержание мира и стабильности, высказывают намерение наладить военно-политическое и военное сотрудничество, в том числе в сфере миротворческих операций.

4. Отмечают бесперспективность и пагубность сепаратизма и дезинтеграции, несовместимость применения силы, этнических чисток и территориальных захватов с европейским опытом и ценностями, которые, в частности, включают полиэтничность и культурное многообразие. Подчеркивают важность интенсификации совместных усилий государств ГУУАМ и международного сообщества в урегулировании приднестровской проблемы и конфликтов в Азербайджане и Грузии на основе норм и принципов международного права путем реинтеграции неконтролируемых территорий в государства, частью которых они являются, и обеспечении совместного мирного проживания различных этнических групп в пределах международно-признанных границ государств.

5. Подчеркивают важность решения Стамбульского Саммита ОБСЕ от 1999 г. и призывают все государства ОБСЕ приложить максимум усилий для исполнения Россией принятых обязательств о полном выводе российских войск и вооружений из Республики Молдова и Грузии.

6. Выражают поддержку мирным инициативам и процессам направленных на решение существующих конфликтов. В этом контексте приветствуют недавние предложения, мирный план, представленный Президентом Грузии для Южно-Осетинской автономии, продолжающийся «Пражский процесс» переговоров в рамках Минской группы ОБСЕ, а также появление во время Саммита ГУУАМ предложений Президента Украины и Президента Румынии по решению приднестровской проблемы.

7. Подтверждают курс на углубление европейской интеграции государств ГУУАМ, установление партнерских отношений с Европейским Союзом и НАТО с целью создания общего пространства безопасности, экономического и транспортного сотрудничества, и заявляют о намерении тесно взаимодействовать в этих областях. Подтверждают намерение продолжать взаимовыгодное сотрудничество с США и развивать наиболее тесные отношения с организациями и государствами, разделяющими эти цели и принципы ГУУАМ.

8. Выступают за скорейшую реализацию Соглашения о создании зоны свободной торговли, использование транзитного потенциала, в том числе для надежных поставок энергоносителей, эффективного и безопасного функционирования транспортных коридоров, что будет способствовать усилению европейской интеграции и обеспечению международной безопасности, развитию торгово-экономических отношений между Востоком и Западом, совершенствованию транспортно-коммуникационной инфраструктуры в стратегически важном регионе ГУУАМ.

9. Подчеркивают необходимость энергетического сотрудничества в рамках ГУУАМ, в частности, активизации усилий, направленных на реализацию совместных программ и проектов, на основе их коммерческой рентабельности, по транспортировке энергоресурсов Каспийского региона на европейский энергетический рынок с использованием территорий государств-участников Объединения.

10. Выступают за усиление взаимодействия в гуманитарной сфере, в частности, сотрудничества в области туризма, здравоохранения, образования, культуры и спорта.

11. Для достижения целей Ялтинской Хартии ГУУАМ и настоящей Декларации, принимая во внимание важность экономического и социального развития, формирования пространства демократической стабильности и безопасности в регионе ГУУАМ, а также для придания нового импульса сотрудничеству, заявляют о намерении создать на основе ГУУАМ региональную организацию, имеющую целью демократию и развитие.

12. Президенты поручили Совету Министров Иностранных Дел Объединения проработать соответствующие вопросы и внести согласованные предложения.

**г. Кишинэу, 22 апреля 2005 года**

## *GUÖAM ölkələri dövlət başçılarının mətbuat konfransı*

Aprelin 22-də, GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü başa çatdıqdan sonra prezidentlər İlham Əliyev, Vladimir Voronin, Viktor Yuşşenko, Mixail Saakaşvili, habelə Litva və Rumıniya prezidentləri Valdas Adamkus və Trayan Besesku jurnalistlər üçün bəyanatlarla çıxış etmişlər.

### Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi




Hörmətli xanımlar və cənablar!

Qeyd etmək istəyirəm ki, GUÖAM ölkələri dövlət başçılarının bu gün keçirilən zirvə görüşü çox uğurlu oldu. Məsələlərin çox konstruktiv müzakirəsi getdi və Kişineu Bəyannaməsi qəbul edildi. Zənnimcə, bu, təşkilatımızın regionda mövqelərinin daha da möhkəmlənməsi yolunda çox mühüm amildir. Əminəm ki, bu zirvə görüşündən sonra regional problemlər, demokratik proseslərin inkişafı, təhlükəsizliyin möhkəmlənməsi problemləri kontekstində GUÖAM-ın rolu və yeri artacaqdır. Təşkilat çox güclü, ciddi qüvvəyə çevrilir. O, Xəzər dənizi – Qara dəniz regionunda baş verən bütün proseslərdə fəal iştirak edəcəkdir.

Şübhə yoxdur ki, təşkilatın inkişafının bu yeni mərhələsi ölkələrimizdə baş verən proseslər üçün də çox mühüm olacaqdır. Bizi çox şey birləşdirir. Avropaya inteqrasiya məsələlərinə vahid yanaşmalar, terrorizmlə mübarizəyə, regional təhlükəsizlik və Avropa təhlükəsizliyi sisteminin möhkəmləndirilməsinə vahid yanaşmalar, təcavüzkar separatizmlə mübarizəyə vahid yanaşmalar – bütün bunlar Kişineu Bəyannaməsində öz əksini tapmışdır. Bəyannamədə əməkdaşlığımızın ruhu ifadə edilmiş, habelə meyar və prinsiplər dəqiq göstərilmişdir. Bunların əsasında əməkdaşlığı inkişaf etdirəcək, ölkələrimizdə vəziyyəti təkmilləşdirəcəyik.

Ölkələrimizin ərazilərindəki münaqişələrin həlli prinsiplərinə vahid yanaşmanın ifadə olunmasını da çox mühüm məqam hesab edirəm. Bu, çox vacibdir, çünki biz Moldova, Gürcüstan və Azərbaycandakı münaqişələrin beynəlxalq hüquq prinsipləri əsasında dincliklə həllinə nail olmaq istəyirik və bu zaman vahid, eyniləşdirilmiş yanaşma olmalıdır. Çox şadam ki, buna müvəffəq ola bildik. Əlbəttə, çalışacağıq ki, əməkdaşlığımız region üçün, ölkələrimiz üçün bütün təhlükələrin aradan qaldırılmasını mümkün etsin ki, Avropa və Avratlantik qurumlarına normal inteqrasiya edə bilək.

Zirvə görüşündə dost ölkələrin - Rumıniya və Litvanın prezidentlərinin iştirakını da çox mühüm və əlamətdar hadisə hesab edirəm. Bu, həm təşkilatımıza olan hörmətin, həm də regional əməkdaşlıq məsələlərinə münasibətin ifadəsidir. Təşkilatımız əməkdaşlıq üçün açıqdır. Hesab edirik ki, regional proseslərin gələcək inkişafı GUÖAM-ı regional miqyasda ciddi qüvvəyə çevirəcəkdir.

Fürsətdən bir daha istifadə edərək, zirvə görüşünün gözəl təşkilinə və bizə göstərilən qonaqpərvərliyə görə ev sahiblərinə - Moldova tərəfinə, şəxsən Prezident Vladimir Nikolayeviç Voroninə təşəkkür etmək istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**"AzərTAC" 23.04.05**

**Səfər zamanı keçirilmiş görüşlər:**

Rumıniya Respublikasının Prezidenti Trayan Besesku ilə görüş
Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüş
Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüş
Litva Respublikasının Prezidenti Valdas Adamkus ilə görüş

**Səfər zamanı imzalanmış sənədlər:**

GUÖAM-ın üzvü olan ölkələrin səhiyyə nazirlikləri arasında əməkdaşlıq haqqında saziş
GUÖAM çərçivəsində sərgi-yarmarka fəaliyyəti haqqında saziş

**09/05/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Qələbənin 60 illiyinə həsr olunmuş tədbirlərdə iştirakı**

**Səfər zamanı keçirilmiş görüşlər:**
Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüş
Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüş
Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevski ilə görüş
Bolqarıstan Respublikasının Prezidenti Georgi Pirvanov ilə görüş
Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyıb Ərdoğan ilə görüş
İtaliya Respublikasının Baş naziri Silvio Berluskoni ilə görüş
Belçika Krallığı parlamentinin sədri Herman de Kroo ilə görüş

**15-17/05/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Şurasının üzvü olan ölkələrin Varşavada keçirilən dövlət və hökumət başçılarının növbəti zirvə görüşündə iştirakı**

**Səfər zamanı keçirilmiş görüşlər:**
Ermənistan Respublikasının Prezidenti Robert Koçaryan ilə görüş
Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüş
Litva Respublikasının Prezidenti Valdas Adamkus ilə görüş
Avropa İttifaqının xarici əlaqələr və yeni qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdner ilə görüş
Avropa Şurası Parlament Assambleyasının sədri Rene Van der Linden ilə görüş
Albaniya Respublikasının Prezidenti Alfred Moisiu ilə görüş
Norveç Krallığının Baş naziri Kyel Maqne Bundevik ilə görüş
Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonen ilə görüş
Avropa Şurasının Baş katibi Terri Devis ilə görüş
Çexiya Respublikasının Prezidenti Vatslav Klaus ilə görüş

**10-12/06/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri**

**Səfər zamanı keçirilmiş görüşlər:**
Xorvatiya Respublikasının Prezidenti Stipe Mesiç ilə təkbətək görüş
Xorvatiya Respublikasının Prezidenti Stipe Mesiç ilə geniş tərkibdə görüş
Xorvatiya Respublikası parlamentinin – Saborunun sədri Vladimir Şeks ilə görüş
Xorvatiya Respublikası hökumətinin sədri İvo Sanader ilə görüş

**Səfər zamanı imzalanmış sənədlər:**
Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında mədəni əməkdaşlıq haqqında saziş
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Xorvatiya Respublikasının Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyi arasında əməkdaşlıq haqqında protokol
Azərbaycan Respublikasının və Xorvatiya Respublikasının aviasiya hakimiyyəti orqanları arasında əməkdaşlıq memorandumu

## *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikası Prezidenti Stipe Mesiçin birgə mətbuat konfransı*

İyunun 10-da Zaqrebdə, Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri çərçivəsində sənədlərin imzalanmasından sonra Prezident İlham Əliyevin və Xorvatiya Prezidenti Stipe Mesiçin birgə mətbuat konfransı olmuşdur. Əvvəlcə prezidentlər nitqlə çıxış etdilər.

### Xorvatiya Respublikası Prezidenti Stipe Mesiçin nitqi

Hörmətli cənab Prezident!
Hörmətli mətbuat nümayəndələri!
Azərbaycan Respublikasının Prezidenti cə-

nab İlham Əliyev Xorvatiya Respublikasına ilk rəsmi səfərə gəlmişdir. Biz onunla və nümayəndə heyəti ilə həm Azərbaycan, həm də Xorvatiya üçün vacib sayılan məsələlər ətrafında fikir mübadiləsi apardıq.

Biz bütün sahələrdə, xüsusən də iqtisadi sahədə qarşılıqlı əməkdaşlığı daha da intensivləşdirmək və möhkəmləndirmək arzumuzu ifadə etdik. Eyni zamanda bildirdik ki, ikitərəfli əməkdaşlığımızın genişləndirilməsi və gücləndirilməsi məqsədi ilə hüquqi baza yaradılmalıdır və bu gün həmin istiqamətdə ilkin addımlar atılmışdır. Tərəflər həm ölkələrimiz arasında mövcud olan münasibətləri, həm də regionlarımızdakı vəziyyəti müzakirə etmişdir. Biz terrorizmin hazırda bütün dünya ictimaiyyəti üçün təhlükə doğuran ən böyük bəlalardan biri olmasını qeyd etdik. Terrorizm probleminin aradan qaldırılması məqsədi ilə ayrı-ayrı terrorçular və ya terrorçu qruplara qarşı mübarizə aparmaq, onların sadəcə, maliyyə mənbələrini kəsmək kifayət deyildir. Eyni zamanda, siyasi məsələləri də həll etmək lazımdır. Xüsusən də qaynar nöqtələrdə olan problemlərin, yoxsulluq probleminin həllinə çalışmaq lazımdır. Tamamilə aydındır ki, həll olunmamış siyasi məsələlər terrorçu fəaliyyətə bəraət qazandırmır. Əksinə, siyasi problemlərin aradan qaldırılması terrorizmə son qoymağa imkan yaradar.

Mənim həmkarım, Azərbaycan Respublikasının Prezidenti bildirdi ki, ölkəsinin böyük potensialı var və bu potensial gələcəkdə ikitərəfli münasibətlərin inkişafı məqsədi ilə istifadə olunmalıdır. Xəzər dənizindən hasil olunacaq Azərbaycan neftinin böyük bir hissəsi bu yaxınlarda istismara verilmiş yeni neft boru kəməri vasitəsilə dünya bazarlarına çatdırılacaqdır. Beləliklə, bu layihə Azərbaycanın büdcəsinə milyardlarla dollar gətirəcək və Azərbaycan hökuməti ən mühüm məsələləri həll etməyə qadir olacaqdır. Bu fürsət həmçinin bizim şirkətlər üçün Azərbaycanda fəaliyyət göstərmək imkanları yaradacaqdır. Xorvatiya isə, öz növbəsində, Azərbaycanda istehsal olunan məhsullar üçün bazarlarını açıq elan edəcəkdir. Biz eyni zamanda, turizm sahəsində əməkdaşlıq imkanlarını və vətəndaşlarımızın bir-birini daha yaxından tanıması məsələsini müzakirə etdik.

Azərbaycan Respublikasının Prezidenti məni Xorvatiyanın iş adamları ilə birgə Azərbaycana rəsmi səfərə dəvət etdi. Mən bu dəvəti böyük məmnuniyyətlə qəbul etdim.

Sağ olun.

## Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, ölkənizə məni dəvət etdiyinə görə Xorvatiya Prezidentinə minnətdarlığımı bildirmək istəyirəm. Burada olmağımdan çox şadam. Biz bu səfəri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafı istiqamətində atılmış çox vacib bir addım kimi qəbul edirik.

Cənab Prezidentin dediyi kimi, biz ikitərəfli münasibətlərə, regiondakı, dünyadakı vəziyyətə aid məsələləri müzakirə etdik. Sizə deyə bilərəm ki, biz müzakirə etdiyimiz bütün məsələlərdə konsensusa nail olduq və onların həlli ilə bağlı ümumi mövqedə olduğumuzu bir daha hiss etdik.

Ölkələrimiz arasında oxşarlıqlar çoxdur. Hər iki ölkə – Xorvatiya və Azərbaycan uzun illər ərzində müstəqillikdən məhrum olmuşlar və digər ölkələrin bir hissəsi idilər. Ölkələrimiz digər ölkələrin hərbi təcavüzünə məruz qalmışlar. Əgər biz bu gün sülhün Balkanlarda bərpa olunduğunu görürüksə, Cənubi Qafqaz regionunda bu, hələ ki, belə deyildir. Digər sözlə desək, biz ölkələrimizin üzləşdiyi problemləri yaxşı anlayırıq və problemlərimizi və Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi ilə bağlı mövqeyimizi anladığına görə mən cənab Prezidentə çox minnətdaram. Mən ümid edirəm ki, Balkanlarda olduğu kimi, bizim regionda da ədalət bərpa olunacaq və bir milyon Azərbaycanlı qaçqın öz yurd-yuvasına qayıdacaqdır.

Biz həm də iqtisadi əməkdaşlığa dair məsələləri müzakirə etdik və deyə bilərəm ki, nümayəndə heyətimizdə iş adamları da var. Onlar xorvatiyalı həmkarları ilə birgə biznes layihələrinin həyata keçirilməsi ilə bağlı lazımi danışıqlar apara bilərlər. Bizim enerji sektorunda, turizm, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrində əməkdaşlıq etmək üçün çox yaxşı potensialımız var. Əminəm ki, ölkələrimiz arasında bu gün qurulan tərəfdaşlıq xalqlarımızın rifahı naminə davam edəcək və Avropa ailəsinə inteqrasiya olunmaqda bizə yardımçı olacaqdır.

Cənab Prezident bildirdiyi kimi, mən onu və onun nümayəndə heyətini Azərbaycana səfərə dəvət etdim və ümidvaram ki, biz bu səfərə qədər siyasi və iqtisadi sahədə istədiyimiz nailiyyətləri əldə edəcəyik.

Çox sağ olun!

Sonra Azərbaycan və Xorvatiya prezidentləri jurnalistlərin suallarına cavab verdilər.

**Sual:** Mənim birinci sualım Xorvatiya Prezidentinədir. Bir neçə il bundan əvvəl Sizin ölkə hərbi yolla və güclü beynəlxalq dəstəklə ərazi bütövlüyünü bərpa edə bildi. Siz buna necə nail oldunuz? İkinci sualım hər iki prezidentədir. Səfirlikləri nə vaxt açmağı planlaşdırırsınız?

**Stripe Mesiç:** Bildiyiniz kimi, keçmiş Yuqoslaviyada baş vermiş müharibənin əsas səbəbi torpaq iddiaları ilə bağlı idi. Əsas problem ondan ibarət idi ki, Yuqoslaviyanın ən böyük respublikası sayılan Serbiya öz ərazilərini Xorvatiya, Bosniya və Herseqovinanın hesabına genişləndirməyi planlaşdırırdı. Müharibənin başlanmasına bəhanə isə Xorvatiyada, Bosniya və Herseqovinada yaşayan serblərin hüquqlarının guya Serbiya tərəfindən qorunması olmuşdur. Aydın məsələdir ki, bu, reallıqdan tamamilə uzaq olan bir mövqe idi. Beləliklə, Yuqoslaviyanın parçalanması ilə Serbiya öz sərhədlərini genişləndirmək istəyinə düşdü. Burada baş vermiş bütün müharibələr artıq qurtarıbdır. Lakin düzünü desək, Xorvatiyada da müəyyən dairələr hesab edirdilər ki, Serbiya Bosniya və Herseqovinanın parçalanmasına nail olacaq və beləliklə, Xorvatiyanın milli sərhədləri genişlənəcəkdir.

Bütün bunlara baxmayaraq, hərbi əməliyyatlara son qoyuldu və respublikalar arasındakı sərhədlər zərrə qədər də dəyişmədi. Siz düzgün qeyd etdiniz ki, Xorvatiya ərazisinin bir hissəsi işğal olunmuşdu və onun əsas hissəsi hərbi yolla azad edilmişdir. Qalan ərazilər isə dinc reinteqrasiya yolu ilə qaytarıldı. Biz etnik azlıqların hüquqlarını qoruyan qanun qəbul etdik. Bu qanunun müddəaları ən yüksək Avropa standartlarına cavab verir. Qaçqınların qayıtması prosesi artıq başlanıbdır. Biz həmin prosesi daha da möhkəmləndirmək və intensivləşdirmək istəyirik, çünki bu, bizim dövlət və milli marağımıza uyğundur. Etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımızın Xorvatiyaya qayıtmasını istəyirik. Xorvatiya dövləti onların yaşayış yerlərini bərpa etməlidir. Hazırda biz vaxtilə hərbi əməliyyatlar aparılmış zonalarda iqtisadi həyatın canlandırılması üçün böyük səylər göstəririk. Sülh yalnız o vaxt bərqərar ola bilər ki, hökumət təsisatları lazımınca işləsin. Biz indi Xorvatiyada məhz bu işləri görürük. Hamı üçün bərabər hüquqlar təmin olunur. Biz islahatları həyata keçiririk. Polis və hərbi qüvvələrin islahatına nail olmuşuq. İndi apardığımız islahatlar hökumət idarəçiliyi və məhkəmə sisteminə aiddir. Ən vacib meyar isə odur ki, hamı qanun qarşısında bərabərdir. Yalnız qanunun aliliyi bütün vətəndaşların bərabər səviyyədə olmasını təmin edir. Eyni zamanda, çox vacib olan başqa amil də var. Konkret olaraq cinayət törədən insanlar qanun qarşısında cavab verməlidirlər. Bu yolla insanlar arasında ədavətə son qoyulmasına nail olmaq olar. Çünki konkret insanlar tərəfindən törədilmiş cinayətlərə görə xalqlar cavab verməməlidir.

O ki qaldı, Sizin ikinci sualınıza, Prezident Əliyevlə bu məsələni müzakirə etdik və belə razılığa gəldik ki, əvvəlcə biz ölkələrimizdə fəxri konsulluqlar açmalıyıq. Sonrakı mərhələdə isə, qarşılıqlı əməkdaşlıq sahəsində irəliləyiş əldə edilməklə, fəxri konsulluq səviyyəsində olan nümayəndəliklərimiz səfirlik səviyyəsinə qaldırılacaqdır. Prezident mənə gələcəkdə neftdən alınacaq gəlirlərin və onun daşınmasından əldə olunacaq vəsaitlərin səviyyəsi haqqında məlumat verdikdən sonra bir daha gördüm ki, Azərbaycanın bu sahədəki çəkisi çox artacaqdır. Beləliklə, qarşılıqlı əməkdaşlığımızın daha da genişləndirilməsi üçün əlavə imkanlar açılacaqdır. Ölkəniz yeni Norveç olacaqdır.

**İlham Əliyev:** Mən də səfirlik məsələsinə toxunmaq istərdim. Biz bu məsələni cənab Prezidentlə müzakirə etdik. Mənim regiona səfərimin ilk növbədə məhz Xorvatiyaya edilməsi ikitərəfli münasibətlərimizə verdiyimiz böyük əhəmiyyəti bir daha sübut edir. Əlbəttə ki, biz bu yaxınlarda daimi nümayəndəliklərin açılmasını nəzərdən keçirəcəyik. Mən eyni zamanda, cənab Prezidentin verdiyi cavabla bağlı öz mülahizələrimi bildirmək istərdim. Bir daha demək istəyirəm ki, ölkələrimiz arasında çoxlu oxşarlıqlar var. Azərbaycan da xarici təcavüzdən əziyyət çəkmiş, Ermənistanın təcavüzünün qurbanı olmuşdur. Bunun üçün də bəhanə Azərbaycanda yaşayan ermənilərin "qorunması" məsələsi olmuşdur. Lakin Dağlıq Qarabağdakı erməniləri qorumağa ehtiyac yox idi, çünki ermənilər bizim ölkədə yüz əlli ildən çox yaşamışdılar və heç vaxt problemləri olmamışdır. Əsil səbəb isə Azərbaycanın ərazisini işğal etmək olmuşdur və ermənilər xarici yardım hesabına buna nail ola bildilər. Biz Dağlıq Qarabağda yaşayan ermənilər üçün dünyada mövcud olan ən yüksək muxtariyyət statusunun və təhlükəsizlik zəmanətinin verilməsinə hazırıq. Bu, bizim edə biləcəyimiz maksimum güzəştdir. Biz əminik ki, burada, Xorvatiyada

olduğu kimi, Azərbaycanda da ədalət bərpa ediləcək və torpaqlarımız işğaldan azad olunacaqdır.

**Sual:** Azərbaycanın böyük gələcəyini nəzərə alaraq, Siz Xorvatiyanın təcrübəsini Azərbaycanın Avropaya inteqrasiya yolunda nümunə kimi qəbul edirsinizmi?

**İlham Əliyev:** Biz münasibətlərimizin inkişafını bir neçə istiqamətdə görürük. İlk növbədə, ikitərəfli münasibətlərimizi nəzərdə tuturuq və onların hazırda sürətlə möhkəmlənməsindən məmnunuq. Biz eyni zamanda, bu gün cənab Prezidentlə ölkənizin Avropaya inteqrasiya prosesini çox böyük maraqla və diqqətlə izlədiyimizi müzakirə etdik. Əldə etdiyiniz uğurlar bizi sevindirir. Biz bu təcrübəni nəzərdən keçirdik və ümid edirik ki, Xorvatiya Avropa İttifaqının daimi üzvü olduqdan sonra sizin ölkə Azərbaycanın Avropaya daha da yaxınlaşmasına yardım edəcəkdir.

**"AzərTAC" 13.06.05**

## 13/06/05 - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sankt-Peterburqun Tavriya sarayında 9-cu Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirakı

**Səfər zamanı keçirilmiş görüşlər:**

Sankt-Peterburqun Tavriya sarayında 9-cu Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirak
Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüş
Sankt-Peterburqdakı Azərbaycan diasporunun nümayəndələri ilə görüş
Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti, 9-cu Peterburq iqtisadi forumunun təşkilat komitəsinin həmsədri Yan Lemyer ilə görüş
Çexiya Respublikası parlamenti Senatının sədri Prşemısel Sobotka ilə görüş
Sankt-Peterburqun Mixaylov maneyində açılan "Azərbaycan Respublikasının nailiyyətləri və əməkdaşlığa dair layihələr" sərgisində iştirak

## 16/06/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kiyevdə keçirilən "Fövqəladə Ukrayna dəyirmi masası" adlı beynəlxalq investisiya forumunda iştirakı

**Səfər zamanı keçirilmiş görüşlər:**

Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüş
Moldova Respublikasının Prezidenti Vladimir Voronin ilə görüş
Gürcüstan Respublikasının Prezidenti Mixail Saakaşvili ilə görüş
Estoniya Respublikasının Prezidenti Arnold Rüüytel ilə görüş

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÖRÜŞLƏRİ

| | |
|---|---|
| **1 aprel -** | ABŞ Silahlı Qüvvələri Avropa Komandanlığı rəisinin müavini Çarlz Uoldun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **2 aprel -** | ATƏT-in hazırkı sədri, Sloveniya Respublikasının xarici işlər naziri Dimitri Rupel ilə təkbətək görüş |
| **5 aprel -** | Müstəqil Dövlətlər Birliyi Təşkilatının İcraçı katibi Vladimir Ruşaylo ilə görüş |
| **7 aprel -** | Rusiya Federasiyasının keçmiş Prezidenti Boris Yeltsin ilə görüş |
| **7 aprel -** | Belçika Krallığı parlamenti nümayəndələr palatasının sədri Herman de Kroonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **7 aprel -** | Yunanıstan Respublikasının turizm naziri Dimitris Avramopulosun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **8 aprel -** | "Sərhədsiz reportyorlar" Beynəlxalq Təşkilatının Baş katibi Robert Menard ilə görüş |
| **11 aprel -** | Fransa Senatının Fransa-Azərbaycan dostluq qrupunun sədri, senator Ambruaz Düponun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **11 aprel -** | ATƏT-in kütləvi informasiya vasitələrinin azadlığı üzrə nümayəndəsi Miklos Haraştinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **11 aprel -** | Rusiya Veteranlar Assosiasiyasının nümayəndə heyətini, Rusiya jurnalistləri ilə görüş |

| | |
|---|---|
| **14 aprel -** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord ilə görüş |
| **19 aprel -** | Mariya İşler Biguinin başçılığı ilə Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin nümayəndə heyəti ilə görüş |
| **20 aprel -** | Rusiya Federasiyasının P.İ.Çaykovski adına Dövlət Akademik Böyük Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, SSRİ xalq artisti Vladimir Fedoseyev ilə görüş |
| **20 aprel -** | Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Andreas Qross və Andres Herkel ilə görüş |
| **25 aprel -** | ABŞ Dövlət Departamentinin Avrasiya üzrə böyük məsləhətçisi Stiven Mənn ilə görüş |
| **27 aprel -** | Türkiyənin Qars vilayətinin valisi Nevzat Turxan, İğdır valisi Xəlil Ulusoy, Ərzurum valisi Cəlaləddin Güvənc, Ağrı valisi Yusuf Yavaşcan və Ərdahan valisinin vəkili Əhməd Ərdoğdun ilə görüş |
| **28 aprel -** | Beynəlxalq Xilasetmə Komitəsinin prezidenti Corc Rupun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **29 aprel -** | ABŞ-ın Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatındakı səfiri Stefan Minikes ilə görüş |
| **29 aprel -** | BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Baş direktoru Yak Diufun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **2 may -** | Türkiyə Respublikasının İsgəndərun, Payas, Ceyhan, Sarımazı, Mərsin-Toroslar, Lapseki şəhərlərinin bələdiyyə başçıları ilə görüş |
| **3 may -** | Latviya Seyminin Latviya-Azərbaycan parlamentlərarası əməkdaşlıq qrupunun sədri Oleqs Denisovsun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **10 may -** | BMT-nin Uşaq Fondunun (UNİCEF), İnkişaf Proqramının (UNDP), Əhali fondunun (UNFPA) və Ümumdünya Ərzaq Proqramının (WFP) İcraiyyə Şuralarının üzvlərindən ibarət nümayəndə heyəti ilə görüş |
| **11 may -** | Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **18 may -** | Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Vitali Kramarenko ilə görüş |
| **18 may -** | Ukraynanın xarici işlər naziri Boris Tarasyuk ilə görüş |
| **18 may -** | Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, ordu generalı İlker Başbuğ ilə görüş |
| **20 may -** | II Ümumdünya gömrük sərgisi və forumunda iştirak edən nümayəndə heyətləri ilə görüş |
| **23 may -** | Rabitə Sahəsində Regional Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən 33-cü iclasının iştirakçıları ilə görüş |
| **24 may -** | Almaniya Federativ Respublikası Bundestaqının və Federal Kəşfiyyat Xidmətinin nümayəndə heyəti ilə görüş |
| **24 may -** | Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə təkbətək görüş |
| **24 may -** | Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər ilə görüş |
| **24 may -** | Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüş |
| **25 may -** | ABŞ-ın energetika naziri Samuel Bodman ilə görüş |
| **25 may -** | Böyük Britaniyanın kral ailəsinin üzvü, York hersoqu şahzadə Endryu ilə görüş |
| **25 may -** | BP şirkətinin prezidenti lord Con Braun ilə görüş |
| **25 may -** | Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Andris Pibalqs ilə görüş |
| **26 may -** | Norveç Krallığının dövlət katibi, neft sənayesi və energetika nazirinin müavini Oluf Ulset ilə görüş |
| **26 may -** | Ukraynanın yanacaq və energetika nazirinin birinci müavini Aleksey İvçenko ilə görüş |
| **26 may -** | BNP Pari Bankının energetika, ixrac və layihələr üzrə rəhbəri Dominik Remin ilə görüş |
| **27 may -** | ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüş |
| **27 may -** | İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycri ilə görüş |
| **30 may -** | Yaponiyanın Azərbaycandakı keçmiş səfiri Toşiyuki Fucivara ilə görüş |

| | |
|---|---|
| **30 may -** | Türkiyə Respublikasının Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun sədri professor Sadiq Kamal Tural və Atatürk Araşdırmalar Mərkəzinin sədri professor Mehmed Saray ilə görüş |
| **31 may -** | Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Yilkin ilə görüş |
| **1 iyun -** | Senator Çarlz Heyqlin başçılıq etdiyi ABŞ nümayəndə heyəti ilə görüş |
| **2 iyun -** | ABŞ Mülki Tədqiqatlar və İnkişaf Fondunun prezidenti Tom Ovensin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **2 iyun -** | Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru xanım Donna Douset-Koirolonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **6 iyun -** | Litva Respublikası Seyminin sədri Arturas Paulauskasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **6 iyun -** | Ümumgürcüstan Katolikos-Patriarxı II İlianının başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **6 iyun -** | Avstriyalı tarixçi alim, professor Erix Fayqlı ilə görüş |
| **7 iyun -** | İngiltərə – Azərbaycan Cəmiyyətinin sədri, Böyük Britaniya parlamentinin Lordlar palatasının üzvü, sabiq enerji naziri lord Freyzer ilə görüş |
| **9 iyun -** | İtaliya Senatının xarici əlaqələr və miqrasiya məsələləri daimi komitəsinin sədri, Senatın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü Fiorello Proveranı ilə görüş |
| **9 iyun -** | Hindistanın neft sənayesi və qaz naziri Mani Şankar Ayyar ilə görüş |
| **13 iyun -** | ABŞ-ın Ceymstaun Fondunun prezidenti Qlen Hovardın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **17 iyun -** | Britaniyanın Cənubi Qafqazdakı xüsusi nümayəndəsi Brayan Folun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **17 iyun -** | Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkio ilə görüş |
| **21 iyun -** | Rusiya Prezidenti Administrasiyasının rəhbəri Dmitri Medvedyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **23 iyun -** | NATO Baş katibinin müavini Con Kolston ilə görüş |
| **23 iyun -** | Gürcüstanın maliyyə naziri Valeri Çeçelaşvili ilə görüş |
| **27 iyun -** | Koreya Respublikasının, İrlandiyanın, Zambiyanın, Sudanın, Moldovanın, Koreya Xalq Demokratik Respublikasının, Avstraliyanın, Qvineyanın və Küveytin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Mun Hayonqun, Entoni Maniksin, Peter Lusaka Çintalanın, Şol Denq Alakın, Mihail Laurun, Li Don Palın, xanım Yean Dunnun, Amara Banquranın və Abdullah Abdüləziz əl-Duvaihinin etimadnamələrinin qəbul edilməsi |
| **30 iyun -** | Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüş |


Azərbaycan Prezidenti İlham Əliyevin və
Litva Prezidenti Valdas Adamkusun görüşü


Azərbaycan Prezidenti İlham Əliyevin və
Albaniya Prezidenti Alfred Moisiunun görüşü


Azərbaycan Prezidenti İlham Əliyevin və
Norveç Krallığının Baş naziri Kyel Maqnein görüşü


Azərbaycan Prezidenti İlham Əliyevin və
Finlandiya Prezidenti Tarya Halonenin görüşü


Azərbaycan Prezidenti İlham Əliyevin və
Avropa Şurasının Baş katibi Terri Devisin görüşü


Azərbaycan Prezidenti İlham Əliyevin və
Çexiya Prezidenti Vatslav Klausun görüşü


Azərbaycan Prezidenti İlham Əliyevin və
Rusiya Prezidenti Vladimir Putinin görüşü


Azərbaycan Prezidenti İlham Əliyevin və
Estoniya Prezidenti Arnold Rüüytelin görüşü

# XARICI ÖLKƏLƏRIN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ AZƏRBAYCAN RESPUBLIKASINA SƏFƏRLƏRI

## 24-25/05/05 - Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycan Respublikasına rəsmi səfəri

**Səfər zamanı keçirilmiş görüşlər:**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə təkbətək görüş

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə görüş

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi mərasimində iştirak

**Səfər zamanı imzalanmış sənədlər:**

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilə

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında saziş

Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası hökuməti arasında neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında 1997-ci il 10 iyun tarixli sazişə dəyişikliyin edilməsi haqqında protokol

Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası hökuməti arasında azad ticarət haqqında 1997-ci il 10 iyun tarixli sazişə əlavə və düzəlişlərin edilməsi haqqında protokol

Azərbaycan Respublikasının hökuməti ilə Qazaxıstan Respublikasının hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş

Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında saziş

## *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikası Prezidenti Nursultan Nazarbayevin birgə mətbuat konfransı*

Mayın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Bakıda birgə mətbuat konfransı keçirmişlər. Dövlət başçıları əvvəlcə nitqlərlə çıxış etdilər.



### Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün biz Azərbaycan xalqının böyük dostu, Qazaxıstan Prezidenti Nursultan Abişeviç Nazarbayevi qəbul edirik. Deməliyəm ki, biz bir-birimizə çox böyük qardaşlıq hissləri bəsləyirik. Ölkələrimiz arasında tarixən çox yaxın münasibətlər, dostluq, qardaşlıq münasibətləri mövcud olmuşdur. Çox xoşdur ki, bu münasibətlər indi də inkişaf edir və yeni məna ilə dolğunlaşır.

Nursultan Abişeviçi Azərbaycan xalqının lideri Heydər Əlirza oğlu Əliyevlə böyük şəxsi dostluq telləri bağlayırdı. Bir çox illər, onilliklər ərzində onlar birlikdə çox fəal işləmişlər. Onlar müstəqil ölkələrə - Qazaxıstana və Azərbaycana rəhbərlik etməyə başladıqda da xalqlarımızı daha da yaxınlaşdırmaq, daha böyük inteqrasiyaya və münasibətlərin daha yüksək

səviyyəsinə nail olmaq üçün çox sıx qarşılıqlı fəaliyyət göstərirdilər və məqsədlərinə də çatdılar.

Ölkələrimiz arasında münasibətlərin bugünkü səviyyəsi müstəqil dövlətlərimizin prezidentləri vəzifəsində onların onillik birgə fəaliyyətinin nəticəsidir. Mənə çox xoşdur ki, bu ənənələr saxlanılmışdır və davam edir. Qazaxıstana ötənilki rəsmi səfərimi böyük səmimiyyətlə xatırlayıram. Aparılmış danışıqlar və imzalanmış sənədlər sübut edir ki, əlaqələrimiz möhkəmlənir.

Qazaxıstan Prezidentinin Azərbaycana bugünkü səfərinin də çox böyük əhəmiyyəti var. Biz tərəfdaş ölkələrik, qardaşıq. Biz regionda bu gün mühüm rol oynayan və gələcəkdə getdikcə daha mühüm rol oynayacaq ölkələrik. Regionumuzda baş verən proseslər də xeyli dərəcədə qarşılıqlı fəaliyyətimizin səviyyəsindən, əməkdaşlığımızın səviyyəsindən asılı olacaqdır.

Bu gün biz siyasi əməkdaşlığın ən yüksək səviyyəsinə malikik, iqtisadi əlaqələri də genişləndirmək istəyirik. Əmtəə dövriyyəsi artımının çox böyük olması və faiz nisbəti ilə çox kəskin şəkildə artması ilə yanaşı, hesab edirik ki, bu əməkdaşlığı genişləndirmək üçün çox böyük potensial var. Bu məsələlər, habelə regional siyasət, ikitərəfli münasibətlər, Xəzər üzrə əməkdaşlıq məsələləri bugünkü təkbətək danışıqlarımızın və görüşlərimizin diqqət mərkəzində olmuşdur.

Biz bir daha əmin olduq ki, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsi çox yüksəkdir. Qazaxıstan və Azərbaycan, yəqin, elə ölkələrdir ki, onlar qonşuların, dost, qardaş dövlətlərin necə əməkdaşlıq etməli olduqlarına nümunə ola bilərlər. Bu əməkdaşlıq dərin tarixi köklərə, ənənələrə əsaslanır, habelə dövlətlərimizin təşəkkülü və möhkəmlənməsi, regionun iqtisadi cəhətdən güclü, siyasi cəhətdən fəal ölkələrinə çevrilməsi ilə şərtlənən bugünkü məna ilə dolğunlaşmışdır. Zənnimcə, ölkələrimizin bu istiqamətdə – həm regional işlərdə, həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlarda əməkdaşlıq çərçivəsində birgə fəaliyyətinin istər ölkələrin daxilində proseslərin inkişafı üçün, istərsə də regional siyasət, əməkdaşlıq və regional təhlükəsizlik məsələləri üçün çox böyük əhəmiyyəti olacaqdır.

Dəvətimizi qəbul edib ölkəmizə səfərə gəldiyinə görə hörmətli Nursultan Abişeviçə böyük təşəkkürümü bildirmək istəyirəm. Həm də çox xoşdur ki, bu səfər Azərbaycanda tarixi hadisə ərəfəsində - Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsi ərəfəsində keçir. Sabah biz bu tarixi hadisədə birlikdə iştirak edəcəyik. Mənə çox xoşdur ki, Qazaxıstan Prezidenti bu bayramda qonaqlarımız arasında olacaqdır. Qazaxıstan Prezidentinə, bütün dost və qardaş qazax xalqına bir daha sülh, firavanlıq, tərəqqi arzulamaq istəyirəm və ümidvaram ki, əlaqələrimiz bundan sonra da belə fəal surətdə möhkəmlənəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## Qazaxıstan Respublikası Prezidenti Nursultan Nazarbayevin nitqi

İlham Heydəroviç, indicə dediyiniz səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Mən bu fikirlərlə tamamilə razıyam. Biz məhdud dairədə və nümayəndə heyətlərimizlə görüşlərdə də bu barədə söhbət etdik. Biz dəvətinizi məmnuniyyətlə qəbul etdik və Siz Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başladıqdan sonra buraya rəsmi səfər edirik. Nümayəndə heyətimizə hökumətimizin aparıcı nazirləri daxildirlər. Bu, ciddi niyyətlərdən və ənənəvi, çoxdankı dostluq və əməkdaşlıq münasibətlərimizi daha da möhkəmlətmək istəyindən xəbər verir. İmzaladığımız sənəd nadir bir sənəddir, çünki biz hələ dostluğumuzun dərin köklərinin və XXI əsrdə gələcək müttəfiqlik münasibətlərimizin qeyd olunduğu strateji xarakterli sənəd imzalamamışdıq.

Hesab edirəm ki, Mərkəzi Asiyada Qazaxıstan Azərbaycan üçün, bizim üçünsə Qafqazda Azərbaycan əsas dövlətdir. Məsələ təkcə bunda deyildir, hərçənd bu da çox vacibdir, biz ümumi tarixi, ümumi böyük əcdadları, ümumi dili, mədəniyyət və ənənələri olan qohum xalqlarıq. Qazax xalqının və şəxsən mənim Azərbaycan xalqına böyük hörmətimiz, məhəbbətimiz və ehtiramımız var. Bəlkə də, uşaqlıqda azərbaycanlılarla birlikdə boya-başa çatmağım şəxsən mənim üçün çox mühüm idi, kəndimizdə çox böyük Azərbaycan diasporu vardı. Bütün xalqımızın da münasibəti belədir. Dediklərim tarixdir, bugünkü həyat isə bizi daha da yaxınlaşdırır. İndi Xəzər bizi bir-birimizdən ayırmır, əksinə, birləşdirir, əslində, biz qonşuyuq, həmsərhədik. İndi bizim iki dövlət bu regionda dünya bazarı üçün neftin əsas hasilatçısıdır. Biz birlikdə çox səylə işləyə, dünya əmək bölgüsünün mühüm iştirakçısı ola bilərik. Əvvəla, bu regionda terrorizmlə və digər təzahürlərlə mübarizə aparılması, sabitliyin bərqərar edilməsi məsələlərində, ikincisi, öz enerji

daşıyıcılarımızla dünya məkanında olmağımızla. Bu da yaxın on il üçün sanballı töhfə olacaqdır. İndi Bakı-Tbilisi-Ceyhanı ədalətlə, ayrı-seçkilik etmədən Aktau-Bakı-Tbilisi-Ceyhan adlandırmaq lazımdır. Bu, həcmi ildən-ilə daha çox artacaq Qazaxıstan neftinin dünya bazarlarına çıxarılmasının bizim üçün mühüm variantlarından biridir.

Zənnimcə, bu gün imzalanmış 6 sənəd – növbədə digər mühüm sənədlərimiz durur – göstərir ki, biz siyasi məsələləri bütün istiqamətlərdə həll edirik. Hökumətlərarası qarşılıqlı münasibətlər, dövlətlərimizin iqtisadi komissiyalarının iclasları sübut edir ki, kənd təsərrüfatı məsələlərində əməkdaşlıq, o cümlədən Qazaxıstandan ərzaq, taxıl göndərilməsi və Azərbaycandan neft hasilatı, neft emalı üçün avadanlıq alınması, mütəxəssislər mübadiləsi, mədəni mübadilə, müştərək müəssisələr yaradılması, tikinti sənayesi ölkələrimiz arasında əmtəə dövriyyəsini bir neçə dəfə artırmağa imkan verir. Əlaqələr, turizm, gənclərin, ziyalıların mədəni mübadiləsi münasibətlərimizdə mühüm amillərdir. Sizə demək istəyirəm ki, Qazaxıstan Azərbaycanla belə yaxın əməkdaşlığa açıqdır və biz bütün istiqamətlərdə əməkdaşlıq etməyə hazırıq. Hesab edirik ki, bütün istiqamətlərdə münasibətlərimizin inkişafı üçün heç bir maneə yoxdur.

Səmimi, qardaşcasına qəbula, nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Ümidvaram ki, görüşlərimiz, danışıqlarımız, dövlətlərimizin rifahı naminə gələcək əməkdaşlığa güclü təkan verəcəkdir.

Sonra Azərbaycan və Qazaxıstan Prezidentləri jurnalistlərin suallarına cavab verdilər.

**Sual:** Bir halda ki, Qazaxıstanın və Azərbaycanın əməkdaşlığında karbohidrogenlərin nəqli ən mühüm cəhətlərdən biridir, Aktau-Bakı-Tbilisi-Ceyhandan savayı, yeni tranzit yollarının meydana gəlməsi də planlaşdırılırmı?

**Nursultan Nazarbayev:** Gəlin, əvvəlcə bu işi normal surətdə görək. Qazaxıstanın mövqeyinə gəldikdə, mən çoxvektorluğu ona görə əsas tutmuram ki, bu, bizim çox möhkəm və qəti mövqeyimizdir, sadəcə olaraq, ona görə ki, bu, proqnoz deyildir, hesablanmış enerji məsələləridir. Məsələn, 2010-cu ildə 100 milyon, 2015-ci ilədək təxminən 150 milyon ton neft çıxaracağıq. İqtisadiyyatımızın inkişafı baxımından daxili tələbat 25-30 milyon ton olacaqdır. Gördüyünüz kimi, böyük həcmdə neft ixrac ediləcəkdir. Odur ki, bu neftin tam nəqlini nə Bakı-Tbilisi-Ceyhan, nə də Şimali Xəzər boru kəməri təmin edə biləcəkdir. Yəqin, sizə məlumdur ki, dekabrda biz Çinə gedən və gücü 20 milyon ton olan 1000 kilometrlik neft kəmərinin tikintisini başa çatdıracağıq, Xəzəri Qərbi Çinlə birləşdirmək üçün daha 700 kilometrlik hissəni inşa etmək qalır. Zənnimcə, gələcəkdə Fars körfəzinə çıxmaqla İran variantı da mümkündür. Biz Atrau-Samara vasitəsilə Baltik dənizinə çıxmaq üçün Rusiya ilə işləyirik. Bir sözlə, bütün bunlar həcmlərlə və zərurətlə müəyyən ediləcəkdir. Bu gün Bakı-Tbilisi-Ceyhan Qazaxıstan neftinin nəqli üçün çox mühüm variantlardan biri olaraq qalır.

**İlham Əliyev:** Uzun illər ərzində bizim mövqeyimiz də ixrac yollarının çoxvariantlığına əsaslanmışdır. Həmişə hesab etmişik və bu gün də həmin yanaşmanın düzgünlüyünü yəqin etdik ki, nəqletmənin alternativ yolları nə qədər çox olarsa, mənafelərimizin maksimum təmin edilməsi üçün imkanlar bir o qədər çox olacaqdır. Artıq bu gün Azərbaycanda iki boru kəməri mövcuddur, onlar Azərbaycan neftini Rusiyanın və Gürcüstanın Qara dəniz limanlarına nəql edir. Bakı-Tbilisi-Ceyhan boru kəməri istifadəyə verildikdən sonra üçüncü bazar – Aralıq dənizi bazarı meydana gələcəkdir. Əlbəttə, lazım gələrsə, bizim nəqliyyat infrastrukturu Qazaxıstanın neft hasilatçılarının da istifadəsinə veriləcəkdir ki, bu məsələ maksimum səmərə ilə öz həllini tapa bilsin.

Qazaxıstan iri neft hasilatçısına çevrilir. Əlbəttə, hesab edirik ki, neftin ərazimiz vasitəsilə nəqli çərçivəsində Qazaxıstanla Azərbaycan arasında fəal əməkdaşlığın çox mühüm iqtisadi nəticələri ola bilər. Bir daha demək istəyirəm ki, ehtiyac yaranarsa, biz bütün nəqliyyat infrastrukturumuzu qardaşlarımızın tam ixtiyarına verəcəyik.

**Sual:** Hazırda Xəzəryanı dövlətlərin bütün başçılarının görüşməsi və Xəzərin statusu məsələsinə dair tam miqyaslı konsensus haqqında razılığa gələ bilməsi üçün bütün ilkin şərtlər varmı? Əgər indi bu dövlətlərin bütün başçıları həmin problemin həlli üçün ciddi siyasi iradələrinin olduğunu bəyan edirlərsə, bu problemin tam həllinə nə mane olur?

**Nursultan Nazarbayev:** Biz, bütün Xəzəryanı dövlətlər Xəzər dənizi haqqında pakt imzalanması üzərində çoxdan işləyirik. Bildiyiniz kimi, biz orta xətdən, sahilyanı sulardan və açıq dənizdən danışdıqda, Rusiya, Qazaxıstan və Azərbaycan arasında mövqe yaxınlığı

mövcuddur. İranın mövqeyi bir qədər fərqlənir. İndi danışıqlar aparan nümayəndələrimiz konsensus tapmaq üçün bu istiqamətdə intensiv surətdə işləməkdə davam edirlər. Ona görə də mən bu fikirdəyəm ki, biz – beş Xəzəryanı dövlət kənardan müdaxilə olmadan həmin məsələni özümüz həll etməliyik. Çünki bu, bizim mənafelərimizdir və bu dəniz hamımızı birləşdirməlidir, o, dostluq, əməkdaşlıq və ticarət dənizi olmalıdır. Düşünürəm ki, Türkmənistan da, İran da məsələyə bu cür yanaşmada maraqlıdır. Əvvəl-axır, ölkələrin mənafeləri üstünlük təşkil etməlidir və biz buna gəlib çıxmalıyıq. İndi ancaq danışıqlar prosesindən söz aça bilərəm. Növbəti görüşümüz Tehrana təyin olunub, onun müddəti hələ müəyyən edilməyibdir. Yəqin ki, İran Prezidentinin seçkilərindən sonra biz danışıqlar aparmaq üçün görüşlərimizin daha konkret tarixini gözləyəcəyik.

**İlham Əliyev:** Biz Xəzərin məsələlərinin tənzimlənməsinə dair çoxtərəfli danışıqlar aparılmasına böyük əhəmiyyət veririk. Bu məsələnin tənzimlənməsinə töhfəmizi vermək üçün öz tərəfimizdən bütün mümkün işləri görürük. Bu məsələyə müxtəlif yanaşmalar mövcuddur. Lakin bizim yanaşmamız həmişə beynəlxalq hüququn, indiki halda, dəniz hüququnun norma və prinsiplərinə, habelə dünya praktikasına əsaslanmışdır. Düşünürəm ki, Qazaxıstanla Azərbaycan, Qazaxıstanla Rusiya, Rusiya ilə Azərbaycan arasında əldə edilmiş sazişlər bütün Xəzəryanı ölkələrin çoxtərəfli sazişi üçün yaxşı əsas ola bilər. Bu üç ölkə öz aralarında bütün danışıqlar proseslərini tamamilə başa çatdırmışlar. İmzalanmış sazişlər milli sektorları dəqiq delimitasiya edir. Bu, hərtərəfli tənzimləmə üçün yaxşı əsasdır və zənnimcə, bu yanaşmadan istifadə edilərsə, məsələnin həllinə çox tez nail olmaq mümkündür.

Həmçinin demək istərdim ki, tənzimləmə məsələsinin hələ tamamilə həll edilməməsinə baxmayaraq, bu, Xəzər dənizinin Azərbaycan sektorunda işləyən əcnəbi sərmayəçilər üçün maneə olmamışdır. Buraya milyardlarla dollar sərmayə qoyulmuş, müasir neft infrastrukturu yaradılmışdır, karbohidrogen ehtiyatlarının kəşfiyyatı, hasilatı işləri aparılır, boru kəmərləri çəkilir. Başqa sözlə, Xəzərin statusunun tənzimlənməməsi məsələsi iqtisadi layihələrimizin həyata keçirilməsində ləngitmələrə gətirib çıxarmadı. Lakin çox istərdik ki, bu məsələ, nəhayət, öz hüquqi həllini tapsın ki, Xəzərdə bütün mübahisələrə son qoyulsun və Xəzər əməkdaşlıq, sülh və təhlükəsizlik zonasına çevrilsin.

**"AzərTAC" 24.05.05**

## 30/06/05 - Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri

**Səfər zamanı keçirilmiş görüşlər:**

Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ilə görüş
Azərbaycan Respublikasının Milli Məclisinin deputatları ilə görüş
Azərbaycanda fəaliyyət göstərən türk iş adamları ilə görüş
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə təkbətək görüş
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə geniş tərkibdə görüş
Bakıda Türkiyə səfirliyi üçün tikiləcək yeni binanın təməl qoyma mərasimində iştirak
Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə görüş

**Səfər zamanı imzalanmış sənədlər:**

Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında texniki əməkdaşlıq haqqında protokol
Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında saziş
Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında saziş

## *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı*

İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan Bakıda birgə mətbuat konfransı keçirmişlər. Dövlət başçıları əvvəlcə nitqlərlə çıxış etdilər.



### Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Rəcəb Tayyib Ərdoğan Azərbaycanda rəsmi səfərdədir. Bu, bizi çox sevindirir. Hesab edirəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında mühüm rol oynayacaqdır və Türkiyə ilə Azərbaycan, iki dost, qardaş ölkə həmişə olduğu kimi, bundan sonra da çox sıx əməkdaşlıq edəcəkdir.

Biz ikitərəfli münasibətlərə böyük önəm veririk, bu münasibətləri çox yüksək qiymətləndiririk. Bizim aramızda olan qardaşlıq, dostluq münasibətləri hər iki ölkənin inkişafı üçün önəmlidir. Eyni zamanda, bölgədə gedən proseslərə də müsbət təsir göstərir. Bölgədə sülhün, sabitliyin bərqərar olunması, təhlükəsizlik sisteminin möhkəmlənməsi, bölgədə gedən irimiqyaslı regional layihələrin həyata keçirilməsi bizim üçün və Türkiyə üçün çox önəmlidir. Bizim birgə fəaliyyətimiz qarşıda duran bütün məsələlərin həllinə böyük dəstəkdir, böyük töhfədir.

Türkiyə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsində daim Azərbaycanın yanında olub və bu gün də Azərbaycanın yanındadır. Azərbaycanın haqlı mövqeyini müdafiə edir, onu dəstəkləyir və bütün beynəlxalq təşkilatlarda Azərbaycanın səsinə səs verir. Bu dəstəyə, bu qardaşlığa görə biz Türkiyə hökumətinə, Türkiyə dövlətinə, Türkiyə xalqına minnətdarıq. Biz ümid edirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və bir milyondan artıq qaçqın, köçkün soydaşımız öz doğma torpağına qayıdacaqdır. Bunu etmək üçün, təbii ki, siyasi-diplomatik səylər davam etdirilməlidir. Amma eyni zamanda, Azərbaycan öz siyasi və iqtisadi potensialını daha da gücləndirməlidir.

Bu yaxınlarda istismara verdiyimiz, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətlərinin təzahürü, onun nəticəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurlu fəaliyyəti bölgədə sabitliyin, iqtisadi inkişafın və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayacaqdır. Bakı-Tbilisi-Ceyhan layihəsi dünyanın ən böyük enerji layihəsidir və birgə səylər nəticəsində biz bu layihəni həyata keçirdik, əfsanəni gerçəkliyə çevirdik. Bu layihə və bundan sonrakı Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsi Türkiyənin və Azərbaycanın bölgədəki rolunu və nüfuzunu daha da artıracaq və gələcəkdə bizim iqtisadi və siyasi mövqeyimizə xidmət edəcəkdir.

Biz çox istəyirik ki, aramızda olan ticarət əlaqələri daha da genişlənsin. Bu gün bu barədə geniş söhbət aparıldı. Ticarət dövriyyəmiz artır, 2005-ci ildə 2004-cü ilə nisbətən təxminən 50 faiz artmışdır. Bu, çox gözəl göstəricidir. Amma onu da bilirik ki, bu, bizim iqtisadi potensialımızı əks etdirmir. Potensial daha da böyükdür. Əminəm ki, bu gün apardığımız danışıqlar gələcəkdə iqtisadi və ticarət əlaqələrimizin inkişafına kömək göstərəcəkdir.

Biz bu gün hörmətli Baş nazirlə müxtəlif mövzular ətrafında fikir mübadiləsi apardıq. Əlbəttə ki, ikitərəfli münasibətlər, bölgədə gedən proseslər müzakirə olundu. Beynəlxalq təşkilatlarda birgə fəaliyyətimiz haqqında fikir mübadiləsi edildi. Bir daha demək istəyirəm ki, danışdığımız bütün məsələlərdə bizim mövqelərimiz üst-üstə düşür, heç bir fikir ayrılığı yoxdur və bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan münasibətləri çox sağlam zəmində qurulubdur. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək, möhkəmlənəcək, Türkiyə və Azərbaycan xalqları qardaş kimi birlikdə yaşayacaq, öz potensiallarını daha da gücləndirəcək və bölgədə gedən proseslərə bundan

sonra da təsir göstərəcəklər.

Hörmətli Baş nazirin Azərbaycana səfəri ilə əlaqədar bir daha öz dərin məmnunluğumu bildirmək istəyirəm. Əminəm ki, bu səfər uğurlu keçəcək, gələcək əməkdaşlığımız üçün gözəl addım olacaqdır. Təşəkkür edirəm.

## Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın nitqi

Hörmətli Cümhurbaşqanının bu anlamlı açıqlamalarına görə çox təşəkkür edirəm. Dünən axşamdan etibarən gördüyümüz qonaqpərvərliyə görə öz adımdan və nümayəndə heyəti adından çox-çox təşəkkür edirəm.

İstər təkbətək görüşümüzdə, istərsə də heyətlərarası görüşdə Türkiyə ilə Azərbaycan arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələri müzakirə etdik. Siyasi sahədə xüsusilə Türkiyə – Azərbaycan əlaqələri, beynəlxalq əməkdaşlıq məsələləri diqqət mərkəzində oldu.

Hörmətli Cümhurbaşqanının da ifadə etdiyi kimi, beynəlxalq təşkilatlar və qurumlarda birgə əməkdaşlığımız qardaş və dost olan iki ölkənin istəyi şəklində davam etməkdədir və atdığımız addımlar mühümdür. Bu yöndəki əməkdaşlıq hər zaman əsas sayılmışdır və təbii ki, gələcəkdə də bu şəkildə davam edəcəkdir. Mərhum Cümhurbaşqanı Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" fikri bizi gələcəyə doğru inamla aparır.

Kipr barədə aparılan siyasətimizlə bağlı məsələlərə də toxunuldu. Bu sahədə işlər davam etdiriləcəkdir. Bir çox işlərin Azərbaycan tərəfindən də görüləcəyinin müydəsini hörmətli Cümhurbaşqanından aldıq. Bundan məmnunluq və sevinc duyuruq. Bunlar çarter reysləri, oradakı bir çox iqtisadi-ticarət işlərinin birlikdə görülməsidir. Bu sahələrdə atılacaq addımlar doğrudan da sevindiricidir.

İstər Avropa Şurasında, istərsə də NATO-da fəaliyyətimizdə Azərbaycanı indiyə qədər necə dəstəkləmişiksə, gələcəkdə də bunu davam etdirəcəyimizi bir daha bildiririk. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu günə qədər olan siyasətimizi eyni şəkildə davam etdiririk. Ermənistanla münaqişə məsələsində Türkiyə bu günə qədər Azərbaycanı necə yalnız buraxmamışsa, bundan sonra da buraxmayacaqdır. Xüsusilə Dağlıq Qarabağ məsələsinə yanaşma tərzimiz Azərbaycanın siyasəti ilə, yanaşma tərzi ilə eynidir. Bizə gələn təklif və tələblərə bu günə qədər eyni cavabı verdik.

Bildiyiniz kimi, Avropa Şurasının Ermənistanı işğalçı elan etməsi ilə bağlı qərarı Türkiyənin də xüsusi səyləri ilə əldə olunmuş bir nəticədir. Dolayısı ilə işğalçının üzərinə düşən vəzifə işğal etdiyi yerdən çəkilməsidir. Bunun yerinə yetirilməsi vacibdir. Türkiyə olaraq biz bunun danışıqlar vasitəsilə çözümünün tərəfdarıyıq. Amma bu çözüm Ermənistanın işğal etdiyi ərazilərdən çəkilməsi ilə mümkündür.

Digər bir məsələ aramızdakı iqtisadi-ticarət əlaqələri ilə bağlıdır. Bir az əvvəl hörmətli Cümhurbaşqanının da ifadə etdiyi kimi, əslində hər iki ölkənin bu sahədə əməkdaşlığı lazımi səviyyədə deyildir. Ona görə bunu irəlilətməyimiz lazımdır. Ən əsası, ticarətin həcmini qısa zamanda bir milyard dollara çatdırmaqdır. Hazırkı rəqəm çox kiçikdir. İnanıram ki, bu sahədə iş adamlarımızın qarşılıqlı surətdə atacağı addımlarla biz bu məqsədə də çatacağıq.

Biz artıq Bakı-Tbilisi-Ceyhan enerji dəhlizini başa çatdırırıq. Bu enerji dəhlizində başlanğıc və son nöqtə iki ölkəyə aiddir və bu, Gürcüstanla birlikdə üçlüyü qovuşduracaqdır. Bundan sonra Bakı-Tbilisi-Ərzurum qaz xətti var. Hazırda addımlar sürətlə atılır. Təbii, bu, enerji dəhlizi olmaqla bərabər, nə qədər önəm daşıyan bir mərhələyə daxil olduğumuzu da göstərməkdədir. Bu, gələcək üçün bir xüsusi önəmin ifadəsidir. Bu məsələdə də düşüncələrimiz eynidir və müştərək bir çox addımlar atacağıq.

İnşallah, oktyabrın 27-də Ceyhandan tankerə ilk neft yüklənəcəkdir. Bunu səbirsizliklə gözləyirik. Hörmətli Cümhurbaşqanı dəvətimizi qəbul etdi. Düzdür, işin sahibi sizsiniz. Təbii, mən bu dəvəti formal olaraq dedim, belə bir dəvət gərəksiz idi, amma bunu etmək etikadan irəli gəlir. Bakıda boru xəttinə ilk neft vurulduğu zaman həyəcan necə yaşandısa, həmin həyəcanı bu dəfə oktyabrın 27-də ilk nefti tankerə yükləyərkən birlikdə yaşayacağıq.

Mədəniyyət sahəsindəki qarşılıqlı əlaqələrimizi daha da möhkəmləndirməli və genişləndirməliyik.

Biz hörmətli Cümhurbaşqanına bir təkliflə də müraciət etdik. İstəyirik ki, Türkiyə-Azərbaycan Ticarət Palatası yaradılsın. Hörmətli Cümhurbaşqanı bu təklifimizi çox müsbət qarşıladı. İnşallah, hər iki ölkənin iş adamları, Türkiyə Palatalar və Biryalar Birliyi, Türk İş Adamları və Sənayeçilər Birliyi TÜSİAB qarşılıqlı surətdə bir araya gələrək, belə bir palatanı gerçəkləşdirəcəklər. Necə ki, hökumətlər arasında müştərək iqtisadi komissiya quruldu, sənayeçi və iş adamları arasında, özəl sektorda da belə bir qurumun yaradılması ölkələrimiz

arasında münasibətləri daha da yüksək səviyyəyə çatdıracaqdır. Belə bir fürsət qazandığımız üçün çox-çox təşəkkür edərək, bizi izləyən sevimli Azərbaycan qardaşlarımıza öz adımdan və millətim adından sevgi və salamlarımı yetirmək istəyirəm.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.

**Sual:** Mənim sualım hörmətli Prezident İlham Əliyevədir. Kipr məsələsində Azərbaycan hansı addımlar atacaq, bu barədə fikriniz necə olacaqdır? Azərbaycanın və Türkiyənin yaxın qonşusu olan İranda yeni Prezident seçildi. Sizcə, bu, bölgədəki siyasətə və Azərbaycana necə təsir göstərəcəkdir?

**İlham Əliyev:** Bu məsələ bu gün müzakirə olundu və Azərbaycan öz mövqeyini bir daha ifadə etdi. Biz Şimali Kiprin təcrid olunmuş vəziyyətdən çıxması üçün əlimizdən gələni etməyə hazırıq. Artıq hörmətli Baş nazir də bu məsələləri açıqladı. Mən bu gün məlumat verdim ki, Azərbaycanın müxtəlif şirkətləri Şimali Kiprdə öz ofislərini açacaqlar, o cümlədən turizm şirkətləri bu işlərlə məşğul olacaqlar. Azərbaycandan Şimali Kiprə uçuşlar təşkil ediləcək və lazım olan başqa tədbirlər görüləcəkdir. Mən hesab edirəm ki, yaxın zamanlarda Azərbaycanın iş adamlarından ibarət heyətin Şimali Kiprə getməsi də məqsədəuyğun olar.

Biz çox təəssüflənirik ki, Kiprdə keçirilmiş referendum ümidlərimizi doğrultmadı. Ancaq buna görə Kiprdə yaşayan türk qardaşlarımızın belə vəziyyətdə yaşamasının davam etməsinə, əlbəttə, heç kim razı ola bilməz. Kipr türkləri bu təcriddən çıxmalıdır. Artıq İslam Konfransı Təşkilatında çox önəmli qərarlar qəbul edilibdir. Əminəm ki, bu, ilkin, çox vacib addımlardır. Hesab edirəm ki, gələcəkdə başqa beynəlxalq təşkilatlar da bu təşəbbüsə qoşulmalıdır. Beləliklə, orada insanların təcrid olunmuş vəziyyətdə yaşamasına son qoyulmalıdır və qoyulacaqdır. Azərbaycanın payına nə düşürsə, biz bunu etməyə hazırıq və edəcəyik. Əlbəttə ki, Türkiyə ilə məsləhətləşmələr əsasında.

İranla bizim aramızda çox yaxşı əlaqələr var. Son müddət ərzində bir neçə iqtisadi layihə həyata keçirilir, ticarət əlaqələrimiz güclənir və biz istəyirik ki, iki ölkə arasında əlaqələr bundan sonra da inkişaf etsin. Mən bu ilin əvvəlində İrana rəsmi səfər etmişdim, çox önəmli məsələlər müzakirə olundu. Təbriz şəhərində Azərbaycanın Baş konsulluğu açılmışdır. Ümid edirəm ki, biz yeni rəhbərliklə səmərəli işləyəcək, hər iki ölkənin maraqlarına cavab verən məsələləri həll edəcəyik.

**Sual:** Mənim sualım hörmətli Baş nazir Ərdoğanadır. Cənab Baş nazir, Türkiyənin Avropa İttifaqına qəbul edilməsi üçün qoyulan şərtlər sırasında Ermənistanla sərhədlərin açılması və qondarma "erməni soyqırımı"nın tanınması kimi müddəaların olduğu bildirilir. Sizcə, Dağlıq Qarabağ münaqişəsi həll olunmayacağı təqdirdə sərhədlərin açılması nə dərəcədə mümkündür?

**Rəcəb Tayyib Ərdoğan:** Avropa İttifaqının Kopenhagen siyasi meyarları içərisində və digər meyarlar içərisində belə bir şərt yoxdur, belə bir məsələ yoxdur və Türkiyəyə belə bir şərtlər qoyulmamışdır. Belə bir şeyi qəbul etməyimiz də mümkün deyildir. Bu, Türkiyənin öz qərarıdır. Türkiyə bu sahədə öz qərarını necə verəcəyini də çox yaxşı bilir. Biz indiyə qədər hansı mövzularda anlaşdıqsa, Kopenhagen siyasi meyarlarında nə varsa, bunları yerinə yetirdik. Hazırda şərtlər açıqlanmışdır. Bu da dekabrın 17-dəki müzakirələr zamanı hansı məsələlərlə bağlı idisə, onlara zidd olmayan, yəni paralel şəkildə gözlənən məsələlərdir. Bu gözlənilən məsələlər istiqamətində biz oktyabrın 3-də müzakirələrə başlayacağıq.

**Sual:** Mənim sualım cənab Baş nazirədir. Siz dediniz ki, Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi mövcud potensialdan qat-qat aşağıdır. Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin artmasına nə mane olur? Siz Azərbaycandakı sərmayə mühitini necə dəyərləndirirsiniz?

**Rəcəb Tayyib Ərdoğan:** Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində, şübhəsiz, bəzi qarşılıqlı tədbirlərin görülməsi vacibdir. Yükdaşıma sahəsində, xüsusilə yük maşınlarının sayının artırılması və sair sahələrdə həll edilməli məsələlər vardır. Bunlarla bağlı hörmətli Cümhurbaşqanı lazım olan təlimatları verdi. Bunlar artırılacaqdır. Təbii ki, əgər özəl sektorlarımızın nümayəndələri qarşılıqlı surətdə fəaliyyətlərini gücləndirərsə, bu əlaqələr çox sürətlənər. Ona görə də əgər Türkiyə-Azərbaycan Ticarət Palatası ideyasını gerçəkləşdirsək, inanıram ki, bu sahə çox sürətlə inkişaf edəcəkdir. Biz bu məsələni yaxından izləyəcəyik. Çünki bizə bu işləri görməyimiz və uğur qazanmağımız lazımdır.

**Sual:** Hörmətli Cümhurbaşqanı, bilirsiniz ki, bölgədə demokratiya sahəsində bəzi hadisələr

olur. Amerikanın ortaya atdığı genişləndirilmiş Orta Şərq layihəsi, onların dediyinə görə, bu bölgəni də əhatə edir. Demokratiyanın bu bölgə üçün önəmi və Azərbaycandakı perspektivləri barədə açıqlama verə bilərsinizmi?

**İlham Əliyev:** Bölgədə demokratiyanın inkişafı çox önəmlidir. Azərbaycan bu istiqamətdə çox önəmli addımları atmaqdadır. Biz hesab edirik ki, yalnız demokratik cəmiyyətdə hər bir insan sərbəst, azad şəkildə yaşaya və öz istədiklərinə nail ola bilər. Ona görə Azərbaycanın bu məsələdə beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı bizim üçün çox önəmlidir. Azərbaycanda son illər ərzində demokratiyanın inkişafı istiqamətində çox önəmli addımlar atılıb və bu gün ölkəmiz demokratiya yolu ilə inamla gedir.

Azərbaycanın iqtisadi gələcəyi çox uğurludur. Apardığımız iqtisadi islahatlar Azərbaycanı güclü ölkəyə çevirəcəkdir. Deyə bilərəm ki, bu ilin beş ayında ölkəmizdə iqtisadi artım 16 faiz olubdur. Son bir il ərzində ölkədə 220 min yeni iş yeri açılıbdır. Mən əminəm ki, yalnız iqtisadi cəhətdən güclü ölkədə demokratiya tam mənada bərqərar ola bilər. Ona görə yoxsulluğun azaldılması, işsizliyin aradan götürülməsi demokratik ölkəyə çevrilmək üçün çox önəmli şərtdir. Amma onu da bilirik ki, iqtisadi potensial nə qədər güclü olursa-olsun, əgər ölkədə demokratiya tam bərqərar olunmasa, o ölkə normal inkişaf edə bilməz. Ona görə Azərbaycanın bu istiqamətdə atdığı addımlar, hesab edirəm ki, çox müsbətdir. Bu, beynəlxalq təşkilatlar tərəfindən də bəyənilir. Mən şübhə etmirəm ki, Azərbaycan demokratiya yolu ilə bundan sonra da inamla gedəcəkdir.

**Sual:** Cənab Prezident, xarici işlər nazirlərinin Parisdəki görüşündə müəyyən məsələlərdə xüsusi razılıq əldə olunduğu bildirilir. Bu il avqustun sonunda liderlərin zirvə toplantısı çərçivəsində keçirəcəyiniz görüşdə mühüm anlaşmanın ola biləcəyi düşünülür. Bu məsələ ilə bağlı fikrinizi bilmək olarmı?

**İlham Əliyev:** Ümumiyyətlə, mən hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında danışıqlar bu gün müsbət istiqamətdə aparılır. Azərbaycanın mövqeyi yalnız beynəlxalq hüquq normalarına, dünyada mövcud olan təcrübəyə əsaslanır və hüquqi, siyasi cəhətdən bizim mövqeyimiz üstünlük təşkil edir. Son müddət ərzində danışıqlarda müşahidə olunan canlanma ümid etməyə əsas verir. Əgər bu ümid olmasaydı, onda danışıqların davam etdirilməsinə ehtiyac olmazdı.

Beynəlxalq təşkilatlarda bu məsələyə baxışlar dəyişir. Avropa Şurası bu məsələyə dair qətnamə qəbul etdikdən sonra danışıqların aparılması üçün yeni zəmin yarandı. Ermənistan ilk dəfə olaraq, beynəlxalq təşkilat tərəfindən təcavüzkar ölkə kimi tanındı. Ermənistanın Azərbaycana qarşı etdiyi etnik təmizləmə siyasəti o qətnamədə öz əksini tapdı. Beləliklə, danışıqların davam etdirilməsi üçün yeni bir şərait yaranır. Mən şübhə etmirəm ki, haqq-ədalət öz yolunu tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Çünki bunu məntiq tələb edir, zaman tələb edir və yenə də demək istəyirəm ki, beynəlxalq hüquq normaları bunu tələb edir.

Ermənistanın mövqeyi tamamilə başqa zəmində qurulur. Onların mövqeyi yalnız öz arzularına söykənir, onların xülyalarına söykənir. Beynəlxalq aləm bu mövqeyi qəbul etmir. İşğalçı siyasət heç bir dövlət tərəfindən rəğbətlə qarşılana bilməz. Ona görə danışıqlarda gedən proseslər artıq deməyə əsas verir ki, bu yanaşma, ədalətli yanaşma üstünlük əldə edir. Ermənistanın uzun illər ərzində apardığı qeyri-konstruktiv siyasət imkan vermirdi ki, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapsın. Biz ümid edirik ki, bu mərhələdə irəliləyişə nail ola bilərik. Ümid edirik ki, Azərbaycanın həm siyasi, həm diplomatik, həm də iqtisadi uğurları bizim mövqeyimizi daha da gücləndirəcəkdir.

**Sual:** Cənab Baş nazir, bu yaxınlarda Rusiya öz hərbi bazalarını Gürcüstandan çıxarıb bir hissəsini Ermənistanda yerləşdirdi və bu, region ölkələrinin çox böyük narazılığına səbəb olmuşdur. Azərbaycan buna görə öz hərbi xərclərini artırmalı oldu. Türkiyənin bu yerdəyişməyə münasibəti necədir və bununla bağlı hansı isə addım atacağı gözlənilirmi?

**Rəcəb Tayyib Ərdoğan:** Bu addım, hər şeydən əvvəl, Rusiya Federasiyasının öz işidir, öz qərarıdır. Bizə sadəcə, bu qərarı izləmək düşər, bu qərara hər hansı fərqli yanaşmamız ola bilməz. Bu onun haqqıdır və bundan istifadə etmişdir. Bu, Ermənistanın qərarıdır, yəni Ermənistan bunu qəbul etmişsə, buna bizim deməyə hər hansı bir fikrimiz yoxdur. Düşünürəm ki, bunun bizimlə heç bir əlaqəsi yoxdur.

**"AzərTAC" 30.06.05**

# HEYDƏR ƏLIYEV ADINA BAKI – TBİLISI – CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ

## Azərbaycanın yeni neft strategiyasının təntənəsi – üç dənizin əfsanəsi reallığa çevrilmişdir. Heydər Əliyev adına Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan Hissəsinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasim



Memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycan dövləti bu günlər öz tarixinin ən əlamətdar anlarından birini yaşayır. İndi dünyanın nəzərləri Bakıya dikilmişdir. Hazırda dünyanın ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin tikintisi başa çatmışdır və onun neftlə doldurulmasına başlanır. Bu, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə başlayan, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış Azərbaycanın yeni neft strategiyasının təntənəsidir. Azərbaycan xalqı, layihədə iştirak edən xarici tərəfdaşlarımız bu əlamətdar günü on ildən çox idi ki, gözləyirdilər. Nəhayət, həmin gün gəlib çatdı, üç dənizin əfsanəsi artıq reallığa çevrilmişdir, Azərbaycanın böyük nefti dünya bazarına çıxır.

Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq, Gürcüstandan keçməklə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan 1770 kilometrlik xəttin "qara qızılla" doldurulması üçün 10 milyon barrel xam neft tələb olunur. Bu neft Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaqdır. Boru kəmərinin tam marşrutu boyunca mərhələli doldurulmasına 6 aydan artıq vaxt tələb olunur və Ceyhanda ilk tankerin neftlə yüklənməsi 2005-ci ilin dördüncü rübünə nəzərdə tutulmuşdur.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə mayın 25-də Səngəçal terminalında təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, ABŞ-ın energetika naziri Samuel Bodman, Böyük Britaniyanın, Fransanın, Ukraynanın, Yaponiyanın, Norveçin və digər ölkələrin yüksək vəzifəli şəxsləri mərasimdə iştirak edirdilər.

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!



Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm. Bu gün tarixi bir gündür. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi münasibətilə Bakıda gözəl bir mərasim keçirilir. Mərasimdə iştirak etmək üçün Bakıya gəlmiş bütün yüksək qonaqları səmimi-qəlbdən salamlayıram. Bizimlə bərabər bu mərasimdə Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər iştirak edir. Gürcüstanın Prezidenti Mixail Saakaşvili iştirak edir. Qazaxıstanın Prezidenti Nursultan Nazarbayev iştirak edir. Əlahəzrət York hersoqu iştirak edir. Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bodman iştirak edir. Avropa Komissiyasının eneryi məsələləri üzrə komissarı cənab Pibalqs iştirak edir. BP şirkətinin prezidenti lord Braun da bu gün bizim qonağımızdır.

Mən çox şadam ki, bu tarixi gündə biz hamımız birlikdə Bakıda yığışmışıq, bu gözəl bayramı birlikdə qeyd edirik. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə

Azərbaycanda Heydər Əliyevin neft strategiyasının icra olunması başladı. 1994-cü il bizim hamımızın xatirindədir. O ağır, çətin şəraitdə xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti nəticəsində bu müqavilə imzalandı və Azərbaycan öz neft-qaz yataqlarını xarici şirkətlərlə birlikdə istismar etməyə başladı.

O vaxtdan 10 ildən çox zaman keçir. Bu illər ərzində qarşıda duran bütün vəzifələr öz həllini tapdı, Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox səmərəli işbirliyi, əməkdaşlıq qura bildi. Azərbaycana böyük həcmdə sərmayə gəldi, Azərbaycanın neft-qaz sektoruna milyardlarla dollar sərmayə yatırıldı. Bu illər ərzində ölkədə gedən proseslər, iqtisadi islahatlar, inkişaf onu göstərdi ki, Azərbaycan 1994-cü ildə düzgün seçim etmişdir. Çox böyük təzyiqlər olmasına, süni maneələr yaradılmasına baxmayaraq, bizi bu yoldan heç kim və heç nə döndərə bilmədi. Heydər Əliyevin neft strategiyası Azərbaycana böyük uğurlar gətirdi. Azərbaycanın iqtisadiyyatının bütün sektorları inkişaf etməyə başladı. Azərbaycanda aparılmış iqtisadi islahatlar nəticəsində bu gün ölkəmizin həm neft sektoru, həm də qeyri-neft sektoru uğurla inkişaf edir. Ölkəmiz son 10 ildə öz iqtisadi potensialını gücləndirərək, hər il təxminən 10 faiz səviyyəsində iqtisadi artıma nail ola bildi. 2005-ci ilin ilk dörd ayında Azərbaycanda sənaye istehsalı 15 faiz, ümumi daxili məhsul 14 faiz artmışdır. Bu ilin sonuna qədər Azərbaycanda ÜDM ən azı 18 faiz artacaqdır ki, bu da Beynəlxalq Valyuta Fondunun verdiyi bəyanata görə dünyada ən yüksək göstəricidir.

Neft amilindən məharətlə istifadə edərək, iqtisadiyyatımızı şaxələndirir, qeyri-neft sektoruna böyük diqqət göstəririk. Keçən il qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramı da uğurla icra edilir. Böyük qürur hissi ilə deyə bilərəm ki, son ilyarım ərzində görülmüş tədbirlər nəticəsində Azərbaycanda iki yüz mindən artıq yeni iş yeri açılmış, onların tam əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Yoxsulluğun səviyyəsi son ilyarım ərzində 9 faiz aşağı düşmüşdür və biz qarşımıza vəzifə qoymuşuq ki, Azərbaycanda yoxsulluq tamamilə aradan götürülsün. Əminəm ki, biz buna nail olacağıq.

Bütün bu işləri görmək üçün, əlbəttə ki, möhkəm iradə lazım idi, müdriklik lazım idi. İqtisadi və siyasi islahatlar aparmaq lazım idi. Amma onu da bilirik ki, həlledici rolu neft amili, "Əsrin müqaviləsi"nin imzalanması oynamışdır. Həmin müqavilə, ondan sonrakı dövr ərzində görülən işlər Azərbaycanın inkişafına böyük təkan vermişdir və biz bunu bu gün də hiss edirik.

Ölkəmiz yeniləşir, müasirləşir, inkişaf edir və əminəm ki, yaxın zamanlarda Azərbaycan iqtisadi cəhətdən çox qüdrətli dövlətə çevriləcəkdir.

Nefti hasil etmək, əlbəttə ki, bizim problemlərimizin hamısının həlli demək deyildir. Nefti nəql etmək lazımdır. Çünki Azərbaycanın coğrafi vəziyyəti belədir ki, bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bunu etmək üçün neft kəmərləri lazım idi və bu istiqamətdə də ardıcıl siyasət aparılmışdır. Azərbaycan çoxvariantlı neft kəmərləri strategiyasını həyata keçirir və artıq iki kəmər fəaliyyətdədir: Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri Azərbaycan neftini dünya bazarlarına çıxarır. Amma bizim neft strategiyamızı tam həcmdə həyata keçirmək üçün əlbəttə ki, böyük gücə malik neft kəmərinin tikintisi lazım idi və biz də bunu bacardıq, bunu etdik. Bəziləri buna inanmırdı, şübhə ilə yanaşırdı, bəziləri buna maneçilik törətmək istəyirdilər. Amma bunların heç biri baş tutmadı. Azərbaycan öz dostları, qonşu dövlətlər ilə birlikdə məqsədinə nail oldu. Türkiyə-Gürcüstan-Azərbaycan birliyi, Amerika Birləşmiş Ştatlarının bu layihəyə və ümumiyyətlə, bütün enerji layihələrinə verdiyi dəstək, BP şirkəti başda olmaqla xarici şirkətlərin çox səmərəli fəaliyyəti, Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyəti imkan verdi ki, biz bu əfsanəni reallığa, gerçəkliyə çevirdik.

Mən şübhə etmirəm ki, bundan sonra da Bakı-Tbilisi-Ceyhan Azərbaycan xalqına, bizim qonşu, dost ölkələrimizə çox böyük səmərə, fayda gətirəcəkdir. Bu kəmər, əlbəttə ki, ilk növbədə bizim iqtisadi problemlərimizin həlli üçün bizə kömək edəcəkdir. Sosial problemlərin həlli də öz əksini tapmalıdır. Amma eyni zamanda, biz onu da gözəl bilirik ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi işində bu kəmərin rolu çox böyük olacaqdır. Buna ehtiyac var. Hələ ki, bölgədə sülh, əmin-amanlıq, təhlükəsizlik tam mənada bərqərar olunmayıbdır. Bölgədə təhlükələr var. Onlardan biri də Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, bu təcavüzün nəticəsində torpaqlarımızın 20 faizinin işğal altına düşməsi və bir milyondan artıq azərbaycanlının qaçqın və köçkün vəziyyətində yaşamasıdır. Biz əminik

ki, bütün imkanlardan istifadə edərək, ədaləti bərpa edəcəyik. Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək və bizim suverenliyimiz tam bərpa olunacaqdır. Bölgədə buna bənzər digər separatçılıq hərəkətləri mövcuddur. Ona görə də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində mühüm rolu olacaqdır.

Bu kəmər eyni zamanda regional əməkdaşlıq baxımından da çox gözəl nümunədir, örnəkdir. Bu kəmər dünyanın ən iri, ən nəhəng enerji layihəsidir. Yalnız və yalnız üç ölkənin birgə fəaliyyəti, əməkdaşlığı və dostluğu nəticəsində biz bu kəməri bu gün istismara veririk. Türkiyə, Gürcüstan və Azərbaycanın rəhbərləri, vəzifəli şəxsləri, mütəxəssisləri vahid bir komanda kimi, bir ailə kimi bu kəmərin tikilməsi üçün fəal işləmişlər və onun istismara verilməsi gələcək regional əməkdaşlıqdan ötrü çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Kəmərin fəaliyyətindən əldə olunacaq gəlirlərin səmərəli istifadə edilməsi də bizi çox düşündürür. Azərbaycan hökuməti bu sahədə şəffaflığın təmin olunması üçün əlindən gələni edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qərarı ilə Azərbaycanda Neft Fondu yaradılmışdır və neft əməliyyatlarından əldə olunan bütün gəlirlər o Fondda cəmləşir. Fondda çox açıq, şəffaf şəkildə beynəlxalq audit keçirilir və Azərbaycan vətəndaşları dəqiq məlumat əldə edirlər. Biz hesab edirik ki, Azərbaycan iqtisadiyyatına bu layihələrdən gələcək böyük vəsait səmərəli istifadə olunmalıdır, hər bir Azərbaycan vətəndaşı bu gözəl imkanlardan faydalanmalıdır və neft gəlirləri Azərbaycanda ədalətli bölünməlidir. Bizim hökumətimiz bunu təmin etmək üçün əlindən gələni edir və əminəm ki, buna nail olacağıq.

Mən bu gün Amerika Birləşmiş Ştatlarının dəstəyini xüsusi qeyd etmək istəyirəm. Hamımız gözəl bilirik ki, əgər bu dəstək olmasaydı, bizim planlarımız həyata keçə bilməzdi. Biz bu dəstəyi 1994-cü ildən başlayaraq bu günə qədər hiss edirik. Amerika Birləşmiş Ştatları hökumətinin bizim bütün enerji layihələrimizi dəstəkləməsi bu kəmərin istismara verilməsinə böyük kömək göstərdi. Biz çox şadıq ki, aramızda çox gözəl əməkdaşlıq var. Amerika və Azərbaycan müxtəlif sahələrdə çox səmərəli işləyirlər. Biz tərəfdaşıq, dünyada gedən proseslərə eyni baxışlarla yanaşırıq. Amerika Birləşmiş Ştatlarının energetika nazirinin bugünkü tədbirdə iştirak etməsi də göstərir ki, bu layihə ABŞ-ın maraqlarının təmin olunması üçün böyük əhəmiyyət kəsb edir.

Bu gün mən xüsusilə BP şirkətinin və onun prezidenti lord Braunun fəaliyyətini qeyd etmək istəyirəm. Buraya gəlməzdən əvvəl biz muzeydə nümayiş etdirilən ekspozisiya ilə tanış olduq, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması münasibətilə təşkil olunmuş mərasimdə çəkilmiş şəkilləri də gördük. Orada gördük ki, hörmətli lord Braun Heydər Əliyevlə birlikdə müqavilənin imzalanmasında iştirak edirlər. Lord Braunun fəaliyyəti həlledici rol oynamışdır və dünyanın aparıcı neft şirkəti olaraq BP şirkəti Azərbaycana, Azərbaycan iqtisadiyyatına çox böyük həcmdə sərmayə qoyubdur. Bu onu göstərir ki, bizim aramızda çox səmimi əlaqələr, qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı inam var. Biz bunu hiss edirik və görürük ki, BP şirkəti Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsinə çevrilibdir. Biz bunu çox yüksək qiymətləndiririk və çox şadıq ki, burada BP-ni təmsil edən insanlar bizimlə bərabər çox fəal işləyirlər və bu gün mən cənab Devid Vudvordun da xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Bütün başqa xarici neft şirkətlərinin nümayəndələrinin xidmətlərini qeyd edirəm və birgə fəaliyyətə görə onlara öz minnətdarlığımı bildirmək istəyirəm. Bizim aramızda çox gözəl münasibətlər var və xarici şirkətlərin Azərbaycanın bu gününə və sabahına da böyük inamı var. Əgər bu inam olmasaydı, heç vaxt Azərbaycana on milyardlarla dollar vəsait qoyulmazdı.

Bu gün Azərbaycan neftçilərinin də böyük bayramıdır. Mən bu bayram günündə bu yüksək kürsüdən Azərbaycan neftçilərini ürəkdən təbrik edirəm. Onlara salamlarımı çatdırmaq, öz hörmətimi bildirmək istəyirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bütün əməkdaşlarına öz səmimi salamlarımı çatdırıram. Layihələrin həyata keçirilməsində Azərbaycan Dövlət Neft Şirkətinin də müstəsna rolu olmuşdur və mən bunu çox yüksək qiymətləndirirəm. Fəxr edirəm ki, mənim də həyatımın böyük hissəsi - 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçmişdir. Mən bütün neftçilərə, burada iştirak edən neftçilərə, bizim xarici həmkarlarımıza və burada olmayan bütün neftçilərə öz hörmətimi, ehtiramımı bildirmək istəyirəm. O illər mənim həyatımda çox mühüm illər idi, mənim fəaliyyətim üçün çox faydalı idi və mən o günləri heç vaxt unutmayacaq, yaddan çıxarmayacağam. Fəxr edirəm ki, 1994-cü ildən mən də bu layihələrin həyata keçirilməsində öz əməyimi göstərmişəm.

Bu gün bayram günüdür, hamımız sevinirik.

Amma eyni zamanda, kədərli hisslər də keçiririk. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəmərinin memarı, təşəbbüskarı, Azərbaycanın neft strategiyasının təşəbbüskarı, müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev bizim aramızda deyildir. Onun uzaqgörənliyi, qətiyyəti, onun fəaliyyəti olmasaydı, əminəm ki, biz bütün bu uğurlara nail ola bilməzdik. O, çox istəyirdi, çox gözləyirdi ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri nə vaxt istismara veriləcəkdir. 2002-ci ilin sentyabr ayında elə bu Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməl qoyma mərasimi keçirilmişdir. O günü biz çox yaxşı xatırlayırıq. Heydər Əliyev ondan sonra dəfələrlə maraqlanırdı, soruşurdu ki, nə vaxt kəmər istismara veriləcək, hansı tarixdə işə başlayacaqdır. Ancaq tale ona nəsib etmədi ki, bu gün bizimlə bərabər olsun və bu günə sevinsin. Amma onun ideyaları yaşayır, siyasəti yaşayır, bu siyasət bu gün davam etdirilir, Azərbaycan xalqına böyük uğurlar gətirir və gələcəkdə də uğurlar gətirəcəkdir. Memarı, təşəbbüskarı Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan neft kəməri bu gün istismara verilir.

Əziz dostlar, bu gözəl bayram münasibətilə sizin hamınızı, Azərbaycan xalqını, türk xalqını, gürcü xalqını, bütün bizim dostlarımızı bir daha ürəkdən salamlayıram, sizə öz təbriklərimi çatdırıram. Arzu edirəm ki, bu kəmərin həyatı, fəaliyyəti uğurlu olsun, xalqlarımıza, bizim bölgəyə sülh, əmin-amanlıq, rifah, firavanlıq, xoşbəxtlik gətirsin.

Sağ olun.

## Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin nitqi

Hörmətli Cümhurbaşqanları!
Hörmətli nazirlər!
Dəyərli iştirakçılar!

Dost və qonşu ölkələrin hörmətli prezidentləri və nazirləri ilə birlikdə Azərbaycanda Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ilk bayramında iştirak etməkdən çox böyük sevinc hissi duyuram. Bu tarixi gündə qardaş və dost Azərbaycanda keçirilən tədbirə dəvət olunmağımdan böyük qürur hissi duyduğumu bildirirəm. Bu layihənin yaradıcılarından olan və onun həyata keçirilməsində tarixi rol oynamış, müasir Azərbaycanın qurucusu mərhum Heydər Əliyevin əziz xatirəsini hörmətlə yada salmaq istəyirəm.

Dünya üçün nümunə olan Səngəçal terminalında bir zaman xəyal kimi görünən, lakin bəşəriyyətin ən böyük enerji layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru xəttinə ilk neftin doldurulmasına çox böyük qürur hissi ilə şahidlik edirik. Bu layihənin həyata keçirilməsində əməyi olan bütün iştirakçılara səmimi qəlbdən təşəkkürümü bildirirəm.

Hörmətli prezidentlər!
Hörmətli nazirlər, iştirakçılar!

XXI yüzilliyin İpək yolu kimi adlandırılan Şərq-Qərb enerji dəhlizinin ən vacib elementi - Bakı-Tbilisi-Ceyhan neft kəməri bu regionun sabitliyi və inkişafı üçün çox böyük əhəmiyyət kəsb etməkdədir. Enerji təhlükəsizliyi sabitliyin və inkişafın əsas elementi kimi qarşımıza çıxmaqdadır. 2030-cu ilə qədər dünyada enerji istehlakı 60 faiz artacaqdır. Bu baxımdan Xəzər neftinin beynəlxalq bazarlara təhlükəsiz şəkildə nəqlini təmin edəcək Bakı-Tbilisi-Ceyhan boru kəmərinin həm regionda, həm də dünyada çox böyük rolu vardır. Bu boru kəməri Qərb bazarlarını Xəzər hövzəsinin nefti ilə təmin edəcəkdir ki, bu da xüsusi əhəmiyyətə malikdir.

Hər gün 1 milyon barrel və ildə 50 milyon ton həcmində neft daşıyacaq bu kəmər eyni zamanda, Türkiyə boğazları vasitəsilə nəql olunan təhlükəli yükləri azaldacaqdır. Bu layihənin həyata keçirilməsi Qafqazda çox böyük ehtiyac olan güclü işbirliyi şəbəkəsinin yaradılmasına öz töhfəsini vermişdir. Bakı-Tbilisi-Ceyhan boru kəməri eyni zamanda, Türkiyənin enerji siyasətinə də böyük miqyasda xidmət göstərəcəkdir. Ölkəmiz bu enerji mənbələrindən, geostrateji layihələrdən faydalanaraq, enerji istehlakçısı olan ölkələrə təhlükəsiz şəkildə neftin nəqlini təmin edəcəkdir. Türkiyənin məqsədi Ceyhan terminalını ticarət şəbəkəsinə çevirməkdir. Bakı-Tbilisi-Ceyhan layihəsi Türkiyənin bu məqsədlərə çatmasında çox mühüm bir mərhələdir.

Bu gün ilk nefti dolduracağımız boru kəmərinə Qazaxıstan neftinin də əlavə edilməsi onun əhəmiyyətini daha da artıracaq, Qazaxıstan neftinin çox əlverişli şəkildə Aralıq dənizinə çatdırılmasını təmin edəcəkdir. Bu baxımdam bu gün burada imzalanacaq sənədin çox böyük əhəmiyyəti vardır.

Hörmətli prezidentlər!
Hörmətli nazirlər, iştirakçılar!

Şərq-Qərb enerji dəhlizinin ikinci hissəsini təşkil edən Bakı-Tbilisi-Ərzurum qaz kəməri

layihəsinin həyata keçirilməsinin 2006-cı ildə başa çatmasını ürəkdən arzulayırıq. Türkiyə "Şahdəniz" layihəsində və digər layihələrdə iştirak etməyə böyük əhəmiyyət verir. Xəzərin təkindəki təbii qazın Avropa bazarlarna çatdırılması üçün Türkiyə-Yunanıstan-İtaliya təbii qaz boru kəməri ilə bağlı işlər də davam etməkdədir.

2030-cu ilə qədər 70-80 faiz genişlənməsi gözlənilən Avropa İttifaqı ölkələri üçün təbii qaz istehlakının bir hissəsinin "Şahdəniz" yatağından və digər mənbələrdən təmin olunması nəzərdə tutulur. Bu işdə Türkiyənin çox mühüm rolu vardır. Türkiyə təbii qazın Avropaya çatdırılmasında Rusiya, Norveç və Əlcəzairlə birlikdə Avropa İttifaqı üçün 4 əsas marşrutlardan birinə çevrilmişdir. Bununla birlikdə, Türkiyə Ceyhan terminalında maye təbii qaz terminalı yaratmaqla bölgənin yataqlarındakı təbii qazın ABŞ-ın şərq sahilindəki obyektlərə çatdırılmasını planlaşdırır.

Başqa bir layihə Şərq və Qərb arasında dəmir yol xəttinin çəkilməsi ilə əlaqədardır. Bunun sayəsində Qars-Tbilisi-Bakı dəmir yolu sadəcə Türkiyəni, Qafqaz və Orta Asiyanı bir-biri ilə birləşdirməklə kifayətlənməyəcək, tarixi İpək yolunu XXI əsrdə yenidən bərpa etmiş olacaqdır.

Türkiyə Şərq-Qərb enerji dəhlizi ilə yanaşı, Şimal-Cənub dəhlizi layihəsinə də çox böyük önəm verir. Türkiyə Avrasiya bölgəsində Xəzəri Aralıq dənizinə, Qara dənizi isə Orta Şərqə bağlayacaq bir mövqeyə malikdir. Ona görə də bölgənin inkişafına xidmət edəcək bütün layihələrə qoşulmağa hazırdır.

Türkiyənin enerji strategiyasının əsas hissələrindən biri də enerji bazarının sərbəstləşdirilməsindən, enerji sahəsində müasir qanunların qəbul edilməsindən ibarətdir. Bu işlərin görülməsi, eyni zamanda, xarici sərmayəçilər üçün də çox cəlbedicidir. Hazırda ölkəmizdə enerji istehlakı ildə 6-7 faiz artır. 2020-ci ilə qədər bunu təmin etmək üçün 120 milyard dollar sərmayə qoyuluşuna ehtiyac vardır. Buna görə də Türkiyə bazarı xarici sərmayəçilər üçün cəlbedici bir bazardır.

Son olaraq demək istəyirəm ki, Türkiyənin yaxın gələcəkdə həyata keçirəcəyi layihələrlə dünyaya enerji daşıyıcılarının təhlükəsiz şəkildə nəqlinə öz töhfəsini verməsi hər zaman vurğulanır. Bakı-Tbilisi-Ceyhan boru kəməri bu istiqamətdə çox böyük əhəmiyyətə malik olacaqdır.

Sözlərimi bitirərək demək istəyirəm ki, Səngəçal terminalının, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının rifahının yüksəlməsinə töhfə verəcəyinə əminəm.

Hamınızı bir daha salamlayır, sizə dərin təşəkkürümü bildirirəm.

## Gürcüstan Prezidenti Mixail Saakaşvilinin nitqi

Hörmətli həmkarlar!

Hörmətli qonaqlar!

Bilirsiniz ki, bu gun bizim üçün çox mühüm bir gündür. Həm mənim ölkəm, həm Azərbaycan, həm də Türkiyə üçün çox önəmli bir gündür. İnsanlar on il bundan əvvəl Bakıdan Gürcüstan vasitəsilə Aralıq dənizi sahilinə belə bir kəmərin çəkilməsini heç bir iqtisadi səmərəsi olmayan arzu kimi, reallaşmayan yuxu kimi gördülər.

Gürcüstanın, Türkiyənin Xəzər hövzəsindəki enerji resurslarının daşınması işinə olan dəstəyi nəticəsində çox böyük işlər görülmüşdür. Prezident Əliyevin bu işin başa çatmasında, yəni Azərbaycan neftinin bu yolu keçərək Türkiyəyə çatması üçün çox böyük rolu olmuşdur.

Mən bu işdə bizi dəstəkləyən dostumuz Amerika Birləşmiş Ştatlarının da fəaliyyətini yüksək qiymətləndirirəm. BP tərəfindən rəhbərlik edilən konsorsium Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçməsi, reallaşması üçün böyük işlər görmüşdür. Artıq bu reallıqdır. Bu reallıq nəticəsində neft dünya bazarlarına çıxarılır. Bu, elə bir əməkdaşlıqdır ki, bundan ölkələrimiz yararlanırlar. Burada tranzit ölkə olan Gürcüstan çox vacibdir.

Mən demək istəyirəm ki, Gürcüstan illər boyu, əsrlər boyu Asiya, Avropa və Yaxın Şərq arasında körpü rolunu oynamışdır. Amma bunun nəticəsində, belə bir coğrafi-siyasi mövqeyə malik olduğumuz üçün tarixən çox imperiyaların diqqət mərkəzində olmuşuq. İndi isə Gürcüstan elə bir yerə çevrilmişdir ki, dünyanın ən böyük enerji şirkətləri enerji təminatında və təhlükəsizliyində onun çox böyük rol oynadığını artıq qəbul etmişlər.

Biz belə düşünürük ki, bu gün enerji daşıyıcılarının nəqlində dəhliz rolunu oynamağımız vətəndaşlarımızın rifahının yüksəldilməsi işində çox böyük rol oynayacaqdır. Bilirsiniz ki, bu boru kəmərinin Gürcüstanın ərazisindən haradasa 239 kilometri keçir. Gürcüstan bunun vasitəsilə neftin həm Avropaya, həm də digər ölkələrə ötürülməsində ən vacib rol oynayan ölkə-

lərdən biridir. Gürcüstanın Mərkəzi Asiya ölkələrinə vacib məhsulların daşınmasında da böyük rolu vardır.

Bilirsiniz ki, biz indi Gürcüstandan Türkiyəyə gedən böyük bir dəmir yolu layihəsindən danışırıq. Biz daha böyük layihələrə hazırıq və yeni yollar açmaq istəyirik. Birinci növbədə çalışırıq ki, əvvəllər bağlanmış sərhədləri açaq, qapalı dövlət statusundan yaxa qurtaraq. Biz qapımızı açmaqla, infrastruktur qurmaqla özümüzü beynəlxalq cəmiyyətə açmaq istəyirik. Çalışırıq ki, bütün enerji işinə cəlb olunaq, cəmiyyətin hər bir üzvü, hər bir fərdi başqa ölkələrdə olan vətəndaşlarla əlaqə saxlaya bilsinlər. Bu bizim sabahımız, gələcək rifahımız üçün çox vacibdir. Artıq bu gün bu cür arzular həyata keçməkdə, reallaşmaqdadır. Məhz bu gün belə bir işin şahidi oluruq.

Artıq biz uzun əsrlər boyu davam edən qapalılıq mentalitetindən yaxa qurtarmaq istəyirik. Bu gün elə bir iş görmək istəyirik ki, onun nəticəsində bizim region, insanlar və dünya bu fəaliyyətdən yararlana bilsin.

Diqqətinizə görə çox sağ olun.

## Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün sizin hamınızı əlamətdar bir hadisə - Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə salınması münasibətilə təbrik etməkdən çox böyük şərəf hissi duyuram. Artıq Xəzər hövzəsindən boru kəməri işə salınır. Bu tikintinin başa çatması yeni bir səhifə açacaqdır. Bu sadəcə, müstəqil Azərbaycanın tarixində deyil, eyni zamanda bizim ölkələrin də tarixində yeni bir səhifə açacaqdır.

Xatırlatmaq istəyirəm ki, bu layihənin müvəffəqiyyəti çox böyük, dahi bir şəxsiyyətin nailiyyətidir və o, bizim qəlblərimizdə həmişə yaşayacaqdır. Onun haqqında bizim xatirələrimiz zəngindir və həmişə onu yada salacağıq. Bu dahi şəxsiyyət unudulmaz Heydər Əliyevdir. Mən onun işini bütün bu illər ərzində müşahidə etmişəm. Biz çox yaxşı bilirik ki, o, nə kimi səylər, cəhdlər göstərmişdir ki, bu boru kəməri layihəsi həyata keçirilsin. Hamı üçün aydındır ki, ilk addımları atmaq o qədər də asan deyildi. Xüsusilə, belə böyük layihələrlə bağlı ilk addımları atmaq o qədər də asan deyildir.

Çox sevindirici bir haldır ki, hazırda Azərbaycanın Prezidenti olan cənab İlham Əliyev əldə edilmiş nailiyyətlərin hamısını davam etdirmək iqtidarındadır. Qazaxıstan Azərbaycanın müvəffəqiyyətlərini çox böyük diqqətlə müşahidə edir. Bizə qonşu olan qardaş bir dövlətin, Azərbaycan xalqının bütün müvəffəqiyyətlərini yaxından müşahidə edir.

Qazaxıstan bu enerji sahəsinin inkişaf etdirilməsini istəyir və buna gələcəkdə iqtisadiyyatın dirçəldilməsinin əsas elementi kimi baxır. Qazaxıstanda neft və qazın ehtiyatları on milyardlarla ton həcmindədir. Biz bu ehtiyatların işlənməsinin gələcəyini düşünürük. Son il ərzində 60 milyon ton neft hasil olunmuşdur ki, bu da 2003-cü ilin göstəricisindən qat-qat yüksəkdir. Keçən il 21 milyard kubmetr qaz çıxarılmışdır. Bu, 2003-cü illə müqayisədə 1,5 dəfə artıqdır.

Xəzər hövzəsinin yataqlarında olan nefti hasil etməklə 2010-cu ildə Qazaxıstan neft çıxarılmasını artıracaq və 2015-ci ildə 150 milyon tona çatdıracaqdır. Qazaxıstanın coğrafi mövqeyi xüsusi şərtlər doğurur ki, bu da ixrac boru kəmərlərinin yaradılmasını labüd edir. Bizim qaz-neft sahəsinin inkişafında çox iri sərmayəçilərin iştirak etməsi, yəni ABŞ-ın, Avropanın, Rusiyanın, Çinin şirkətlərinin iştirak etməsi əməkdaşlığı beynəlxalq səviyyəyə çıxarır.

Qazaxıstan ixrac boru kəmərləri layihələrini coğrafi-siyasi əməkdaşlıq elementi kimi nəzərdən keçirir. Hazırda bəzi məsələlər ətrafında müzakirələr gedir. Bu məsələlər boru kəmərlərinin Rusiya ərazisindən çəkilişi barədədir.

Xəzər dənizinin yataqlarının işlənilməsinin genişləndirilməsi nəticəsində ildə 87 milyon ton neft ixrac etmək planlaşdırılır. Bu ilin dekabr ayında Çinə gedən boru kəmərinin tikintisi başa çatdırılacaqdır ki, bunun da uzunluğu 1000 kilometr olacaqdır. Onu başa çatdırandan sonra Qazaxıstan Qərbi Çinə ildə 20 milyon tona qədər neft ixrac edəcəkdir.

Əsas elementlərdən biri kimi, Bakı-Tbilisi-Ceyhan boru kəməri bizim ixrac potensialımızın artırılmasına xidmət edəcəkdir. Bu nöqteyi-nəzərdən qeyd etmək istərdim ki, hazırda Azərbaycan, Qazaxıstan neftinin ixracında etibarlı tərəfdaşımızdır. Biz buna uzun müddətdir hazırlaşmışıq. Aktauda müasir liman yaratmışıq. Qazaxıstanda neft terminalları tikilmişdir. Bundan əlavə, Xəzər dənizindən neftin nəql olunması üçün yeni tankerlər alınmışdır. Eyni zamanda, biz milli neft donanması haqqında düşünürük ki, bunun da nəticəsində Qazaxıstan nefti nəql ediləcəkdir. Hazırda 3 milyon tondan çox neft Bakı istiqamətində nəql

olunmuşdur. Keçən il Aktaudan Bakıya çox böyük miqdarda neft nəql edilmişdir. Lakin yeni layihənin həyata keçirilməsi ilə bu həcm getdikcə daha da artacaqdır.

İndi biz elə bir hadisəyə şahidlik edirik ki, bu, tarixə dönür. Bu bölgədə böyük ölkələrin strateji maraqları kəsişir. Buna görə də əlimizdən gələni etməliyik ki, Xəzər dənizi tarazlaşdırılmış, konstruktiv və məsuliyyətli məsələlərin həlli mərkəzinə çevrilsin.

Sizə məlum olduğu kimi, 1999-cu ilin noyabr ayında Qazaxıstan, Azərbaycan, ABŞ, Türkiyə və Gürcüstan prezidentləri bu layihənin başlanması üçün İstanbul Bəyannaməsini imzalamışlar. Biz görürük ki, bu səylər hazırda öz nəticəsini verir. Boru kəməri Qazaxıstan da daxil olmaqla, Xəzər dənizindəki, təbii sərvətlərin nəqlinə xidmət edir. Eyni zamanda bu bölgə ölkələrinin, xalqlarının inteqrasiyası üçün, sabitliyin bərqərar olunması, iqtisadi inkişaf üçün əsas yaradılmışdır.

Qazaxıstanın iqtisadi potensialı və onun tərəfdaşlarının potensialı, – onların arasında Azərbaycan da vardır, – bir daha göstərir ki, qarşımızda daha geniş əməkdaşlıq üfüqləri açılır. Mən sərmayəçiləri təbrik etmək istəyirəm ki, onlar bu nəhəng boru kəmərinin həyata keçirilməsinə vəsait xərcləmişlər.

Mən bu əlamətdar hadisə münasibətilə Azərbaycan Prezidenti cənab İlham Heydər oğlunu təbrik edirəm. Sizin xalqlarınızı təbrik edirəm.

Çox sağ olun.

### Böyük Britaniyanın Kral ailəsinin üzvü, York hersoqu şahzadə Endryunun çıxışı

Hörmətli Prezident!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən öz adımdan təbriklərimi çatdırmaq istəyirəm. Bu, Azərbaycan üçün çox mühüm bir andır. İlkin neftin Bakı-Tbilisi-Ceyhan neft kəmərinə doldurulması böyük bir strategiyanın, strateji baxışların təcəssümüdür. Heydər Əliyevin strateji baxışlarının təcəssümüdür.

Gürcüstan, Azərbaycan və Türkiyə son 10 il ərzində bu baxışları həyata keçirmək üçün birgə işləmişlər. Bu işdə ən yüksək texnologiyalardan istifadə olunmuş və yüksək keyfiyyətli, qlobal miqyaslı bir infrastruktur yaradılmışdır. Deyim ki, hətta son 25 il ərzində bu cür böyük tikinti, inşaat aparılmamışdır.

Mən Birləşmiş Krallığın beynəlxalq ticarət və sənaye üzrə xüsusi nümayəndəsi qismində bu tədbirə qatılmağıma görə çox şadam. Bilirəm ki, nəinki bizim şirkətlər və həm də bir çox digər xarici şirkətlər bu infrastrukturun inkişaf etdirilməsində böyük rol oynamışdır. Biz bilirik ki, Bakı-Tbilisi-Ceyhan Azərbaycanı, Gürcüstanı və Türkiyəni bir-birinə birləşdirir və onlar üçün dünya bazarlarına çıxışı təmin edir. Bu da Bosfor boğazında yük daşımalarındakı gərginliyin azaldılmasına müəyyən töhfə verəcəkdir.

Biz bilirik ki, bu üç ölkə nəinki dünya iqtisadiyyatına, eyni zamanda, qlobal təhlükəsizliyə öz töhfəsini verəcəkdir. Bu boru kəməri bütün Azərbaycan xalqı üçün və region üçün təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Məlumdur ki, bir çox ölkələrdə təbii sərvətlər var, lakin bunların hamısına diqqəti yönəltmək düzgün olmazdı. Azərbaycan neft hasil edən ölkələr arasında dünyada ilk olaraq hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulmuşdur. Bu da ölkədə neftdən əldə edilən gəlirlərin idarə edilməsində, şəffaflığın təmin olunmasında öz rolunu oynayacaqdır. Azərbaycan bu təşəbbüsə ilk olaraq qoşulmuşdur. Birləşmiş Krallıq bu baxımdan Azərbaycanın gələcəyi ilə bağlı planlarını çox yüksək səviyyədə görür və inanır ki, Azərbaycan gələcəkdə demokratik, tərəqqi edən güclü dövlətə çevriləcəkdir. Məncə, heç kim buna şübhə etmir ki, Azərbaycan gələcəkdə daha böyük nailiyyətlər əldə edə biləcəkdir. Mən əmin etmək istəyirəm ki, Birləşmiş Krallıq bu işlərdə həmişə sizin tərəfinizdə olacaqdır.

Sizi təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

### ABŞ-ın energetika naziri Samuel Bodmanın çıxışı

Hörmətli cənab prezidentlər!

Hörmətli xanımlar və cənablar!

Bu gün necə də gözəl bir gündür. Biz indi burada maddi cəhətdən dünyamızı dəyişirik və burada iştirak etmək mənim üçün çox şərəfdir.

Ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan layihəsi həddindən artıq əhəmiyyətli bir layihədir. Baxmayaraq ki, orada çoxlu texniki və maliyyə çətinlikləri vardı, lakin bu cür kəmərin tikintisi çox vacibdir. Çətin regionda, mühitdə belə işlərin görülməsi, xüsusilə kəmər boyunca yerləşən ərazilərdəki icmalar arasında bəzi problemlərin aradan qaldırılması asan iş deyildi. Əlbəttə, Azərbaycan, Türkiyə və Gürcüstanın

hökumətləri və vətəndaşları bu işə böyük töhfə vermişlər. Mən həmçinin BP, Yunokal və digər böyük şirkətlərə təşəkkür edirəm ki, onlar bu işi reallığa çatdırdılar.

Mən bu layihənin reallaşmasına Heydər Əliyev dəstəyini yada salmaq istəyirəm. Əgər onun köməyi olmasaydı, onun güclü iradəsi olmasaydı, sizi inandıra bilərəm ki, indi biz bu gün burada olmayacaqdıq. Bu, Azərbaycanın tarixində çox mühüm, hətta regionun tarixində çox mühüm bir məqamdır. Mən ona görə də ABŞ hökuməti, Birləşmiş Ştatların insanları adından bu layihənin həyata keçirilməsində əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Diqqətinizə görə çox sağ olun!

## Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Andris Pibalqsın çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən bu gün imkan əldə etdiyimə görə, bu çox mühüm və təntənəli mərasimdə Avropa Komissiyasının adından iştirak etməyimdən çox böyük qürur hissi duyuram. Hər şeydən əvvəl, mən bu çox vacib infrastrukturun tikintisinin başa çatması ilə əlaqədar hamınızı təbrik etmək istəyirəm. Əlbəttə ki, bu layihə bütün iştirak edən ölkələrin inkişafına, sabitliyinə xidmət edəcəkdir. Eyni zamanda, Avropaya və dünyaya enerji daşıyıcılarının nəqlinin təhlükəsiz bir şəkildə həyata keçirilməsinə xidmət edəcəkdir.

Mən Azərbaycan, Gürcüstan və Türkiyənin siyasi dairələrini təbrik etmək istəyirəm ki, onlar bu layihənin həyata keçməsində iştirak etmək üçün kifayət qədər şərait yaratmışlar. Eyni zamanda, bütün şirkətləri təbrik etmək istəyirəm ki, lazımi məsələlərin həllini vaxtında tapmaqla bu layihənin həyata keçirilməsinə xidmət etmişlər.

Hörmətli xanımlar və cənablar!

Keçən il Türkiyə Avropa İttifaqına daxil olmaq barədə danışıqlar aparacaq, Azərbaycanla Gürcüstan isə Avropanın yeni qonşuluq siyasətinə daxil olunmuşlar. Avropa İttifaqı bu ölkələrlə əməkdaşlıq əlaqələrini fəal şəkildə genişləndirir, təbii sərvətlərin Xəzər hövzəsindən dünya bazarlarına daşınması da daxil olmaqla, bütün sahələrdə daim öz siyasi və texniki yardımını əsirgəmir.

Bakı-Supsa boru kəməri ilə Avropanın və dünyanın digər ölkələrinin bazarlarına neft göndərilir. Bu gün açılışı olan kəmərlə ildə 50 milyon ton neft ixrac ediləcəkdir. Bakı-Tbilisi-Ceyhan layihəsinin bütün dünya bazarları üçün böyük əhəmiyyəti vardır. Avropa İttifaqı ona görə də karbohidrogenlərin təhlükəsiz bir şəraitdə nəql olunması baxımından bu layihənin böyük əhəmiyyətini qiymətləndirir. Çünki biz başa düşürük ki, ildə nəql olunacaq 50 milyon ton neft Bosfor boğazında gərginliyin azalmasına xidmət edəcəkdir.

Biz bir çox yerlərdə baş vermiş qəzaları yaxşı xatırlayırıq. Əlbəttə, biz heç düşünə bilmirik ki, Qara dənizdə belə bir qəza baş versə, onun nəticələri necə ola bilər. Avropa İttifaqının Xəzər hövzəsindəki fəaliyyəti, sadəcə, neft sektorundakı fəaliyyətlə kifayətlənmir. Mən Avropa İttifaqının Xəzər dənizi hövzəsi ölkələri və qonşu ölkələrin nazirləri arasında 2004-cü ilin noyabrında keçirdiyi görüşü xatırlatmaq istəyirəm. O görüş məhz Bakıda keçirilmişdi və Qafqazdan, Orta Asiya və Şərqi Asiyadan iştirak edən dövlətlər enerji sektorunda hüquqi və texniki standartları harmonizə etmək, yəni sabitləşdirmək, enerji daşıyıcıları təchizatının idarə olunmasını təşkil etmək, bu təchizat sahəsində təhlükəsizliyi təmin etmək barədə, əməkdaşlıq barədə razılığa gəlmişlər. Biz inanırıq, bu əməkdaşlıq çərçivəsi bizə uzunmüddətli işbirliyi yaratmağa imkan verəcək ki, Xəzər və Qara dənizlərindən karbohidrogenlər Avropa və dünya bazarlarına daşınmış olsun.

Sizi bir daha təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

## BP şirkətinin prezidenti Lord Con Braunun çıxışı

Zati-aliləri cənab Prezident Əliyev!

Cənab Prezident Nazarbayev!

Cənab Prezident Sezər!

Cənab Prezident Saakaşvili!

Hörmətli nazirlər, xanımlar və cənablar!

Mənim üçün bu gün burada iştirak etmək şərəfdir. Çünki bu, tarixin yaradılmasının bir anıdır. Bu, BP və onun tərəfdaşları üçün çox önəmli bir andır. Azərbaycan və onun xalqı üçün, bütün region üçün də tarixi bir andır. Azərbaycanın yüz illər bundan öncədən dünya neft sənayesində oynadığı mühüm rolun yenidən dirçəlməsi və bərpa olunması anıdır. Əgər siz neft, qaz sənayesinin dünyanı istilik və işıqla təmin etmək potensialı ilə bağlı 1859-cu ildə aparılmış akademik tədqiqat işlərinə baxsanız, orada görərsiniz ki, Bakının adı dünyada neft və qazın

mövcud olduğu sayca çox az yerlərdən biri kimi çəkilir. 100 il bundan öncə dünyanın neft təminatının yarısı bu regiondan gəlirdi. İndi, 2005-ci ildə Azərbaycan dünya sənayesinin ürəyində özünün mühüm rolunu yenidən bərpa edir.

Bu, BP üçün ilk başlanğıcın sonudur. Bu ilk başlanğıc demək olar ki, 10 ildən də əvvəl başlayıb və indi də davam edir. Bunun üçün mən Azərbaycan dövlətinə, hökumətinə, Prezident İlham Əliyevə və əlbəttə ki, dahi şəxsiyyət mərhum Heydər Əliyevə təşəkkür etmək istəyirəm. Məhz onun təsiri və nüfuzu sayəsində bu layihənin irəliləyişi mümkün olmuşdur. Mən Gürcüstan və Türkiyə hökumətlərinə, Avropa ölkələrinin hökumətlərinə və ABŞ hökumətinə təşəkkür edirəm. Azərbaycan Dövlət Neft Şirkəti də daxil olmaqla, digər bütün tərəfdaşlarımıza təşəkkür edirəm. Bu boru kəmərini Devid Vudvordun rəhbərliyi altında tikmiş bütün işçi heyətə təşəkkür edirəm.

On il əvvəl hamı deyirdi ki, bu boru kəmərinin tikintisi qeyri-mümkündür və çox çətindir. Bizim sənayemiz mümkün olan işi daha da genişləndirən bir biznesdir. Amma əgər çoxsaylı digər insanların razılığı və əməkdaşlığı olmasaydı biz bunların heç birini edə bilməzdik.

Bakı-Tbilisi-Ceyhan XXI əsrin ilk nəhəng infrastruktur layihələrindən biridir. Onun başa çatması əməkdaşlıq sayəsində nələrə nail olmağın mümkünlüyünü ifadə edən bir rəmzdir. Elə bir rəmzdir ki, o müxtəlif ölkələr, dövlətlər, xalqlar, milli şirkətlər və beynəlxalq biznes arasında əməkdaşlıq vasitəsilə nələrə nail olmağın mümkünlüyünü əks etdirir.

Biz həmçinin bilirik ki, təbii, ətraf mühitin qorunması üçün çox mühüm işlərdən biri də belə layihələrin həyata keçirilməsidir. Bakı-Tbilisi-Ceyhan dünya bazarına yeni neft həcmləri daşıyacaq bir layihədir.

Dediyim kimi, bugünkü tədbir ilk başlanğıcın sonudur, həmçinin yeni işlənmə mərhələsinin başlanğıcıdır. Bakı-Tbilisi-Ceyhan dünya bazarına yeni neft həcmləri daşıyacaq və göstərəcək ki, təminata nail olmağın ən yaxşı yolu təchizat mənbələri və ticarət marşrutlarının çoxsaylı olmasıdır. Bakı-Tbilisi-Ceyhan bu regiona resurslar gətirilməsinə kömək edəcəkdir. Sərmayə, gəlir və məşğulluq - bunların hamısı iqtisadi inkişaf və irəliləyiş üçün yeni imkanlar yaradacaq, yeni sərvət və imkanlar yaranacaq, bu regionun bütün insanları bundan bəhrələnəcəklər. Ümid edirik ki, həmin inkişaf üçün uzunmüddətli əsas olacaq və onu genişləndirmək üçün biz öz rolumuzu oynaya biləcəyik.

Bu cür layihələr onilliklərlə ölçülən, ömrü uzun olan layihələrdir. Ümidvaram ki, bu boru kəməri vasitəsilə yaranan əməkdaşlıq nümunəsi ilə biz milli dövlətlərin və özəl biznesin ümumi bir məqsəd uğrunda birgə işləməsinin şahidi olduq. Bunun sayəsində bacarıq və texnologiyanın birgə tətbiqi nələrə nail olmağın mümkünlüyünü nümayiş etdirdi.

Çox sağ olun.

## ARDNŞ-ın prezidenti Natiq Əliyevin çıxışı

Möhtərəm cənab Prezident!

Çox dəyərli qonaqlar, hörmətli xanımlar və cənablar!

Üç il öncə, 2002-ci ilin sentyabrın 18-də burada, Səngəçal terminalında, xalqımızın ümummilli lideri Heydər Əliyev Gürcüstan və Türkiyənin prezidentləri ilə birgə, Amerika Birləşmiş Ştatlarının energetika nazirinin, İngiltərə, Fransa, Norveç və başqa dövlətlərin nümayəndələrinin iştirakı ilə Xəzər regionunda XXI əsrin ən iri layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlini qoydu. Bu tarixi hadisə həm Azərbaycanın, həm də bütövlükdə Xəzər bölgəsinin neft və qaz yataqlarının zəngin potensialını hərəkətə gətirərək, yeni inkişaf mərhələsinə geniş yol açdı, xarici sərmayələrin axınının artırılmasına zəmin yaratdı, beynəlxalq əməkdaşlığı daha möhkəm və dönməz etdi.

O tarixi gündən sonra böyük və nəhəng işlər görüldü, eyni zamanda layihənin həyata keçirilməsi yolunda müxtəlif problemlər və çətinliklər oldu. Lakin buna baxmayaraq, Bakı-Tbilisi-Ceyhan boru kəməri əfsanədən reallığa çevrildi.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan hissəsinə ilk neftin daxil olması və onun istifadəyə verilməsi və bu tarixi hadisəyə həsr edilmiş təntənəli mərasim Heydər Əliyevin uzaqgörənliyinin, müdrikliyinin, xalqına sonsuz məhəbbətinin və yaratdığı yeni neft strategiyasının növbəti təntənəsidir.

Bu münasibətlə mən öz adımdan, bu layihədə iştirak edən çoxsaylı tərəfdaşlarımız adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və onun yaxın həmkarlarını – Türkiyə, Gürcüstan və Qazaxıstan prezi-dentlərini təbrik edir və onlara yeni-yeni qələbələr arzulayıram.

Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycanın böyük neftinin dünya bazarlarına nəqlidir. Buna nail olmaq üçün Azərbaycanın neft sənayesində bu vaxta

kimi görünməmiş böyük, nəhəng işlər getmiş, irimiqyaslı layihələr həyata keçirilmişdir.

Qısa bir müddətdə Azərbaycanda neft hasilatı kəskin surətdə artmışdır. 2005-ci ildə neft hasilatı 20 milyon tondan artıq gözlənilir. Bunun 11,5 milyon tonu “Azəri” və “Çıraq” yataqlarından çıxarılacaqdır. Bu il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Mərkəzi Azəri” platformasına səfər etdi və ilk neftin hasil olunmasını tarixi hadisə kimi qiymətləndirdi. Cari ildə bu platformadan 35 milyon barrel və ya təxminən 5 milyon ton xam neft hasil olunacaqdır. Orta hesabla gündə “Mərkəzi Azəri” platformasından 93 min barrel və “Çıraq-1" platformasından 145 min barrel neft hasilatı nəzərə alınmaqla, təkcə bu iki platformadan gündəlik hasilat təxminən 240 min barrel təşkil edir. Bu isə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ümumi gücünün dörddə birinə bərabərdir.

"Mərkəzi Azəri"də işlər sürətlə davam edir. Kompressor və suvurma platformasının inşası 92 faiz yerinə yetirilib və bu ilin üçüncü rübündə dayaq blokunun üstündə quraşdırılacaqdır.

"Qərbi Azəri"də öncə dörd qabaqlayıcı quyu qazılmış və gözlədiyimizdən daha yaxşı nəticələr vermişdir. "Qərbi Azəri"nin dayaq bloku artıq dənizdə öz nöqtəsində quraşdırılmışdır. Üst modulların inşası 93 faiz tamamlanıb və dördüncü rübdə dayaq blokunun üstündə quraşdırılıb istifadəyə veriləcəkdir.

"Şərqi Azəri" yatağının işlənilməsi üçün platformanın tikintisi 67 faiz yerinə yetirilib, gələn ilin ikinci rübündə tikintisi başa çatacaqdır.

Səngəçal terminalı öz həcminə, texniki və texnoloyi xüsusiyyətlərinə görə dünyada bu qəbildən olan obyektlərdən ən irisi hesab olunur. Artıq “Azəri-Çıraq-Günəşli” yataqlarının tammiqyaslı işlənilməsinin birinci mərhələsində xam neftin və qazın qəbulu, nəqli üçün tikinti işləri 100 faiz görülmüş və obyektlər istifadəyə verilmişdir. İkinci mərhələsi üçün isə tikinti işləri 65,4 faiz yerinə yetirilmişdir.

“Şahdəniz” yatağının işlənilməsi və Cənubi Qafqaz boru kəməri layihələri də uğurla həyata keçirilir. Ən müasir standartlara cavab verən TPG-500 platforması 2006-cı ilin aprel ayında istifadəyə veriləcək, Səngəçal terminalında “Şahdəniz” qazının qəbulu, emalı və nəqli üçün qurğuların tikilməsi gələn ilin may ayında tamamlanacaqdır.

Cənubi Qafqaz boru kəməri 2006-cı ilin avqust ayında istismara veriləcək, Azərbaycan qazını 2006-cı ilin sentyabr ayında Türkiyəyə çatdıracaqdır.

Gördüyümüz işlərin nəticəsində həm Azərbaycanın, həm də qardaş Gürcüstan və Türkiyənin xam neft və qazla təmin olunmasına, elektrik enerjisinin istehsalına əlverişli şərait və imkan yaradılır.

Şübhə yoxdur ki, bu enerji daşıyıcıları regionun bütün ölkələrinə yeni həyat enerjisi verəcək və iqtisadiyyatın inkişafını təmin edəcəkdir. Bunun əsası və bünövrəsi isə Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməridir.

Bakı-Tbilisi-Ceyhan kəməri Xəzərlə Aralıq dənizi arasında ilk və Türkiyə boğazlarından yan keçən birbaşa nəqliyyat xəttidir. Kəmər dünya bazarını gündə 1 milyon barrel xam neftlə təchiz edəcəkdir. Bu dünyanın bugünkü tələbatının 1,3 faizinə bərabərdir, 2007-2008-ci illərdə isə dünyanın artan neftə ümumi tələbatının 25 faizini təmin edəcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft boru kəməri neft hasil edən Xəzəryanı ölkələr üçün də yeni imkanlar yaradır. Bu kəmər vasitəsilə ildə təxminən 20-25 milyon ton Qazaxıstan neftinin nəql olunması barədə planlar nəzərə alınıbdır. Bununla əlaqədar Transxəzər sisteminin yaradılması haqqında Qazaxıstan və Azərbaycan arasında Saziş hazırlanmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə təqdim edilmişdir.

Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisi başa çatır və ən məsuliyyətli mərhələsindədir. Tikintiyə minlərlə insan cəlb olunub, işlərin ən qızğın çağında 22 mindən artıq işçi çalışıbdır. Üç ölkənin dövlət başçılarının bilavasitə rəhbərliyi və ciddi nəzarəti ilə böyük işlər görülmüşdür. Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu layihəyə daim diqqət yetirib, çoxsaylı görüşlər və danışıqlar aparıb, işlərin gedişi ilə maraqlanıb, ortaya çıxan problemlərin və çətinliklərin aradan götürülməsində şəxsən özü əvəzsiz səylər göstərib, dəyərli yardımını əsirgəməyibdir.

2004-cü il iyunun 8-də Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinin gedişi ilə tanış olmuş, kəmərin Yevlax rayonundan keçən hissəsində və burada yerləşən nasos-kompressor stansiyasının quraşdırılmasında görülən işləri izləmiş, öz tapşırıqlarını və məsləhətlərini vermişdir. 2004-cü il oktyabr ayının 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail

Saakaşvili Ağstafa rayonunda Bakı-Tbilisi-Ceyhan kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişlər.

Bu fürsətdən istifadə edərək, mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Gürcüstan Prezidenti Mixail Saakaşviliyə, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərə gərgin əməklərinə və xidmətlərinə görə təşəkkür edir və dərin minnətdarlığımı bildirirəm.

Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinə bir zaman inanmayan, əleyhinə olan və müxtəlif uydurmalar, şayiələr, böhtanlar yayan, guya "vətənini sevən və onun inkişafı uğrunda çalışan" müxalif qüvvələrin və xaricdə olan bəzi dairələrin və qurumların səylərinə baxmayaraq, artıq kəmər istifadəyə verildi.

Azərbaycan Avropa və Asiya arasında əlaqələrin genişləndirilməsində, nəqliyyat və enerji dəhlizinin inkişafında, İNOGEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilir.

Respublika və xalqımız bu gün bayram əhval-ruhiyyəsindədir. Ümummilli liderimiz Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nailiyyətlər qazanır, zəfər çalır.

Bakı neftinə uğurlu yol! Ceyhanda görüşənədək!

Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvordun çıxışı

Zati-aliləri cənab Prezident İlham Əliyev!

Zati-aliləri cənab prezidentlər!

Hörmətli xanımlar və cənablar!

Bu gün Səngəçal terminalında ən əlamətdar hadisə münasibətilə çıxış etmək mənim üçün böyük şərəfdir. Burada çoxsaylı ölkələrin, şirkətlərin və təşkilatların təmsil olunması bugünkü tədbirin nə qədər mühüm olduğunu bir daha sübut edir. Mərkəzi Azəridən hasilatın başlanması "Azəri-Çıraq-Günəşli" layihəsinin tammiqyaslı işlənməsinin yalnız birinci mərhələsidir. Biz üzümüzə gələn illər ərzində ikinci və üçüncü mərhələləri başa çatdırdıqca, "Azəri-Çıraq-Günəşli" yataqlarının gündəlik hasilatı 2008-ci ilə qədər bir milyon barreldən çox olacaqdır. Bu isə o deməkdir ki, dünyanın gözlənilən yeni neft tələbatının 25 faizini bu layihələr təmin edəcəkdir.

Bu gün bizim burada olduğumuz Səngəçal terminalı genişləndirilmişdir ki, həmin nefti qəbul edə bilsin. Bu, dünyanın ən böyük neft və qaz terminallarından biridir. Tam hazır olduqda bu obyekt "Azəri-Çıraq-Günəşli" yataqlarından gündə bir milyon barrel neft, "Şahdəniz"in birinci mərhələsindən isə gündə 900 milyon kubmetr qaz qəbul edəcəkdir. Bakı-Tbilisi-Ceyhan kəmərinin əsas nasos stansiyası da burada yerləşir. Terminal Xəzərin şərq tərəfindən gələcək nefti də qəbul edəcəkdir. Bu isə onu göstərir ki, bu terminal ən böyük regional neft və qaz nəqli mərkəzinə çevriləcəkdir. Bu layihələrin hamısının birlikdə tələb olunan sərmayəsi 14 milyard dollardan çox olacaqdır.

Uzunluğu 1770 kilometr olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin ümumi dəyəri isə 3 milyard dollardan bir qədər artıqdır. Bu boru kəməri heyranedici texniki nailiyyətdir. O, Xəzər dənizindən Aralıq dənizinə qədər 3 min metr hündürlüyündə dağlardan, 1500 çay keçidindən və 7 seysmik zonadan keçir. Bu il, bir müddət sonra Ceyhan terminalından ilk tankeri yola salarkən bir daha dünyaya göstərəcəyik ki, biz Xəzər neftini onsuz da çox yüklənmiş və ekoloji cəhətdən həssas olan Türkiyə boğazlarından yan ötməklə dünya bazarlarına çatdıra bilirik.

"Şahdəniz" yatağının istismarına da tezliklə, gələn il başlanacaqdır. Əminik ki, bundan sonra Azərbaycan, Gürcüstan və Türkiyə Cənubi Qafqaz boru kəməri vasitəsilə qazla təmin ediləcəkdir.

Bunların hamısı çox böyük nailiyyətdir. Amma ən böyük nailiyyət və ən əlamətdar olanı odur ki, bu obyektlərin hamısı dünyanın ən yüksək texniki, texnoloji və ətraf mühitin qorunması standartlarına riayət etməklə tikilmişdir. Bununla da biz öz əməliyyatlarımızda ətraf mühitə təsiri, habelə inşaat dövründə də tikinti işlərinin təsirini minimuma endirməyə nail olmuşuq.

Biz çox ciddi işləmişik ki, boru kəməri boyunca yaşayan əhaliyə, bizim yaxın qonşularımıza heç bir ziyan vurmayaq, əksinə, onlara xeyir verməyi, mənfəət gətirməyi təmin edək. Tikintinin həmin əhaliyə təsirini minimuma endirmək üçün çox işlər görmüşük və səylər göstərmişik. Tikinti işləri ilə bağlı Bakıdan Ceyhana qədər bir nəfər də olsun öz evindən köçürülməmişdir. Torpaq sahiblərinə yaxşı kompensasiyalar verilmişdir. Genişmiqyaslı ictimai sərmayə proqramları həyata keçirilir, məktəblər, klinikalar tikilir, nümunəvi təsərrüfatlar yaradı-

lır, mikromaliyyələşmə layihələri həyata keçirilir ki, əhaliyə öz səriştəsini artırmaqda kömək etsin.

Biz yerli ehtiyatlardan maksimum istifadə etmişik. Xərclədiyimiz pulların təqribən 30 faizi yerli şəraitdə, yəni Azərbaycanda xərclənir. Biz həmçinin şəffaflığın ən yüksək səviyyəsinə nail olmuşuq. Təkcə bu layihələr üzrə bağlanmış sazişləri açıqlamamış, həm də yerli qeyri-hökumət təşkilatlarının bizim işlərimizdə iştirakını təmin etmişik. Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin rəhbərliyi və dəstəyi olmadan bunların heç biri həyata keçməzdi.

Mən xüsusilə Prezident Heydər Əliyevin rəhbərliyini qeyd etmək istəyirəm. Məhz o, on il bundan əvvəl "Əsrin müqaviləsi"ni imzalamışdır. İndi isə, on il sonra, növbəti əsrdə biz onun arzusunu həyata keçirən bir tədbirdəyik. Mən həmçinin Azərbaycan Dövlət Neft Şirkətinə və bizim digər tərəfdaşlarımıza - Yunokal, Statoyl, İnpeks, Türk Petrolları, EksonMobil, Devon, İtoçu, Amerada Hess, Total, Eni KonokoFillips və başqa şirkətlərə təşəkkürümü bildirirəm.

Mən xüsusilə Azərbaycan Dövlət Neft Şirkətinin əməyini qeyd etmək istəyirəm. Onların bizə olan dəstəyi və yardımı olmasaydı, çox güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin heç biri uğurlu ola bilməzdi.

Mən layihəyə kredit vermiş təşkilatların - Beynəlxalq Maliyyə Korporasiyasının, Avropa Yenidənqurma və İnkişaf Bankının da yardımını qeyd etmək istəyirəm. Bizim bugünkü bayramımız çox qarşılıqlı bir nailiyyəti ifadə edir və bunun gələcək illərdə də davam edəcəyini gözləyirik.

Biz həmçinin bilirik ki, bu layihə son dərəcə mürəkkəb bir layihədir. Mən öz işçilərimizə təşəkkür etmək istəyirəm. Onlar bu mürəkkəb işin öhdəsindən peşəkarlıqla gəlmişlər və ilk yolaçanlar kimi böyük rol oynamışlar. Bir sözlə, mümkün olmayanı mümkün edən tərəfdaşların hamısının bu işdə böyük əməyi vardır. Ona görə də sözümün sonunda bugünkü bayramı mümkün etmiş bütün insanlara, tədbirdə iştirak edənlərin hamısına təşəkkür edirik. Hamınıza minnətdarıq.

Bu əlamətdar günün rəmzi olaraq hədiyyələr veririk ki, bu tarixi gündən gözəl xatirəniz qalsın.

Çox sağ olun.

**"AzərTAC" 25.05.05**

## Qars-Axalkalaki-Tbilisi-Bakı birləşdirici dəmir yolu xətti layihəsi haqqında Bəyannamənin və Şərq-Qərb enerji dəhlizinin inkişaf etdirilməsi və genişləndirilməsi haqqında Bakı Bəyannaməsinin imzalanması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər Azərbaycan, Gürcüstan və Türkiyə arasında Qars-Axalkalaki-Tbilisi-Bakı birləşdirici dəmir yolu xətti layihəsi haqqında Bəyannaməni imzaladılar.

Şərq-Qərb enerji nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və genişləndirilməsi haqqında Bakı Bəyannaməsini isə Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Gürcüstan tərəfindən xarici işlər naziri xanım Salome Zurabişvili, Qazaxıstan tərəfindən xarici işlər naziri Qasımcomərd Tokayev, Türkiyə tərəfindən energetika və təbii sərvətlər naziri Hilmi Gülər, ABŞ tərəfindən energetika naziri Samuel Bodman imzaladılar.

### İmzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mərasim başa çatır. Sizin hamınıza bu mərasimdə iştirak etdiyiniz üçün bir daha öz təşəkkürümü, minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün çox önəmli sənədlər də imzalandı. Əminəm ki, Bakı Bəyannaməsi bizim gələcək əməkdaşlığımız üçün çox gözəl şərait yaradacaqdır. Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu isə regionda gedən əməkdaşlıq meyillərini daha da gücləndirəcəkdir.

Bu gün burada çıxış edən bütün şəxslərə dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda, bizi təbrik etmiş dostlarımıza da öz təşəkkürümü bildirirəm. Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Corc Buşa, Fransa Prezidenti cənab Jak Şiraka, Ukrayna Prezidenti cənab Viktor Yuşşenkoya, Böyük Britaniyanın



Baş naziri cənab Toni Bleyerə, İtaliya Nazirlər Şurasının Sədri cənab Silvio Berluskoniyə, Norveç Krallığının Baş naziri cənab Kyel Maqne Bundevikə, Yaponiyanın Baş naziri cənab Dzünitiro Koidzumiyə öz təşəkkürümü bildirirəm.

Eyni zamanda bildirmək istəyirəm ki, bizim ünvanımıza çoxlu digər təbrik məktubları da gəlmişdir. Bütün bu məktublara görə mən Azərbaycan dövləti adından öz minnətdarlığımı bildirirəm.

Ümumiyyətlə, bu gün bu sevinci bizimlə bölüşən bütün insanlara minnətdaram. Bu gün Azərbaycan nefti Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə Heydər Əliyevin adını daşıyan Ceyhan terminalı istiqamətinə göndərilir.

Uğurlu olsun, xeyirli olsun! Sizi bir daha ürəkdən təbrik edirəm. Sağ olun.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, BP şirkətinin prezidenti lord Con Braun Heydər Əliyev adına Bakı-Tbili-




si-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinə ilk nefti doldurmaq üçün dəvət olundular. Onlar ulu öndərin adını daşıyan neft kəmərinin sürgüsünü açdılar və ilk neft boruya axdı.

Azərbaycanın dövlət himni əzəmətlə səsləndi. Bununla da üç dənizin əfsanəsi - Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri gerçəkləşdi. Ümummilli lider Heydər Əliyevin işləyib hazırladığı Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsində ən əlamətdar hadisələrdən biri tarixin səhifəsinə qızıl hərflərlə yazıldı.

**"AzərTAC" 25.05.05**



# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN DİPLOMATİK FƏALİYYƏTİ

## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN SƏFƏRLƏRİ

### 3-5/04/05 - Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Oman Sultanlığına rəsmi səfəri

Xarici işlər naziri Elmar Məmmədyarov aprelin 3-dən 5-dək Oman Sultanlığında rəsmi səfərdə olmuşdur.

Aprelin 4-də Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Oman Sultanlığı Baş nazirinin müavini Fəhd bin Mahmud əl-Səid, müdafiə məsələləri üzrə məsul nazir Bədr bin Səid bin Harib, xarici işlər üzrə məsul nazir Yusif bin Ələvi, neft və qaz naziri Məhəmməd bin Həməd ər-Runhi, mədəniyyət və milli irs naziri Heysam əl-Səid ilə görüşmüşdür.

Nazir E.Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Oman Sultanı Qabus bin Səid əl-Səidə məktubunu baş nazirin müavini Fəhd bin Mahmud əl-Səidə təqdim etmişdir.

Görüşlərdə ölkələrimiz arasında mövcud siyasi münasibətlərin yüksək səviyyədə olduğu qeyd edilmiş, eyni zamanda iqtisadi və humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsi yolları ətrafında fikir mübadiləsi aparılmışdır. Danışıqlarda Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söhbət açılmış və Omanın Azərbaycanın haqq işini daim dəstəklədiyi, Ermənistanın təcavüzünü qəti surətdə pislədiyi və münaqişənin həlli istiqamətində Azərbaycan rəhbərliyinin göstərdiyi səylərin yüksək qiymətləndirildiyi bildirilmişdir.

Xarici işlər üzrə məsul nazir ilə danışıqların sonunda Azərbaycan Respu-blikasının Xarici İşlər Nazirliyi ilə Oman Xarici İşlər Nazirliyi arasında "Məsləhətləşmələr Haqqında Anlaşma memorandumu" imzalanmışdır.

Bütün görüşlərdə ölkələrimizin bir çox beynəlxalq və regional problemlərə dair mövqelərinin üst-üstə düşdüyü vurğulanmışdır. Azərbaycan Respublikası ilə Oman Sultanlığı arasında Cənub-Şimal dəhlizi layihəsi çərçivəsində əməkdaşlığın perspektivləri, neft, energetika və digər sahələrdə təcrübə və mütəxəssis mübadiləsi barədə müzakirələr aparılmışdır. Tərəflər arasında qarşılıqlı surətdə mədəniyyət günlərinin keçirilməsinə dair razılıq əldə olunmuşdur.

Aprelin 5-də xarici işlər naziri Elmar Məmmədyarov Oman Ticarət və Sənaye Palatasının sədri Səlim bin Səid əl-Gutami ilə görüşmüş, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasına, müqavilə-hüquq bazasının gücləndirilməsinə dair müzakirələr aparmışdır. Nazir, həmçinin Omanın Əl-Rəcil bölgəsinə getmiş və buradakı sənaye müəssisələrinin işi ilə tanış olmuşdur.

**XİN-in Mətbuat Mərkəzinin**
**06.04.05 tarixli məlumatı**

### 6-7/04/05 - Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun aprelin 5-dən Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfəri başlamışdır.

Nazir aprelin 6-da BƏƏ-nin xarici işlər naziri Raşid Abdulla Əl-Nueymi ilə görüşündə ölkələrimiz arasında mövcud siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirmiş, iqtisadi və humanitar sahələrdə inkişaf etməkdə olan münasibətlərin daha da genişləndirilməsi və bu əməkdaşlığın müqavilə-hüquq bazasının gücləndirilməsi yolları ətrafında fikir mübadiləsi aparmışdır.

Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə söhbət açmış və BƏƏ rəsmisi ölkəsinin daim Azərbaycanın haqq işini dəstəklədiyini və Ermənistanın respublikamıza qarşı təcavüzünü qəti surətdə pislədiyini bəyan etmişdir.

BƏƏ tərəfindən Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsinə, Ermənistanın Azərbaycana qarşı təcavüzünün pislənməsinə və öz doğma yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərə göstərdiyi humanitar yardıma görə minnətdarlığını ifadə edən nazir Elmar Məmmədyarov respublikamızda həyata keçirilən islahatlar, neft və energetika sahəsində əldə olunmuş nailiyyətlər, habelə qeyri-neft sektoru, xüsusilə də turizm, kənd təsərrüfatı sahələrinin inkişafı istiqamətində görülən işlər barədə ətraflı məlumat vermişdir.

Azərbaycanın xarici siyasət idarəsinin başçısı həmkarına Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tezliklə işə salınacağı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin, habelə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası barədə danışmış, Rusiya, Azərbaycan, İran, Oman, Hindistan dövlətlərinin Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi çərçivəsində əməkdaşlıq etdiyini vurğulamış, habelə Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması istiqamətində müvafiq işlər görüldüyünü diqqətə çatdırmışdır.

Həmin gün BƏƏ-nin iqtisadiyyat və planlaşdırma naziri xanım Lübnə bin Xalid Əl-Qasimi ilə keçirilən görüşdə ikitərəfli iqtisadi inkişafın perspektivləri, ölkələrimiz arasında neft, energetika və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsi barədə müzakirələr aparılmışdır. Tərəflər Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında mövcud olan ticarət dövriyyəsinin artırılmasının vacibliyini vurğulayaraq, iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi baxımından hökumətlərarası müştərək komissiyanın yaradılmasının mühüm əhəmiyyət daşıdığını söyləmişlər.

Nazir Elmar Məmmədyarov Azərbaycanın regionun bir çox sosial-iqtisadi layihələrində fəal iştirak etdiyini bildirərək, son on il ərzində neft və energetika sahələrində qazanılan nailiyyətlər barədə məlumat vermiş, qarşılıqlı biznes forumların keçirilməsinin hər iki ölkənin sərmayə mühiti ilə tanışlıq baxımından mühüm rol oynadığını nəzərə çarpdırmışdır.

Xarici işlər naziri Elmar Məmmədyarov aprelin 6-da BƏƏ-nin Strateji Araşdırmalar və Tədqiqatlar Mərkəzində “Azərbaycan çağdaş dünyada” mövzusunda mühazirə oxumuşdur. Mühazirəni BƏƏ-də akkreditə olunmuş bir çox diplomatik nümayəndəliklərin başçıları, siyasi şərhçilər, informasiya agentliklərinin nümayəndələri və geniş oxucu auditoriyasına malik olan qəzetlərin müxbirləri dinləmişlər.

Nazir Elmar Məmmədyarov çıxışında müstəqillik qazandıqdan sonra Azərbaycanda həyata keçirilən islahatlar, neft və energetika sahəsində əldə olunmuş nailiyyətlər, respublikamızın xarici siyasəti, qonşularla münasibəti, Ermənistanın Azərbaycana təcavüzü, bu işğalın ağır nəticələri və hazırda münaqişənin sülh yolu ilə həlli istiqamətində Azərbaycan rəhbərliyinin göstərdiyi səylər barədə ətraflı məlumat vermişdir.

Həmin gün Elmar Məmmədyarov və onu müşayiət edən nümayəndə heyəti BƏƏ-nin banisi və mərhum Prezidenti Şeyx Zaid bin Sultan Al-Nəhyan adına məscidə gəlmiş və orada mərhumun qəbrini ziyarət etmişdir. Mərhumun ruhuna dualar oxunmuşdur.

Xarici işlər naziri Elmar Məmmədyarov xatirə kitabına ürək sözlərini yazmışdır.

Aprelin 7-də nazir Elmar Məmmədyarov BƏƏ-nin KİV nümayəndələri ilə keçirdiyi görüşdən sonra bu ölkəyə səfərini başa çatdırmışdır.

**XİN-in Mətbuat Mərkəzinin
08.04.05 tarixli məlumatı**



### 29-30/04/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Çili Respublikasında keçirilən Demokratiya Cəmiyyəti üzrə xarici işlər nazirlərinin 3-cü konfransında iştirakı

2005-ci ilin aprel ayının 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Çili Respublikasına səfər etmişdir. Səfərdə məqsəd demokratiya cəmiyyəti üzrə xarici işlər nazirlərinin 3-cü konfransında iştirak etməkdən ibarət olmuşdur. 75 ölkənin qatıldığı konfransda nazir Elmar Məmmədyarov məruzə ilə çıxış etmişdir. O, öz məruzəsində Azərbaycanda demokratiyaya keçidin və ümumi dəyərlərə sadiqliyin demokratik inkişaf üçün təkcə imkanların deyil, həm də ciddi çağırışlar gətirən bir proses olduğunu bildirmişdir.

O, məhkəmənin müstəqilliyi, siyasi mədəniyyətin inkişafı, insan hüquqları və təhsilin inkişafı, vətəndaş cəmiyyətinin dəstəklənməsi ilə demokratik sabitliyin gücləndirilməsi, insan hüquqlarının qorunmasına xidmət edən cavabdehliyin və cəmiyyətdə şəffaflığın artırılması

istiqamətində daha böyük tərəqqiyə nail olmaq üçün ölkəsinin sistemli şəkildə məqsədyönlü addımlar atdığını önə çəkmişdir. Regional əməkdaşlığa gəlincə, nazir Elmar Məmmədyarov ölkəsinin GÜÖAM dövlətləri arasında regional əməkdaşlığın gücləndirilməsinə əhəmiyyət verdiyini və bu çərçivədə əməkdaşlığın genişləndirilməsinin, həmçinin bu istiqamətdə səylərin beynəlxalq səviyyədə dəstəklənməsinin bu ölkələrdə gedən demokratik proseslərin inkişafına təkan verəcəyinə, regionun təhlükəsizliyinin və sabitliyinin təmin olunacağına xidmət edəcəyinə əminliyini ifadə etmişdir. GÜÖAM-a daxil olan dövlətlərin üçündə dondurulmuş və hələ də öz həllini tapmamış münaqişələrə toxunan xarici siyasət idarəsinin başçısı bu dövlətlərin ərazi bütövlüyünün pozulmasının bütövlükdə regionun təhlükəsizliyinə və sabitliyinə təhlükə törətdiyini, qlobal əhəmiyyətli nəqliyyat layihələrinin reallaşdırılmasına maneə olduğunu xüsusilə vurğulamışdır. O, həmçinin münaqişələrin həll olunmamasının tammiqyaslı demokratik quruculuğa əngəl törətdiyini və hazırda Avropada gedən inteqrasiya proseslərinə mənfi təsir göstərdiyini də çıxışında önə çəkmişdir.

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə konfrans iştirakçılarına məlumat verən nazir Elmar Məmmədyarov güc tətbiqinin təkcə beynəlxalq səviyyədə qəbul edilmiş davranış qaydalarının pozulması olduğu deyil, ümumilikdə demokratik norma və prinsiplərə etinasızlığın göstəricisi olduğunu diqqətə çatdırmışdır. İnsan hüquqlarına hörmətin demokratiyanın başlıca meyarı olduğunu xüsusilə vurğulayan nazir, vasitəçilik missiyasını öz üzərinə götürən dövlətlərin və beynəlxalq təşkilatların birgə səyləri nəticəsində nəzarətdən kənarda qalan ərazilərin onların məxsus olduqları dövlətlərə birləşdirilməsinin, qaçqın və məcburi köçkünlərin hüquqlarının bərpa edilməsinin vacibliyini diqqətə çatdırmışdır.

Konfransın sonunda Azərbaycan tərəfinin dondurulmuş münaqişələrlə bağlı çıxışının nəticəsi olaraq yekun sənədə bənd əlavə edilmişdir. Qeyd edilmişdir ki, demokratiya cəmiyyəti regional təşkilatlarla birgə demokratiyaya olan təhlükənin qarşısının alınması məqsədilə ümumi diplomatik strategiyaları əlaqələndirməli, dünyada ağır və dondurulmuş münaqişələrin sülh yolu ilə həll edilməsi məqsədilə ikitərəfli və çoxtərəfli səylərin intensivləşdirilməsi üçün xüsusi səylər göstərməlidir.

Elə həmin gün konfrans çərçivəsində nazir Elmar Məmmədyarov ABŞ Dövlət katibi xanım Kondoliza Raysla görüşmüş, Amerika-Azərbaycan münasibətlərinin gələcək perspektivləri, əməkdaşlığın möhkəmləndirilməsi, enerji sahəsindəki əməkdaşlıq və may ayının 25-də Bakı – Tbilisi – Ceyhan neft kəmərinin açılış mərasimində Azərbaycana gələcək yüksək rəsmili ABŞ nümayəndə heyətinin səfəri ilə bağlı fikir mübadiləsi aparmışdır. Görüş zamanı nazir Elmar Məmmədyarov xanım Raysı Azərbaycana dəvət etmiş, o da öz növbəsində dəvəti məmnuniyyətlə qəbul etmişdir. Konfransdan sonra nazir Elmar Məmmədyarov Xorvatiyadan və Çili Respublikasından olan həmkarları ilə görüşmüş, qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparmışdır. Çili diplomatiya akademiyasının rektoru ilə görüşü zamanı azərbaycanlı diplomatların gələcəkdə bu diplomatiya akademiyasında təhsil almaq imkanı məsələlərini müzakirə etmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarov may ayının 1-də vətənə dönmüşdür.

**XİN-in Mətbuat Mərkəzinin**
**02.05.05 tarixli məlumatı**

## 15-16/06/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Strasburqa işgüzar səfəri

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iyunun 15-16-da Strasburqda işgüzar səfərdə olmuşdur.

Səfər çərçivəsində Avropa Şurasının Baş katibi Terri Devis, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Baş katibi Bruno Haller və AŞPA katibliyinin Baş direktoru Mateo Sorinas, eləcə də Avropa Şurası nazirlər komitəsinin Azərbaycan və Ermənistan üzrə monitorinq qrupunun (Aqo) üzvləri ilə görüşlər keçirilmişdir.

Avropa Şurasının Baş katibi Terri Devis ilə keçirilmiş görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində sülh danışıqları, bu ilin noyabr ayında keçiriləcək parlament seçkiləri ərəfəsində ölkədə mövcud vəziyyət, “siyasi məhbus” hesab edilən şəxslərin işlərinin araşdırılması məqsədilə hökumət, parlament və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət işçi qrupunun yaradılması və fəaliyyəti, respublikamızda demokratikləşdirmə sahəsində son

addımlar, habelə digər məsələlər üzrə ətraflı fikir mübadiləsi aparılmışdır. Nazir E.Məmmədyarov Baş katibi təkrarən Azərbaycana səfərə dəvət etmişdir. Dəvəti yüksək qiymətləndirən Terri Devis tezliklə bu səfərin reallaşması imkanlarının ciddi şəkildə nəzərdən keçiriləcəyini vurğulamışdır.

AŞPA-nın Baş katibi Bruno Haller və AŞPA katibliyinin Baş direktoru Mateo Sorinas ilə görüşdə, AŞPA-nın iyunun 20-24-də keçiriləcək hissəvi sessiyasının gündəliyinə daxil edilmiş "Azərbaycanda demokratik təsisatların fəaliyyəti" və "Azərbaycanda siyasi məhbuslar üzrə 1359 (2004) saylı Qətnaməyə veriləcək davam" adlı məruzələr, eləcə də ölkədə qarşıdan gələn parlament seçkilərinin beynəlxalq standartlara uyğun keçirilməsi üçün görülən işlər, son dövrlərdə Azərbaycan rəhbərliyinin insan hüquqları və qanunun aliliyinin təmin edilməsi sahəsində gördüyü tədbirlər barədə fikir mübadiləsi aparılmışdır.

Almaniya, Türkiyə, Rumıniya, Rusiya, İsveç, Latviya, Avstriya və Yunanıstanın daimi nümayəndələrinin, Avropa Şurası katibliyinin təmsilçilərinin və Aqo monitorinq qrupu üzvlərinin iştirakı ilə keçirilən görüşdə, Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həlli istiqamətində səylər, qarşıdan gələn parlament seçkilərinə hazırlıq işləri, ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi sahəsində son vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir. Nazir E.Məmmədyarov həmin sahələrdə ölkədə görülən işlər və Azərbaycan hökumətinin konkret məsələlər üzrə mövqeyi barədə həmsöhbətlərini məlumatlandırmdışdır.

**XİN-in Mətbuat Mərkəzinin**
**16.06.05 tarixli məlumatı**

## 27/06/05 - Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Türkiyə Respublikasına işgüzar səfəri

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Türkiyə baş nazirinin müavini və xarici işlər naziri Abdullah Gülün dəvəti ilə iyunun 27-də Ankaraya gəlmişdir.

Həmin gün keçirilən görüşdə dost və qardaş ölkələrin xarici işlər nazirləri bir sıra regional və beynəlxalq məsələlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Qars-Tbilisi-Bakı dəmiryolu layihələri və qarşılıqlı maraq doğuran digər mövzular haqqında ətraflı fikir mübadiləsi aparmışlar.

Azərbaycan Prezidenti İlham Əliyevə səmimi salamlarını, dərin hörmət və ehtiramını çatdırmağı xahiş edən Abdullah Gül, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana qarşıdakı rəsmi səfərinin uğurla keçəcəyinə əmin olduğunu bildirmişdir.

Həmin gün Azərbaycan və Türkiyənin xarici işlər nazirləri İslam Konfransı Təşkilatının iqtisadi forumunda iştirak etmək üçün Yəmənin paytaxtı Səna şəhərinə yola düşmüşlər.

**XİN-in Mətbuat Mərkəzinin**
**28.06.05 tarixli məlumatı**

## 28/06/05 - Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Yəmən Respublikasında keçirilən İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin 32-ci konfransında iştirakı

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Yəmənin paytaxtı Sənada keçirilən İslam Konfransı Təşkilatı (İKT) xarici işlər nazirlərinin 32-ci konfransının iyunun 28-də keçirilən iclasında çıxış etmişdir.

Elmar Məmmədyarovun çıxışının əsasını Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi təşkil etmişdir. O, İKT xarici işlər nazirlərinin 33-cü konfransının 2006-cı ildə Bakıda keçirilməsi təklifini irəli sürmüş, konfransın gündəliyində duran məsələlərə münasibətini bildirmişdir. Elmar Məmmədyarov konfransın sədr müavini seçilmiş və ikinci ümumi iclasa sədrlik etmişdir.

Xarici işlər naziri konfrans çərçivəsində əfqanıstanlı, iranlı, iordaniyalı, fələstinli və omanlı həmkarları ilə görüşlər keçirmişdir. Görüşlərdə ikitərəfli münasibətlər, regiondakı vəziyyət müzakirə olunmuş, Elmar Məmmədyarov həmkarlarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş səylər və ölkəmizdə həyata keçirilən islahatlar barədə məlumat vermişdir.

**XİN-in Mətbuat Mərkəzinin**
**30.06.05 tarixli məlumatı**

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN GÖRÜŞLƏRİ

| | |
|---|---|
| **2 aprel -** | ATƏT-in hazırkı sədri, Sloveniya Respublikasının xarici işlər naziri Dimitri Rupel ilə görüş |
| **11 aprel -** | ATƏT-in KİV Azadlığı üzrə nümayəndəsi Cənab Miklos Haraştini ilə görüş |
| **20 aprel -** | Mariya İşler Biguinin başçılığı ilə Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin nümayəndə heyəti ilə görüş |
| **4 may -** | Latviya Seyminin Latviya – Azərbaycan parlamentlərarası əməkdaşlıq qrupunun sədri Oleqs Denisovsun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **10 may -** | BMT-nin Ümumdünya Ərzaq və İnkişaf Proqramlarının, Əhali və Uşaq Fondlarının Icraiyyə Şuralarının birgə nümayəndə heyəti ilə görüş |
| **11 may -** | Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdyi nümayəndə heyəti ilə görüş |
| **18 may -** | Ukraynanın xarici işlər naziri Boris Tarasyuk ilə görüş |
| **20 may -** | ABŞ Dövlət Departamenti kadrlar bürosunun rəisi və xarici xidmətin Baş direktoru səfir Rober Pirson ilə görüş |
| **20 may -** | İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Asxat Orazbay ilə görüş |
| **23 may -** | Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Pyotr Burdıkin ilə görüş |
| **23 may -** | ABŞ-ın Azərbaycan Respublikasındakı Səfiri Rino Harniş ilə görüş |
| **26 may -** | Amerika Yəhudi Komitəsinin direktoru Berri Ceykobs ilə görüş |
| **2 iyun -** | ABŞ Mülki Tədqiqatlar və İnkişaf Fondunun prezidenti Tom Ovensin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **3 iyun -** | Sloveniya parlamentinin üzvü, Sloveniya Respublikasının Qərbi Avropa İttifaqında nümayəndəliyinin rəhbəri Zmaqo Yelinçiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **6 iyun -** | Litva Seyminin sədri Arturas Paulauskasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **6 iyun -** | ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Cerald Mitçelin rəhbərlik etdiyi ehtiyacları dəyərləndirmə missiyasının üzvləri ilə görüş |
| **24 iyun -** | Koreya Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Mun Hayonqun etimadnaməsinin surətinin qəbul edilməsi |



Amerika Yəhudi Komitəsinin direktoru Berri Ceykobs ilə görüş



ABŞ Mülki Tədqiqatlar və İnkişaf Fondunun prezidenti Tom Ovensin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş



BMT-nin Uşaq fondunun (UNİCEF), İnkişaf Proqramının (UNDP), Əhali Fondunun (UNFPA) və Ümumdünya Ərzaq Proqramının (WFP) İcraiyyə Şuralarının üzvlərindən ibarət nümayəndə heyəti ilə görüş



Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş



Litva Seyminin sədri Arturas Paulauskasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş



ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Cerald Mitçelin rəhbərlik etdiyi ehtiyacları dəyərləndirmə missiyasının üzvləri ilə görüş



Sloveniya parlamentinin üzvü, Sloveniya Respublikasının Qərbi Avropa İttifaqında nümayəndəliyinin rəhbəri Zmaqo Yelinçiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş



Koreya Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Mun Hayonqun etimadnaməsinin surətinin qəbul edilməsi

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 May Respublika günü münasibətilə Azərbaycan xalqına təbriki

Əziz həmvətənlər!

Bu gün Sizə xalqımızın dövlətçilik tarixində mühüm yer tutan, onun parlaq və şərəfli səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının ildönümü – Respublika günü münasibətilə müraciət edirəm.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik tarixi, sosial-iqtisadi və mədəni inkişafının, XX əsrin əvvəlində başlanmış və Rusiya imperiyasının süqutu ilə daha da genişlənən milli azadlıq mübarizəsinin məntiqi nəticəsi idi. Xalq Cümhuriyyəti həmçinin yüksək istedad və qabiliyyəti, özünəməxsus zəngin mədəniyyəti ilə seçilən xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və idarəçilik potensialının götəricisi oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini, milli-mənəvi dəyərlərimizi üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Müsəlman ölkəsi olmaqla yanaşı, Azərbaycan bütün tarixi boyu Qərb dəyərlərini, mədəniyyətini məmnuniyyətlə mənimsəmiş, azərbaycanlı ziyalılar və siyasi xadimlər ölkənin gələcəyini müasir təhsildə, elmdə, sivil xalqlar ailəsinə qovuşmaqda görmüşdür.

Gənc respublika tərəfindən həyata keçirilən siyasət müstəqil dövlətçiliyin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, Şərqdə ilk dəfə qadınlar üçün seçki hüququnun tanınması, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı göstərilməsi, Bakı Dövlət Universitetinin təsis edilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının yaradılması və sair məhdud zaman çərçivəsində, gərgin daxili və xarici siyasi şəraitdə Xalq Cümhuriyyətinin fəaliyyətinin miqyasını, mahiyyət və mənasını əyani şəkildə sübut edir. Qəbul edilən qərarlar, reallaşdırılan təşəbbüslər və planlaşdırılan işlər azadlıq və müstəqillik qazanmış xalqımızın böyük inkişaf potensialına, cəmiyyət və dövlət həyatının bütün sahələrində geniş perspektivlərə malik olduğunun göstəricisi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti xalqımızın dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə, vətənpərvərlik hisslərinin və duyğularının yüksəlməsinə böyük təsir göstərdi. Müstəqillik hissləri Cümhuriyyət quruluşunun süqutundan sonra da azərbaycanlıları heç zaman tərk etmədi. Məhz Cümhuriyyətin timsalında milli dövlətimizin varlığının nəticəsi idi ki, sovet hakimiyyəti dövründə xalqımız formal şəkildə olsa da, öz dövlət müstəqilliyini qoruyub saxladı, müttəfiq respublika kimi SSRİ-ni təşkil edən subyektlərdən birinə çevrildi.

Azərbaycanın qabaqcıl ziyalılarının, Xalq Cümhuriyyəti qurucularının, ictimai-siyasi xadimlərin həyata keçirməyə başladığı ideyalar, planlaşdırdığı layihələr bu gün müstəqil Azərbaycan Respublikası tərəfindən uğurla gerçəkləşdirilir. XX əsrin sonunda yenidən tarixi şans qazanmış ölkəmiz Xalq Cümhuriyyəti dövründən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz suverenliyini və müstəqilliyini qoruyub saxlamağı bacardı. Başda ümummilli liderimiz Heydər Əliyev olmaqla Azərbaycanın dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərqərar edildi, dövlətimiz strateji inkişaf yoluna çıxarıldı. Nüfuzlu beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq quruldu, müstəqillik üçün əlavə təminatlar yaradıldı. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına, ATƏT-ə, Avropa Şurasına və digər beynəlxalq, regional qurumlara bərabərhüquqlu üzv qəbul olundu, Avropa İttifaqı, NATO və başqa təşkilatlarla hərtərəfli əlaqələr yaratdı.

Yaşadığımız 2005-ci il bir çox cəhətdən bizim üçün həlledici əhəmiyyət kəsb edir. Ölkəmizdə aparılan iqtisadi və sosial islahatlar öz bəhrəsini verməkdədir, Bakıda və regionlarda quruculuq və abadlıq işləri geniş vüsət almışdır. İki gün öncə əsrin ən nəhəng iqtisadi-enerji layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi oldu. İqtisadi-kommersiya baxımından səmərəliliyi, ekoloji təhlükəsizliyi ilə seçilən və yeni iştirakçı dövlətlər hesabına

getdikcə daha da güclənən bu layihənin işə düşməsi xalqımız üçün parlaq perspektivlər açaraq, qeyri-neft sektorunun inkişafına, yoxsulluğun azaldılmasına və əhalinin maddi vəziyyətinin yaxşılaşdırılmasına mühüm imkanlar yaradır. Düşünürük ki, transmilli layihə kimi Bakı-Tbilisi-Ceyhan neft boru kəməri qısa zaman çərçivəsində bütün regionun simasını dəyişəcək, bölgədə tərəqqiyə, əməkdaşlığa, sülhə və təhlükəsizliyə xidmət edəcəkdir. Əmin ola bilərsiniz ki, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olan müasir Azərbaycan Respublikası onun dövlətçilik ideyalarını və ənənələrini yaşadacaq, müstəqilliyi qoruyub saxlayacaq və möhkəmləndirəcək, ölkəmizi tərəqqiyə qovuşduracaqdır.

Əziz həmvətənlər!

Hörmətli vətəndaşlar!

Xalqımızın ən əziz milli bayramlarından olan 28 May –-Respublika günü münasibətilə Sizin hər birinizi, Vətənimizin bütün oğul və qızlarını, Silahlı Qüvvələrin şəxsi heyətini, müharibə veteranlarını, şəhid ailələrini, qaçqınları və məcburi köçkünləri ürəkdən təbrik edir, xalqımıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

**İlham ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 may 2005-ci il.**
**"AzərTAC" 28.05.05**

## Respublika günü Səudiyyə Ərəbistanı Krallığında qeyd edilmişdir

Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyində 28 May – Respublika günü münasibətilə bir sıra tədbirlər həyata keçirmişdir. Səfir Elman Araslı və səfirliyin əməkdaşları Respublika günü münasibətilə Səudiyyə Ərəbistanının rəsmi və ictimai dairələrinin, həmçinin ölkədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri ilə görüşlər keçirmiş, ölkəmizin sosial-iqtisadi və siyasi həyatı, elmi-texniki potensialı barədə ətraflı məlumat vermişlər.

Azərbaycanın milli bayramı münasibətilə səfirliyin hazırladığı məqalə Səudiyyə Ərəbistanının nüfuzlu və çoxtiraylı "Ər-Riyad" və "Əl-Həyat" qəzetlərində dərc olunmuşdur.

Səfirlik mayın 25-də Ər-Riyadın ən möhtəşəm mehmanxanalarından olan "Riyadh Palace"də Azərbaycan hökuməti adından ziyafət vermişdir. Ziyafətdə Ər-Riyad vilayəti əmirinin müavini, Kralın qardaşı Əmir Sattam bin Əbdüləziz Al Səud, Xarici İşlər Nazirliyinin, ölkənin ictimai-siyasi dairələrinin nümayəndələri, həmçinin krallıqda akkreditə olunmuş diplomatlar, Səudiyyə Ərəbistanında çalışan həmvətənlərimiz iştirak etmişlər.

**"AzərTAC" 26.05.05**

## ABŞ-in bəzi şəhər və ştatları mayin 28-ni "Azərbaycan Respublikasının milli günü" elan etmişdilər

ABŞ paytaxtının meri Entoni Uilyamsın qərarı ilə 2005-ci il mayın 28-i Vaşinqtonda "Azərbaycan Respublikasının milli günü" elan edilmişdir. Cənab Uilyams bununla bağlı imzaladığı sənədlə paytaxt sakinlərini həmin günü qeyd etməyə çağırmışdır. Sənəddə vurğulanır ki, Cənubi Qafqaz bölgəsində yerləşən Azərbaycan Respublikası Qarabağ və Naxçıvan bölgələrini də əhatə edir. Ölkənin ərazi bütövlüyü ABŞ tərəfindən qeyd-şərtsiz olaraq dəstəklənir. Entoni Uilyams Azərbaycanı NATO-nun Sülh naminə tərəfdaşlıq proqramının və ABŞ-ın başçılığı ilə terrora qarşı koalisiyanın fəal üzvü hesab edir, 1918-ci ildə qurulmuş Azərbaycan Cümhuriyyətini isə müsəlman dünyasının ilk demorkratik respublikası adlandırır.

ABŞ-dakı Azərbaycan diasporunun fəallarından olan Adil Bağırov bununla bağlı bildirmişdir: "Amerikanın Azərbaycan icması artıq bir neçə ildir ki, yaşadıqları şəhər və ştatların hakimiyyətini ölkəmizin milli bayramlarını tanımağa çağırır. Məsələn, Vaşinqton şəhərində "Azərbaycan Respublikasının milli günü" artıq 3-cü ildir elan olunur. Bu il Virciniya ştatı, həmin ştatın Aleksandriya şəhəri də belə qərarlar qəbul etmişlər. Bu, bizim üçün çox vacibdir, çünki belə qərarlar buradakı Azərbaycan icmasının tanınması deməkdir. Hesab edirəm ki, biz bu işi davam etdirməliyik".

ABŞ azərbaycanlıları milli bayramımızı müxtəlif ştatlarda keçirilən tədbir və şənliklərlə qeyd edəcəklər. Bunların arasında Nyu-York və Nyu-Cersi ştatlarında Bakıdan gələn ifaçıların konserti, Kaliforniya ştatında bayram şənlikləri də var.

**"AzərTAC" 28.05.05**

## Azərbaycanın milli bayramı Cenevrədə qeyd olunmuşdur

Azərbaycanın BMT-nin Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyində 28 May - Respublika günü münasibətilə ziyafət-qəbul təşkil olunmuşdur.

Tədbirdə BMT-nin Cenevrə bölməsinin Baş direktoru S.Orconikidze, bu beynəlxalq qurumun təmsilçiləri, Cenevrədə akkreditə olunmuş səfirlər və daimi nümayəndəliklərin əməkdaşları, İsveçrənin müxtəlif şəhərlərindəki Azərbaycan diasporunun nümayəndələri, bu ölkədə təhsil alan və işləyən soydaşlarımız, Milli Məclisin ezamiyyətdə olan deputatları iştirak etmişlər.

Ziyafətdə BMT-nin Cenevrə bölməsinin Baş direktoru S.Orconikidze və Azərbaycanın daimi nümayəndəsi səfir E.Əmirbəyov çıxış edərək, təbriklərini çatdırmış, ölkəmizin tarixindən, xalqımızın adət və ənənələrindən danışmışlar.

Rəsmi hissədən sonra konsert olmuşdur. Konsertdə Azərbaycanın tanınmış fortepiano ifaçısı Ədilə Əliyeva Qara Qarayevin, Tofiq Quliyevin, Frants Lişt və Frederik Şopenin əsərlərini səsləndirmişdir.

Ziyafət-qəbul Azərbaycan mətbəxinin ləziz təamları ilə bəzədilmiş süfrə arxasında söhbətlə başa çatmışdır.

**"AzərTAC" 28.05.05**

## Kiyevdə Respublika günü şərəfinə təntənəli qəbul təşkil edilmişdir

Mayın 27-də Azərbaycanın Ukraynadakı səfirliyi Respublika günü münasibətilə "Rus" mehmanxanasında təntənəli qəbul təşkil etmişdir.

Azərbaycan Respublikasının Ukraynadakı səfiri Tələt Əliyev çıxış edərək demişdir: "Bunun rəmzi mənası var ki, indiki bayram müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin təntənəli açılışı ilə bir vaxta düşmüşdür".

Diplomat bütün sahələrdə respublikamızın bugünkü uğurlarından danışaraq vurğulamışdır ki, bütün bunlar Heydər Əliyevin xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin daxili və xarici siyasəti sayəsində mümkün olmuşdur. Bu varislik Azərbaycan-Ukrayna münasibətlərinin, o cümlədən diplomatik əlaqələrinin daha da inkişaf etməsi və dərinləşməsində də özünü göstərir.

**"AzərTAC" 28.05.05**

## Ankarada Respublika günü qeyd olunmuşdur

28 May – Respublika günü münasibəti ilə Azərbaycanın Türkiyədəki səfirliyi Ankarada rəsmi ziyafət vermişdir. Bayram tədbirinə Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, deputatlar, ictimai təşkilatların rəhbərləri, silahlı qüvvələrin zabitləri, Ankarada akkreditə olunan xarici ölkələrin diplomatları, Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Vəqfinin üzvləri, burada yaşayan və işləyən soydaşlarımız, tələbələr dəvət olunmuşdular.

Türkiyənin baş nazirinin müavini və xarici işlər naziri Abdullah Gül bildirmişdir ki, Azərbaycanın müstəqillik bayramı Türkiyə Cümhuriyyətinin də bayramıdır. Tarix boyu iki dost və qardaş ölkə bir-birinin sevincinə də, kədərinə də şərik olmuşdur. Türkiyə Azərbaycandakı iqtisadi tərəqqini, xalqın maddi rifahının artmasını, demokratik islahatların həyata keçirilməsini məmnuniyyətlə müşahidə edir. Mayın 25-də Azərbaycanda istismara verilən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri də buna parlaq misaldır. Ümummilli lider, zəmanəmizin görkəmli siyasi xadimi, Bakı-Tbilisi-Ceyhan boru kəməri ideyasının təşəbbüskarı Heydər Əliyevin təməlini qoyduğu inkişaf xətti uğurla davam etdirilir. Azərbaycan xalqını müstəqillik bayramı münasibətilə təbrik edirəm. Türkiyə Cümhuriyyəti hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyib və bu siyasi kurs heç vaxt dəyişməyəcəkdir.

Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun sədri, dünya şöhrətli alim İhsan Doğramacı 90 illik yubileyi münasibətilə Bakıda keçirilən tədbirləri xatırladaraq demişdir ki, hər səfərimdə burada sürətli inkişafın, müsbət dəyişikliklərin şahidi oluram. Azərbaycanın gənc, enerjili, müasir dünya siyasətini yaxşı bilən, xalqını ürəkdən sevən bir lideri vardır. Azərbaycan Prezidenti İlham Əliyev müstəqil dövlətin tarixində hələ çox-çox şanlı səhifəyə imza atacaqdır. Şübhə yoxdur ki, Azərbaycan xalqı hələ bir çox əlamətdar siyasi və iqtisadi qələbələri bayram edəcəkdir.

Azərbaycanın Türkiyədəki səfiri Məmməd Əliyev dost və qardaş ölkədə xalqımızın bayram

sevincinə həmrəy olan bütün qonaqlara dərin təşəkkürünü bildirmişdir.

**"AzərTAC" 30.05.05**

## Respublika günü Strasburqda da qeyd edilmişdir

Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi, 28 May – Respublika günü münasibətilə Strasburqda fəaliyyət göstərən "Fransadakı Azərbaycanlı Tələbələr Assosiasiyası"nın (FATA) təşəbbüsü ilə açılmış "Azərbaycanın memarlığı və tarixi" sərgisi iyunun 14-dək davam edəcəkdir. FATA-nın prezidenti Rahib Vəliyevin verdiyi məlumata görə, sərginin keçirilməsindən əsas məqsəd Qərb və Şərq memarlıq üslublarını özündə birləşdirən Azərbaycan memarlığının zənginliyini və rəngarəngliyini Strasburq sakinlərinə və burada təhsil alan əcnəbi tələbələrə çatdırmaqdır.

Rahib Vəliyev onu da qeyd etmişdir ki, mayın 28-də "Fransadakı Azərbaycanlı Tələbələr Assosiasiyası" Paul Appell binasının akt zalında Respublika gününə həsr olunmuş bayram tədbiri keçirmişdir. Tədbirdə Strasburqda fəaliyyət göstərən əcnəbi tələbə təşkilatlarının, Fransa Təhsil Nazirliyinin Elzas bölgəsi üzrə şöbəsinin əməkdaşları, türkiyəli tələbələr və Azərbaycan icmasının nümayəndələri iştirak etmişlər.

**"AzərTAC" 30.05.05**

## Macarıstan paytaxtında bayram tədbiri

Ölkəmizin həyatında iki mühüm hadisə – Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsinin açılışı və Respublika günü münasibətilə respublikamızın Macarıstandakı səfirliyi rəsmi qəbul təşkil etmişdir.

Qəbula dəvət edilənlər arasında Macarıstanın ali siyasi rəhbərliyinin, diplomatik korpusun nümayəndələri, iş adamları, alimlər, mədəniyyət xadimləri və Azərbaycan diasporunun üzvləri vardı.

Səfir Həsən Həsənov qəbulda çıxış edərək, "Əsrin müqaviləsi"nin imzalanmasında ümummilli liderimiz Heydər Əliyevin tarixi rolunu və onun siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bu çox mühüm layihənin həyata keçirilməsinə sanballı töhfəsini vurğulamışdır.

Çıxışlarda belə genişmiqyaslı layihənin həyata keçirilməsinin Azərbaycan və bütün region üçün siyasi və iqtisadi əhəmiyyəti qeyd olunmuş, eyni zamanda, müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin ölkəmizin tarixindəki rolundan söhbət açılmışdır.

**"AzərTAC" 30.05.05**

## Respublika günü Özbəkistanda da qeyd edilmişdir

28 May - Respublika günü ilə əlaqədar Azərbaycanın Özbəkistandakı səfirliyi "İnterkontinental" mehmanxanasında qəbul keçirmişdir.

Tədbirdə Özbəkistan hökumətinin üzvləri, Daşkənddəki xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların və Azərbaycan diasporunun nümayəndələri, jurnalistlər iştirak etmişlər.

Əvvəlcə Azərbaycanın və Özbəkistanın Dövlət himnləri səsləndirilmişdir.

Şənliyə gələnləri Azərbaycanın Özbəkistandakı səfiri Namiq Abbasov salamlamış, müstəqillik illərində ölkəmizin əldə etdiyi uğurlardan danışmışdır. O demişdir: "Mayın 25-də ölkəmizdə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsinin açılışı olmuşdur. Tədbirdə Türkiyə, Gürcüstan və Qazaxıstan prezidentləri də iştirak etmişlər. Fəxrlə deyirəm ki, bu böyük layihənin memarı ümummilli liderimiz Heydər Əliyevdir."

Sonra səfir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranması səbəbləri, Azərbaycanın işğal altındakı torpaqlarının qeyd-şərtsiz boşaldılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə haqqında danışmış, işğalçı dövlətin BMT və digər beynəlxalq təşkilatların qərar və qətnamələrini saymayaraq Azərbaycan torpaqlarını azad etmək istəmədiyini diqqətə çatdırmışdır.

Qəbulda Özbəkistan baş nazirinin birinci müavini Abdulla Aripov iştirak etmişdir.

**"AzərTAC" 30.05.05**

## Gürcüstanda Respublika günü qeyd olunmuşdur

Ölkəmizin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Ramiz Həsənov mayın 27-də Tbilisidəki "Marriott Kourtyard" mehmanxanasında milli bayram – Respublika günü

münasibətilə qəbul təşkil etmişdir. Toplaşanlara Azərbaycan Prezidenti İlham Əliyevin xoş arzularını çatdıran səfir, Azərbaycan xalqının müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın dövlətçilik tarixindəki rolundan danışmış, onun varisi olan bugünkü müstəqil respublikamızın dünyada öz layiqli yerini tutmasında ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi vurğulamışdır.

Prezidentlər İlham Əliyevin və Mixail Saakaşvilinin Azərbaycan-Gürcüstan münasibətlərinin daha da dərinləşməsi yönümündə yeritdikləri uğurlu siyasətdən söhbət açan R.Həsənov həm Azərbaycanın, həm də Gürcüstanın ərazi bütövlüyünün sülh yolu ilə bərpa olunacağına əminliyini söyləmişdir. O bildirmişdir ki, bu yaxınlarda Azərbaycan hissəsi istifadəyə verilən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin işə düşməsi, Xəzər dənizinin enerji daşıyıcılarının dünya bazarına çıxarılması Azərbaycan və gürcü xalqlarının rifahının yüksəldilməsində, bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayacaqdır.

Qəbulda Gürcüstanın dövlət və hökumət rəsmiləri, ölkədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak etmişlər.

**“AzərTAC” 30.05.05**

## Azərbaycanın Misir Ərəb Respublikasındakı səfirliyində rəsmi qəbul keçirilmişdir

Ölkəmizin Misir Ərəb Respublikasındakı səfirliyində Azərbaycanın milli bayramı - 28 may Respublika günü və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı münasibətilə diplomatik nümayəndəliyimiz Qahirənin “Four Seasons” mehmanxanasında rəsmi qəbul və ziyafət təşkil etmişdir.

Qəbulda Misir Ərəb Respublikası Xarici İşlər, Mədəniyyət nazirliklərinin, hakim Milli Demokratik Partiyanın üzvləri, Misir parlamentinin deputatları, ölkənin tanınmış ziyalıları, Qahirədə akkreditə olunmuş xarici ölkələrin səfirləri, ictimai-siyasi dairələrin nümayəndələri, xarici jurnalistlər iştirak etmişlər.

Ziyafətdə səfir Faiq Bağırov qonaqlara Azərbaycan-Misir münasibətləri və inkişaf perspektivləri, ölkəmizdə reallaşdırılan iri layihələr, Prezident İlham Əliyevin başçılığı ilə həyata keçirilən mühüm islahatlar haqqında məlumat vermişdir.

Qonaqlara Azərbaycan haqqında buklet və broşürlər, DVD filmlər təqdim olunmuşdur.

**“AzərTAC” 31.05.05**

## Azərbaycanın milli bayramı İslamabadda qeyd olunmuşdur

Azərbaycanın Pakistandakı səfirliyində, 28 may – Respublika günü münasibətilə İslamabadda bayram tədbiri keçirmişdir. Tədbirdə Pakistanın dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, görkəmli şəxslər, səfirliklərin və beynəlxalq təşkilatların rəhbərləri, burada yaşayan Azərbaycan vətəndaşları və tələbələr iştirak etmişlər.

Pakistanın İnformasiya və Yayım üzrə dövlət naziri xanım Anisa Zeb Tahirxeli Prezident Pərviz Müşərrəfin və Baş nazir Şövkət Əzizin Azərbaycan xalqına və dövlətinə təbriklərini çatdırmışdır.

Mərasimdə Pakistan Silahlı Qüvvələri Ali Baş Komandanının müavini general Əhsən Salem Həyat ölkənin Prezidenti və Silahlı Qüvvələrin Baş komandanı general Pərviz Müşərrəfin adından Azərbaycan Prezidentini və xalqını təbrik edərək bildirmişdir ki, Pakistan hər zaman Azərbaycanın yanında olmuşdur və bu dostluq və qardaşlıq münasibətləri bundan sonra da daim möhkəmlənəcəkdir.

Tədbirə toplaşanlara səfirlik tərəfindən ingilis və urdu dillərində nəşr edilmiş “Azərbaycan: qısa dövlətçilik tarixi” və “Azərbaycanın böyük mütəfəkkiri Cəlil Məmmədquluzadə” kitabları, “Liberty” jurnalının Azərbaycan Prezidentinin cari ilin aprel ayında Pakistana rəsmi səfərinə həsr olunmuş xüsusi buraxılışı və səfirliyin 28 may - Respublika günü münasibətilə hazırladığı mətbuat məlumatı paylanmışdır.

Pakistanın aparıcı kütləvi informasiya vasitələri Azərbaycanın milli bayramı münasibətilə materiallar dərc etmişdir.

**“AzərTAC” 31.05.05**

## Respublika günü Aşqabadda qeyd edilmişdir

28 May – Respublika günü münasibətilə Azərbaycanın Türkmənistandakı səfirliyində bayram tədbiri keçirilmişdir. Mərasimdə bu ölkədə yaşayan azərbaycanlı ziyalılar və iş

adamları, qardaş türkmən xalqının nümayəndələri iştirak etmişlər.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan xalqına müraciəti oxunmuşdur.

Azərbaycanın Türkmənistandakı səfiri Elxan Hüseynov bayram münasibətilə iştirakçıları təbrik edərək, 87 il öncə müsəlman Şərqində yaranmış ilk dünyəvi, demokratik dövlət olan Azərbaycan Cümhuriyyətinin tarixindən, onun qurucularının xidmətlərindən söhbət açmışdır. E.Hüseynov müasir dövlətçiliyimizin memarı, ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətlərini, onun layihəsi olan Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin ölkəmizin gələcək inkişafında əhəmiyyətini xüsusi vurğulamışdır.

**"AzərTAC" 31.05.05**

### Respublika günü Azərbaycanın Qarsdakı baş konsulluğunda qeyd olunmuşdur

28 May - Respublika günü Türkiyənin Qars şəhərində geniş qeyd olunmuşdur. Tədbirdə ətraf vilayətlərin valiləri və digər rəsmi şəxslər iştirak etmişlər.

Ölkəmizin Qarsdakı baş konsulluğunda keçirilən tədbir ulu öndərimiz Heydər Əliyevin büstünün ziyarəti və abidənin önünə əklil qoyulması ilə başlanmış sonra Qafqaz Universitetinin "Qonaq evi"ndə davam etdirilmişdir.

Baş konsul Həsən Zeynalov mərasimdə çıxış edərək, Azərbaycanın tarixindən, müstəqillik uğrunda mübarizəsindən, ümummilli liderimiz Heydər Əliyevin xalqımız və dövlətimiz üçün gördüyü böyük işlərdən, respublikamızın Prezidenti İlham Əliyevin ulu öndərin siyasi xəttini layiqincə davam etdirməsindən, əldə olunmuş uğurlardan söhbət açmışdır.

Sonra Qars valisi Nevzat Turhan çıxış edərək, Türkiyə-Azərbaycan dostluğu və qardaşlığından danışmış, ölkələrimizin əlaqələrinin hər zaman yüksək sürətlə inkişaf edəcəyini diqqətə çatdırmışdır.

Rəsmi hissənin sonunda Naxçıvandan gəlmiş mədəniyyət və incəsənət işçiləri geniş konsert proqramı ilə çıxış etmişlər.

**"AzərTAC" 31.05.05**

### Azərbaycanın milli bayramı Almaniyada qeyd olunmuşdur

Mayın 31-də ölkəmizin Almaniyadakı səfirliyi Azərbaycanın milli bayramı – Respublika günü münasibətilə Berlindəki "Westin Grand" mehmanxanasında rəsmi qəbul təşkil etmişdir.

Qəbulda Almaniyanın dövlət və hökumət nümayəndələri, Bundestaqın üzvləri, xarici ölkələrin Almaniyada akkreditə olunmuş səfirləri, Almaniya-Azərbaycan iqtisadi münasibətlərinə dair Berlində keçirilən konfransın iştirakçıları, işgüzar dairələrin və səhmdar cəmiyyətlərin, elm, təhsil və mədəniyyət ocaqlarının təmsilçiləri və bu ölkədə yaşayan, işləyən, təhsil alan soydaşlarımız iştirak etmişlər.

Bayram əhval-ruhiyyəsi şəraitində keçən tədbirdə Azərbaycanın Almaniyadakı səfiri Hüseynağa Sadıqov milli bayramımızı təbrik etməyə gəlmiş 200-dən artıq qonağı səmimiyyətlə qarşılamış, onların təbrik sözlərini dinləmiş və xalqımızın sevincinə həmrəy olan bütün qonaqlara dərin təşəkkürünü bildirmişdir.

Bayram tədbirində Azərbaycanın müstəqillik tarixindən, onun suveren dövlət kimi inkişafından, dünya dövlətləri arasında mövqeyindən və gündən-günə artmaqda olan beynəlxalq nüfuzundan, ölkəmizdə gedən siyasi-iqtisadi proseslərdən, uğurlu neft strategiyasından ətraflı söhbət açan səfir H.Sadıqov respublikamızın dünya siyasətində öz layiqli yerini tutmasında ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətlərini xüsusi qeyd etmişdir.

Respublika gününün bayram edilməsi ərəfəsində ölkəmizin və regionun tarixində mühüm hadisə olan Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin təntənəli açılışını qeyd edən səfir, kəmərin inşasının və mayın 25-də işə düşməsinin Heydər Əliyev dühası və zəkasının, uzaqgörənliyinin və mübarizliyinin məhsulu olmasını və ulu öndərimizin Azərbaycan dövlətinin tərəqqisi naminə başladığı işlərin bu gün Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən inam və uğurla davam etdirildiyini vurğulamışdır.

Səfir mərasimdə iştirak edən qonaqlara Azərbaycanın bayram sevincini bölüşdüklərinə görə təşəkkürünü bildirmişdir.

Bayram mərasimi "Odlar Yurdu" ansamblının konsert proqramı ilə davam etmişdir.

**"AzərTAC" 02.06.05**

## Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Pakistan Televiziyasına müsahibəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasında rəsmi səfərdə olarkən aprelin 13-də bu ölkənin PTV World televiziyasına müsahibə vermişdir.

**Aparıcı:** Əvvəlcə sizin hamınızı salamlayırıq. Bu gün PTV World-un studiyasındakı ali qonağımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

**Sual:** Cənab Prezident, Pakistan televiziyasına gəldiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Təbii ki, bu, Sizin Pakistana ilk rəsmi səfərinizdir. Ölkəmizə etdiyiniz uğurlu səfəriniz zamanı Pakistan rəhbərliyi ilə, o cümlədən Prezident Pərviz Müşərrəf ilə görüşləriniz oldu. Pakistan və Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcəkdə inkişaf etdirilməsi məqsədi ilə hansı əsas sahələri müəyyən etdiniz?

**Cavab:** Öncə onu demək istəyirəm ki, gözəl ölkənizdə olmağımdan çox şadam. Pakistan bizim üçün qardaş ölkədir. Bizim çox gözəl münasibətlərimiz var və ikitərəfli münasibətlərə, beynəlxalq problemlərə aid bütün məsələlərdə biz bir-birimizi daim dəstəkləyirik. Biz regional səviyyədə də çox vacib rol oynayırıq. Mənim Pakistana səfərim, fikrimcə, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində atılmış vacib addımdır. Ötən il Pakistan Prezidenti Pərviz Müşərrəf Azərbaycana səfər etmişdir və bizim çox məhsuldar müzakirələrimiz olmuşdur. Hazırkı səfərim ikitərəfli əlaqələrə dair aparılan müzakirələrin davamıdır. Hesab edirəm ki, Pakistanda olduğum iki gün ərzində qarşılıqlı maraq kəsb edən məsələlərin hamısı, o cümlədən siyasi, iqtisadi və mədəni münasibətlərin aspektləri müzakirə olundu. Beynəlxalq məsələlərə, dünyadakı və regionumuzdakı proseslərə aid mövqelərimiz üst-üstə düşür. Biz Dağlıq Qarabağ və Kəşmir məsələlərində bir-birimizi qətiyyətlə dəstəkləyirik. Mən deyə bilərəm ki, ölkələrimiz arasındakı münasibətlərimiz digər ölkələr üçün nümunə ola bilər.

Mənim buraya səfərim zamanı bir sıra vacib sənədlər imzalanmışdır. Bu sənədlər iqtisadi və ticari münasibətlərin daha da genişləndirilməsinə imkan yaradacaqdır. Düşünürəm ki, bu istiqamət çox vacibdir. İqtisadi əlaqələrimizin inkişafı üçün böyük potensial mövcuddur. Bir sözlə, mən səfərdən çox razıyam, Prezident, Baş nazir və digər rəsmilərlə apardığımız danışıqlardan çox məmnun qaldım. Ümid edirəm ki, bu səfərdən sonra ölkələrimiz və xalqlarımız bir-birinə daha yaxın olacaqlar.

**Sual:** Cənab Prezident, Siz ticari münasibətlər haqqında danışdınız. Bu baxımdan Pakistan və Azərbaycan konkret olaraq hansı sahələrdə işbirliyi qura bilər? Bu məsələ ilə bağlı mülahizələriniz bizim üçün çox maraqlı olardı.

**Cavab:** Əvvəla, onu qeyd etmək istəyirəm ki, ikitərəfli ticarət sahəsində çox böyük inkişaf potensialı var. Pakistan və Azərbaycanın iqtisadiyyatı sürətlə və uğurla inkişaf edir. Hər iki ölkədə gözəçarpan iqtisadi artım müşahidə olunur. Bu amillər ticari əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar yaradır. Hesab edirəm ki, ticarət uğurla aparıla bilər.

Biz daşınma məsələlərini də müzakirə etdik. Pakistan hazırda Şərq-Qərb dəhlizini nəzərdə tutan TRASEKA proqramına müşahidəçi qismində qoşulur. Bizim enerji sektorunda, kənd təsərrüfatı, turizm sahələrində yaxşı imkanlarımız vardır. Bakı və Kəraçi şəhərləri arasında birbaşa uçuşların açılması bu prosesi sürətləndirəcək vacib elementlərdən biri olacaqdır. Bu barədə razılıq əldə olunmuşdur. İlkin olaraq, biz həftədə iki uçuşun həyata keçirilməsinə razılıq vermişik. Ümid edirik ki, gələcəkdə onların sayı artacaqdır.

Eyni zamanda biz viza prosedurlarının asanlaşdırılması ilə bağlı fikir mübadiləsi apardıq. Vizalar daha qısa müddət ərzində açılmalıdır. Bunları nəzərə alaraq düşünürəm ki, biz iqtisadi və ticari münasibətləri daha da canlandırmalıyıq. Biz, həmçinin birgə sərgilərin təşkil olunması üzərində razılıq əldə etmişik. Bu sərgilər hər iki biznes icmasının mövcud imkanlarını nümayiş etdirəcəkdir. Hesab edirəm ki, siyasi münasibətlərin yüksək səviyyədə olması sayəsində iqtisadi sahədə də böyük nailiyyətlər əldə edə biləcəyik.

**Sual:** Şübhəsiz ki, cənab Prezident, hazırkı zəmanənin əsas məsələlərindən biri də qlobal terrorizmə qarşı mübarizənin aparılmasıdır. Biz bilirik ki, Siz öz çıxışlarınızda terrorizm anlayışının müəyyən edilməsində ümumi yanaşmadan

istifadə olunmasının vacibliyini qeyd etmişsiniz. Sizcə, terrorizm necə müəyyən olunmalıdır?

**Cavab:** Mən hesab edirəm ki, hansı ölkəyə qarşı törətdiyi cinayətlərdən asılı olmayaraq, terrorizm hallarına, terrorçulara eyni gözlə baxmaq lazımdır. Əfsuslar olsun ki, bu gün beynəlxalq yanaşmada biz bunu görmürük. Pakistan və Azərbaycan terror aktlarının qurbanı olmuşlar. Ermənistanın terrorçu təşkilatları ölkəmizə qarşı 30-dan çox terror aktı törətmişdir və bunun nəticəsində 2 mindən çox günahsız vətəndaş qətlə yetirilmiş və minlərlə insan xəsarət almışdır. Lakin bu problemin həllində biz lazımi dəstəyi hiss etmirik. Biz beynəlxalq ictimaiyyət tərəfindən dəstəyin verilməsini görmürük. Buna görə də biz, həqiqətən, inanırıq ki, əgər hər hansı bir terror aktı kimə qarşı törədilməsindən asılı olmayaraq, eyni prinsip əsasında baxılsa, belə halda biz səylərimizi səfərbər edə biləcəyik.

Bütün dünya ölkələrinin səyləri səfərbər olunmasa, biz beynəlxalq terrorizmə qarşı qətiyyətli mübarizə apara bilmərik.

Terrorçular elə bir düşməndir ki, siz onların harada gizləndiyini bilmirsiniz. Hətta, müəyyən hallarda siz bilmirsiniz ki, onların arxasında kimlər dayanır və onları ifşa etmək də çox çətindir.

Buna görə də, bütün beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan, demək olar ki, terrorizmə qarşı mübarizə aparmaq mümkün olmayacaqdır. İkili standartlara yol verilməməlidir. Ümumi və yeganə yanaşmadan istifadə olunmalıdır və biz bunun tərəfdarıyıq.

**Sual:** Dağlıq Qarabağ problemi ilə bağlı Ermənistan və Azərbaycan arasındakı vəziyyətə gəldikdə, bildirilir ki, ötən il Siz vəziyyəti təhlükəli kimi təsvir etdiniz. Sizin fikrinizcə, təhlükələr hansı sahələrdə artır və hansı sahələrdə azalır? Hazırkı durumu necə görürsünüz?

**Cavab:** Vəziyyət təhlükəlidir, çünki sülh mövcud deyildir. Ermənistan ərazimizin 20 faizini işğal edib və etnik təmizləmə siyasəti aparıb. Bunun nəticəsində 1 milyon azərbaycanlı evsiz-eşiksiz qalıb. Biz bu münaqişənin aradan qaldırılması üçün beynəlxalq hüququn normalarına uyğun olaraq həll yollarını axtarırıq. Həmin normalarda deyilir ki, hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşmaq lazımdır. Ermənistan bizim ərazi bütövlüyümüzü pozub və beləliklə, beynəlxalq hüquq normalarını da kobud surətdə pozubdur. Təhlükə ondan ibarətdir ki, döyüş əməliyyatlarının dayandırılmasından və atəşkəs razılaşmasından artıq 10 il keçir, lakin heç bir nəticə yoxdur. Bu, daim davam edə bilməz. Hər il və hər ay atəşkəs rejimi vəziyyəti daha da həssas edir, çünki hələ ki, sülh yoxdur. Buna görə də bu münaqişə mümkün qədər qısa müddətdə həll olunmalıdır. Belə olmasa, bu nəinki bizim üçün, eyni zamanda bütün region üçün böyük təhlükə ola bilər. Əfsuslar olsun ki, regiondakı sabitlik və təhlükəsizlik hələ də kifayət qədər möhkəmləndirilməyibdir.

**Sual:** Hazırkı vəziyyəti nəzərə alsaq, Siz hesab edirsiniz ki, bu məsələdə beynəlxalq ictimaiyyət, xüsusən də Qərb kifayət qədər dəstək verir?

**Cavab:** Yox. Bu, tamamilə belə deyil. Hesab edirəm ki, bu amil münaqişənin həll olunmamış kimi qalmasının əsas səbəblərindən biridir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin işğal olunmuş ərazilərdən çıxarılması ilə bağlı dörd qətnaməsi var. Bu yaxınlarda Avropa Şurası tərəfindən qəbul olunmuş qətnamədə aydın şəkildə deyilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edib, etnik təmizləmə siyasəti aparıb və bunun nəticəsində 1 milyon insan evlərindən qovulub və qaçqın vəziyyətinə düşüb. Bu yaxınlarda ATƏT işğal olunmuş bölgələrə fakt-araşdırıcı missiyasını göndərmişdi. Bu işin nəticəsində aydın oldu ki, 15 minə yaxın erməni qeyri-qanuni olaraq orada məskunlaşmışdır. Eyni zamanda, beynəlxalq ictimaiyyət bu tədbirlərin qarşısının alınması üçün heç bir addım atmır. Ermənistana qarşı heç bir sanksiya qoyulmayıb. Hətta heç bir tənqidi sözlər də eşidilmir. Beynəlxalq təşkilatlar və ATƏT kimi təsisatlar bizə deyirlər ki, gedin razılığa gəlin! Lakin biz necə razılığa gələ bilərik? Əgər razılıq əldə edə bilsəydik, buna çoxdan nail ola bilərdik. Biz razılığımızı yalnız o vaxt verə bilərik ki, razılıq beynəlxalq hüquqa əsaslansın.

Ermənistan beynəlxalq hüququ pozub və bu, onları heç narahat etmir, çünki onlara kifayət qədər təzyiq göstərilmir. Buna görə də biz beynəlxalq ictimaiyyətin bu məsələyə göstərdiyi bu cür diqqətdən tamamilə narazıyıq. Ona görə də vaxt keçdikcə, belə bir qənaətə gəlirik ki, biz güclənməliyik və problemi özümüz həll etməliyik.

**Sual:** Güclənməliyik deyəndə Siz nəyi nəzərdə tutursunuz?

**Cavab:** Hər bir sahəni nəzərdə tuturam. İqtisadi inkişafımızı nəzərdə tuturam. Bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından beş dəfə böyükdür. Həyata keçirdiyimiz iqtisadi islahatlar və layihələrimiz gələn üç-dörd il ərzində ÜDM həcmini iki dəfə artırmağa

imkanı verəcəkdir. İqtisadi və hərbi gücümüz, regional səviyyədə daha fəal əməkdaşlığımız, aktiv xarici siyasətimiz, beynəlxalq münasibətlərimiz Azərbaycanı regionda aparıcı ölkəyə çevirəcəkdir. Hesab edirik ki, münaqişənin nizamlanması üçün bu, yeganə yoldur, çünki on ildən artıq müddətdə aparılan danışıqlar heç bir nəticə vermir. Mən bilmirəm ki, bundan sonra biz nəyi gözləməliyik.

**Sual:** Siz qeyd etdiniz ki, qaçqınlar məsələsi ciddi problem olaraq qalır. Bu problemin aradan qaldırılması sahəsində Sizə hansı həcmdə yardım göstərilir? Onların probleminin həllində daxili imkanlarınızdan nə dərəcədə istifadə edirsiniz?

**Cavab:** Biz münaqişənin və sonradan atəşkəsin ilk illəri ərzində beynəlxalq humanitar təşkilatlarından və donor ölkələrdən yardımlar almışıq. Lakin hazırda bu yardımın həcmi azalır. Bu, bizi narahat edir. Buna səbəb ondan irəli gəlir ki, münaqişə get-gedə yaddan çıxır, çünki bu, uzunmüddətli münaqişədir.

Neft resurslarımız bütün qaçqınların tələbatının ödənilməsinə imkan vermir, çünki onların sayı səkkiz milyonluq əhalidə bir milyondan çoxdur. Bu, adambaşına düşən göstəriciyə uyğun olaraq, bütün dünyada götürsək, ən yüksək həddir. Lakin biz onların həyatının asanlaşdırılması məqsədi ilə əlimizdən gələni edirik. Onlar üçün yeni evlər, yaşayış məntəqələri, məktəblər və xəstəxanalar tikilir. Hər bir qaçqına dövlət kompensasiyası və digər yardımlar verilir. Lakin əlbəttə ki, bu, kifayət deyil. Çünki bu insanlar hər şeylərini-öz mülkiyyətini, evlərini və hər şeyi - itiriblər.

**Sual:** Təbii ki, Sizin Prezident Müşərrəflə görüşünüzdən və verdiyiniz bəyanatdan sonra Siz və Prezident Müşərrəf Kəşmir və Dağlıq Qarabağ haqqında danışdınız. Kəşmir və Qarabağ münaqişələrində hər hansı bir oxşarlığı görürsünüzmü? Bu cür uzunmüddətli münaqişələrin həlli sahəsində biz bir-birimizdən müəyyən şeyləri öyrənə bilərikmi?

**Cavab:** Oxşarlıqların əksəriyyəti aydındır. Əvvəla, hər iki halda, Pakistanın və Azərbaycanın mövqeləri ədalətli və düzgündür. Bu birinci amildir. İkincisi, hər iki halda Birləşmiş Millətlər Təşkilatının bütün qətnamələri, demək olar ki, mövqelərimizi dəstəkləyir. Buna görə də, bizim mövqelərimiz nəinki istəklərimiz və arzularımıza əsaslanır, həmçinin beynəlxalq səviyyədə tanınmış təşkilatların qərarlarına əsaslanır. Hər iki halda, biz ikili standart siyasəti ilə üzləşirik. Hər iki halda qeyri-düzgün və ədalətsiz hərəkətlərin şahidiyik və beynəlxalq ictimaiyyət onlara adekvat cavab vermir.

Artıq qeyd etdiyim kimi, Pakistan və Azərbaycan Kəşmir və Qarabağ məsələlərində birbirini dəstəkləyir. Bu dəstək yalnız münaqişələrin oxşarlıqlarına əsaslanmır, o, həmçinin bizim tarixi, mədəni və siyasi əlaqələrimizin səviyyəsinə uyğun olaraq yaxın olmağımızla izah edilir. Biz qüdrətli olmalıyıq, bir-birimizi dəstəkləməliyik, dostlarımıza və dost ölkələrə yardım əlini uzatmalıyıq. Bunu maraqlarımızın dünyada təşviq olunması üçün etməliyik.

**Sual:** Siz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının tərkibini genişləndirməklə bağlı mövqeyinizi bildirdiniz. Bildiyiniz kimi bu məsələ ilə bağlı başqa bir plan da var. Bu plan Pakistan tərəfindən təqdim edilmişdir. Siz BMT-də islahatların aparılması ilə bağlı təqdim edilən digər variantları dəstəkləyəcəksinizmi? Həmin variantlarda müxtəlif ölkələrin namizədliyi vardır. Siz Təhlükəsizlik Şurasının indiki tərkibdə qalmasına üstünlük verirsiniz?

**Cavab:** Hazırda biz hesab edirik ki, BMT-nin Təhlükəsizlik Şurasının tərkibi tarixdən irəli gələn faktdır. Bu fakt artıq tanınıb. Yeni üzvlərin qəbul edilməsi də mürəkkəb məsələdir. Yeni üzv olmaq üçün hansı meyarlar mövcuddur - ölkənin ərazisi, əhalisinin sayı, ÜDM, beynəlxalq məsələlərdəki rolu? Hazırda bu meyarları müəyyən etmək çox çətindir.

Mən eyni zamanda hesab edirəm ki, əgər bu gün dünyada bərabərlik və demokratiya ideyaları əsas götürülürsə, onda ölkələr arasında hər hansı bir ayrı-seçkiliyin yaranmasına səbəb olacaq vəziyyət yaranmamalıdır. Hansı ölkələr daha vacibdir, hansılar isə o qədər də vacib deyil? Təhlükəsizlik Şurasının bugünkü tərkibi tariximizin, keçmişimizin reallığıdır. Ona görə də bu məsələyə hər hansı bir dəyişikliyin edilməsi bir çox sual və problemlər yarada bilər. Bu, vəziyyəti asanlaşdırmayacaq, əksinə çətinləşdirəcəkdir. Buna görə də biz hesab edirik ki, hazırkı status optimaldır. Burada müzakirə etdiyimiz digər islahatlar qətnamələrin yerinə yetirilməsi ilə bağlıdır. Belə bir mexanizmlər mövcud deyildir.

Qoşunların Dağlıq Qarabağdan çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə Ermənistan heç bir reaksiya vermir. On ildən çox vaxt keçir, lakin heç bir şey baş vermir, heç bir sanksiya və ya təzyiq tətbiq edilmir. Hətta, tənqid də eşidilmir. Onda bu

qətnamələrin faydası nədədir? Qətnamələr, beləliklə, öz əhəmiyyətini itirir. Ona görə də güclü mexanizmlər olmalıdır ki, bunun yerinə yetirilmədiyi təqdirdə hansı sanksiyaların tətbiq olunacağı, beynəlxalq ictimaiyyətin hansı tədbirləri görəcəyi müəyyən edilsin. Qətnamələrə məhəl qoymayan, onları yerinə yetirməyən ölkələr cəzalandırılmalıdır. İlk olaraq onlara xəbərdarlıq edilməli və sonra isə, onlar beynəlxalq təşkilatlardan xaric olunmalıdır. Yalnız bu təqdirdə onlar müəyyən addımların atılması üzərində düşünməyə başlayacaqlar. İndi onların vecinə deyil. Qətnamələr onlar üçün heç bir əhəmiyyət daşımır. Bu, islahatların çox vacib elementidir və biz də Pakistan kimi bu məsələyə eyni gözlə baxırıq.

**Sual:** Ölkənizin gələcəyinə gəldikdə isə, Siz Azərbaycanı Qərbə doğru, Avropa İttifaqı ilə sıx əlaqələrin qurulması və yaxud Asiyaya doğru istiqamətdə görmək istərdiniz və daha çox Asiya ölkələri ilə möhkəm münasibətlər yaratmaq fikrindəsiniz?

**Cavab:** Biz dünyanın bütün ölkələri ilə möhkəm münasibətlər istəyirik. Azərbaycan gənc ölkədir. Müstəqil ölkədir. Ölkəmizin böyük potensialı var, dövlətimiz aydın siyasət yürüdür. Biz açıq qapı siyasətini həyata keçiririk. Avratlantik strukturlarına inteqrasiya ilə bağlı siyasətimiz qətidir və bu yolda böyük nailiyyətlər əldə etmişik.

Biz Avropa Şurasının üzvüyük, Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə daxil edilmişik. NATO ilə "Fərdi Tərəfdaşlıq Planı" əsasında çox sıx əlaqədəyik. Eyni zamanda bizim Asiyadakı tərəfdaşlarımızla yaxşı münasibətlərimiz var. Bunlar bir-birinə mane olmur. Biz elə bir vəziyyətdə olmaq istəmirik ki, hər hansı seçim qarşısında qalaq. Biz inkişafımız üçün lazım olan, milli maraqlarımızın qorunması, Dağlıq Qarabağ münaqişəsinin həlli, vətəndaşlarımızın həyatının yaxşılaşdırılması üçün işləri yerinə yetiririk. Bütün bunlar, ölkədə insanların təhlükəsizliyi, sülhün və sabitliyin qorunması, Azərbaycan üçün ən önəmli şəraitlərin yaradılması bir Prezident kimi mənim borcumdur. Bu istiqamətdə nə lazımdırsa, biz bütün işləri görəcəyik.

**Aparıcı:** Cənab Prezident, Pakistan Televiziyasının studiyasına gəldiyinizə görə Sizə çox minnətdarıq.

**"AzərTAC" 16.04.05**

## Azərbaycan Prezidenti İlham Əliyev xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Prezident sarayında xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuat konfransını açaraq dedi:

Hər vaxtınız xeyir, xanımlar və cənablar!

Azərbaycana xoş gəlmişsiniz!

Ölkəmizdə və bütün regionda böyük bir mərasimin keçirilməsi ərəfəsində istərdim ki, Azərbaycan hökuməti adından sizi burada bir daha salamlayım. Sabah biz Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılış mərasimini keçirəcəyik. Boru kəməri ölkəmizi böyük neft ixracçısına çevirəcəkdir. Bu, tarixi bir hadisədir və mən əminəm ki, boru kəməri ölkəmizə və regionun bütün digər ölkələrinə sülh, tərəqqi, təhlükəsizlik və gələcək inkişaf gətirəcəkdir. Artıq 10 ildən çoxdur ki, Azərbaycan davamlı olaraq öz neft sənayesini inkişaf etdirir və bunun nəticəsində, bəzi şəxslərə xülya kimi görünən bu boru kəməri reallığa çevrilməkdədir. Hesab edirəm, ölkəmizin gələcək inkişafı onu nümayiş etdirəcəkdir ki, neft ehtiyatlarımızın işlənilməsi və neftin dünya bazarlarına çıxarılması üçün ölkəmizdə bütün lazımi işlər proqram və cədvələ uyğun olaraq yerinə yetirilmişdir. Bu işlər ölkəmizi çiçəklənən və inkişaf edən məkana çevirəcəkdir.

Mən giriş sözlərimlə sizin vaxtınızı çox almaq istəmirəm. Hesab edirəm ki, suallarınızı versəniz daha yaxşı olar. Sağ olun.

**Emma Simpson "BBC TV-Radio":** Boru kəmərinin Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olması haqqında mülahizələrinizi bilmək istərdik.

**İlham Əliyev:** Boru kəmərinin əhəmiyyətli olması bir neçə amilə əsaslanır. İlk növbədə, boru kəməri dünya bazarlarına böyük həcmdə neft ixrac etmək imkanları açacaqdır. Mövcud olan boru kəmərləri neft yataqlarımızdan maksimum miqdarda çıxarılacaq neftin ixracını mümkün etmir. Bakı-Tbilisi-Ceyhan boru kəməri gündə ən azı bir milyon barel nefti ixrac etməyə imkan verəcəkdir. Bununla belə, müəyyən texniki məsələlər həll olunsa, onun gücünü artırmaq da mümkündür.

İkincisi, layihənin reallaşması ölkəmizə böyük həcmdə maliyyə vəsaitləri, nağd pullar əldə

etmək imkanını açacaq, əldə olunmuş gəlirlər iqtisadiyyatımızın inkişafına, onun şaxələndirilməsinə, qeyri-neft sektorunun möhkəmləndirilməsinə və əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasına kömək edəcəkdir. Mən həmçinin hesab edirəm ki, regional inkişaf yeni mərhələyə daxil olacaqdır. Çünki bu boru kəməri digər ölkələr və şirkətlər üçün yaxşı bir nümunəyə çevriləcəkdir. Eyni zamanda, ümidvaram ki, layihə regionda təhlükəsizliyi möhkəmləndirəcək və hadisələrin proqnozlaşdırılmasını mümkün edəcəkdir. Regionumuz bu gün tam təhlükəsiz məkan sayılmır. Bütün bunlar bizim gözlədiyimiz nəticələrdir. Hesab edirəm ki, biz öz proqnozlarımızda yanılmayacağıq.

**Emma Simpson:** Boru kəməri təhlükəsizliyi hansı formada möhkəmləndirəcək?

**İlham Əliyev:** Fikrimcə, bu boru kəməri böyük beynəlxalq layihədir. O, açıq dənizləri, müxtəlif ölkələri və xalqları birləşdirir. Təbii ki, boru kəməri sosial və iqtisadi inkişaf üçün yeni perspektiv açacaqdır. Zənn edirəm ki, insanlar iqtisadi baxımdan daha müstəqil olacaqlar və onların həyat tərzi daha da yaxşılaşacaqdır. Belə olsa, vətəndaş cəmiyyətinin inkişafı, demokratik islahatların geniş şəkildə həyata keçirilməsi üçün daha geniş imkanlar olacaqdır. Çünki yoxsul ölkələrdə bu istiqamətdə tez bir inkişafa nail olmaq mümkün deyildir.

Eyni zamanda, biz bilirik ki, regionda bir çox münaqişələr mövcuddur. Azərbaycanın və qonşu Gürcüstanın ərazi bütövlüyü kobudcasına pozulub, və beləliklə, beynəlxalq hüququn bütün norma və prinsipləri də pozulubdur. Biz separatizmin qurbanıyıq. Təcavüzkar separatizmdən və ərazimizin işğalından əziyyət çəkirik. Əminəm ki, boru kəməri davamlı sülhün bərqərar edilməsində vacib bir element olacaqdır. Bu, bizim imkanlarımızı genişləndirəcək, Azərbaycanın regiondakı rolunu daha da artıracaqdır. Əgər biz hazırda tikilən qaz kəmərini də nəzərə alsaq, - ümid edirik ki, onun inşası 2006-cı ilin sonunda başa çatacaq, - onda gələcəkdə hansı proseslərin baş verəcəyini daha aydın görəcəyik. Hesab edirəm ki, iqtisadi baxımdan güclü olan Azərbaycan regiondakı mövqeyini daha da möhkəmləndirəcək və öz məqsədlərinə nail ola biləcəkdir.

**İsikava İtiye "NHK" Yaponiya:** Rusiyanın bu boru kəmərinə olan münasibəti ilə bağlı mövqeyinizi bilmək istərdik. Onun tikintisinin münasibətlərə müəyyən təsiri ola bilərmi?

**İlham Əliyev:** Bizim bütün qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz var. Hesab edirəm ki, 1990-cı illərin ortalarında Rusiya ilə olan anlaşılmazlıq keçmişdə qalmışdır. O vaxtlar Rusiyadakı müxtəlif siyasi dairələr Rusiyanın rəsmi mövqeyinə uyğun olmayan siyasi addımlar atmışlar. Bu günlərdə isə biz Rusiya dövlətinin və hökumətinin yürütdüyü ümumi yekdil siyasəti görürük. İkitərəfli əlaqələrimiz çox yüksək səviyyədədir. Bizim çox yaxşı iqtisadi əməkdaşlığımız var.

Mən sizə deyə bilərəm ki, ticarət dövriyyəsi çox sürətlə artır. Məhz buna görə də biz boru kəmərinin tikintisi ilə bağlı heç bir narahatçılıq hissi keçirmirik və heç nədən çəkinmirik. Bizim üçün bu boru kəməri hər zaman məqsədlərimizə nail olmaq üçün bir alət olubdur. Boru kəməri bizim üçün iqtisadi baxımdan cəmiyyətimizin inkişaf etdirilməsi və müstəqilliyimizin möhkəmləndirilməsi üçün bir vasitədir. Neft son məqsədimiz deyil, güclü ölkəyə çevrilmək, müstəqilliyimizi dönməz etmək üçün istifadə olunan vasitələrdən biridir. Mən çox şadam ki, bizim qonşularla çox yaxşı və dostluq münasibətlərimiz var. Bir sıra qonşu ölkələrdən fərqli olaraq, Azərbaycan öz ərazisində heç bir xarici hərbi qüvvə və baza saxlamır və bunu planlaşdırmır. Hesab edirik ki, indiki dövrdə düşmənçilik yox, əməkdaşlıq etmək daha vacibdir. Azərbaycan öz siyasətini məhz bu istiqamətə yönəldir. Biz istəyirik ki, Azərbaycan əməkdaşlıq ölkəsinə çevrilsin və hesab edirəm ki, buna kifayət dərəcədə nail olmuşuq. Regionda təhdidlər də var. Mən onları artıq sadaladım. Gələcəkdə də yeni təhlükələr ola bilər. Heç kəs nəyin baş verəcəyini əvvəlcədən deyə bilməz. Lakin biz vətəndaşlarımızın və ölkəmizin təhlükəsizliyini öz imkanlarımız sayəsində təmin etməyə qadirik.

**Albrext Raynxardt Almaniyanin "ARD" kanalı:** Mənim sualım neft ixracından əldə olunacaq gəlirlərin idarə edilməsi ilə bağlıdır. Çünki bir çoxları deyir ki, neftdən gələn gəlirlər yalnız müəyyən maraqlara xidmət edəcəkdir.

**İlham Əliyev:** Bilirsiniz, belə fikirdə olan insanların ölkəmizin reallıqlarından xəbəri yoxdur. Artıq bir neçə ildir ki, Azərbaycanda Dövlət Neft Fondu fəaliyyət göstərir. Azər-baycanın xarici şirkətlər vasitəsilə neft layihələrinin həyata keçirilməsindən əldə etdiyi bütün gəlirlər Neft Fondunda cəmləşir. Fond çox şəffaf strukturdur. O, beynəlxalq audit şirkətləri, o cümlədən "Ernst and Young" şirkəti və "Pricewaterhouse" şirkəti tərəfindən auditdən keçirilir. Fonda yığılan bütün vəsaitlər haqqında məlumat müntəzəm olaraq mətbuatda

dərc edilir. Fondun xətti ilə hər hansı vəsait büdcə vasitəsilə xərclənir. Büdcə qəbul edildiyi zaman bizim parlament Fonddan ölkəmizin tələbatı üçün hansı həcmdə vəsaitlər cəlb olunacağı haqqında qərar verir. Buna görə də Azərbaycanın hər bir vətəndaşı orada nə qədər pulun olmasını və nəyə xərcləndiyini dəqiq bilir. Əgər hansı isə dairələr və yaxud şəxslər buna görə narahatlıq keçirirsə, bunun heç bir əsası yoxdur. Bizim reallıqlarımızla tanış olan hər kəs bilir ki, neftdən gələn gəlirlər lazımi qaydada qorunur.

Mən sizə digər misal çəkə bilərəm. Bir neçə il bundan əvvəl Böyük Britaniya yeni bir təşəbbüs irəli sürmüşdü. O, neft və qaz sənayesində şəffaflıq təşəbbüsü adlanır. Azərbaycan ilk ölkələr sırasında bu təşəbbüsə qoşuldu və bizim bu sahədə çox yaxşı nəticələrimiz var. Bu gün Azərbaycan şəffaflıq baxımından regionumuzda aparıcı ölkədir. Siz bunu burada işləyən şirkətlərdən, Beynəlxalq Valyuta Fondundan, Dünya Bankından və bu məsələ ilə məşğul olan digər fondlardan soruşa bilərsiniz. Bir sözlə, belə bir narahatlığa heç bir əsas yoxdur. Müəyyən şəxslər və siyasi qüvvələr yanlış təəssürat yaradılmasına çalışırlar. Lakin bunu anlamaq üçün ən yaxşı yol ölkəyə gəlib görmək və şəxsən bu məsələni öyrənməkdən ibarətdir.

**Arkadi Dubnov "Azadlıq radiosu":** Cənab Prezident, neft kəmərinin mühafizəsi problemi necə həll ediləcək, Bakı-Novorossiysk şimal boru kəməri necə işləyəcəkdir? Rusiya bu boru kəməri ilə hər iki başa neft nəql etməyə icazə verəcəkmi?

**İlham Əliyev:** Neft kəmərinin mühafizəsi baxımından, onun ərazisindən keçdiyi hər bir ölkə mühafizənin təmin olunması üçün öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. O ki qaldı ölkəmizə, Bakı-Novorossiysk boru kəmərinin və Bakı-Supsa boru kəmərinin mövcudluğunun bütün illəri ərzində Azərbaycanda bu kəmərlərin təhlükəsizliyini pozan heç bir hadisə baş verməyibdir. Bu, böyük əminliklə güman etməyə əsas verir ki, BTC-nin mühafizəsi ilə bağlı bizim tərəfimizdən, bizim ərazimizdə problem olmayacaqdır. Ərazisindən boru kəmərlərinin keçdiyi digər ölkələr də öz üzərinə müvafiq öhdəliklər götürmüşlər. Biz etibarlı mühafizəni öz qüvvələrimizlə təmin etməyə qadirik və düşünürəm ki, son illər bunu nümayiş etdirmişik.

Biz boru kəmərləri sistemlərinin çoxvariantlılığına tərəfdar olmuşuq və həmişə tərəfdarıq, onu əsas tuturuq ki, alternativlər, nəqliyyat yolları nə qədər çox olarsa, ölkəmiz bir o qədər əlverişli şəraitdə olacaq, manevr üçün daha böyük imkanlarımız olacaq, əlbəttə ki, sərfəli tarif siyasətinin təmin edilməsi üçün daha böyük imkanlar olacaqdır.

Bakı-Novorossiysk boru kəmərinə gəldikdə, deməliyəm ki, iqtisadi baxımdan, o, Bakı-Supsa boru kəməri, xüsusən də Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə rəqabətə tab gətirmir. Bakı-Novorossiysk boru kəməri ilə bir ton neftin daşınması üçün nəqliyyat tarifi, əgər səhv etmirəmsə, 15,64 dollar olduğu halda, Bakı-Supsa da 3 dollardan azdır. Onu da nəzərə alsaq ki, yüksək keyfiyyətli Azərbaycan nefti Bakı-Novorossiysk boru kəmərində Ural nefti ilə qarışdırılır, Bakı-Supsa ilə isə Brend markasından daha qiymətli olan Azəri Layt nefti nəql edilir, deyə bilərik ki, təkcə Azəri Layt ilə Ural qatışığı arasındakı fərqə görə və tarifdə də çox böyük məbləğdə pul itiririk.

Azərbaycanın hər il bu qədər vəsait itirməsinə baxmayaraq, biz Bakı-Novorossiysk boru kəmərinin işini dayandırmadıq və hesab edirik ki, Transneft tərəfindən tariflər üzrə müəyyən düzəlişlər olarsa, habelə keyfiyyət bankı yaradılarsa, bu boru kəməri səmərəli işləyə bilər. Ümidvarıq ki, neftimiz bu boru kəməri ilə daşınmaqda davam edəcəkdir. İki başa neft nəqli məsələsi də müzakirə edilməyə başlanır. Belə məsələ qaldırılarsa, əlbəttə, biz ona baxacağıq. Çünki boru kəməri əzəldən bu məqsədlə çəkilmişdir, yəni neft bu boru kəməri ilə Rusiyadan Azərbaycana nəql olunmuşdur. Sovet dövründə Azərbaycanda ildə maksimum 15-16 milyon ton, Sovet İttifaqının son illərində daha az neft çıxarılırdı, zavodlarımızın emal gücü isə 22 milyon ton idi. Yəni, bu boru kəməri həmişə bu istiqamətdə işləmişdir. Ona görə də bu məsələyə baxmaq olar.

**Dmitri Drize "RBK teleşirkəti":** Cənab Prezident, Rusiya şirkətləri Bakı-Tbilisi-Ceyhan layihəsində hansı şərtlərlə iştirak edə bilər və onlar buna hazırdırmı?

**İlham Əliyev:** Rusiya şirkətlərinin bu layihədə iştirakı ancaq onların öz arzusundan asılıdır. Biz Rusiya şirkətlərinə, eləcə də bütün digər şirkətlərə bu layihəyə qoşulmağı həmişə təklif etmişik. "BTC kompani"nin tərkibi formalaşanda qapı hamının üzünə açıq idi. Amma təəssüf ki, Rusiya şirkətləri bunu özləri üçün cəlbedici bilmədi və bu layihədə iştirak etmirlər. Bilirsiniz, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən Rusiyanın "LUKoyl" şirkətinin orada 10 faiz payı vardı və onu nisbətən bu yaxınlarda Yaponiya şirkətinə satdı. Beləliklə,

o, layihədən çıxdı. Lakin bu, hər şirkətin öz hüququdur və xarici şirkətlərlə birgə fəaliyyətimizin son 10 ili ərzində belə hallar baş vermişdir. Şirkətlər almışlar, satmışlar. İlk vaxtlar Azərbaycanda bunu heç də adekvat şəkildə qarşılamırdılar, elə görünürdü ki, kimsə buradan gedir, kimsə layihəni tərk edir. Lakin biz dünya iqtisadi proseslərinə daha yaxından inteqrasiya etdikcə, aydın oldu ki, bu, normal kommersiya prosesidir. Bu, kommersiya layihəsidir və biz ona həmişə ancaq kommersiya layihəsi kimi baxmışıq, hərçənd bəziləri buna siyasi rəng verməyə çalışırdılar. Əgər bu siyasi layihə olsaydı, yəqin ki, xarici şirkətlər buraya milyardlarla dollar qoymazdı. Bir sözlə, qapı açıqdır, bu layihədə iştirak etmək istəyənlər üçün imkanlar var, danışıqlar aparmaq olar. Hər şey istəkdən asılıdır.

**Emma Simpson:** Amerika Birləşmiş Ştatları ilə əlaqələrinizi necə təsvir edə bilərsiniz? Azərbaycan daha çox Qərbə, yoxsa Şərqə bağlıdır?

**İlham Əliyev:** Mən boru kəməri ilə bağlı suala cavab verərkən bu məsələyə də toxundum və bildirdim ki, biz həmişə boru kəmərini sırf iqtisadi bir layihə kimi qəbul etmişik. Çünki əgər siz iqtisadi göstəricilərə nəzər salsanız, onda görərsiniz ki, bu layihə kommersiya baxımından çox faydalı və gəlirlidir. Ona görə də layihənin həyata keçirilməsi üçün şirkətlərin ayırdığı milyardlarla dollar bir daha sübut edir ki, bu siyasi layihə deyildir. Bizim Birləşmiş Ştatlarla münasibətimiz olduqca yüksək səviyyədədir. Biz müttəfiqik və müxtəlif məsələlər ətrafında sıx əməkdaşlıq edirik. Enerji sektorunda da çox möhkəm əlaqələrimiz vardır. Birləşmiş Ştatlar bizim enerji inkişafımızı və xüsusən də, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsini hər zaman lazımınca dəstəkləyib və dəstəkləyir. Təhlükəsizlik sahəsində Birləşmiş Ştatlarla çox sıx münasibətlərimiz var. Biz antiterror koalisiyasında birgə mübarizə aparırıq. Dünyanın müxtəlif yerlərində sülhü mühafizə əməliyyatlarında bir yerdəyik. Azərbaycanın xarici siyasətinin düzgün istiqamətdə olduğu göz qabağındadır. Biz Avratlantik strukturlarına inteqrasiya sahəsində həmişə çox fəal olmağa çalışmışıq. Bu, sadəcə sözlərdə yox, bizim praktiki addımlarımızda və faktlarda hiss olunur. Lakin eyni zamanda, biz xarici siyasətimizi elə qururuq ki, maksimum dərəcədə maraqlarımızı qoruyaq. Biz qonşularımızla çox yaxşı münasibətlər qurmuşuq. Birləşmiş Ştatlarla yaxşı əlaqələrimiz var. Bunlar bir-birilə heç bir ziddiyyət təşkil etmir. Müdrik siyasət sayəsində səmimi əməkdaşlıq qurmaq mümkündür. Bu əməkdaşlıq çərçivəsində müxtəlif ölkələrin şirkətləri yan-yana işləyə bilər və həm fəaliyyət göstərdiyi ölkənin, həm də öz maraqlarına qulluq edə bilər.

**Piter Fişer "Neue Zurcher Zeitung" İsveçrə:** Cənab Prezident, Siz burada qeyd etdiniz ki, bir müddətdən sonra işləyəcək Bakı-Tbilisi-Ceyhan boru kəməri böyük miqdarda nağd pulun gəlməsinə, milyardlarla dolların əldə edilməsinə imkan yaradacaqdır. Bu yolla gedən bir sıra ölkələr makroiqtisadi sabitliyin qorunub saxlanmasında müəyyən çətinliklərlə üzləşmişlər. Siz necə hesab edirsiniz, bu boru kəməri ölkənizə qısamüddətli, yoxsa uzunmüddətli gəlirlər gətirəcək və bütün əhali bu gəlirlərdən nə dərəcədə yararlanacaqdır?

İcazənizlə, ikinci sualım da var. Bildiyiniz kimi, Qazaxıstan Prezidenti Azərbaycanda səfərdədir və mən bildiyimə görə, Qazaxıstan bu günədək Bakı-Tbilisi-Ceyhan boru kəmərində iştirak etməmişdir. Onlar üçün hansı perspektiv vardır?

**İlham Əliyev:** Sizin qaldırdığınız birinci məsələ bizi narahat edən məsələdir. Çünki sürətli iqtisadi inkişaf bizim makroiqtisadi vəziyyətimizdə bir az gərginlik yaradır. Son on il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı ildə orta hesabla 10 faiz olmuşdur. Bu il ümumi daxili məhsulun artımı 18 faiz səviyyəsində olacaqdır.

Beynəlxalq Valyuta Fondunun proqnozuna görə, bu statistik göstərici baxımından Azərbaycan dünyada aparıcı ölkəyə çevriləcəkdir. 2005-ci ilin ilk dörd ayı ərzində sənayedə artım 15 faiz və ümumi daxili məhsulun artımı 14 faiz olmuşdur. Biz minimum əmək haqqının və pensiyaların səviyyəsini iki dəfədən çox artırmışıq. 2005-ci ilin birinci rübündə əhalinin gəlirləri təqribən 30 faiz artmışdır. Büdcənin artımı təqribən 35 faiz olmuşdur. Bütün bunlar şübhəsiz ki, makroiqtisadi sabitliyə əlavə təzyiqdir və bu il, əvvəllər ölkəmizdə olmayan inflyasiya müşahidə edilmişdir. Hazırda inflyasiyanın azaldılması üçün ciddi tədbirlər görürük. Hesab edirəm ki, neft gəlirlərini özündə cəmləşdirən Neft Fondu şəffaflıq və etimadın yaradılmasından əlavə, hadisələrin arzuolunmaz məcrada cərəyan etməsinin qarşısını almağa imkan verəcəkdir. Biz neft hasil edən ölkələrin təcrübəsini, xüsusən də onların neft sənayesinin inkişafının keçdiyi müxtəlif mərhələləri lazımınca öyrənmişik. Şübhəsiz, biz yaxşı bilirik ki,

lüzumsuz addımlar atmaq və digər ölkələrin buraxdığı səhvləri təkrarlamaq lazım deyildir. Bu vəziyyətə düşməmək üçün əlavə element bizim Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlığımızdan ibarətdir. Biz fəal qaydada məsləhətləşmələr aparırıq. Bu qurumla sıx münasibətlərimiz var və onların bizə verdiyi məsləhətlər çox faydalıdır.

Əgər sənin pulun yoxdursa, sən yoxsulsansa, böyük problemlərin də çoxdur. Amma get-gedə varlanırsansa, yenə də problemlər və çətinliklər üzə çıxır. Lakin hesab edirəm ki, biz bu tarazlığı saxlaya biləcəyik. Çünki insanların bəslədiyi ümidlər çox böyükdür. Bu boru kəmərini xalq on ildir ki, gözləyirdi. İndi bir çoxları hesab edir ki, boru kəməri istismara verildikdən dərhal sonra hamı pullanacaq, varlı olacaq və ölkədə heç bir problem olmayacaqdır. Lakin biz başa düşürük ki, boru kəməri insanlara, özəl sektora, qeyri-neft bölməsinin inkişafına, ölkənin ümumi rifahına yeni imkanlar açacaqdır.

O ki qaldı, ikinci sualınıza, bəli, bu gün Qazaxıstan Prezidenti Azərbaycana rəsmi səfərini başlayır. Bizim ikitərəfli danışıqlarımız və müzakirələrimiz olacaqdır. Sabah o, açılış mərasimində də iştirak edəcəkdir. Bakı-Tbilisi-Ceyhan boru kəmərini planlaşdıranda biz hər zaman öz resurslarımıza arxalanmışıq. Bizim öz mənbələrimiz Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istismarı üçün tamamilə kifayət qədərdir. Əgər Xəzər dənizinin şərq sahilindən əlavə neftin ixracına ehtiyac olarsa, təbii ki, biz daşınma əməliyyatları üçün öz infrastrukturumuzun istifadəsinə hazırıq. Lakin bu, Qazaxıstandakı şirkətlərin proqramından, Qazaxıstan hökumətinin bu məsələyə münasibətindən asılı olacaqdır. Biz üçüncü ölkələr üçün bütün infrastrkturumuzdan müvafiq istiqamətdə istifadə edilməsinə hazırıq.

**Piter Fişer:** Bu boru kəmərinin o qədər ötürmə qabiliyyəti varmı?

**İlham Əliyev:** Bəli, indi var. Hazırda Bakı-Supsa kəmərinin ötürmə qabiliyyəti 6 milyon tondan çoxdur. Müəyyən vəsait sərf etsək, bu boru kəmərinin ötürmə qabiliyyətini 15 milyon tona qədər çatdırmaq olar. Eyni həcmdə, yəni ildə 15 milyon ton xam nefti Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə ötürə biləcəyik. Bu il ərzində hasil edəcəyimiz xam neftin həcmi 20 milyon tona çatacaqdır. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tam ötürmə qabiliyyətindən 2008-ci ildə istifadə etmək mümkün olacaqdır. Lakin əgər lazım gələrsə, texniki əməliyyatlar sayəsində Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ötürmə qabiliyyətini təqribən iki dəfə artırmaq olar. Əgər hazırda Azərbaycandan gündə bir milyon barrel neft göndərilməsi mümkündürsə, müəyyən texniki işlərin yerinə yetirildiyi təqdirdə, bu göstərici 1,8 milyon barrelə çatdırıla bilər. Bir sözlə, əgər neft olsa, onun daşınması üçün infrastruktur var.

**Albrext Raynxardt:** Cənab Prezident, Siz qeyd etdiniz ki, sabah tarixi bir gün olacaqdır. Lakin eyni zamanda, bütün mitinqlərə qadağa qoyulubdur. Nə səbəbə görə?

**İlham Əliyev:** Mən elə deməzdim ki, bütün mitinqlərə qadağa qoyulubdur. Azərbaycanda 2003-cü ildə prezident seçkilərindən sonra biz baş vermiş hadisələrdən əziyyət çəkdik və bu gün bir çoxları onları yaddan çıxarır. Həmin vaxt xaosun, dağıdıcı fəaliyyətin və hücumların şahidi olduq. Seçkilərdən sonra baş vermiş iğtişaşlar və zorakılıq halları yadımızdadır. O vaxt mitinqlərə gedən şəxslər ciblərini daşla doldurmuş, əllərinə metal dəyənəklər almışdılar. İğtişaş zamanı onlar polisə hücum etmiş, maşınları günahsız insanların üstünə sürmüş, avtobusları dayandırmış, maşınları vurub dağıtmış və yandırmışdılar. Beləliklə, bu, dinc nümayiş deyildi. Buna görə də bizim cəmiyyət sarsıntı keçirmişdir. Çünki keçmişdə, 1990-cı illərin əvvəllərində Azərbaycanda hər il dövlət çevrilişi cəhdi var idi. Hər il düşmənçilik və vətəndaş müharibəsi təhlükəsi müşahidə olunurdu.

Son on il ərzində isə Azərbaycan xalqı əmin-amanlıq şəraitində yaşamışdır. Ona görə də 2003-cü ilin sonunda baş vermiş hadisələr əhalini şok vəziyyətinə saldı. Cəmiyyətimiz bu ünsürləri pislədi. Hazırda isə belə bir tarixi hadisə ərəfəsində nümayiş keçirmək niyyəti bizdə narahatlıq doğurur. Biz bu möhtəşəm hadisənin əhalinin etimadını tamamilə itirmiş müəyyən siyasi qüvvələr tərəfindən zorakılıq hallarına çevrilməsinə yol verə bilmərik. Məhz buna görə biz mərasimin başa çatmasına qədər nümayişlərin keçirilməsinin təxirə salınmasını düzgün hesab etdik. Mərasim başa çatandan sonra heç bir məhdudiyyət qoyulmayacaqdır.

**Matias Bryuqqman "Handelsblatt" qəzeti Almaniya:** Cənab Prezident, Siz xarici siyasətiniz haqqında danışarkən, qonşu ölkələri, o cümlədən Rusiyanı xatırladınız. Lakin Siz neftin əsas ixrac istiqaməti olan Avropanı niyə qeyd etmədiniz? Avropanın bu regiondakı siyasəti Sizi qane edirmi?

**İlham Əliyev:** Əgər siz söhbətimizi diqqətlə dinlədinizsə, onda görərdiniz ki, mən yalnız verilən suallara cavab verdim. Mən Rusiya

haqqında, Azərbaycan-ABŞ münasibətləri haqqında suallara cavab verdim. Avropa ilə əlaqələrimizə gəldikdə, mən sizə eyni səmimiyyətlə cavab verəcəyəm. Bizim Avropa İttifaqı ilə çox gözəl münasibətlərimiz var. Uzun illər ərzində biz bir çox layihələr çərçivəsində birgə işləmişik və Avropa İttifaqının bizə yardımı kifayət qədər böyük olmuşdur. Mən xüsusən müstəqilliyimizin ilk illərini nəzərdə tuturam. O vaxt bizə maliyyə dəstəyi lazım idi. Hazırda Azərbaycan Avropa İttifaqının yeni qonşuluq siyasətinə daxil edilmişdir. Ümidvarıq ki, bu siyasət bizim Avropa İttifaqına daha yaxın olmağımız üçün yeni imkanlar yaradacaqdır. Artıq dörd ildən çoxdur ki, Azərbaycan Avropa Şurasının üzvüdür və ötən illər ərzində mən nümayəndə heyətimizin rəhbəri olmuşam. Bizim bu təşkilatla yaxşı münasibətlərimiz var. Ölkəmiz Avropa Şurasına qəbul olunduqda öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirməkdədir. Bizim Avropanın aparıcı ölkələri ilə də yaxşı əlaqələrimiz var və onları yüksək qiymətləndiririk.

Son il yarım ərzində mən bir çox Avropa ölkələrində rəsmi səfərdə olmuşam: Paris, London, Roma, Berlin, Brüssel. Brüsseldə mənim Avropa Komissiyası ilə geniş danışıqlarım olubdur. Bir sözlə, münasibətlərimiz çox yüksək səviyyədədir və mən əminəm ki, daha da inkişaf edəcəkdir.

Mən əvvəldə qaz layihəmiz haqqında danışdım. Hesab edirəm ki, bu element bizim Avropa İttifaqı ilə apardığımız enerji dialoqu üçün vacibdir. Bir neçə ildən sonra Avropa istehlakçıları Azərbaycan qazından istifadə edə biləcəklər. Çünki biz Türkiyənin ərazisinə qədər boru kəməri çəkəcəyik. Hazırda Yunanıstanla danışıqlar prosesi gedir. Beləliklə, qaz Türkiyədən Yunansıtana, sonra isə digər Avropa ölkələrinə çatdırıla bilər. Bu, əlaqələrimizin yeni amili olacaqdır. Əlbəttə ki, ölkəmizdə apardığımız siyasi islahatlar Avropada böyük dəstək qazanır və mən əminəm ki, gələcəkdə də biz işlərimizi fəal şəkildə davam etdirəcəyik.

**Jurnalist:** Cənab Prezident, bizə vaxt ayırdığınıza görə Sizə minnətdarıq. Sual vermiş jurnalist həmkarlarımıza da minnətdarıq.

**İlham Əliyev:** Çox sağ olun. Ümid edirəm ki, siz ölkəmizdə özünüzü rahat hiss edəcəksiniz. Hava da yaxşıdır, hətta biz gözlədiyimizdən də istidir. Sabah açılış mərasimimiz olacaqdır. Sizin hamınıza uğurlar arzulayıram.

**"AzərTAC" 25.05.05**

## Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Türkiyənin "Samanyolu" Televiziyasına müsahibəsi

**Jurnalist:** Azərbaycan Prezidenti, həyatını dövlət rəhbərliyinə həsr etmiş güclü bir atanın oğlu, gənc bir lider 1961-ci ilin dekabr ayında anadan olmuşdur. Oğlaq bürcündəndir. Moskvada beynəlxalq münasibətlər üzrə təhsil alıb, aspiranturaya daxil olub, rus, ingilis, fransız dillərini mükəmməl bilir. Yüksək intellektual potensiala malik dövlət adamıdır. Hər bir lider kimi, o da çox məşğuldur. Ölkəsinə faydalı olmaq istəyir, işğal altındakı Dağlıq Qarabağ məsələsində çox həssasdır. Ermənilər həqiqəti təhrif etməkdə günahlandırır, oyunlarını yaxşı bilir. Atasından ölkəyə qalan ən mühüm miras Bakı-Tbilisi-Ceyhan neft kəməridir. Ölkədəki ab-havanı dəyişdirəcək milyardlarla dollarlıq bu layihəyə böyük əhəmiyyət verir. Zamanı və texnologiyanı yaxından izləyir. Şəxsi internet saytı da var. Demokratiyaya əhəmiyyət verir. Xalqından ayrı düşən liderlərin itirəcəyini bildirir. İdmana olduqca böyük həvəsi var. Eyni zamanda, ölkəsinin Olimpiya Komitəsinin prezidentidir. Xalqı kimi o, da futbola daha çox maraq göstərir. Həm Türkiyədə, həm də öz ölkəsində pərəstiş etdiyi bir klub var. Adlarını sirr kimi gizlədir. Canı qədər sevdiyi üç övladı var. Xoşbəxt bir ailəsi var. Ölkəsinin xoşbəxt gələcəyinə dair də güclü ümidləri var.

Prezident İlham Əliyev 25 may ərəfəsində "Özəl gündəmin" özəl qonağıdır.

Azərbaycan dövlət başçısına ilk sualı "Samanyolu" televiziyasının baş əlaqələndiricisi Hidayət Qaraca verir. Sual xarici siyasətlə bağlıdır.

**Sual:** İzlədiyimiz kimi, dünyanın mühüm mərkəzlərinə çoxlu xarici səfərlərdə olmuşsunuz. Müsbət nəticələr əldə etdiyiniz məlumdur. Bu səfərlərdən nə gözləyirsiniz? Dünyanın ölkənizə baxışlarında nə kimi dəyişikliklər baş verdi? Hazırda Azərbaycanın yeri hansı nöqtədədir?

**Cavab:** Xarici siyasət daxili siyasətin davamıdır və onun əsas məqsədi ölkənin milli maraqlarını daha da dolğun və hərtərəfli şəkildə təmin etməkdir. Biz də bunu etməyə çalışırıq. Azərbaycan çox sürətlə dünya birliyinə inteqrasiya edir. Bizim müxtəlif beynəlxalq təşkilatlarla çox sıx əlaqələrimiz var, çox gözəl işbirliyi edirik. Beynəlxalq təşkilatlarda bizim mövqeyimiz möhkəmlənir. Birləşmiş Millətlər Təşkilatında, Avropa İttifaqında Azərbaycanın

mövqeləri daha da güclənir. Mən də öz xarici səfərlərimdə bütün bu məsələləri geniş müzakirə edirəm. Mənim çoxlu rəsmi səfərlərim olub, dünyanın müxtəlif ölkələri ilə, habelə beynəlxalq təşkilatlarla əlaqələrimizi müəyyən edən çoxlu görüşlər keçirmiş, danışıqlar aparmışam. İndi əminliklə demək olar ki, Azərbaycan dünyadakı mövqelərini möhkəmləndirib, bölgədə çox önəmli bir ölkəyə çevrilibdir. Biz çox istəyirik ki, Azərbaycan dünya birliyində özünə layiq yerini möhkəmləndirsin və biz öz haqq səsimizi mötəbər kürsülərdən dünya ictimaiyyətinə çatdıra bilək. Biz istəyirik ki, bütün dünya ictimaiyyəti Azərbaycanın reallıqlarını bilsin, ölkəmizin uğurlarını və problemlərini dərk etsin.

**Sual:** 5-10 il sonra Siz Azərbaycanı hansı mövqedə görmək istəyirsiniz?

**Cavab:** Bu il Azərbaycanda ümumi daxili məhsulun, yəni iqtisadiyyatın artımı 18 faiz təşkil edəcəkdir. Bu, rekord göstəricidir. İlin ilk 4 ayında iqtisadiyyatımız 14 faiz artmışdır. Əlbəttə, belə sürətli irəliləyiş imkan verəcək ki, ölkədə mövcud olan problemlər daha da tezliklə öz həllini tapsın. Biz yoxsulluqla ciddi mübarizə aparırıq və yoxsulluq Azərbaycanda kəskin şəkildə aşağı düşür. İşsizliyin aradan götürülməsi ən önəmli məsələlərdən biridir və böyük qürur hissi ilə deyə bilərəm ki, bizim son il yarım ərzində apardığımız iqtisadi islahatlar nəticəsində Azərbaycanda 200 mindən artıq yeni iş yeri açılıbdır. Bu, 8 milyon əhalisi olan ölkə üçün çox böyük göstəricidir. Azərbaycanda demokratikləşmə prosesləri sürətlə gedir və biz ümid edirik ki, bu siyasətin nəticəsində Avropa İttifaqına inteqrasiya olunmağımız daha sürətlə gedəcəkdir. Azərbaycan 2008-ci ildə yeniləşmiş, müasirləşmiş, zənginləşmiş ölkə kimi dünyada öz sözünü deyəcəkdir. Mənim məqsədim bundan ibarətdir.

**Sual:** Mayın 25-də dörd ölkənin prezidentlərinin iştirakı ilə BTC neft kəmərini açacaqsınız. Neft bir həyat suyu kimi buradan axacaqdır. Bu prosesi necə qiymətləndirirsiniz?

**Cavab:** Bu boru xəttinin, neft kəmərinin istismara verilməsi tarixi bir hadisədir. 1994-cü ildə Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə ilk müqavilə imzalandı. Sonra ona "Əsrin müqaviləsi" adı verdilər. Biz çox şadıq, çox sevinirik, çox fəxr edirik ki, bu neft kəməri istismara verilir. Təsadüfi deyil ki, bu neft kəməri Heydər Əliyevin adını daşıyır.

Bu kəmərin işə düşməsindən sonra bölgədə həm iqtisadi, həm siyasi mənzərə tamamilə dəyişəcəkdir. Mən əminəm ki, bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsi üçün bu kəmərin fəaliyyəti də mühüm rol oynayacaq, burada təhlükəsizliyin təminatına gözəl dəstək olacaqdır. Regional əməkdaşlıq baxımından da bu kəmərin rolu çox böyükdür. Bizim iki ölkə - Türkiyə və Azərbaycan arasında olan ənənəvi dostluq, qardaşlıq münasibətlərinin də yeni bir səhifəsi açılır və kəmərin uzunmüddətli fəaliyyəti xalqlarımıza həm rifah gətirəcək, həm də yeni imkanlar yaradacaqdır. Yəni bu boru xəttinin Azərbaycana və bizə dost olan ölkələrə təsiri çoxtərəfli olacaqdır.

**Sual:** Üç layihə ilə bölgədə fərqli bir mənzərə yaranır, sanki bir qaynaşma, yenidən o dostluğu, qardaşlığı bərpa etmək üçün mübarizə var?

**Cavab:** Siz tamamilə haqlısınız. Bakı-Tbilisi-Ərzurum qaz layihəsi də artıq uğurla icra edilir. Deyə bilərəm ki, bəlkə də bu Bakı-Tbilisi-Ceyhan neft kəmərinin bir növ kölgəsində qalmışdır. Ona görə bu layihə haqqında o qədər də məlumat yoxdur. Amma əslinə baxanda, bu, çox önəmli bir layihədir. Bu, Azərbaycan qazını Gürcüstan vasitəsilə Türkiyəyə gətirəcək və ondan sonra Türkiyədən Avropanın digər ölkələrinə aparılacaqdır. Bunun çox böyük əhəmiyyəti var. Bu da çox sərmayə tələb edən layihədir və bütün işlər 2006-cı ilin sonuna qədər başa çatmalı, kəmər Ərzuruma qədər çəkilməlidir.

Qars-Axalkalaki-Bakı dəmir yolu da bu qəbildən bir layihədir. O, bizi Türkiyə ilə dəmir yolu vasitəsilə birləşdirəcəkdir. Əlbəttə ki, bu, bizim xalqlarımızı daha da sıx birləşdirəcək və Türkiyə ilə Azərbaycanın bölgədəki, və bəlkə də, dünyadakı rolu və önəmi qat-qat artacaqdır.

**Sual:** Qazaxıstan Prezidenti Nursultan Nazarbayev də mərasimdə iştirak edəcəkdir. Qazaxıstan neftinin də BTC vasitəsilə daşınması üçün işlər davam edir. Bu layihə nə kimi mənfəətlər gətirəcək?

**Cavab:** Əgər belə bir imkan yaranarsa, əlbəttə ki, Qazaxıstan da bu kəmərdən istifadə edə bilər. Hər halda, bunu təmin edəcək anlaşma artıq hazırlanır və bu, Qazaxıstan üçün də gözəl alternativ olacaqdır. Gələcəkdə əgər ehtiyac olarsa, Bakı-Tbilisi-Ceyhan kəmərinin buraxılış qabiliyyətinin artırılması da mümkündür. Əgər indi gündə 1 milyon barel neftin nəqli nəzərdə tutulursa, biz onu əlavə texniki yollarla təxminən iki dəfə qaldıra bilərik. Biz hamımız - Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstan bu kəmərdən faydalanacağıq.

**Əhməd Bökən (xəbər əlaqələndiricisi):** Azərbaycanın ən kiçik bir sevinci Türkiyənin də sevinci olur. Biz bunu ekranlarımız vasitəsilə insanlara çatdırırıq. Bir çətinliyiniz olanda, biz də Türkiyədə üzülürük. Sosial sahədə, ictimai sahədə əməkdaşlığı qənaətbəxş hesab edirsinizmi?

**Cavab:** Əlbəttə ki, biz istəyirik ki, iqtisadi əlaqələrimiz siyasi əlaqələr səviyyəsinə gəlib çatsın. Amma bu da hələ mümkün deyildir. Çünki siyasi əlaqələr o qədər yüksəkdədir ki, buna çatmaq çox çətindir.

Bizim ticarət əlaqələrimiz, mal dövriyyəsi ilbəil artır. Azərbaycanda çoxlu layihələr var ki, Türkiyə şirkətləri onları icra edir. Məsələn, hava limanlarının tikintisində Türkiyə şirkətləri çox fəal iştirak edirlər. Mən dünən Gəncədə idim. Gəncədə yeni bir müasir hava limanı tikiləcək. Naxçıvanda, Bakıda olduğu kimi, Türkiyə şirkətləri bunu icra edəcəkdir. Yeni yolların salınmasında da türk şirkətləri işləyir. Yəni növbəti illərdə Azərbaycanda çoxlu işlər olacaqdır. Bəlkə də, milyardlarla dollarla ölçülən işlər olacaq və biz çox istəyirik ki, bizim türk qardaşlarımız, dost firmalarımız burada iştirak etsinlər - həm sərmayə qoysunlar, həm də müxtəlif layihələrdə işləsinlər.

**Sual:** Türkiyə Avropa İttifaqına daxil olmaq üçün yeni səylər göstərdi, addımlar atdı. Bu prosesə Azərbaycan necə baxır?

**Cavab:** Biz çox sevinirik ki, Türkiyə son zamanlar Avropa İttifaqı ilə çox səmimi münasibətlər qurur və böyük uğurlar əldə edibdir. Hesab edirəm ki, bu, böyük başarıdır, diplomatiyanın, siyasətin böyük uğurlarıdır. Digər tərəfdən, onu da görürük ki, müəyyən ədalətsizliklər də mövcuddur. Mən şəxsən əminəm və hesab edirəm, siz də mənim fikrimə şəriksiniz ki, Türkiyə çoxdan Avropa İttifaqının üzvü olmalıdır. Buna haqqı çatır. Türkiyədən sonra müraciət etmiş ölkələr artıq üzv olublar və o ölkələr nə iqtisadi, nə siyasi, nə də başqa cəhətlərdən Türkiyədən irəlidə deyillər. Ona görə Türkiyəni bu məsələdə, necə deyərlər, bir az geridə saxlamaq böyük ədalətsizlikdir. Bu ikili standartlar siyasətinin təzahürüdür və bizi çox üzür, Türkiyəni çox üzür. Amma bütün bunlara baxmayaraq, bu, qaçılmaz bir prosesdir. Türkiyə Avropa İttifaqının üzvü olacaq, mənim buna heç bir şübhəm yoxdur. Sadəcə, biz istəyirik ki, bu, daha tez olsun.

**Sual:** Hörmətli Baş nazirimizin və ya Türkiyə hökumətinin, türk diplomatiyasının Türkiyənin Avropa İttifaqına daxil olmaq prosesində Sizdən Ermənistanla münasibətlərinizi dəyişdirmək, mehriban səviyyəyə gətirmək barədə hər hansı tələbi oldumu?

**Cavab:** Xeyr, heç bir dəyişiklik yoxdur. Heç bir tələb, yaxud da ki, heç bir xahiş olmamışdır. Bu məsələ, ümumiyyətlə, müzakirə olunmur. Azərbaycanda, Türkiyədə və başqa ölkələrdə bəzi dairələr bizim aramızı bir az soyutmaq üçün, münasibətlərimizə mənfi təsir etmək üçün belə şayiələri ortaya atırlar. Belə bir məsələ yoxdur. Bu barədə Azərbaycanın rəhbərliyi dəfələrlə bəyan edibdir. Türkiyənin müxtəlif qurumları və ən yüksək vəzifəli şəxsləri - xarici işlər naziri, Baş nazir, Cümhurbaşqanı bəyan etmişlər ki, bu məsələdə heç bir dəyişiklik yoxdur və biz də bunu heç vaxt hiss etməmişik.

Biz bilirik, bəziləri Türkiyəyə güclü təzyiqlər edirlər ki, sərhəd açılsın, Ermənistanla münasibətlər qurulsun. Amma biz bilirik ki, bu məsələdə Türkiyənin mövqeyi dəyişməz olaraq qalır. Bu məsələdə həm iqtidarda, həm insanlarda, həm də ictimai qurumlarda, Türkiyə cəmiyyətində heç bir fikir ayrılığı yoxdur.

**Sual:** Ermənistanla əlaqələrin düzəlməsi hansı şərtlə ola bilər, yəni sağlam prosesin başlanması üçün Ermənistan nə etməlidir?

**Cavab:** Ermənistan bizim torpaqlarımızdan çıxmalıdır, işğal olunmuş torpaqlarımızı boşaltmalıdır. Bu təcavüzə son qoyulmalıdır və 1 milyon azərbaycanlı öz doğma dədə-baba torpaqlarına qayıtmalıdır. Bunun müqabilində biz Dağlıq Qarabağa yüksək muxtariyyət statusu vermək fikrindəyik.

Əgər hansı isə bir xalq başqa xalqın torpağında, başqa dövlətdə yaşayırsa, o demək deyil ki, onu parçalayıb qopartmalıdır. Dağlıq Qarabağda, haradasa, cəmi 60-70 min adam yaşayır. Ermənilərin başqa yerdə yaşaması da bizə bəllidir. Gürcüstanda təxminən 400 min erməni var. Rusiyada, bəlkə, bir milyondur, Fransada, Amerikada yaşayırlar. Nə üçün onlar bizdən torpaq istəyirlər? Bu, heç bir məntiqə də sığmır. Dağlıq Qarabağ həmişə Azərbaycan torpağı olubdur. Qarabağ sözü özü türk sözüdür. Ermənidən soruş Qarabağ nədir, onun dilində belə bir ifadə yoxdur. İndi dünyanın qanunları var, hər bir dövlət gərək bu qanunlarla yaşasın.

**Sual:** Ermənilərin işğalına məruz qalmış bir ölkənin Prezidenti olaraq, qondarma soyqırımı iddialarına münasibətiniz necədir? Bunu necə şərh edirsiniz?

**Cavab:** Bu məsələ bizi çox incidir. Bu da ədalətsizliyin bir təzahürüdür. Tarix təhrif olunur, ermənilər tərəfindən dünya ictimaiyyətinə

yanlış məlumatlar çatdırılır. Bu işdə xüsusilə erməni lobbisinin çox mənfi fəaliyyəti var. Əsrlər boyu ermənilər bizə qarşı soyqırımı ediblər. Həmişə, XX əsrdə də. Xocalı soyqırımı bunun, necə deyərlər, ən bariz nümunəsidir. 600 insan – qoca, uşaq, qadın qətlə yetirilmişdir. Başqa hadisələr də olubdur. Ona görə ermənilərin bu təbliğatı, sadəcə olaraq, bu məsələni bilməyən qurumlara yönəldilibdir.

Onların bütün siyasəti yalan üzərində qurulubdur. Bu, əvvəllər də belə olubdur. Biz də bunu görmüşük və görürük. Baxmayaraq ki, bizə, Azərbaycana qarşı təcavüz ediblər, bizim torpaqlarımızı işğal ediblər, günahsız insanları öldürüblər, çalışırlar ki, dünyada Azərbaycanı bir işğalçı dövlət kimi təqdim eləsinlər. Dünya birliyini çaşdırır və tamamilə yanlış bir təsəvvür yaratmaq istəyirlər. Ona görə biz buna qarşı öz təbliğatımızı aparmalıyıq. Bizim təbliğatımız ancaq həqiqət üzərində qurulub, xülya yaxud da fantaziya üzərində qurulmayıbdır.

**Sual:** Bir tərəfdə Rusiya, digər tərəfdə, "Bir millət, iki dövlət" olaraq qəbul etdiyiniz Türkiyə, sonra ABŞ və İran. Bu dörd ölkə arasında Azərbaycan necə bir xarici siyasət aparır və xarici siyasətdə əsas istiqamətiniz hansılardır? Xarici siyasətdəki prioritetləriniz nədir?

**Cavab:** Bizim xarici siyasətimizin əsas istiqaməti ondan ibarətdir ki, Azərbaycanın milli maraqları tam şəkildə qorunsun və təmin olunsun. Bizim başqa amalımız yoxdur. Rusiya, İran, Gürcüstanla bizim qarşılıqlı surətdə faydalı əlaqələrimiz var. Ticarət əlaqələrimiz inkişaf edir. Nəqliyyat layihələri həyata keçirilir. Əlbəttə, Türkiyə ilə bizim münasibətlərimiz tam başqa zəmində qurulubdur. Siz qeyd etdiyiniz kimi, biz bir millət, iki dövlətik və əlaqələrimiz bu prinsiplər üzərində qurulmuşdur. Azərbaycan öz müstəqilliyini bərpa etdiyi vaxtdan bu günə qədər Türkiyə həmişə bizimlə bərabər olubdur. Bu birlik, qardaşlıq əbədi yaşayacaqdır.

Dünyada rəqabət istəyən qüvvələr, yaxud da ki, ölkələr bu rəqabəti aparmaq üçün başqa bir yer tapa bilərlər. Amma biz ölkəmizi buna sövq etməyə imkan verə bilmərik. Biz istəyirik ki, işbirliyi olsun, inkişaf olsun, xoş münasibətlər olsun və siyasətimizi də bu istiqamətdə qururuq.

Digər tərəfdən də, Azərbaycan öz müstəqilliyini çox qiymətləndirir. Çünki biz uzun illərdən bəri müstəqillikdən məhrum idik. Ona görə müstəqillik bizim üçün çox böyük məna daşıyır. Müstəqillik hansısa rəsmi atributlarla ölçülmür, müstəqillik gərək həqiqi olsun. Dünyada bir çox ölkə var ki, onun bayrağı da var, dövlət himni də var, müstəqilliyi əks etdirən digər əlamətləri də var, amma müstəqil siyasət apara bilmir. Bəzi ölkələr başqa ölkələrin iradəsi ilə idarə olunur, bəziləri digər ölkələrin yedəyində gedir, biz bunu bilirik. Azərbaycanın xoşbəxtliyi ondadır ki, biz bundan azadıq.

**Sual:** Əvvəllər Türkiyədəki təhsil ocaqları şagirdlərinin uğur qazanması ilə bağlı xəbərlər hazırlayırdıq. İndi yavaş-yavaş azərbaycanlı gənclərin beynəlxalq olimpiadalarda uğurlarının şahidi oluruq. 130 medal əldə edildiyini öyrəndik.

**Cavab:** Bəli, mən bunu çox yüksək qiymətləndirirəm.

**Sual:** "Çağ öyrətim" şirkətinin ölkənizdə açdığı tədris müəssisələrini necə qiymətləndirirsiniz?

**Cavab:** Yüksək dəyərləndirirəm. Mən çox razıyam, görürəm ki, orada təhsil alan gənclər dünya olimpiadalarında, başqa müsabiqələrdə yüksək yerlər tuturlar. Çox gözəl təhsil alırlar, mən bunu çox bəyənirəm və dəstəkləyirəm. "Çağ" öyrətim şirkəti burada çox böyük işlər görür və mən bu fəaliyyətdən çox razıyam.

**Sual:** Vaxtilə ümummilli lider Heydər Əliyevin baxdığı bir sərgidə hər bir şirkət öz məhsullarını nümayiş etdirirdi. "Çağ öyrətim" şirkətinin də stendi vardı, onlar da medalları nümayiş etdirmişlər.

**Cavab:** Bəli, o da dəyərli bir məhsuldur.

**Sual:** Ölkəmizin Baş naziri Rəcəb Tayyib Ərdoğanla və Ermənistan dövlət başçısı Koçaryanla görüşləriniz oldu. Bu görüşlərin nəticələri haqqında nə deyə bilərsiniz?

**Cavab:** Hörmətli Baş nazirlə bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Biz bütün beynəlxalq tədbirlərdə görüşürük, bütün məsələləri səmimi şəkildə müzakirə edirik. Bu dəfə də belə səmimi görüş oldu və ikitərəfli münasibətlər müzakirə olundu. Regiondakı vəziyyət, əlbəttə ki, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri müzakirə edildi.

O ki qaldı Ermənistanın prezidenti ilə görüşümə, bu, artıq dördüncü görüş idi. Xarici işlər nazirləri daha tez-tez görüşürlər və nizamlanma məsələləri müzakirə olunur. Bu görüşdə hansı isə bir nəticəyə gəldiyimizi deyə bilmərəm. Hər iki tərəfin mövqeyi kifayət qədər sərtdir. Ümid edirik ki, bu danışıqlar nəticə verə bilər. Əgər bu ümid olmasa, o zaman danışıqların aparılmasına da ehtiyac qalmayacaqdır. Bir halda ki, biz bu

danışıqları aparırıq, deməli, hansı isə bir ümid var.

Amma yenə də bütün məsələlər, xüsusilə belə mürəkkəb məsələlər ancaq və ancaq prinsiplər üzərində qurula bilər. Ancaq hansı prinsiplər? Ermənistan istəyir ki, bizim torpaqlar onlara keçsin. Amma onun istəyi ilə deyil ki. Birincisi, biz buna razı ola bilmərik, ikincisi, gərək bu razılaşma beynəlxalq hüquq əsasında əldə olunsun. Ermənistanın mövqeyi isə o prinsiplərdən tamamilə kənardadır, yalnız və yalnız onların istəyindən, onların arzularından və xülyalarından qaynaqlanır. Ona görə, bu, ziddiyyət təşkil edir. Biz beynəlxalq hüququn tərəfindəyik və buna əsaslanırıq. Onlarsa, sadəcə olaraq, öz ideyalarına və yanlış yanaşmalara güvənirlər.

**Sual:** Türkiyənin Dağlıq Qarabağ məsələsində tutduğu mövqeyindən məmnunsunuzmu?

**Cavab:** Məmnunam.

**Sual:** Sizcə, Türkiyənin mövqeyi istəyinizcədirmi?

**Cavab:** Bəli, bəli. Türkiyə birmənalı şəkildə öz mövqeyini ortaya qoyubdur və heç bir dəyişiklik yoxdur. Biz də bu mövqedən çox razıyıq və əminəm ki, bu mövqe belə də qalacaqdır.

**Sual:** Baş nazir və ya xarici işlər naziri ilə telefonla danışırsınız?

**Cavab:** Bəli, danışırıq. Çox sıx-sıx əlaqə saxlayırıq və biz dostuq.

**Sual:** Baş nazir Azərbaycana gəldimi?

**Cavab:** Gözləyirik.

**Sual:** Azərbaycanın gələcəyi baxımından parlament seçkilərini necə görür və necə qiymətləndirirsiniz?

**Cavab:** Bu seçkilərə çox böyük önəm veririk. Hesab edirəm ki, parlament seçkiləri Azərbaycanda demokratiyanın inkişafında mühüm rol oynayacaqdır. Mən şübhə etmirəm ki, seçkilər ədalətli, şəffaf keçəcəkdir. Hər halda, biz öz tərəfimizdən hər şeyi edirik ki, buna nail olaq. Bu yaxınlarda mənim tərəfimdən müvafiq Fərman imzalandı ki, seçkilərdə inkişaf olsun və seçki praktikası daha da təkmilləşsin. Yəni daha da mükəmməl olsun. Hər bir namizədə eyni şərait yaradılsın, mediaya da tövsiyə olundu ki, hər bir namizədin proqramını insanlara çatdırsın və heç bir ayrı-seçkilik olmasın. Hər bir namizəd eyni hüquqa malik olsun. Mən ümid edirəm ki, biz buna nail olacağıq.

Dünyada məşhur olan "Gellap İnternational" təşkilatı bu yaxınlarda burada rəy sorğusu keçirib və nəticə belə olub ki, əhalinin 77 faizi Azərbaycan Prezidentinə inanır və onu dəstəkləyir. Bəlkə də, bu, mənim üçün o qədər də yaxşı deyil ki, bunu deyirəm. Amma bu, həqiqətdir. Ona görə, belə dəstək olan halda, əlbəttə, bütün islahatları da aparmaq mümkündür. Bütün planları da həyata keçirmək mümkündür. Amma gərək seçkilər elə keçsin ki, heç kimdə şübhə olmasın ki, bu seçkilər ədalətli keçib və xalqın iradəsi öz əksini tapıbdır.

**Sual:** Gürcüstanda, Qırğızıstanda, Özbəkistanda məlum hadisələr baş verdi. Azərbaycan Orta Asiya üçün çox önəmli qapı rolunu oynayan tranzit ölkədir. Baş verənləri necə qiymətləndirirsiniz, narahatlıq keçirirsinizmi?

**Cavab:** Bizim siyasətimizin əlamətlərindən biri də odur ki, heç vaxt başqa ölkənin daxili işinə qarışmırıq. Hesab edirəm ki, əgər bütün ölkələr bu prinsipi rəhbər tutarsa, dünyada müharibə olmaz, savaş olmaz, münaqişə olmaz. Biz bu prinsiplərə sadiqik. Yalnız və yalnız ölkədə gedən proseslərə öz diqqətimizi yetiririk və istəyirik ki, daxildə inkişaf daha da sürətlə getsin. Ona görə başqa ölkələrdə baş verən hadisələr bizi o qədər də maraqlandırmır.

**Sual:** Amma izləyirsiniz?

**Cavab:** Əlbəttə, izləyirik, axı biz təcrid olunmuş vəziyyətdə yaşamırıq. Bir bölgədə yaşayırıq. Əlbəttə, biz istəmirik ki, bölgədə vəziyyət gərginləşsin. Amma bu hadisələri təhlil edərkən bir nəticəyə gəlirik ki, bütün bu hallarda iqtidarla xalq arasında böyük uçurum, inamsızlıq var idi. İqtisadi problemlər də çox ciddi idi. Ola bilər ki, bu hadisələri doğuran amillərdən biri də budur. Hakimiyyətin əsas mənbəyi xalqdır. Xalqın dəstəyi olmasa, heç bir hakimiyyət öz yerində otura bilməz. Mən bütün məmurlara, bizim rayonlarda, yerlərdə olan bütün icra hakimiyyəti başçılarına da birinci belə göstəriş vermişəm ki, gedin, xalqın qayğıları ilə məşğul olun, kömək edin, yaradın, qurun. Əgər belə münasibət olarsa, insanlar bunu duyur, hiss edirlər. Prezident, yaxud başqa məmurun vəzifəsi budur. Biz xalqın xidmətçiləriyik.

**Sual:** Rəhbərlik xalqdan ayrı düşməməlidir?!

**Cavab:** Bəli. Heç vaxt rəhbərlik düşünməməlidir ki, o, xalqdan üstündür, yaxud da o, necə deyərlər, hər şey edə bilər. Belə olan halda, birlik olmur. Birlik olmayan yerdə ölkələr çox pis vəziyyətə düşür.

**Sual:** Dünyada Milli Olimpiya Komitəsinə rəhbərlik edən yeganə dövlət başçısı Sizsiniz? Başqası da varmı?

**Cavab:** Başqa ola bilər, amma onların bu vəzifəyə gəlmə tarixi başqadır. Onlar Prezident olurlar, sonra Olimpiya Komitəsinə rəhbərlik edirlər.

**Sual:** Siz aşağıdan gəldiniz?

**Cavab:** Bəli, mən aşağıdan gəldim.

**Sual:** Bilirsiniz ki, bazar günü Türkiyədə Fənərbaxça və Qalatasaray komandaları arasında oyun var. Baxa bilirsinizmi?

**Cavab:** Yox, başım qarışır.

**Sual:** Türkiyədə hansı isə komandaya azarkeşlik edirsinizmi?

**Cavab:** Azarkeşlik edirəm.

**Sual:** Hansına?

**Cavab:** Onu deyə bilmərəm. Çünki mən burada da bir komandaya azarkeşlik edirəm. Amma mən onu deyə bilmərəm. Türkiyə də mənim vətənimdir.

**Sual:** Son sual, Fənərbaxça-Qalatasaray oyununda qalib gələn çempion olacaq. Sizcə, qalib kim olacaq?

**Cavab:** Güclü qalib gələcək.

**Jurnalist:** Belə bir önəmli gün ərəfəsində "Samanyolu" televiziyasının əməkdaşlarını qəbul etdiyiniz, bizə vaxt ayırdığınız üçün bir daha təşəkkür edirik. Yenidən görüşənədək.

**İlham Əliyev:** Sağ olun. Mən sizə təşəkkür edirəm.

**"AzərTAC" 26.05.05**

## Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "CNN-Türk" Telekanalına birbaşa yayımla müsahibə vermişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Prezident sarayında "CNN-Türk" telekanalının xəbər müdiri Gürkan Zənginə müsahibə vermişdir. Müsahibə "CNN-Türk" telekanalı ilə birbaşa yayımlanmışdır. Həmin müsahibənin mətnini oxuculara təqdim edirik.

**Jurnalist:** Azərbaycanın paytaxtı Bakıdan xoş gördük. İndi Bakıda Prezident sarayındayıq və Cümhurbaşqanı İlham Əliyevin qonağıyıq. Son bir neçə həftədə meydana çıxan hadisələr bizim Bakıya gəlməyimizə səbəb oldu. Azərbaycan müxalifətinin təmsilçiləri İstanbulda bir toplantıya qatılmaq üçün Türkiyədə idi, orada bir neçə mesajlar verildi.

Bu ilin noyabrında Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Xüsusilə Ukrayna, Gürcüstan kimi ölkələrdə inqilabların baş verdiyi bir dövrdə bəziləri tərəfindən gündəliyə gətirilir ki, bunu Azərbaycanda da etmək olarmı? Seçkilər qarşısında müxalifətdəki canlanmanı da görürük.

Baş nazir Rəcəb Tayyib Ərdoğan sabah axşam Bakıya gəlir. Bu, onun Baş nazir kimi Azərbaycana ilk rəsmi səfəridir. Bütün bunlar və İranda yeni prezident seçilməsinin hadisələrə təsiri və sair məsələlər ətrafında söhbət aparılacaqdır. Aydındır ki, bu bölgə hər zaman hərəkətlidir. Qafqaz barədə çox danışmağa ehtiyac yoxdur. Təbii qaz, neft ehtiyatlarının mövcud olduğu bir bölgədir. Belə bir məqamda bu bölgədə iş görmək, siyasəti davam etdirmək çox çətindir. Mərhum dövlət başçısı Heydər Əliyev bu işin ustası idi. 2003-cü ildə o, dünyasını dəyişdikdən sonra yerinə oğlu İlham Əliyev gəldi və hazırda Prezidentdir.

Hörmətli Cümhurbaşqanı, əvvəlcə bizi qəbul etdiyinizə, belə bir vaxtda müsahibə verdiyinizə görə Sizə təşəkkür edirik.

**İlham Əliyev:** Sağ olun.

**Jurnalist:** Cənab Prezident, atanızdan danışdıq, Siz onun yerini tuta bilirsinizmi?

**İlham Əliyev:** Bunu ilk növbədə Azərbaycan xalqından soruşmaq lazımdır. Mən çalışıram, əlimdən gələni edirəm ki, seçkilərdən öncəki bütün vədləri yerinə yetirim. Azərbaycanı daha da inkişaf etdirək, ölkəmizi zənginləşdirək ki, həm bölgədə öz mövqelərini möhkəmləndirsin, həm də daxildə sabitlik pozulmasın, Azərbaycan iqtisadi cəhətdən daha da güclü olsun.

Bizim çoxlu planlarımız var, çoxlu layihələrimiz var. Deyə bilərəm ki, onların hamısı uğurla icra edilir. Son ilyarım ərzində, seçkilərdən keçən dövr ərzində Azərbaycanda çoxlu islahatlar aparıldı.

**Jurnalist:** Yəni, islahatlar hələ davam etdirilir.

**İlham Əliyev:** Bəli, islahatlar davam edir. Mən sizə bir-iki rəqəm gətirə bilərəm. Son ilyarım ərzində Azərbaycanda 220 min yeni iş yeri açılıbdır. Onların tam əksəriyyəti bölgələrdədir. Bu ilin ilk beş ayında iqtisadi artım 16 faiz olubdur. İl ərzində ümumi daxili məhsul 18-20 faiz artacaqdır.

**Jurnalist:** Daxili siyasətdə bu islahatlar əsaslı şəkildə davam edir. Bunlar görünür, rəqəmləri də Siz dediniz. Atanız böyük siyasət, dövlət adamı idi. Ən önəmli xüsusiyyəti bu idi ki, İran, Rusiya, Türkiyə kimi bölgə ölkələri, bundan əlavə, Avropa, Amerika ilə tarazlaşdırılmış siyasət yürüdürdü. Deyə bilərsinizmi, Siz

necə siyasət yürüdürsünüz, Sizin siyasətiniz nə üzərində qurulubdur?

**İlham Əliyev:** Bu gün Azərbaycanda Heydər Əliyev siyasəti davam etdirilir. Onun strateji xətti dəyişməz olaraq qalır. Çünki bu, Azərbaycan xalqının tələbidir, zamanın tələbidir, məntiqin tələbidir. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir, bəyənir və mənim Prezident vəzifəsinə seçilməyimdə də bu amil çox önəmli rol oynadı. Azərbaycan xalqı bu siyasətdə dəyişiklik istəmir. Bu siyasətin əsas mahiyyəti ondadır ki, o, Azərbaycanın milli maraqları zəminində qurulur, Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmalıdır.

**Jurnalist:** Tarazlı siyasətə gəlincə, bilirik ki, 70-80 il bu ölkəyə təsiri olmuş Rusiya var. Rusiyanın Azərbaycan üzərində təsiri hələ varmı, varsa nə qədərdir?

**İlham Əliyev:** Azərbaycan üzərində başqa dövlətlərin təsiri çox zəifdir. Əgər biz keçmiş Sovet İttifaqının respublikalarına nəzər salsaq görərik ki, Azərbaycan bu baxımdan ən əlverişli vəziyyətdədir. Bunun da səbəbi məhz Heydər Əliyevin yürütdüyü siyasət idi. Bu gün Azərbaycana təzyiq etmək iqtidarında olan qüvvələrin sayı çox azdır. Bizə kim necə təsir edə bilər, kim öz təsirini necə göstərə bilər? Bu, mümkün deyildir. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələrin güclənməsində maraqlıyıq və bunu edirik. O cümlədən, qonşu dövlətlərlə əlaqələrimiz yaxşıdır. Ancaq Azərbaycan öz siyasətini özü aparır.

**Jurnalist:** Sabah axşam Türkiyənin Baş naziri hökumətin başçısı kimi Azərbaycana ilk dəfə rəsmi səfərə gələcəkdir. Türkiyə ilə əlaqələr sanki atanızın dövründə daha sıx ziyarətlərlə inkişaf edirdi. Soyuqluqmu yarandı, yoxsa ziyarətlər azaldı?

**İlham Əliyev:** Xeyr, xeyr, belə bir şey yoxdur. Bizim aramızda olan əlaqələr çox yüksək səviyyədədir. Mənim Cümhurbaşqanı kimi ilk səfərlərimdən biri də məhz Türkiyəyə olmuşdu və mən o səfərdən çox məmnunam. Bu günlərdə isə Türkiyənin Baş naziri Azərbaycana gəlir və bizim əlaqələrimiz çox sıxdır. Biz daim əlaqə saxlayırıq, telefonla danışırıq, bütün məsələləri müzakirə edirik. Türkiyədən Azərbaycana, Azərbaycandan Türkiyəyə müxtəlif heyətlər - nazirlər, parlament üzvləri, digər rəsmi şəxslər gəlir-gedir. Bizim aramızda çox sıx əlaqələr var. Deyə bilərəm ki, indiki şəraitdə bu əlaqələr yeni bir müstəviyə keçibdir. Bizim bölgədəki gücümüz, nüfuzumuz artır. Türkiyə və Azərbaycanın həyata keçirdikləri birgə layihələr nəticəsində bölgədə tam yeni bir mühit yaranır, ölkələrimizin önəmi artmaqdadır. Bizim sıx birgə olmağımız gələcək üçün mühüm üfüqlər aça bilər.

**Jurnalist:** Müxalifətin bu günlərdə Türkiyədə olması səbəbi ilə bağlı mülahizələr söylənilir ki, Baş nazirin bu ziyarəti Azərbaycana noyabr seçkiləri yaxınlaşarkən edilir və daha çox demokratikləşmə yolunda mesaylar veriləcəkdir.

**İlham Əliyev:** Mən bu barədə bir şey deyə bilmərəm. Çünki bu bizim üçün müzakirə mövzusu deyildir.

**Jurnalist:** Yəni nə mənada?

**İlham Əliyev:** Nədən olsun ki? Azərbaycanın vəziyyəti bu gün çox yaxşıdır. İctimai-siyasi vəziyyət bizi qane edir. Xalqla iqtidar arasında birlik var, vəhdət var. Biz xalqın dəstəyini hiss edirik. Bizim fəaliyyətimiz yüksək qiymətləndirilir. Azərbaycan bölgədə sabit ölkədir. Azərbaycan demokratik təsisatlarını inkişaf etdirir. Biz Avropa İttifaqı ilə çox sıx əməkdaşlıq edirik. Avropa Şurası ilə məsələlərimizi həll edirik. Bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz çox yaxşıdır. Eyni zamanda, dediyim kimi, bizim iqtisadiyyatımız çox sürətlə inkişaf edir. Beynəlxalq Valyuta Fondunun verdiyi bəyanata görə, 2005-ci ildə Azərbaycan iqtisadiyyatı artım baxımından dünyada birinci yerdə olacaqdır.

**Jurnalist:** Yəni bunumu söyləyirsiniz ki, iqtisadiyyatımız, siyasətimiz, demək olar, yaxşıdır. Türkiyə Baş nazirinin buraya daha çox demokratikləşmə mesajı gətirməsinə ehtiyac yoxdur?

**İlham Əliyev:** Bilirsiniz, hörmətli Baş nazirlə bizim əlaqələrimiz çox səmimidir. Biz dostuq, istənilən məsələni müzakirə edə bilərik və edirik də. Elə məsələ yoxdur ki, biz onu səmimi bir qardaş kimi, dost kimi danışmayaq. Sizə deyə bilərəm ki, bütün beynəlxalq tədbirlərdə ki, biz bir yerdə oluruq, daim görüşürük və saatlarla danışırıq. Ona görə bütün məsələlər müzakirə oluna bilər. Hesab edirəm ki, hansı isə məsələni ümumi kontekstdən çıxarıb, ön plana çəkməyə lüzum yoxdur.

**Jurnalist:** Bu gün Azərbaycanı bir demokratik ölkə kimi qiymətləndirə bilərsinizmi?

**İlham Əliyev:** Bəli, Azərbaycan demokratik inkişaf baxımından çox sürətlə inkişaf edən ölkədir. Azərbaycanda demokratiyanın inkişafı üçün bütün lazımi şərait mövcuddur. Siyasi partiyalar fəaliyyət göstərir. Söz azadlığı, mət-

buat azadlığı, vicdan azadlığı – bütün bunlar mövcuddur. Beynəlxalq təşkilatlarla bizim əlaqələrimiz çox müsbətdir. Xüsusilə, bilavasitə insan haqları ilə məşğul olan Avropa Şurası ilə bizim aramızda heç bir problem yoxdur. Azərbaycanda normal demokratik inkişaf üçün hər cür şərait var. Biz dövlət, hökumət olaraq əlimizdən gələni edirik ki, bunu daha da genişləndirək və bütün imkanları yaradaq.

**Jurnalist:** Noyabr ayında Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Bu seçkilərin ədalətli keçəcəyinə təminat verə bilərsinizmi?

**İlham Əliyev:** İlk növbədə onu demək istəyirəm ki, prezident seçkilərində Azərbaycan xalqının iradəsi tam şəkildə öz əksini tapıbdır. Bizə müxalif olan bəzi qüvvələr tarixi təhrif etməyə çalışırlar, rəy yaratmaq istəyirlər ki, guya prezident seçkilərində hansı isə problem çıxdı. Heç bir problem çıxmadı. Avropa İttifaqının bəyanatına baxın, orada seçkilər çox müsbət qiymətləndirilir. Dünyanın aparıcı ölkələrinin bəyanatlarında da həmçinin. Bu yaxınlarda dünyada tanınmış "Gellap International" təşkilatı Cənubi Qafqazda bir rəy sorğusu keçirdi.

**Jurnalist:** Yəni əhalinin rəyini öyrəndi.

**İlham Əliyev:** Bəli. Rəy sorğusunun nəticəsinin Azərbaycana aid hissəsi ondan ibarətdir ki, əhalinin 77 faizi Azərbaycan Prezidentinə inanır və onu dəstəkləyir. Bunu mən demirəm, bizim partiyamızın hansı isə mətbu orqanı demir, "Gellap International" deyir. Prezident seçkilərində qazandığım səslər isə 76 faizdir. Ona görə də prezident seçkiləri ilə bağlı müxalifət tərəfindən səslənən fikirlər uydurmalardır, əsassızdır.

**Jurnalist:** Amma Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı prezident seçkilərinin beynəlxalq standartlara uyğun olmadığını açıqladı.

**İlham Əliyev:** Təbii, standartlara uyğun gəlmədi. Amma bizim ölkəmizdə hansı bir məsələ standartlara uyğun gəlir?! Bir də ki, o standart nədir?! Təbii ki, çatışmazlıqlar, qanun pozuntuları olubdur. 600-dən çox məntəqədə seçkilərin nəticəsi ləğv edildi. Amma bu, o demək deyil ki, seçkilər ədalətsiz keçirildi, yaxud da seçkilərin nəticələri şübhə altındadır. Heç kim buna şübhə etmir.

O ki qaldı, parlament seçkilərinə, bu məsələdə də mən hesab edirəm ki, heç bir problem olmayacaqdır. Bu yaxınlarda mən seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncam vermişəm. Bütün namizədlərə eyni, bərabər hüquqlar, şərait yaranacaqdır və mən şübhə etmirəm ki, parlament seçkiləri tam demokratik, şəffaf keçiriləcəkdir.

**Jurnalist:** Müxalifət noyabr seçkilərinə hazırlaşır. Türkiyəyə səfər etdilər, orada türkiyəli yetkilərlə bəzi görüşlər keçirdilər. Bu, yəni onların Türkiyəyə getmələri, orada açıqlama vermələri Sizi narahat edirmi?

**İlham Əliyev:** Xeyr, xeyr. Məni qətiyyən narahat etmir. Ümumiyyətlə, Azərbaycan müxalifəti məni narahat etmir. Çünki onlar bizim üçün rəqib deyildir. Onların siyasi iflası artıq bir neçə il bundan əvvəl baş vermişdir. İndiki müxalifət Azərbaycanda iqtidarda idi. 1992-ci ildə müəyyən yollarla iqtidara gəlmişdi. Amma cəmi bir il qaldı.

**Jurnalist:** Həm Xalq Cəbhəsini, həm də Müsavatı nəzərdə tutursunuz?

**İlham Əliyev:** Təbii, onlar cütlük idi, hakimiyyətə ikisi gəlmişdi. Bir il ərzində onlar hakimiyyəti itirdi. Nə üçün? Çünki Azərbaycan xalqı onların siyasətinə dözmədi, onları inkar etdi. 1993-cü ildən bu günə qədər bütün seçkilərdə – parlament və prezident seşkilərində onlar iflasa uğrayırlar. Sadəcə olaraq, o liderlərdə cəsarət çatmır ki, öz vəzifələrindən çəkilsinlər, yeni nəslə yol açsınlar. Azərbaycanda iqtidarda dəyişiklik baş verdi. 2003-cü ildən Azərbaycanda yeni Prezident seçildi və siyasət yürüdür. Müxalifətdə isə eyni simalar, eyni adamlar, eyni sözlər, eyni vədlər və eyni uğursuzluqlar. Ona görə müxalifətin nəyi harada deməsindən asılı olmayaraq, bu, bizi narahat etmir. Bu, birincisi.

İkincisi, bizim müxalifət başqa ölkələrə də - Avropa ölkələrinə, digər ölkələrə də səfərlər edir. Azərbaycanda demokratiya var. Hər bir insan, siyasətçi istədiyini söyləyə bilər, istədiyi insanla görüşə bilər. Bu, bizim üçün əsla bir problem deyildir.

**Jurnalist:** Noyabr seçkiləri ədalətli keçərsə, bilmirəm, müxalifət nə qədər səs ala bilər. Xalqa güvənilirsə, seçki ilə bağlı problem olmamalıdır. Siz, seçkilərin ədalətli olacağına təminat verirsinizmi?

**İlham Əliyev:** Təbii, 2003-cü ildə keçirilən prezident seçkilərində də...

**Jurnalist:** Onda da olmadı.

**İlham Əliyev:** Mən prezident seçkilərində 76 faiz səs almışam, "Gellap International"ın fikrinə görə məni 77 faiz dəstəkləyir. Əgər orda bir problem olardısa, bu rəqəm başqa olardı. Bu, onu deməyə əsas verir ki, o seçkilər Azərbaycan xalqının iradəsini əks etdiribdir. Parlament seçkilərində də eyni qaydada, kimin cəmiyyətdə

hörməti var, siyasi biliyi var, getsin, seçilsin. Azərbaycan xalqı müdrik xalqdır. İstədiyi namizədə öz səsini verər.

**Jurnalist:** Sanki müxalifətə Amerika dəstək verir kimi bir görüntü var. Gürcüstanda, Ukraynada, Qırğızıstanda olan inqilabların Azərbaycanda da ola biləcəyi yönümdə söhbətlər gəzir. Bunlar Sizi qorxudurmu, yəni orada olanlar burada da ola bilər deyə qorxursunuzmu?

**İlham Əliyev:** Ümumiyyətlə, məni heç nə qorxutmur. Çünki bu, Prezident vəzifəsi elə bir vəzifədir ki, əgər bu vəzifədə olan şəxsi nəsə qorxudursa, o, bu vəzifədən getməlidir. Mən öz vəzifələrimi cəsarətlə və inamla icra edirəm. Xalqın dəstəyinə, xalqın məhəbbətinə arxalanıram.

İkincisi, əlbəttə, paralellər ola bilər. Bəzi ölkələrdə inqilab oldu, bəzi ölkələrdə çevriliş oldu. İndi düşünürlər, əcəba, bu, başqa ölkələrdə də mümkündür, yoxsa yox? Hər bir ölkənin öz tarixi var, hər bir ölkədə gedən proseslər o ölkəyə aid proseslərdir.

**Jurnalist:** Yəni deyirsiniz ki, orada olub, amma Azərbaycanda olmaz.

**İlham Əliyev:** Mən burada bunun olmasına əsas görmürəm.

**Jurnalist:** Məsələn, Ukraynada, Gürcüstanda olanlara təəccübləndinizmi?

**İlham Əliyev:** Xeyr, xeyr.

**Jurnalist:** Niyə təəccüblənmədiniz?

**İlham Əliyev:** Mən nədən təəccüblənməliydim?!

**Jurnalist:** Yəni orada elə bir potensialmı var idi?

**İlham Əliyev:** Bilirsiniz, orada əsas problem onda idi ki, iqtidarla xalq arasında inam yox idi, yaxud da çox az idi. Çünki orada həm sosial-iqtisadi durum, həm də rəhbərliyin fəaliyyəti artıq xalq tərəfindən o qədər də qəbul edilmirdi. Bir də ki, orada insanlar artıq uzun illər idi iqtidarda idi. Təbii ki, belə uzun zamandan sonra insanlarda bir növ yorğunluq yaranır, adamlar bir dəyişiklik istəyir.

**Jurnalist:** Yəni yeni bir lider olmalıdır deyirsiniz?! Deyirsiniz ki, Azərbaycanda dəyişdi, eləmi?

**İlham Əliyev:** Təbii.

**Jurnalist:** Dolayısı ilə xalq üçün bir yenilik var.

**İlham Əliyev:** Həm yenilik var, həm də xalqa xidmət var. Mən öz vəzifəmi ilk növbədə, bunda görürəm. Mən xalqımın xidmətçisiyəm. Bütün məmurlara da dəfələrlə açıq bəyan etmişəm ki, siz xalqın xidmətçilərisiniz. Gedin, xalqa ləyaqətlə xidmət edin. Kim xidmət etmirsə, o, vəzifədən dərhal çıxarılır. Ona görə əgər Prezident və hansı isə başqa bir rəsmi şəxs xalqa ləyaqətlə xidmət edirsə və xalq da onu bəyənirsə, o, gərək öz fəaliyyətindən, öz vəziyyətindən arxayın olsun. Bu arxayınlıq, əminlik məndə də var.

**Jurnalist:** Deyirsiniz ki, Azərbaycanda inqilabla devirmə ola bilməz?

**İlham Əliyev:** Qətiyyən.

**Jurnalist:** Bəs, Amerika ilə əlaqələriniz necədir, Amerikaya güvənirsinizmi?

**İlham Əliyev:** Amerika bizim tərəfdaşımızdır, strateji tərəfdaşımızdır. Uzun illərdir Azərbaycan öz siyasətini Avratlantik məkanına inteqrasiya istiqamətində aparır. Bizim Amerika ilə müxtəlif sahələrdə çox sıx əməkdaşlığımız var. İlk növbədə, təhlükəsizlik sahəsində. Antiterror koalisiyasında bizim iştirakımız, enerji sektorundakı əməkdaşlığımız və burada həyata keçirilən böyük layihələr Amerikanın dəstəyi olmadan mümkün olmazdı. Ölkəmizdə demokratiyanın inkişafı sahəsində Amerika ilə biz çox sıx əməkdaşlıq edirik. Yəni bizim əlaqələrimiz çox möhkəm zəmin üzərində qurulubdur. Biz müttəfiqik və öz müttəfiqliyimizi sözdə deyil, əməldə sübut etmişik.

**Jurnalist:** Amma "mən daha çox demokratiya istəyirəm, daha çox demokratik olan müttəfiqlər axtarıram, müttəfiqlərimin daha çox demokratik olmasını istəyirəm" deyən açıqlamalar var. Belə bir siyasət izləyəcəklərini açıqladılar. Bu, önümüzdəki aylarda, günlərdə Sizə çətinlik yaratmaz ki?

**İlham Əliyev:** Mən inanmıram. Çünki bu, bizim məramımıza da uyğundur. Biz də istəyirik ki, Azərbaycan daha da demokratik ölkə olsun. Azərbaycan dünya birliyində daha da möhkəm yerini tuta bilsin.

**Jurnalist:** Siz, İlham Əliyev 2003-cü ildən bəri cümhurbaşqanısınız, Azərbaycanın daha demokratik bir ölkə olması üçün nə edirsiniz, son olaraq hansı addımları atdınız?

**İlham Əliyev:** İlk növbədə, biz Azərbaycanda müəyyən siyasi gərginliyə səbəb olan "siyasi məhbuslar" məsələsini həll etdik. Avropa Şurası qarşısında öz öhdəliyimizi yerinə yetirdik və siyasi baxışlara görə Azərbaycanda heç kim təqib olunmur, heç kim həbs olunmur. Biz keçmişdə olan bütün olayların altından sanki bir xətt çəkdik, bütün o insanların hamısını azadlığa buraxdıq. Bunu mən etdim, əfv

etdim.

Digər tərəfdən, siyasi partiyaların normal fəaliyyəti üçün lazımi şərait yaradılır. Bu da gündəlik bir işdir. Yəni bu, birdəfəlik iş deyil ki, deyim, bu qərar qəbul edildi. Cəmiyyətdə normal siyasi dialoqun aparılması üçün addımlar atılır. Mən dəfələrlə bütün siyasi qurumlara açıq müraciət etdim ki, gəlin, siyasi dialoq aparaq. Gəlin, məsələni küçələrdə əlində daşla yox, əlində qələmlə masa arxasında çözək. Biz o qədər də böyük ölkə deyilik ki, burada bir-birimizlə mübarizə aparaq. Ona görə hesab edirəm ki, bu addımlar Azərbaycanda demokratiyanın inkişafı üçün çox önəmlidir. Əsas məsələ odur ki, bu addımlar qarşılıqlı olsun. Demokratiyanı Azərbaycanda təkcə iqtidar tətbiq edə bilməz. Əgər başqa tərəf bunu istəmirsə, yaxud başqa tərəf özünü çox davakar aparırsa, təbii ki, bizim də cavabımız ona uyğun olacaqdır.

**Jurnalist:** Noyabr ayında parlament seçkiləri keçiriləcəkdir. Əgər müxalifət qələbə qazanarsa, Siz Cümhurbaşqanı kimi müxalifətlə işləyərsinizmi?

**İlham Əliyev:** Mən istənilən qüvvə ilə çalışacağam. Kim qazanır qazansın, Azərbaycanda sərbəst seçkilər keçiriləcəkdir. Kim qələbə qazanarsa, o qüvvələrlə çalışacağam.

**Jurnalist:** 2008-ci ildə prezident seçkilərində yenidən namizədliyinizi verəcəksinizmi?

**İlham Əliyev:** Əgər Azərbaycan xalqı məni dəstəkləyərsə, verərəm. Görsəm ki, xalq mənim fəaliyyətimi bəyənir, görsəm ki, mən Azərbaycan xalqına istədiyim xidməti etdim və xalq bunu bəyənir, onda təbii ki, verəcəyəm.

**Jurnalist:** Müxalifət deyir ki, demokratiya, düzgünlük olmadığına görə, seçki kampaniyamızı mübarizə üzərində quracağıq, Azərbaycanda çox böyük rüşvət var və s. Bu barədə nə deyərdiniz?

**İlham Əliyev:** Müxalifətin deyə biləcəyi məsələlər tükənməkdədir. Artıq bizə heç bir irad tuta bilmir. Çünki bizim xarici siyasətimiz Azərbaycanın maraqlarına uyğundur və biz Ermənistanla danışıqlarda üstün mövqe əldə etmişik. Bizim hərbi potensialımız güclənir, iqtisadiyyatımız, insanların maaşları artır. Mənim dövrümdə, ilyarım ərzində minimum əmək haqqı 3 dəfə qaldırılıbdır. Yəni müxalifətin deyəcəyi bir söz qalmayıbdır. Rüşvət hər bir ölkədə var, o cümlədən Azərbaycanda da var, ən inkişaf etmiş ölkələrdə də var. Bunu heç kim inkar etmir. Amma biz mübarizə aparırıq. Necə? İnzibati yollarla mübarizə aparmaq çox çətindir. Adam dəyişməklə məsələ həll olunmur. Geniş özəlləşdirmə, liberallaşma, özəl sektora dəstək - bütün bu amillər korrupsiyanın və rüşvətin səviyyəsini yavaş-yavaş aşağı salır. Amma bu, çox uzunmüddətli bir prosesdir.

Baxın, rüşvət hansı ölkələrdə özünü daha da qabarıq göstərir? Postsovet ölkələrində. Postsovet ölkələrini nə birləşdirirdi? Azərbaycanda, Rusiyada, Ukraynada, Moldovada, Baltikyanı ölkələrdə və başqalarında tam fərqli xalqlar yaşayırdı. Amma onları birləşdirən bir sistem idi, bir təfəkkür idi. O təfəkkür bu məsələnin belə kəskinləşməsinə gətirib çıxardı. Bununla mübarizə aparmaq üçün ciddi proqram hazırlanmalıdır. Biz bu proqramı qəbul etdik. Bizim Milli Məclis Antikorrupsiya haqqında qanun qəbul etdi. Antikorrupsiya qurumu yarandı və indi ciddi işlər aparılır.

**Jurnalist:** Cənab Prezident, istərdim söhbətimizin ikinci hissəsində daha çox neft, təbii qaz məsələlərinə toxunaq. Bir əfsanə gerçəkləşdi: Bakı-Tbilisi-Ceyhan layihəsi həyata keçdi. Xeyirli olsun, hazırda neft boru ilə Ceyhana doğru getməkdədir. Sizcə, Ceyhanda keçiriləcək mərasimin vaxtı bəlli oldumu?

**İlham Əliyev:** Hələlik bəlli deyil, hər halda, ilin sonuna qədər bütün işlər tamamlanmalıdır.

**Jurnalist:** Yəni bu ilin sonunda neft Ceyhandan daşınacaqdır.

**İlham Əliyev:** Bəli.

**Jurnalist:** Qazaxıstan neftinin də Bakı-Tbilisi-Ceyhan boru xəttindən axması sahəsində görüşlər keçirdiyinizi bilirik. Qazaxıstan nefti də gələcəkmi? Qazaxlar bu mövzuda vaxtaşırı açıqlamalar verirlər, müəyyən məsələləri söyləyirlər, lakin hələlik bir anlaşma əldə olunmur. Son vəziyyət necədir?

**İlham Əliyev:** Doğrudur, indi danışıqlar gedir, görüşürük. Qazaxıstan və Azərbaycan qurumlarının mütəxəssisləri görüşürlər. Hökumətlərarası bir saziş hazırlanıbdır. Demək olar ki, onun bütün əsas müddəaları razılaşdırılıbdır. Onun üzərində son işlər gedir. Ümid edirəm ki, yaxın zamanlarda biz onu da imzalayacağıq.

**Jurnalist:** Yəni Qazaxıstan nefti bu xətlə axacaqdır.

**İlham Əliyev:** Hər halda, bu, bizim üçün də, Qazaxıstan üçün də əlverişli olar. Çünki Qazaxıstan üçün yeni yollar, yeni alternativ yollar lazımdır. Qazaxıstan nefti bu gün ancaq Rusiyadan dünya bazarlarına ixrac edilir. O yol da boğazlardan keçir. Artıq Qazaxıstan çox böyük həcmdə neft ixrac edən ölkəyə çevrilir, 100 milyon ton neft çıxaracaqdır. Boğazlar bu nefti

oradan keçirə bilməz. Buna gərək alternativ yol olsun.

**Jurnalist:** Çox böyük bir rəqəmdir, Qazaxıstanın bu həcmdə nefti var. Aktau-Bakı-Tbilisi-Ceyhan kimi ayrıca bir neft boru xətti inşa edilə bilərmi? Uzun müddətdən sonra da olsa, buna ümidiniz varmı?

**İlham Əliyev:** İnanmıram ki, ona yaxın gələcəkdə ehtiyac olsun. Çünki Bakı-Tbilisi-Ceyhan boru xəttinin nəqletmə gücü gündə bir milyon bareldir. Əgər əlavə texniki işlər görülərsə, əlavə inşaat işləri görülərsə, onda biz bunu təxminən iki dəfə qaldıra bilərik.

**Jurnalist:** Mən paralel olaraq ayrıca bir boru xəttinin inşasının mümkünlüyünü deyirəm. Bu, çox böyük vaxtmı tələb edər?

**İlham Əliyev:** Anlayıram, onu görə də deyirəm ki, ayrı xəttə, bəlkə, o qədər də böyük ehtiyac qalmaz. Çünki əgər biz nəqletmə gücünü ikiqat artırsaq, ayrı xəttə ehtiyac olmaz. Azərbaycan 50 milyon ton neft ixrac edəcəkdir. Qazaxıstan da təxminən 50 milyon ton neft ixrac etmək istəyərsə, bunun üçün əlavə xəttin çəkilməsinə ehtiyac olmaz. Bəlkə, 10 ildən sonra hasilat daha da böyüsə, onda düşünülə bilər.

**Jurnalist:** Necə işləyir, yəni 2006-cı ildə inşaat işləri tamamlanmalıdır?

**İlham Əliyev:** Təbii, indi 2005-ci ildir, 2006-cı ilə hələ var.

**Jurnalist:** Həmin vaxtadək tamamlamaq mümkün olacaqmı, artıq 2005-ci ilin ortalarıdır.

**İlham Əliyev:** Heç bir şübhə yoxdur. “Şahdəniz” layihəsində işlərin 50 faizi artıq görülübdür. “Şahdəniz” yatağında qazma işləri gedir. Eyni zamanda xəttin inşası da davam edir. 2006-cı ilin sonunda “Şahdəniz” layihəsi də başa çatacaqdır.

**Jurnalist:** Bu layihədə Azərbaycan təbii qazının Ərzurumdan Qərbə, Avropa ölkələrinə göndərilməsi də müzakirə olunur. Türkiyənin yerinə yetirməsi üçün müəyyən vəzifələri varmı, ümumiyyətlə, Sizin bu məsələdə Türkiyədən gözlədiyiniz bir şey, yaxud şikayətiniz varmı?

**İlham Əliyev:** Xeyr, xeyr. Bütün sazişlər imzalanıbdır. Lazım olan bütün qərarlar verilibdir. Mən sizə deyə bilərəm ki, bu sahəni çox yaxşı bilirəm. Çünki mən 9 il bu sahədə çalışmışam və Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrində çox fəal iştirak etmişəm. Türkiyə ilə Azərbaycan arasında heç bir zaman hansısa problem ortaya çıxmamışdır. Bu gün də yoxdur. Biz bir komanda kimi çalışırıq, bütün qərarları veririk və ümid edirəm ki, heç bir problem çıxmaz. Azərbaycan qazı vaxtında Türkiyəyə, ondan sonra, ümid edirəm ki, gələcəkdə Türkiyənin üzərindən Yunanıstana və Avropanın digər ölkələrinə nəql ediləcəkdir. Beləliklə, Avropa istehlakçıları əlavə alternativ bir qaz mənbəyinə sahib olacaqlar.

Bu layihə təkcə bizim üçün deyil, Avropa üçün də çox önəmlidir. Avropa İttifaqı ilə artıq bizim görüşlərimiz başlanıbdır.

**Jurnalist:** Mən onu soruşmaq istəyirəm. Türkiyə ilə Azərbaycan arasında belə bir anlaşma varmı? Bildiyimə görə, konsorsium bu qazın Avropaya göndərilməsi sahəsində hər hansı bir qərar verməmişdir.

**İlham Əliyev:** Hələ ki, bir az tezdir. Çünki baxın, Türkiyənin ilkin mərhələdə qaza tələbatı 6 milyard kubmetrdir. Azərbaycanın öz tələbatı da var. Çünki biz bu gün özümüz qaz idxal edirik. Bizə də əlavə 3 milyard kubmetr qaz lazımdır. Gürcüstanın tələbatı artır. Çünki Gürcüstanın Prezidenti bizdən rica edibdir ki, onlara da 2-3 milyard kubmetr qaz artıraq. Beləliklə, hələlik Avropaya gedə biləcək qaz yoxdur. Yalnız 2010-cu ildən sonra, qaz hasilatı artdıqca buna nail olacağıq. Hasilat ildə 20-25 milyard kubmetrə çatandan sonra, bəlkə ondan da bir az tez Azərbaycan qazı Avropaya gedəcəkdir.

**Jurnalist:** Amma yenə də konsorsium qərara gələ bilməzmi ki, təbii qazın hasilatı artan zaman Türkiyə üzərindən Avropaya göndəriləcəkdir? Bəlkə, başqa seçimlər üzərində dayanılıbdır?

**İlham Əliyev:** Bilirsiniz, qaz Avropaya Yunanıstan üzərindən keçə bilər. Bildiyiniz kimi, Türkiyə və Yunanıstan qazpaylayıcı şəbəkələrini birləşdirirlər. Eyni zamanda, Azərbaycanla Yunanıstan arasında artıq bu sahədə məsləhətləşmələr başlanmış, yəni ilkin addımlar atılıbdır. İndi ehtiyac olarsa, biz bu danışıqları, görüşləri sürətləndirə də bilərik. Çünki prinsipial razılaşma var.

**Jurnalist:** Yəni ilkin razılaşma var.

**İlham Əliyev:** Yəni sözdə, prinsipdə var. Biz bu sahədə başqa ölkələrlə də danışırıq. Balkan yarımadasında yerləşən ölkələrlə, Ukrayna ilə, Moldova ilə. Bunun gələcəkdə böyük bir faydası olacaqdır.

**Jurnalist:** Siz Azərbaycanın dövlət başçısı olaraq Avropaya göndəriləcək təbii qazın Türkiyə üzərindən göndərilməsi məsələsində qərarlısınız?

**İlham Əliyev:** Təbii.

**Jurnalist:** Deyirsiniz ki, bu yol budur.

**İlham Əliyev:** Bəli, budur. Biz bu xətti tikirik. "Şahdəniz" layihəsi məhz bu yolun təntənəsi deməkdir.

**Jurnalist:** Amma İranın, Suriyanın da təbii qazı var. Avropaya digər ölkələrdən, Əlcəzairdən və digər bölgələrdən qaz nəqli anlaşmaları ola bilər. Belə olan halda, Siz bu işin gecikməsindən qorxmursunuz ki?

**İlham Əliyev:** Xeyr. İlk növbədə ona görə ki, Avropa İttifaqının qanunlarına görə burada inhisarçılıq ola bilməz. Ona görə bir mənbədən qaz almazlar.

**Jurnalist:** Demək, gərək rəqabət olsun.

**İlham Əliyev:** Digər tərəfdən, bizim qazımız ucuz olacaqdır. Çünki nəqliyyat xərcləri ucuzdur və əlbəttə, biz daha əlverişli qiymət təklif edə bilərik. Ona görə biz rəqabətdən qorxmuruq. Qaza daim bazar olacaq və biz də zamanında bu bazara çox fəal girəcəyik.

**Jurnalist:** Təbii qaz məsələsi çox önəmlidir. Bakı-Tbilisi-Ceyhan birinci mərhələdir, ikinci mərhələdə isə Türkmənistan və Azərbaycan qazını Avropaya nəql etmək istiqamətində Türkiyə böyük işlər gözləyir. Amma gördüyümüz kimi Azərbaycanla Türkmənistan arasında təbii qaz və neft məsələsində fikir ayrılıqları var. Bu sahədə bir uzlaşma varmı, görüşlər keçirilirmi? Bu ixtilaflar həll edilmədən təbii qazın Türkiyə üzərindən Avropaya nəqli də mümkün olmayacaq kimi görünür. Bu, vacib məsələdir. Türkmənistanla müzakirələr aparırsınızmı?

**İlham Əliyev:** Bilirsiniz, mən bir məsələyə aydınlıq gətirmək istəyirəm. Bəzi hallarda yanlış təsəvvür yaranır. Bu məsələnin səbəbkarı Azərbaycan deyildir. Yəni belə çıxmasın ki, Türkmənistan qazı verməyə hazırdır, amma Azərbaycanla ixtilaf olunduğuna görə bu qaz Türkiyəyə, Avropaya getmir. Elə deyildir.

Türkmənistan Rusiya ilə uzunmüddətli alqı-satqı müqaviləsi bağlamışdır. Bu müqaviləyə görə Türkmənistanın bütün qazı Rusiyaya satılır. Ona görə indi Türkmənistanda Türkiyəyə gedə biləcək qaz yoxdur. Bunu etmək üçün o, ya gərək Rusiya ilə anlaşmasını pozsun, - mən də buna çox inanmıram, - ya da bilmirəm, qazı haradan gətirəcəkdir. Ona görə bizim Türkmənistanla olan bəzi problemlərimiz bu məsələnin əsas səbəbi deyildir. Ancaq eyni zamanda, bu problemlər var. Bunun da səbəbkarı biz deyilik. Biz öz siyasətimizi yalnız beynəlxalq hüquq əsasında qururuq. Beynəlxalq məhkəmə var. Biz oraya getməyə hazırıq. Çünki biz işimizi əsaslı qururuq, ekspertlərlə qururuq. Azərbaycanın neft sənayesinə xarici şirkətlər tərəfindən 10 milyard dollardan çox vəsait qoyulubdur. Əgər onlarda zərrə qədər şübhə olsaydı ki, Türkmənistan iddia etdiyi kimi, bu yataqlar mübahisəlidir, bir manat da qoymazdılar. Ona görə biz hazırıq ki, türkmən qardaşlarımızla bunu danışıqlar yolu ilə, xoş niyyət çərçivəsində həll edək. Amma bu, təkcə bizdən asılı deyildir.

**Jurnalist:** Hazırda bu məsələ ilə bağlı bir mexanizm varmı, zaman-zaman görüşürsünüzmü, heyətlər gəlib gedirlərmi?

**İlham Əliyev:** Bəli, danışıqlar davam edir, görüşlər də var, lakin nəticə yoxdur. Amma proses var. Ümid edirik ki, bir nəticəyə gələcəyik.

**Jurnalist:** Türkmənistanla bağlı neft sahəsində də bəzi problemlər var. Sizcə, Xəzərin hüquqi statusu ilə bağlı problem nədədir?

**İlham Əliyev:** Ümumiyyətlə, oradakı problem Xəzərin statusu ilə bağlıdır. Yəqin, bilirsiniz ki, Xəzəryanı üç ölkə – Rusiya, Qazaxıstan, Azərbaycan öz aralarında və yenə də beynəlxalq hüquq əsasında anlaşma imzalayıb, bütün məsələləri çözüblər. Türkmənistanla İranın başqa yanaşmaları var. Ona görə ekspertlər indi vaxtaşırı yığışırlar, müzakirələr gedir, görüşlər davam edir.

**Jurnalist:** Məlumdur ki, Dağlıq Qarabağ da daxil olmaqla ölkənizin 20 faiz ərazisi erməni işğalı altındadır. Bu işğal bitmədi, danışıqlarda heç bir nəticə yoxdur. Türkiyə-Ermənistan əlaqələri, Türkiyə-Azərbaycan əlaqələri, Azərbaycan-Ermənistan əlaqələri ilə bağlı fərqli düşüncələr var. Sizcə, paket halında bir həll necə ola bilər? Yəni önümüzdəki üç-beş ildə köklü bir çözüm ola bilərmi? Bununla bağlı nə deyə bilərsiniz?

**İlham Əliyev:** Mən düşünürəm ki, bu məsələ Ermənistanla Azərbaycan arasında həll olunmalıdır. Artıq bu format müəyyən edilib və danışıqlar bu formatda aparılır. Ermənistan çox istəyir ki, Dağlıq Qarabağı da bu məsələyə qatsın. Fəqət, biz buna etiraz edirik.

**Jurnalist:** Yəni, bir tərəf kimi qatmaq istəyir.

**İlham Əliyev:** Bəli. Çünki bizim torpaqlarımızı Dağlıq Qarabağ deyil, Ermənistan işğal edibdir. Hesab edirəm ki, indi görüşlər müsbət istiqamətdə gedir. Çünki artıq beynəlxalq təşkilatlarda, bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupunda da artıq real təsəvvür yaranıb ki, Azərbaycan heç zaman Dağlıq Qarabağı güzəştə getməz, heç zaman öz ərazi

The international community should not remain indifferent to the violation of the sovereignty and territorial integrity of the Republic of Azerbaijan. It has to call the aggressor by its proper name and render assistance in the withdrawal of Armenia from the occupied Azerbaijani territories and the return of the refugees and internally displaced persons to their homes. Considering it necessary and demanding to discuss the issue of the Armenia-Azerbaijan conflict in the United Nations General Assembly, the Milli Mejlis of the Republic of Azerbaijan appeals to the Inter-Parliamentary Union, the OSCE Parliamentary Assembly, the Parliamentary Assembly of the Council of Europe, the Parliamentary Assembly of the Black Sea Economic Cooperation Organization, the Inter-Parliamentary Assembly of the Commonwealth of Independent States, the Parliamentary Union of the Organization of the Islamic Conference, the European Parliament, the NATO Parliamentary Assembly and the other international organizations, Parliaments and Governments of the world to support the just cause of Azerbaijan and to contribute to the peaceful solution of the Nagorno-Karabakh conflict on the basis of universally recognized norms and principles of international law and to the restoration of the territorial integrity of our country.

Adopted at the session of the Milli Mejlis (Parliament) of the Republic of Azerbaijan on 6 May 2005.

## Qahirədə Şuşanın işğalı ilə bağlı tədbir keçirilmişdir

Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 13-cü ildönümü ilə əlaqədar Azərbaycanın Misirdəki səfirliyində tədbir keçirilmişdir. Tədbir Şuşa şəhərinin, həmçinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. 1751-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən salınmış Şuşa şəhərinin, ermənilərin Azərbaycan ərazisində məskunlaşdırılmasının, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə tədbir iştirakçılarına ətraflı məlumat verilmişdir.

Misirdə çalışan, təhsil alan, müvəqqəti və daimi yaşayan həmvətənlərimizin də iştirak etdiyi tədbirdə xüsusi vurğulanmışdır ki, işğal altındakı torpaqlarımız Azərbaycan Prezidenti, Ali baş komandan İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət sayəsində tezliklə azad ediləcəkdir.

**"AzərTAC" 10.05.05**

## Kiyevdə Şuşanın işğalının 13-cü ildönümü ilə əlaqədar tədbir keçirilmişdir

Ukrayna paytaxtında xarici tələbələrin yaşadığı yataqxanada Şuşa şəhərinin işğalının 13-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Tələt Əliyevin həyat yoldaşının təşəbbüsü ilə keçirilən tədbirdə azərbaycanlı və əcnəbi tələbələr iştirak edib. Toplantıda Azərbaycan torpaqlarının işğalını əks etdirən sənədli film nümayiş olunub, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti barədə iştirakçılara geniş məlumat verilib. Toplantı iştirakçıları Azərbaycan torpaqlarının müdafiəsində həlak olmuş şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad ediblər. Tədbirin təşkilatçıları Şuşanın işğalı ilə əlaqədar faktları qətnamə şəklində hazırlayaraq BMT-yə göndərmək barədə qərar qəbul ediblər. Müraciətə toplantıda iştirak edən azərbaycanlı və əcnəbi tələbələr imza atıb.

**"APA" 11.05.05**

## Fransada Şuşanın işğalının 13-cü ildönümü ilə bağlı tədbir keçirilmişdir

Parisdə fəaliyyət göstərən Azərbaycan – Fransa Gənclik Assosiasiyası "Azərbaycan evi" ilə birlikdə ölkəmizin mədəniyyət və incəsənət beşiyi Şuşa şəhərinin işğalının 13-cü ildönümü ilə bağlı tədbir keçirmişdir.

Çıxış edənlər işğalçılıq siyasəti yeridən Ermənistan Respublikası tərəfindən ərazilərimizin 20 faizinin, o cümlədən Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı Şuşa şəhərinin zəbt edilməsindən, erməni silahlı qüvvələrinin nəzarəti altında olan ərazilərdə milli tarixi, mədəni və memarlıq abidələrimizin dağıdılmasından danışmış, Şuşa şəhərində ermənilərin "arxeoloji qazıntılar" adı altında qədim abidələri məhv etmək cəhdinə qarşı öz etirazlarını bildirmişlər.

"Qarabağ" Ümumdünya Etiraz Aksiyası çərçivəsində keçirilən tədbirdə Şuşa şəhərinin işğalı ilə bağlı bəyanat da oxunmuşdur. Aksiya iştirakçıları BMT-nin Təhlükəsizlik Şurasından, ATƏT-dən, Avropa Şurasından və Avropa Parlamentindən Şuşa şəhərinin işğalı ilə bağlı rəsmi sənəd qəbul olunmasını, Ermənistanın dünya miqyasında təcavüzkar ölkə kimi tanınmasına dair sənəd hazırlanmasını, beynəlxalq terrorizmi dəstəkləyən dövlətlər sırasına aid edilməsini, ölkəmizə münasibətdə ikili standartlara son qoyulmasını qətiyyətlə tələb etmişlər.

Bəyanatda həmçinin ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrdən Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində tənzimlənməsinin, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi üçün xüsusi mexanizm hazırlanması və tətbiq olunmasının zəruriliyi öz əksini tapmışdır.

Sənədin fransız dilinə tərcümə olunaraq Fransada və fransızdilli ölkələrdə yayılması barədə qərar qəbul edilmişdir.

**"AzərTAC" 13.05.05**

## Kiyevdə Laçının işğalının ildönümü ilə bağlı anım tədbiri keçirilmişdir

Ukrayna paytaxtında fəaliyyət göstərən Səməd Vurğun adına kitabxanada azərbaycanlı və əcnəbi tələbələrin iştirakı ilə Laçın rayonunun ermənilər tərəfindən təcavüzə uğramasının ildönümünə həsr olunmuş toplantı keçirilib. Tədbir Azərbaycanın Ukraynada fövqəladə və səlahiyyətli səfiri Tələt Əliyevin həyat yoldaşının təşəbbüsü ilə baş tutub. Toplantıda Qarabağda baş verən acı hadisələri özündə əks etdirən videolent nümayiş etdirilib, Laçının işğalı ilə bağlı iştirakçılara məlumat verilib. Tədbir iştirakçıları Laçının müdafiəsi zamanı həlak olmuş şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Toplantıda çıxış edən tələbələr Azərbaycan-Ermənistan münaqişəsinin mövcud vəziyyəti, təcavüzün nəticələri barədə iştirakçılara məlumat verib, əcnəbi tələbələrin bu münaqişə ilə bağlı suallarını cavablandırıblar.

**"APA" 19.05.05**

# BƏYANATLAR

## Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı

Ermənistan kütləvi informasiya vasitələrinin yaydığı məlumata görə, bu il iyunun 19-da Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ regionunda separatçı rejimin qondarma "parlament seçkilərini" keçirmək nəzərdə tutulmuşdur.

Bu cür fitnəkar əməllərə dəfələrlə prinsipial hüquqi qiymət vermiş Azərbaycan tərəfi baş vermiş fakt siyasətini (fait accompli) zorla qəbul etdirmək cəhdlərinin perspektivsiz olduğunu bir daha bəyan edir.

Ərazi işğalı və etnik təmizləmə şəraitində "seçkilər" keçirilməsi beynəlxalq hüququn normalarına və prinsiplərinə, Azərbaycan Respublikasının Konstitusiyasına ziddir və hüquqi qüvvəyə malik deyildir.

Erməni tərəfinin bu cür əməlləri son vaxtlar müsbət meyllərə ümidin yarandığı danışıqlar prosesinin ruhuna cavab vermir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun Azərbaycan və erməni icmalarının normal həyatını, dinc yanaşı yaşamasını və əməkdaşlığını təmin etmədən sabit sülhə nail olmaq mümkün deyildir. Bununla əlaqədar Azərbaycan tərəfi düşmənçiliyin aradan qaldırılması, sabitliyə və qarşılıqlı anlaşmaya nail olunması məqsədi ilə icmalar arasında birbaşa ünsiyyət yaradılması və kompleks etimad tədbirləri görülməsi barədə beynəlxalq birliyin çağırışını dəstəkləyir. Bu cür icmalararası dialoq gələcəkdə Dağlıq Qarabağ erməniləri ilə bölgənin öz daimi yaşayış yerlərinə qayıdacaq azərbaycanlı əhalisi arasında münasibətlərin qaydaya düşməsinə kömək edəcək, bölgə əhalisinin bütün təbəqələrinin istənilən səviyyədə regional legitim hakimiyyət orqanlarının formalaşdırılması da daxil olmaqla, qanuni, dinc və demokratik prosesə cəlb edilməsi üçün zəruri zəmin yaradacaqdır.

**XİN-in 14.06.05 tarixli məlumatı**

## Statement by Ministry of Foreign Affairs of the Republic of Azerbaijan[2]

According to the information disseminated by Armenian media, so-called "Parliamentary elections" of the separatist regime in the occupied Nagorno-Karabakh region of the Republic of Azerbaijan are to be held on June 19, 2005.

The Azerbaijan side has repeatedly given principal legal assessment of such provocative actions and states again that attempts to impose the fait accompli have no prospects.

Holding "elections" in the conditions of territorial seizure and ethnic cleanings contradicts the norms and principles of international law and the Constitution of the Republic of Azerbaijan and has no legal effect.

Such actions undertaken by the Armenian side do not comply with the spirit of negotiations, in the framework of which positive hopes have been strengthened recently.

Sustainable peace cannot be achieved without normalization of life and ensuring peaceful coexistence and cooperation of the Azerbaijani and Armenian communities of the Nagorno-Karabakh region of the Republic of Azerbaijan. In this regard, the Azerbaijan side supports calls of the international community vis-à-vis setting up direct contacts between the communities and carrying out comprehensive confidence-building measures with a view to overcome hostility, achieving stability and mutual understanding. Such an inter-community dialogue will contribute to establishing relations between Nagorno-Karabakh Armenians and Azerbaijan population of this region returning back to their permanent places of residence, create necessary prerequisites for involving all parts of the region's population into lawful, peaceful and democratic process, including also formation of legitimate regional authorities at all levels.

**MFA information dated June 14, 2005**

2 By the request of the Permanent Representative of Azerbaijan to the United Nations addressed to the Secretary-General the Statement was distributed as a UN Document A/59/851–S/2005/397.

# MÜRACİƏTLƏR

## Avropa Şurasının Parlament Assambleyasına Azərbaycan Respublikası Milli Məclisinin müraciəti

Hörmətli həmkarlar,

Azərbaycan Respublikasının Milli Məclisi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması məsələsində Avropa Şurasının beynəlxalq hüquq prinsiplərinə və normalarına əsaslanan obyektiv mövqeyini yüksək qiymətləndirir. Bu il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının iclasında AŞPA-nın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini əks etdirən 1416 nömrəli qətnamənin qəbul edilməsi münaqişənin tənzimlənməsi üçün göstərilən beynəlxalq səylərə sanballı töhfə olmuşdur. Qətnamədə Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələrin nəzarəti altında olması və həmin ərazilərdə etnik təmizləmə aparılması faktları öz əksini tapmışdır. Digər tərəfdən, Avropa Şurasının üzvü olan dövlət tərəfindən xarici ərazilərin işğalının həmin dövlətin təşkilat qarşısında götürdüyü öhdəlikləri ciddi surətdə pozduğu bəyan edilmiş, güc vasitəsi ilə ilhaq cəhdi rədd olunmuş, işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinad olunmuş, silahlı qüvvələrin işğal olunmuş bütün ərazilərdən çıxarılması zərurəti göstərilmiş, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ təsdiq edilmişdir.

Ərazisinin 20 faizinin işğal altında olmasına, 1 milyondan çox vətəndaşının qaçqın və köçkün vəziyyətində yaşamasına baxmayaraq, Azərbaycan Respublikası Ermənistanın ölkəmizə təcavüzünün nəticələrinin dinc vasitələrin köməyi ilə aradan qaldırılmasına çalışır. Dövlətimiz Avropa Şurası qarşısında götürdüyü müvafiq öhdəliyə sadiq olub bu məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda fəal iştirak edir. Münaqişənin həlli məsələsində ölkəmizin tutduğu mövqe tamamilə ədalətli olub hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsiplərinə və normalarına əsaslanır. Ermənistan Respublikasının silahlı qüvvələrinin ölkəmizin ərazisindən çıxarılması, işğal olunmuş torpaqların azad edilməsi, dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa edilməsi, qaçqın və köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması barədə bizim dövlətimizin tələbləri BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin qərarlarının, Avropa Şurasının sənədlərinin, o cümlədən yuxarıda adı çəkilən 1416 nömrəli qətnaməsinin ruhuna və mətninə tam uyğundur.

Təəssüf ki, Ermənistan Respublikası beynəlxalq birliyin tələblərinə məhəl qoymayaraq, Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir. Ermənistan dövləti sülh danışıqları prosesini pozan qanunsuz hərəkətlərə yol verir, işğal edilmiş ərazidə yaratdığı separatçı rejimə qanuni don geyindirməyə cəhdlər göstərir.

Məlum olmuşdur ki, bu il iyunun 19-da Azərbaycan Respublikasının işğal edilmiş Qarabağ bölgəsinin dağlıq hissəsində qondarma "Dağlıq Qarabağ Respublikasının parlamenti"nə "seçkilər" keçirilməsi nəzərdə tutulur. Oyuncaq rejimi qanuniləşdirməyə yönəldilən bu "seçkilər" hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsiplərinə və normalarına, beynəlxalq təşkilatların sənədlərinin, o cümlədən Avropa Şurası Parlament Assambleyasının 1416 nömrəli qətnaməsinin tələblərinə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olub heç bir hüquqi qüvvəyə malik deyildir və heç bir hüquqi nəticə doğura bilməz. Qarabağın dağlıq hissəsindən qovulmuş 50 min azərbaycanlının adi vətəndaş hüquqlarını kobudcasına pozan bu növbəti siyasi təxribat əməli işğalçı qüvvələrin dəstəyinə arxalanan erməni separatçılarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması səylərinə mane olmaq niyyətindən əl çəkmək istəmədiklərini, bölgədə əmin-amanlıq yaradılmasına imkan verməmək üçün hər şeyə hazır olduqlarını göstərir.

Xüsusi narahatlıq doğuran məqamlardan biri də budur ki, Azərbaycan Respublikasının işğal edilmiş Qarabağ bölgəsinin dağlıq hissəsində keçiriləcək qanunsuz siyasi tədbirdə bəzi ölkələrdən nümayəndə heyətlərinin, parlament deputatlarının və digər siyasi

xadimlərin müşahidəçi qismində iştirak etməsi gözlənilir. Həm də bu ölkələrin, demək olar, hamısı Avropa Şurasının üzvləridir. Şübhə yoxdur ki, onların qanunsuz aksiyada iştirak etməsi Avropa Şurasının üzvü olan dövlətin suverenliyinə və ərazi bütövlüyünə aşkar hörmətsizlikdən başqa bir şey deyildir.

Beynəlxalq birlik, o cümlədən Avropa Şurası Azərbaycan Respublikasının işğal edilmiş Qarabağ bölgəsinin dağlıq hissəsində keçirilməsi nəzərdə tutulan siyasi təxribat əməlinə etinasız qalmamalıdır. Azərbaycan Respublikasının Milli Məclisi tələb edir ki, qondarma "Dağlıq Qarabağ Respublikasının parlamenti"nə "seçkilər" keçirilməsi qətiyyətlə pislənilsin, Avropa Şurasına daxil olan ölkələrin rəsmi nümayəndələrinin bu "seçkilər"də müşahidəçi qismində iştirakı Avropa Şurasının prinsiplərinə zidd olduğundan yolverilməz hesab edilsin. Azərbaycan Respublikasının parlamenti Avropa Şurasının Parlament Assambleyasını Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması prosesinə kömək etmək üçün səylərini artırmağa çağırır.

Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2005-ci il 17 iyun tarixli iclasında qəbul edilmişdir.

## Appeal of the Milli Mejlis of the Republic of Azerbaijan to the Parliamentary Assembly of the Council of Europe

Dear Colleagues,

The Milli Mejlis of the Republic of Azerbaijan attaches high appreciation to the objective position of the Council of Europe based on the principles and norms of international law as regards the peaceful settlement of the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict. The adoption of the resolution 1416 (2005) on the 25th of January of this year during the winter part session of the Parliamentary Assembly of the Council of Europe reflecting the position of the PACE concerning the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict was a solid contribution to the international efforts towards the settlement of the conflict. The resolution reflects the facts that the Azerbaijani territories have been occupied by the Armenian armed forces and that the separatist forces are still in control of the Nagorno-Karabakh region and ethnic cleansing has been conducted in these territories. On the other hand, it reiterates that occupation of foreign territory by a member state constitutes grave violation of that state's obligations as a member of the Council of Europe, urges to refrain from any threat of using force against its neighbors as an attempt of occupation, recalls the UN Security Council resolutions demanding the unconditional withdrawal of the armed forces from the occupied territories of the Republic of Azerbaijan, reaffirms the right of displaced persons from the area of conflict to return to their homes safely and with dignity.

Despite the fact that 20% of its territory is under occupation and resultantly the creation of over one million refugees and IDPs in the country the Republic of Azerbaijan is doing its utmost effort to eliminate the consequences of the aggression against our country by peaceful means. The government of Azerbaijan has been committed to the relevant obligations undertaken before the Council of Europe and has been taking an active part in the negotiations conducted in this regard within the OSCE Minsk Group. The position of our country towards the settlement of the conflict is surely just and based on the universally recognized principles and norms of international law. The demands of our state in regard with the withdrawal of the armed forces of the Republic of Armenia from the occupied territories of Azerbaijan, liberation of the occupied territories, restoration of sovereignty of our state throughout its entire territory, return of the refugees and IDPs back to their places of permanent residents are in full accordance with the spirit and letter of the UN Security Council Resolutions 822, 852, 874 and 884 adopted in 1993, decisions of the OSCE Budapest, Lisbon and Istanbul Summits, the appropriate documents of the Council of Europe, in particular the abovementioned 1416 (2005) Resolution.

Unfortunately, the Republic of Armenia ignoring the demands of the international community continues to keep under occupation the Azerbaijani territories. The State of Armenia is committing actions undermining the process of peace negotiations and making attempts to legalize the separatist regime set up in the occupied territory.

As you are aware that, on the 19th of June of this year in the mountainous part of the occu-

pied Karabakh region of the Republic of Azerbaijan it is planned to hold "parliamentary elections" in the so-called "Nagorno-Karabakh Republic". These "elections" aimed at legitimizing the puppet regime run counter with the universally recognized principles and norms of international law, the requirements of the relevant documents adopted by the international organizations, in particular Resolution 1416 (2005) of the Parliamentary Assembly of the Council of Europe, with the Constitution and the laws of the Republic of Azerbaijan, and accordingly are null and void and cannot entail any legal consequences. This next political subversive action gravely violating the elementary civil rights of 50 thousand Azerbaijanis expelled from the mountainous part of Karabakh openly demonstrates once again that the Armenian separatists backed by the occupation forces are not willing to refrain from their intentions to peacefully settle the Armenia – Azerbaijan, Nagorno-Karabakh conflict and are prepared to commit any actions undermining the process of establishing peace and stability.

One of the factors that is of particular concern is that it is anticipated that delegations, parliamentarians and other political figures from some countries would observe these totally illegal elections in the mountainous part of the occupied Karabakh region of the Republic of Azerbaijan. Moreover, almost all these countries are members of the Council of Europe. There is no doubt that their participation in this illegal act is nothing but an explicit disrespect of the sovereignty and territorial integrity of the member state of the Council of Europe.

The international community, including the Council of Europe should not remain indifferent to the political subversive act planned to be held in the mountainous part of the Karabakh region of the Republic of Azerbaijan. The Milli Mejlis of the Republic of Azerbaijan demands that the "parliamentary elections" in the so-called "Nagorno-Karabakh Republic" be resolutely condemned, the participation of the official delegations from the countries of the Council of Europe as observers in these "elections" be considered inadmissible as being contrary to the principles of the Council of Europe. The Parliament of the Republic of Azerbaijan calls upon the Parliamentary Assembly of the Council of Europe to step up its efforts to facilitate the peaceful settlement process of the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict.

This appeal has been adopted in the sitting of the Milli Mejlis dated 17 June 2005.

# ERMƏNİSTAN – AZƏRBAYCAN MÜNAQİŞƏSİ MƏTBUATDA

## ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanat yayıblar

Aprelin 15-də ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasye, Stiven Mənn və Yuri Merzlyakov bəyanat yayıblar. Bəyanatda bildirilir ki, həmsədrlər Ermənistanla Azərbaycan arasında gərginliyin artmasından, təmas xəttində atəşkəs rejiminin mütəmadi pozulmasından, son vaxtlar müharibə çağırışlarının artmasından, iki ölkənin əhalisi arasında qarşılıqlı nifrətin güclənməsindən ciddi narahatdırlar: "Bu cür həssas situasiyada, ATƏT-in Minsk qrupunun tərəflər arasında razılıq əldə olunması üçün ilk addımlar atdığı bir məqamda həmsədrlər Ermənistanı və Azərbaycanı atəşkəs rejiminə riayət etmək, münaqişəni qızışdıracaq kütləvi bəyanatlar verməmək, habelə hər iki ölkənin vətəndaşlarını danışıqlar nəticəsində əldə olunacaq nəticələrlə razılaşmağa hazırlamaq barədə götürdüyü öhdəliyi yerinə yetirməyə çağırır".

Həmsədrlər tərəflərə bildirir ki, hərbi əməliyyatların bərpa olunması Qarabağ məsələsinin həllinə uzun müddət mane olacaq, bununla yanaşı, çoxsaylı insan tələfatına, hər iki ölkənin xalqlarının faciəsinə, növbəti qaçqın ordusunun yaranmasına, dağıntılara, iqtisadi böhrana gətirib çıxaracaq. ATƏT-in Minsk qrupu bunları nəzərə alaraq, Azərbaycan və Ermənistanı xarici işlər nazirlərinin Londonda və bu ayın axırında Frankfurtda keçirilməsi planlaşdırılan görüşlərinə xüsusi diqqətlə yanaşmağa çağırır.

**"APA" 15.04.05**

## V.Oskanyan E.Məmmədyarovla görüşdən növbəti dəfə yayındı

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu dəfə Frankfurtda planlaşdırılmış görüşü də baş tutmadı. Bunu Ermənistan xarici siyasət idarəsinin rəhbəri Vardan Oskanyanın ikitərəfli görüşdən növbəti dəfə yayınması kimi izah etmək olar.

Xatırladaq ki, son iki ay ərzində 4 dəfə - Paris, Praqa, London və Frankfurt görüşlərini V.Oskanyan bu və digər səbəbləri bəhanə gətirərək təxirə salmışdır.

Bu dəfə də Ermənistan tərəfi ilə razılıq əldə edilmədiyindən bu görüş təxirə salınmışdır. Onların növbəti görüşü isə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Frankfrutda ATƏT-in Minsk qrupunun həmsədrləri ilə aparacağı danışıqlardan sonra məlum olacaqdır.

**"Assa-İrada" 27.04.05**

## Frankfurt görüşündə sülh planının konkret detalları müzakirə edilibdir

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Frankfurtda ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə sülh planının konkret detalları müzakirə edilibdir. Bu barədə məlumat verən E.Məmmədyarovun sözlərinə görə, Azərbaycan öz mövqeyində qətidir. Onun sözlərinə görə, müzakirə edilən sülh planı çox həssas məsələdir və onun detallarının açıqlanması regionda vəziyyəti gərginləşdirər. Çünki Cənubi Qafqaz regionuna sülhün gəlməsində maraqlı olmayanlar çoxdur. E.Məmmədyarov onu da bildiribdir ki, həmsədrlər yaxın vaxtlarda Avropa ölkələrinin birinin paytaxtında ermənistanlı həmkarı Vardan Oskanyanla da görüşəcəklər. XİN başçısı onu da diqqətə çatdırdı ki, həmsədrlərlə görüşündə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü vaxtı və yeri də müzakirə edilibdir. Bu görüş mayın 16-17-də Varşavada Avropa Şurasına üzv olan dövlətlərin başçılarının görüşündə baş tuta bilər.

**"Assa-İrada" 28.04.05**

## Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan Prezidenti Robert Koçaryanla görüşü

Mayın 15-də Varşavanın "Belveder" iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Prezidenti Robert Koçaryan ilə görüşü olmuşdur. Görüşdə ATƏT-in Minsk qrupu həmsədrləri, Rusiyanın xarici işlər naziri Sergey Lavrov və Fransanın xarici işlər naziri Mişel Barnyö iştirak etmişlər.

Azərbaycan və Ermənistanın xarici işlər nazirləri və həmsədrlər dövlət başçılarına Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair apardıqları danışıqların nəticələri, eləcə də Praqa prosesi barədə məruzə etmişlər.

Sonra prezidentlər görüşü təkbətək davam etdirmişlər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov jurnalistlərə görüş barədə məlumat verərək bildirmişdir ki, üç saat davam edən görüşdə münaqişənin həlli ilə bağlı bəzi detallar müzakirə olunmuşdur. Müəyyən məsələlərdə irəliləyiş, razılıq əldə olunsa da, ümumi prinsipial məsələlərin müzakirəsinə ehtiyac vardır.

Elmar Məmmədyarov demişdir ki, prezidentlər görüşdən sonra Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinə tapşırıq vermişlər ki, xarici işlər nazirləri səviyyəsində danışıqlar, yəni Praqa prosesində razılığa gəlinən məsələlərdən əlavə, bəzi mühüm məqamlar barədə müzakirələri davam etdirsinlər. Bu baxımdan həmsədrlər də öz işlərini davam etdirəcək və fikirlərini yaxın aylar ərzində bildirəcəklər. Ümumiyyətlə, Azərbaycan tərəfi üçün danışıqların formatı o qədər də vacib deyil, əsas nəticədir, yəni Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

**"AzərTAC" 15.05.05**

## Xarici İşlər Nazirliyində brifinq keçirilmişdir

Mayın 30-da Xarici İşlər Nazirliyində nazir müavini Araz Əzimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair aparılan danışıqların gedişi ilə bağlı brifinq keçirmişdir.

Son vaxtlar danışıqlar prosesində fəallıq müşahidə olunduğunu söyləyən Araz Əzimov, Azərbaycan və Ermənistan prezidentlərinin Varşavada keçirilmiş görüşünü xatırlatmışdır. O bildirmişdir ki, görüş vacib və faydalı olmuşdur. Bu görüşdən sonra prezidentlər ATƏT-in Minsk qrupunun həmsədrlərinə müvafiq təlimatlar vermişlər. Təlimatların başlıca mahiyyəti Praqa prosesinin nəticələrinə əsaslanan müzakirələrin davam etdirilməsi, həmsədrlərin fəaliyyətinin sürətləndirilməsi, xarici işlər nazirlərinin növbəti görüşünün tez bir zamanda keçirilməsindən ibarətdir.

Varşava görüşünün davamı kimi, həmsədrlər regiona səfər etmiş, Bakıda və Yerevanda müzakirələr aparmışlar. Əldə olunmuş razılığa əsasən, iyunun ortalarında xarici işlər nazirlərinin növbəti görüşü keçiriləcəkdir. İyulun əv-

vəllərində isə həmsədrlər yenidən regiona səfər edəcəklər.

Aparılan müzakirələrdə Azərbaycanın tutduğu mövqe beynəlxalq hüquq normalarına söykənir və beynəlxalq ictimaiyyətdə bu mövqeyin tərəfdarları getdikcə çoxalır.

Müzakirələr müəyyən edilmiş əsas elementlər ətrafında gedir. Buraya torpaqların boşaldılması, əhalinin həmin ərazilərə qayıtması, Dağlıq Qarabağa qayıdacaq azərbaycanlı əhalinin Azərbaycan vətəndaşları olan erməni əhalisi ilə normal birgə yaşayışının təmin edilməsi, daha sonra Azərbaycanla Ermənistan arasında əlaqələrin normallaşdırılması aiddir.

Azərbaycanın münaqişənin həllini təkcə torpaqların qaytarılmasında görmədiyini söyləyən nazir müavini, buraya, eyni zamanda Azərbaycanın Dağlıq Qarabağda yaşayan erməni mənşəli vətəndaşları ilə azərbaycanlı əhalinin sülh və əməkdaşlıq şəraitində normal yaşaması, regionun yenidən Azərbaycanın iqtisadi sisteminə qatılmasının da daxil olduğunu bildirmişdir.

Avropada baş vermiş münaqişələrin çoxu məhz bu əsaslarla həll edilmişdir. Bütün bunlara nail olmaq üçün hazırkı mövcud vəziyyət aradan qaldırılmalı, işğal altındakı torpaqlar azad edilməli, münaqişənin törətdiyi müxtəlif səciyyəli problemlər həll olunmalıdır.

Münaqişənin həllindən sonra Azərbaycan ilə Ermənistan arasında münasibətlərin gələcək inkişafına toxunan Araz Əzimov bildirmişdir ki, yuxarıda sadalananlar həyata keçirildikdən sonra iki ölkə arasında əlaqələr normallaşa bilər. Lakin ilk növbədə, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, işğalçılıq siyasətinə son qoymalıdır. Azərbaycan regionda həmişə inteqrasiya yolunu seçmişdir. Ermənistanın bu inteqrasiyadan kənarda qalması Azərbaycanın günahı deyildir.

**"AzərTAC" 30.05.05**

## AŞPA-nın bürosu qondarma "Dağlıq Qarabağ Respublikası"nın müraciətini rədd etmişdir

İyun ayının 6-da Avropa Şurası Parlament Assambleyası Bürosunun növbəti iclasında bir sıra məsələlərlə yanaşı, qondarma "Dağlıq Qarabağ Respublikası"nın iyunun 19-da keçirmək niyyətində olduğu parlament seçkilərini müşahidə etmək barədə AŞPA-ya müraciəti də nəzərdən keçirilmişdir.

Məsələnin müzakirəsi zamanı Büro qondarma respublikanın heç bir ölkə və qurum tərəfindən tanınmadığını qeyd etmiş, bu seçkilər qeyri-qanuni və beynəlxalq hüquq prinsiplərinə tamamilə zidd olduğundan həmin müraciəti rədd etmək barədə qərar çıxarmışdır.

**"AzərTAC" 13.06.05**

## Türkiyənin Xarici İşlər Nazirliyi qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilməsi planlaşdırılan seçkiləri qeyri-qanuni hesab etmişdir

Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi Namiq Tan rəsmi bəyanatla çıxış etmişdir. Mətbuat katibi bildirmişdir ki, iyunun 19-da separatçı rejimin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilməsi planlaşdırılan seçkilər qeyri-qanunidir. O demişdir: "Hələ də erməni işğalı altında olan Dağlıq Qarabağda bu dəfə keçirilməsi planlaşdırılan seçkilər, beynəlxalq hüquq normalarının, BMT, ATƏT və Avropa Şurası prinsiplərinin pozulması deməkdir". Namiq Tan qeyd etmişdir ki, Türkiyə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn təməl prinsiplərinə uyğun, dialoq yolu ilə həll edilməsinin tərəfdarıdır.

**"AzərTAC" 18.06.05**

## Xarici İşlər Nazirliyində brifinq keçirilmişdir

İyunun 20-də Xarici İşlər Nazirliyində nazir müavini Araz Əzimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun ermənistanlı həmkarı Vardan Oskanyanla iyunun 17-də Parisdə keçirdiyi görüşünə dair brifinq keçirmişdir.

Son vaxtlar danışıqlar prosesində fəallıq müşahidə olunduğunu söyləyən Araz Əzimov, görüşün vacib və faydalı olduğunu nəzərə çarpdırmışdır. ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə keçən görüşdə Praqa prosesi çərçivəsində tərtib edilərək, siyahıya daxil olunan məsələlərin müzakirə olunduğu bildirilmişdir. Buraya ərazilərin boşaldılması, əhalinin həmin ərazilərə köçürülməsi, Dağlıq Qarabağa qayıdacaq azərbaycanlı əhalinin

Azərbaycan vətəndaşları olan erməni əhali ilə dinc birgə yaşayışının təmin edilməsi, daha sonra Azərbaycanla Ermənistan arasında əlaqələrin normallaşdırılması aiddir.

Azərbaycanın münaqişənin həllini təkcə torpaqların qaytarılmasında görmədiyini söyləyən nazir müavini, buraya, eyni zamanda, Dağlıq Qarabağın erməni mənşəli Azərbaycan vətəndaşları ilə azərbaycanlı əhalinin sülh, əmin-amanlıq və əməkdaşlıq şəraitində normal yaşaması, hər iki icmanın təmsil olunacağı birgə idarəetmə sistemi yaradılmasının daxil olduğunu açıqlamışdır. Ərazilərin boşaldılması Azərbaycan üçün prinsipial əhəmiyyət daşıyır. Bundan sonra digər məsələlərin həlli ortaya çıxacaqdır. Bu, çox çətin və mürəkkəb bir prosesdir.

Nazir müavini əməkdaşlığın həyata keçirilməsi ilə bağlı olan və münaqişənin həllində vasitə rolunu oynaya biləcək başqa bir məsələnin də Azərbaycan tərəfinin təklifi ilə görüşdə müzakirəyə çıxarıldığını diqqətə çatdırmışdır. Bu, danışıqlarda tez-tez toxunulan mövzulardan biri kimi, kommunikasiya vasitələrinin, nəqliyyat əlaqələrinin bərpasına aiddir. Belə ki, Ermənistan tərəfi Dağlıq Qarabağda yaşayan erməni əhalisi ilə əlaqələr qurmaq adı ilə ərazi iddialarına əl atmış, dəhliz məsələsini gündəliyə gətirmişdi. Bu mənada, Laçın ərazisindən keçən yolun birgə istifadəsinə dair Azərbaycanın təklifi görüşdə diqqətlə nəzərdən keçirilmişdir. Təklif Ağdam-Xankəndi-Şuşa-Laçın-Gorus-Sisyan-Şahbuz yolunun bərpa edilməsi və hər iki tərəfin birgə istifadəsinə verilməsindən ibarətdir. Yolun istifadəsinin konstruktiv və praqmatik, eyni zamanda, böyük siyasi əhəmiyyəti vardır. Çünki münaqişə şəraitində olan iki ölkəni birləşdirən və bir neçə məntəqədən keçən belə bir yolun istifadəsi hər iki tərəf üçün faydalı olar. Bu, həmçinin Dağlıq Qarabağda yaşayacaq azərbaycanlı və erməni əhali arasında bir-birinə inam yaradılmasına, əməkdaşlıq mexanizmlərinin inkişafına da yardımçı ola bilər.

Araz Əzimov bildirmişdir ki, təklif hazırda müzakirə edilir və ümidvarıq ki, qarşı tərəf bu təklifə müsbət reaksiya verəcəkdir.

Yolun işə düşməsinin ərazilərin işğaldan azad edilməsindən sonra mümkün olacağını vurğulayan nazir müavini, münaqişənin həllində bunun böyük rol oynaya biləcəyini diqqətə çatdırmışdır.

Araz Əzimov jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

**"AzərTAC" 20.06.05**

## Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi separatçı erməni rejiminin Dağlıq Qarabağda keçirdiyi "seçkiləri" ifşa edən bəyanat yaymışdır

İyunun 19-da ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsində erməni separatçı rejimi tərəfindən növbəti "parlament seçkiləri"nin keçirilməsi ilə əlaqədar diplomatik missiya xüsusi bəyanat hazırlamış və onu İslam Konfransı Təşkilatının Baş Katibliyi, İslam İnformasiya Agentliyi və Səudiyyə Ərəbistanı Krallığının İnformasiya Agentliyi vasitəsilə İslam Konfransı Təşkilatına üzv dövlətlərdə yaymışdır.

Bəyanatın mətni Səudiyyə Ərəbistanının rəsmi mətbuat orqanı olan "Ər-Riyad" qəzetində dərc edilmişdir. Sənəddə qondarma respublikada qanunazidd "parlament seçkiləri"nin əsil mahiyyəti, ermənilərin Azərbaycana qarşı apardığı təcavüzkar siyasəti, Ermənistanın beynəlxalq qanunlara və dünyanın nüfuzlu təşkilatlarının, o cümlədən BMT, İKT, AŞ, ATƏT-in qərar və çağırışlarına məhəl qoymadan Azərbaycanın ərazi bütövlüyünü tanımaması, beynəlxalq ictimaiyyətin çoxsaylı tələblərinə baxmayaraq, zəbt olunmuş əraziləri azad etməməsi, respublikamızın dinc əhalisinə, o cümlədən uşaq, qadın və qocalara qarşı törətdiyi cinayətlər, işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparması faktlarla ifşa olunmuşdur.

**"AzərTAC" 20.06.05**

## GUAM təşkilatı ATƏT-in konfransında Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair bəyanatla çıxış etmişdir

İyunun 21-də Vyanada, ATƏT-in təhlükəsizliyə dair illik konfransında Moldova Respublikasının xarici işlər və Avropaya inteqrasiya naziri Andrey Stratan GUAM ölkələri adından bəyanatla çıxış etmişdir.

Helsinki Yekun Aktının 30 illiyinə və Paris Xartiyasının 15-ci ildönümünə həsr olunmuş konfransda Moldovanın xarici işlər naziri GUAM ölkələrindəki münaqişələrlə əlaqədar bəyan etmişdir ki, ATƏT-in üzvü olan ölkələr Moldovanın şərq bölgəsindəki, Gürcüstanın Abxaziya və Sxinvali bölgələrindəki və Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki münaqişələrin davam etməsini Avroatlantik məkanında sabitliyə və inkişafa təhlükə kimi qəbul etməli, bu münaqişələrin həllində daha fəal

iştirak etməlidir. GUAM təşkilatı bu münaqişələrin beynəlxalq hüquq normaları, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllinə çağırır.

Bəyanatda bildirilir ki, GUAM ölkələri Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyünə hörmət əsasında həll olunmasını tamamilə və qətiyyətlə dəstəkləyir, Praqa prosesi adlanan görüşlər çərçivəsində aparılan danışıqlarda tərəflərin fəallığını alqışlayır. Eyni zamanda, təşkilat Azərbaycan Respublikasının tərkibində olmaqla Dağlıq Qarabağ bölgəsində erməni və azərbaycanlı icmaları arasında əməkdaşlığın yaradılmasının vacibliyini vurğulayaraq, ATƏT-i və onun Minsk qrupunu bu istiqamətdə öz fəaliyyətlərini genişləndirməyə çağırır.

Bəyanatda habelə GUAM ölkələrindəki münaqişələrin həlli sahəsində Helsinki Yekun Aktının və Paris Xartiyasının müddəalarına əməl olunmasının vacibliyi vurğulanır.

**“AzərTAC” 21.06.05**

## Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə AŞPA-nın alt komitəsinin iclası keçirilmişdir

AŞPA-nın iyunun 23-də keçirilmiş sessiyasının iş gününün sonunda Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə yaradılmış alt komitəsinin ilk iclası keçirilmişdir. Alt komitənin üzvü, Milli Məclisin nümayəndə heyətinin rəhbəri Səməd Seyidov iclas barədə demişdir: – İclasda alt komitənin sədri lord Rassel Constonun bəyanatı dinlənilmişdir. Bəyanat ondan ibarət idi ki, yanvar ayında keçirilmiş sessiyada bu alt komitənin yaradılması barədə qətnamə qəbul edilmişdir. Qətnamənin qəbulu zamanı beşinci bənddə göstərilmişdi ki, belə bir komitə yaradılsın və o, problemi daima gündəlikdə saxlayaraq, Avropa Şurasının bu münaqişənin sülh yolu ilə həllinə səy göstərməsinə öz töhfəsini versin. Bununla əlaqədar alt komitənin müntəzəm görüşlər keçirməsi qərara alınmışdır. Növbəti görüşün sentyabrın 12-də Parisdə keçirilməsi nəzərdə tutulmuşdur. Görüşün gündəliyində iki məsələ nəzərdə tutulmuşdur. Birincisi, ATƏT-in Minsk qrupuna daxil olan dövlətlərin mövqelərinin açıqlanması, ikincisi isə, imkan daxilində həmsədrlərin və yaxud onları təmsil edənlərin məlumatlarının ilkin şəkildə dinlənilməsi və onları alt komitənin sonrakı iclaslarına dəvət etməkdən ibarətdir.

Gələcəkdə isə bu məlumatların əsasında regionlara səfərlər nəzərdə tutulmuşdur.

**“AzərTAC” 25.06.05**

# AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNİN ARXİV MATERİALLARI

## Рассказ Мешади Абушбека Новрузова, очевидца четырех армяно-азербайджанских столкновений в городе Шуше*

В 1903 году назревала война между царской Россией и Японией. Постройка второй колеи железной дороги в Манчжурии была крайне необходима для царского самодержавия, на что не имелось достаточных средств. Для их изыскания царским правительством из Эчмиадзинской армянской церкви были конфискованы подарки Шах Аббаса и других царей рода Сефевиды.

Случай этот взволновал армянское население, которое предприняло целый ряд антигосударственных действий: убийство чиновников (податного инспектора Щербакова в Шуше), освистывание русских казачьих соединений и пр.

Чтобы воспрепятствовать дальнейшему развитию событий и не дать возможного присоединения мусульманского населения к армянам в их совместной борьбе с самодержавием, в 1903 году в Петербурге было созвано совещание наместников. Принявшим участие в совещании наместником Кавказа Галициным было предложено спровоцировать междоусобную вражду между армянами и мусульманами, с тем чтобы спокойно вести кампанию в Манчжури. Мнение Галицина было одобрено совещанием. Всем губернаторам было дано секретное предписание выполнить это решение.

В последствии наличие такого предписания в письме на имя губернатора Карабаха при правительстве Хосровбека подтвердил преподаватель армянской семинарии, работник армянского архива Рубен Шахназаров, плененный мусульманами в 1920 году во время войны.

Первое столкновение армян с мусульманами произошло в Баку в 1904 году. Волна эта перенеслась в Шушу. Шушинский уездный начальник Пивоваров, выполняя решение совещания, принялся за практическое его осуществление.

Пивоваров секретно пригласил к себе по отдельности дашнаков и неблагонадежных лиц из мусульманской среды, натравливая их друг против друга, заявляя мусульманам, что армяне готовятся захватить Шушу, истребить мусульманское население и т.д.

В результате появились убитые с обеих сторон. Первой жертвой оказался заправщик ночных фонарей Гусейн, убитый армянами кинжалом недалеко от армянского района. Было установлено, что в убийстве участвовал и сын уездного начальника Пивоварова.

Случай этот взволновал отдельных хулиганов (гочи) из мусульман и последними в конце 1904 года был убит армянин.

Вражда вызвала перестрелку в июне 1905 года (в 3 часа дня): в разгар торговли на базаре со стороны армянской части города был открыт огонь из винтовок по мусульманской части города.

Армянами были убиты 100 мусульман, которые работали то время в армянской части города на строительстве семинарии. Спастись и перебраться в мусульманскую часть удалось лишь одному раненому Газибеку.

В течение дня и ночи мусульмане не могли из-за неподготовленности ответить армянам. В первый же день беспорядков в армянской части города были сожжены дома Гаджи Фарзали и Гаджи Мамеда, а в западной части города – расположенное вблизи армян маленькое мусульманское селение Халафлы, состоящее из 20-30 домов, включая дома торговца молоком Насира Ахмед оглы, Мешади Аббас Исмаилова и др. Большинство жителей этих домов были убиты армянами.

На следующий день мусульманское население (в основном молодежь и гочи), заняв линию обороны, также открыли огонь из винтовок и в тот же день перешли в наступление. В качестве ответа армянам, мусульмане также начали поджигать дома армян, находившиеся

* Текст приводится с незначительными редакторскими правками. Публикуется впервые.
Рассказ со слов Новрузова М.А., которому было 92 года, был записан 20 августа 1949 года отдыхавшим в то время в Шуше Курбановым Шамилем Ибрагим оглы. По словам самого Курбанова Ш.И., его отец был очевидцем того, как в дни армяно-мусульманской резни в Баку, в Ашхабад, где проживали Курбановы, из Баку приезжали вооруженные до зубов армяне-дашнаки, чтобы повторить в Ашхабаде совершенную ими ранее в Баку трагедию. Когда дашнаки обратились к влиятельным туркменам, чтобы узнать их позицию в случае претворения в жизнь указанных замыслов, то получили от них однозначное предупреждение, что «в случае возникновения беспорядков, все армянское население Ашхабада будут уничтожено». Таким путем апшгабадцы избежали братоубийственной резни, спланированной дашнаками.

вблизи от мусульманского района.

Война эта продолжалась 5 суток. Армяне получили пополнение из близлежащих армянских сел Шуши. Так как все пути в Шушу, в том числе и Аскеран, были уже заняты армянами, мусульмане были изолированы от внешнего мира. Только по ночам в помощь Шушинским мусульманам из селения Афатлы и др. приходили на помощь.

На 5-й день армяне во главе с духовенством и отдельными деятелями из своей среды, с церковными знамена в руках и в сопровождении музыки, двинулись в направлении мусульманской части с просьбой прекращения войны и восстановления мира. На встречу армянам вышли мусульманское духовенство и старики-муллы Муштеидзаде, уездный кази Ага Абдулрагим Оруджзаде, из мещан – Джафарбек Везиров, Салимбек Рустамбеков, Мешади АбушбекНоврузов (автор настоящего рассказа) и другие. Все собрались напротив мечети. Армяне заявили, что война произошла благодаря действиям провокаторов, несмотря на то, что два народа всегда жили в дружбе и согласии.

Был заключен мир и жизнь стала восстанавливаться. В этом столкновении жертвы и поджоги были с обеих сторон.

Характерно, что во время этих трагических событий местный воинский гарнизон русского самодержавия и уездный начальник Пивоваров не предпринимали каких-либо мер для усмирения сторон. Войска все время находились в казармах.

Только после заключения мира между сторонами, из Тифлиса в Шушу приехал генерал Токашвили, якобы с целью усмирения населения. Остановившись в доме армянина Джанумова, этот генерал вызвал к себе представителей обеих общин, читал им наставление, чтобы жили в мире, прекратили вражду. Среди вызванных генералом лиц был Мешади Абушбек Новрузов, которому он дал солдат и личного адъютанта, чтобы разобрать имевшиеся у сторон окопы и укрепления. Следует отметить, что после речи генерала Токашвили с ответной речью никто не выступил.

Мирная жизнь продолжалась один год. Наступил 1906 год. За несколько дней до начала второго столкновения, ночью произошел сильный взрыв, разбудивший все население города. Сперва думали, что землетрясение, только на рассвете в центре армянской части города увидели большое разрушение одного дома. Выяснилось, что в этом доме находился склад оружия и боеприпасов армян, а также мастерские по производству боеприпасов (начинка использованных патрон и зажигательных ракет).

Таким образом, была подготовлена почва для нового всплеска вражды между двумя народами. Наступление началось с обеих сторон в разное время. Рукопашного боя не было.

В дни столкновений в Шушу со своей частью и горными пушками прибыл генерал Голощапов. Он остановился в армянской части города, где были размещены его войска (казармы все время находились в армянской части города).

Следует отметить, что все 11 дней по мусульманской части со стороны армян не прекращался сильный, беспрерывный оружейно-пулеметный огонь. Были жертвы.

Во время столкновений и мусульманского наступления армянской части был сожжен дом терпимости, который содержал один грузин. Одна из пленниц из этого дома, грузинка Соня, объяснила, что войска генерала Голощапова помогают армянам. Пушки Голощапова были расставлены на возвышенной части армянского района, откуда обстреливали мусульманскую часть.

Кроме того, армянами были использованы оставшиеся от русских войск времен Ибрагимхана дулы пушек. Приспособленные тогда как подпоры в зимнем клубе армян, они были заменены столбами и посажены на колеса, как пушки, из которых вместе с голощаповскими пушками обстреливали мусульманскую часть города.

Как в первом, так и во втором столкновении мусульманами Карабаха руководили Салимбек Рустамбеков (бывший начальник Джебраильского уезда) и Джафарбек Везиров (помещик).

На 11-й день генерал Голощапов со своими людьми и почетными лицами из армян с белыми флагами вышли на линию огня. Перестрелка прекратилась. Прследовав вдоль линии огня, генерал Голощапов предложил прекращения столкновения. Дойдя до бывшего дома Гехараги (в южной части на краю города), который служил мусульманам хорошей крепостью, не дававшей армянам возможности обойти город с южной части города, он приказал сейчас же разрушить этот дом. В это время к генералу Голощапову подошел доктор Керимбек от мусульманского населения и попросил не разрушать этот дом, так как он принадлежал дочери Ибрагимхана Гехараги. Генерал Голощапов согласился.

Таким образом, на 11-й день столкновения

прекратились. Голощапов выехал со своей частью в Тифлис.

Из за предательства генерала Голощапова, мусульманами с целью его убийства в Тифлис был направлен молодой человек из селения Гюлаплы по имени Гуси. После прибытия в Тифлис, он совершил покушение на генерала Голощапова, произведя по нему несколько выстрелов из револьвера. Голощапов был тяжело ранен, а Гуси после покушения вернулся в Шушу и скрывался вплоть до революции в Азербайджане.

Следует отметить, что между первым и вторым столкновениями в Шуше, в целях мести за кровопролитие, армянами в Тифлисе кинжалом в голову был ранен наместник Галицин - инициатор озвученной на совещании в Петербурге идеи натравливания двух народов друг против друга. Галицин после этого инциндента был отозван в Петербург.

Мирная жизнь в Шуше продолжалась до 1919 года. В один из дней в 1919 году армяне, укрепившись за скалами, что выше водохранилища в армянской части города, в так называемом «Геургаласы», открыли сильный оружейный огонь по кочевникам-мусульман. Кочевники не пострадали, так как успели укрыться от огня.

Мусульмане в городе, услышав об обстреле кочевников, решили в бой не вступать, так как предполагали, что армяне стреляли не в кочевников, а дали залп в воздух, чтобы этим напугать кочевников и заставить их оставить свой скот и имущество с целью их завладения. На этом окончилось 3-е столкновение.

В 1920 году мусаватский генерал-губернатор Хосровбек, врач по специальности, установил со дня своего приезда в Шушу и вступления в свои обязанности порядок, согласно которому в день Новруз-байрама 22 марта нужно было собираться в доме Шушинского уездного кази Оруджзаде и там поздравлять друг друга (что тогда называли «Раутом»), а не ходить по домам, как было раньше. Во время этого сборища при помощи складчины (в зависимости от возможностей, по 3-5 рублей) гостей угощали кофе, чаем и всякими праздничными сладостями.

Еще до марта 1920 года армянский Халиф-архирей (высшее духовное лицо армян), сообщил всем собравшимся в соборе армянам, что ночью во сне он увидел, как из-за горы в восточной стороне Шуши поднялся огонь, похожий на солнце, и, перейдя через мусульманскую часть города, остановился над армянской частью и взорвался. В результате сгорела вся армянская часть города, все погибли, в том числе и он. После этого сообщения все разошлись по домам. Случай в соборе передал мусульманам покойный учитель Залов, который, отлично владея армянским языком, в это время случайно находился в соборе.

22 марта 1920 года армянские влиятельные лица во главе с духовенством и Халифом-архиреем посетили «Раут». По окончании угощения Халиф-архирей произнес речь. Обращаясь ко всем присутствующим мусульманам - Мешади Абушбеку (кассир «Раута»), Кази Оруджзаде, доктору Мехмандарову-Сеидбекову (купец), Сафарову (купец) и другим, Халиф-архирей сказал: «Господа мусульмане, мы являемся братьями, вражду между нами создал шайтан, да будь он проклят. Надеюсь, что обе нации прекратят и забудут эту вражду и впредь будут жить как братья».

Речь Халифа-архирея с армянского языка переводил городской голова Герасим Мелик-Шахназаров (потомок Варандинского хана Мелик-Шахназарова), который среди мусульман пользовался большим авторитетом и уважением. Во время всех трех предыдущих столкновений он был противником кровопролития и участвовал в межнациональной усмирительной комиссии, в которую от армян также входили Ишханов (адвокат), Мандинян (адвокат), Бегляров (купец), Багадуров (доктор) и другие. От мусульман в комиссию входили: Мешади Абушбек Новрузов (служащий), доктор Мехмандаров, Джавадага Джаваншир (помещик) и другие.

В настоящее время кроме консульских отделов дипломатических представительств Азербайджанской Республики в иностранных государствах, действуют Генеральные консульства Азербайджана в Стамбуле, Карсе, Тебризе, Санкт-Петербурге; почетное консульство в Бейруте. По всей видимости, в скором времени будут открыты консульские учреждения и в других регионах Российской Федерации. В ближайшее время планируется открытие консульских учреждений Азербайджанской Республики в других странах, где компактно проживает значительное количество азербайджанских граждан.

На сегодняшний день, учитывая большой объем консульской работы в некоторых посольствах Азербайджанской Республики (Анкара, Тегеран, Вашингтон, Берлин), на наш взгляд, было бы целесообразно увеличить штаты консульских отделов этих посольств хотя бы до двух дипломатов, обладающих консульским опытом (а может быть, открыть в этих странах самостоятельные консульские учреждения любого класса). Это могло бы способствовать своевременному и более качественному выполнению консульских функций.

Основной проблемой на пути открытия азербайджанских консульств за рубежом является, по нашему мнению, недостаток финансовых средств в республике; в прочем это относится и к открытию посольств.

Весьма актуальным продолжает оставаться кадровое обеспечение консульских заграничных учреждений Азербайджанской Республики. Меры по решению этой задачи, как нам представляется, могут быть следующими:

~ развитие практики альтернативного подбора на консульские должности на базе профессиональных критериев;
~ введение практики конкурсного замещения глав консульских учреждений (генеральных консулов и консулов);
~ комплектация штатов консульских заграничных учреждений из числа работников Консульского Управления и других подразделений МИД Азербайджана, обладающей необходимой профессиональной подготовкой и опытом консульской работы;
~ целевая подготовка консульских работников в дипломатических академиях иностранных государств (Вена, Москва и т.п.)

На наш взгляд, профессиональный консульский работник обязан свободно ориентироваться в вопросах внутренней и внешней политики, культурной жизни страны пребывания, ее законодательстве и нормативных актах, регулирующих деятельность консульской службы (вопросы гражданства, правового статуса иностранных граждан, морского судоходства, таможенных правил, наследственных и иму-

щественных прав и др.). Он должен знать договорно-правовую и экономическую проблематику двусторонних отношений Азербайджанской Республики со страной пребывания, визовую практику, нотную переписку по консульской тематике и другие вопросы прикладного характера, а также обязательно владеть языком страны пребывания.

## *Azərbaycanda milli təhlükəsizliyin təmin olunması baxımından əsas ixrac neft və qaz boru kəmərlərinin istismar risklərinin qiymətləndirilməsi*

***Eldar Şahbazov****

XX əsrin sonu və XXI əsrin əvvəlləri suveren tariximizə iqtisadiyyatın dirçəlişi yolunda əlamətdar mərhələ kimi qızıl hərflərlə yazılacaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana qayıdışı ilk-öncə ölkənin yeraltı sərvətlərinin səmərəli istifadə edilməsi, dünyanın ən iri transmilli neft şirkətlərinin sərmayə qoymaq məqsədilə ölkəyə gəlişi, Azərbaycanın milli maraqlarını üstün tutan sazişlərin imzalanması ilə tarixdə və yaddaşlarda qalacaq.

İlk kontraktın imzalanmasından 11 ildən çox vaxt keçmişdir. Zaman baxımından kiçik bir dövrdə misli görünməmiş layihələr reallaşmış, dünyanın 15 ölkəsindən olan 33 neft şirkəti ilə müqavilələr imzalanmışdır. Azərbaycana hal-hazırda gündə orta hesabla 10 mln. ABŞ dolları həcmində sərmayə qoyulur. AÇG, BTC ƏİBK, BTƏ CQBK, Şahdəniz qaz və qaz-kondensat yatağının işlənməsi layihələrinin icrası ilə əlaqədar 20 mlrd. ABŞ doll. həcmində sərmayə qoyulmuş, bu rəqəmin yaxın gələcəkdə 50-60 mlrd. ABŞ doll. qədər artması gözlənilir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin – "Neft məqsəd yox, geosiyasi və iqtisadi problemləri həll etmək üçün bir vasitədir" sözləri sanki günün nəbzini tutmaqla bu günün və sabahın sosial-iqtisadi problemlərinin həll edilməsinə yönəlmişdir. Azərbaycan neft və qaz sənayesinin bu günkü vəziyyəti deyilənlərə bariz nümunədir.

Məlum olduğu kimi, gələcəyin daha təkmil proqnozunu əldə etmək üçün keçmişə nəzər salmaq, dünya neft biznesinin regionlar üzrə hasilat mərkəzlərinin dəyişməsini nəzərdən keçirmək lazımdır. Dünya iqtisadçılarının və biznesmenlərinin diqqətini cəlb edən XX əsrin birinci yarısında Meksika körfəzi, bir müddət sonra Gibraltar boğazı, sonra Fars körfəzi və Şimal dənizi, və nəhayət, SSRİ-nin süqutuna təsadüf edən XX əsrin sonunda Xəzər dənizi regionu olmuşdur.

Adıçəkilən regionlar üzrə bir sıra ölkələrdə aparılmış tədqiqatların nəticəsi olaraq çıxarıla biləcək neft və qaz ehtiyatlarının miqdarı, konfliktlər, müharibələr və digər təbii fəlakətlərin təsiri altında formalaşan neftin dünya bazarlarında satış qiymətlərini nəzərə almaqla, ARDNŞ-də riyazi ehtimal-statistik üsullardan istifadə etməklə hesablamalar aparılmışdır. Bunların nəticələri zaman baxımından orta hesabla 25-30 il dövrə malik sürüşmələri müəyyən etmiş, "Əsrin kontraktı"nın qüvvədə olması dövrünün də bu dövrə uyğun olması prosesin təkamül xarakter daşımasına dəlalət etmişdir.

İndi isə keçmişə ekskurs edək. İndiyə kimi Yer kürəsində 125 mlrd. ton neftin çıxarılmaşı, ildə təxminən 4 mlrd. ton neft hasil edilməsi ekoloji baxımdan bir sıra problemlərin qarşılıqlı "Kioto protokolu" çərçivəsində həll edilməsi labüdlüyünü araya gətirmişdir. 1997-ci ildə imzalanmış "Kioto protokolu"nun icrası ilə əlaqədar dünyanın 159 ölkəsi bu beynəlxalq sənədi imzalamışdır. "Kioto protokolu" proqramına uyğun olaraq, Azərbaycanın fəaliyyəti, xüsusilə neft və qaz sənayesinin inkişafı ilə əlaqədar tullantıların miqdarı, həcmi beynəlxalq normalar çərçivəsində nizamlanır.

### Xəzər hövzəsində karbohidrogen resurslarının mənimsənilməsi ilə əlaqədar geostrateji, geosiyasi və geoiqtisadi problemlərin cari vəziyyəti

Xəzər hövzəsi – cəmi 30 mlrd. ton neft, 18-20 trln. kubmetr qaz ehtiyatına malikdir, bu isə dünyanın 15% karbohidrogen resursu deməkdir;

~ Xəzər hövzəsinin Azərbaycana aid bölgəsində: 3-5 mlrd. ton neft, 5 trln. kubmetr qaz ehtiyatı var;

~ Xəzər hövzəsi geostrateji və geoiqtisadi baxımdan "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", Tenqiz, Kaşaqan və Karaçaqanaq neft, qaz yataqları üzrə

* Azərbaycan Respublikası Dövlətt Neft Şirkətin I vitse-prezidentinin müşaviri, texnika elmləri doktoru, professor.

dünyada ən zəngin yataqlar olduğundan bu ölkələrin hökumətləri geniş investisiya proqramları ilə dünya banklarında maliyyələşdirmə təminatını almış və almaqdadırlar;

~ Azərbaycan coğrafi baxımdan Avropa ölkələri ilə Şərqi və Cənubi Asiyanı əlaqələndirən əlverişli strateji və iqtisadi mövqeyə malikdir;

~ Xəzər hövzəsinin neft hasilatının ən yüksək dinamik səviyyəsi 2020-ci ildə olacaq: sutkada 5 mln. barel (və ya 800 min ton), bu isə dünya neft ixracının 3-4% deməkdir;

~ "Bakı-Tbilisi-Ceyhan" ƏİBK-nin 2005-ci ildə istismara verilməsi Azərbaycan neftinin dünya bazarına sutkada 1 mln.barel (və ya 160 min ton) ixracını təmin edəcəkdir.

### Azərbaycanın neft və qaz sahəsinə kapital qoyuluşu 15 mlrd. ABŞ doll. həcmindədir

Neft və qaz sektorunda layihənin həyata keçirilməsilə əlaqədar 20 mlrd. ABŞ doll-dan çox sərmayə qoyulacaqdır (2007-ci il);

~ "Azəri-Çıraq-Günəşli" strukturu üzrə I və II faza tammiqyaslı işləmələrin həyata keçirilməsi üzrə;

~ "Bakı-Tbilisi-Ceyhan" – ƏİBK layihəsi üzrə;

~ "Şahdəniz" qaz və qazkondensat yatağının ilkin mərhələsinin işlənməsi üzrə;

~ "Bakı-Tbilisi-Ərzurum" – qaz boru kəməri layihəsi üzrə.

### "Azəri-Çıraq-Günəşli" yatağının tammiqyaslı işlənməsi 3 faza üzrə həyata keçiriləcək

~ Faza-I layihəsi "Azəri" yatağının mərkəzi hissəsini əhatə edir. Onun dəyəri 3,4 mlrd. ABŞ doll., gündəlik hasilat gücü 55 min ton (400 min barel), hasil ediləcək neft ehtiyatlarının həcmi 193 mln.ton (1,4 mlrd. barel) təşkil edir.

~ Faza-II layihəsi 5,2 mlrd. ABŞ doll. dəyərindədir. İlk neft hasilatına 2006-cı ilin II rübündə və 2007-ci ilin I rübündə başlanacaq. Gündəlik hasilat 83 min ton (600 min barel) və layihə üzrə cəmi 216 mln. ton (1,6 mlrd. barel) neft çıxarılacaq.

~ Faza-III layihəsinə 2004-cü ilin sentyabrın 20-də sanksiya verilmişdir. Layihə 4,7 mlrd. ABŞ doll. dəyərindədir. İlk neftin 2008-ci ildə hasil ediləcəyi nəzərdə tutulur. Layihə üzrə ümumi hasilat 176 mln. ton (1,25 mlrd. barel) təşkil edəcək.

Beləliklə, "Azəri-Çıraq-Günəşli"-də hesablanmış çıxarıla bilən ehtiyatlar tammiqyaslı işlənmə layihəsi üzrə 400-ə yaxın quyunun qazılması nəzərdə tutulmuşdur. Bütün bunlara çəkiləcək xərclər 15 mlrd. ABŞ doll. həcmində planlaşdırılır. İndiyədək AÇG layihəsinə 8,9 mlrd. ABŞ doll. xərclənmişdir.

### "Azəri–Çıraq–Günəşli" yataqları



## 2002–2010 illərdə Azərbaycanda neft hasilatı dinamikası




## Azərbaycanın və digər Xəzəryanı ölkələrin resurslarının dünya bazarlarına çıxarılması




| | BTJ | SCPLS |
|---|---|---|
| Azerbaijan | 445 | 442 |
| Georgia | 245 | 248 |
| Turkey | 1070 | 225 |
| Total | *1760* | *915* |

**"Bakı-Tbilisi-Ceyhan"**

~ Dəyəri 2,95 mlrd. ABŞ doll. qiymətləndirilən bu kəmərin uzunluğu 1768 km təşkil edir, işlərin yerinə yetirilməsi üçün cəlb olunan işçilərin sayı 10 min nəfərə yaxındır.

~ BTC ƏİBK ilə ildə 140 mln. barel həcmində Qazaxıstan neftinin də nəqli planlaşdırılır. Qazaxıstan tərəfi üçün BTC ƏİBK vasitəsilə ildə 140 mln. bareldən artıq nəql etmək zərurəti yarandığı təqdirdə Aktau limanından Səngəçal terminalınadək Transxəzər sualtı boru kəmərinin çəkilişi planlaşdırılır.

~ 10 aprel 2005-ci il tarixində BTC layihəsi üzrə qaynaq əməliyyatları 99,9%, boruların torpağa basdırılması isə 98,4% yerinə yetirilmişdir.

**"Şahdəniz"**

~ Dünyada ən iri yataqlardan biridir, ehtiyatları ən azı 1 trln. kubmetr qaz və 300 mln. ton kondensat həcmində qiymətləndirilir. Saziş sahəsi təxminən 859,8 km-dir. Layihəni həyata keçirmək üçün 4-5 mlrd. ABŞ doll. məbləğində əsaslı xərclər tələb olunur.

~ Bu yatağın işlənməsinə cari ildən başlayacaq. Tam işlənmədən sonra burada ildə 16 mlrd. kubmetr qaz hasilatı səviyyəsinə nail olunması gözlənilir. Yatağın işlənməsi üzrə I fazanın dəyəri 3,2 mlrd. ABŞ doll. təşkil edir.

~ 01.04.2005-ci il tarixinə saziş üzrə görülmüş işlərin həcmi 505 mln. ABŞ doll. təşkil etmişdir.

## "Şahdəniz"- qaz layihəsi




| | |
|---|---|
| **Phase 1** | East Flank |
| **Фаза 1** | Восточное крыло |
| **Sanction** | 27 February 2003 |
| **Санкции** | 27 Февраля 2003 |
| **First Gas** | August 2006 |
| **Первый газ** | Август 2006 |
| **Gas reserves:** | Total: 38 Tcf /1085 bscm<br>East Flank 11.9 Tcf / 340 bscm)<br>Всего: 38 Tcf / 1085 млрд.м$^3$<br>Восточный фланг: 11.9 Tcf / 340 млрд.м$^3$ |
| **Production:** | 8.52 bscm/y |
| **Объем добычи:** | 8.52 млрд.м$^3$ |

**"Cənubi Qafqaz Boru Kəməri" (CQBK)**

CQBK "Şahdəniz" yatağından hasil ediləcək qazın ildə bir hissəsini (7,7 mlrd. kubmetr) Bakıdan Türkiyənin Ərzurum şəhərinə 970 km məsafəyə nəql etməyə imkan verəcək. 900 mln. ABŞ doll. həcmində qiymətlədirilən boru kəmərinin tikintisi 2004-cü ildə başlamış və 2006-cı ilin əvvəlində başa çatacaq. CQBK BTC ƏİBK ilə paralel çəkilir. Gələcəkdə Qazaxıstan bu kəmərə qoşulmaqla, öz qazını Avropa bazarına nəql etmək niyyətindədir.

CQBK-nin operatoru və onun tikintisi üzrə məsul olan BP şirkəti və layihənin inkişafı və idarə olunması üzrə məsul olan "Statoyl" şirkəti Cənubi Qafqaz Boru Kəməri Şirkəti – CQBKŞ yaratmışlar. Müqaviləyə müvafiq olaraq Türkiyə 15 il ərzində 910 mlrd. kubmetr qaz alacaq. 2002-ci ilin mart ayında Yunanıstan və Turkiyə Ankaradan Komotiniyə qədər boru kəməri çəkmək haqqında saziş imzaladılar. Bu kəmərin tikintisi 2002-ci ildə başlamış və 2005-ci ildə başa çatacaqdır. Layihənin dəyəri 300 mln. ABŞ doll. təşkil edir. Beləliklə, Azərbaycan qazını nəinki Türkiyəyə, həm də Yunanıstana, həmçinin İtaliyaya, Balkan yarımadasına və başqa Avropa ölkələrinə ixrac etmək mümkün olacaq. 2003-cü ilin fevral ayında Yunanıstan və Turkiyə mövcud boru kəmərlərinin bərpası və birləşdirilməsinə dair dəyəri 265 mln. ABŞ doll. olan saziş imzaladılar. Layihə üzrə işlər 2005-ci ildə başa çatdıqdan sonra ildə 11 mlrd. kubmetr həcmində qazı Yunanıstana və sonra Avropaya ixrac etmək mümkün olacaq. ARDNŞ və Yunanıstan Milli Neft və Qaz Şirkəti (DEPA) Azərbaycandan ildə 3 mlrd. kubmetr həcmində qazın göndərilməsi haqqında saziş imzalamışlar. Beləliklə, Azərbaycan müstəqil qaz istehsalçısı və ixracatçısına çevriləcək.

## "Şahdəniz"- qaz layihəsi – Faza1




## AÇG və "Şahdəniz" üzrə hasilat




## Neft və qaz sənayesinə qoyulan sərmayələr, mln. ABŞ doll.



**Neft Fonduna kontraktlar üzrə daxil olan vəsaitlər, mln. ABŞ doll.**




Azərbaycan iqtisadiyyatının neft və qaz sektoruna qoyulmuş və qoyulacaq vəsait günü-gündən dinamik olaraq artmaqdadır. Aparılmış araşdırmalar və təhlillər gələcəkdə neft və qaz sahəsində böhranın yaranması və bununla əlaqədar təhlükəsizlik problemlərinin həlli günün ən ümdə məsələlərinə çevrilmişdir. Neftqaz sistemlərinin və qurğularının, əsas ixrac boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi bilavasitə texniki, texnoloji, seysmik amillər, fövqəladə hadisələr və ehtimal olunan terror aktları ilə bağlıdır.

ARDNŞ-də aparılmış araşdırmalar göstərir ki, risk kəmiyyətinin formalaşması əsas etibarı ilə aşağıda verilən səviyyələrdə təsir edən amillər toplusunun bilavasitə ayrı-ayrılıqda, birgə, yəni cüt-cüt, qrup şəklində və, nəhayət, şərti ehtimalla təsiri nəticəsində müəyyənləşib:

- siyasi
- texniki-texnoloji
- iqtisadi
- ekoloji
- etnik

İlk dəfə olaraq ARDNŞ-də riskin qiymətləndirilməsinin metod və metodologiyası, "ehtimal" yanaşma ilə riskin səviyyəsinin təyin edilməsi irəli sürülmüşdür. Təklif olunmuş modeldə etibarlı sərhədlərin qiymətləndirilməsi nöqteyi nəzərindən riskin təyin edilməsi və onun kəmiyyətcə zaman baxımından hansı ehtimalla dəyişməsinin qiymətləndirilməsi üsulu bizim tərəfimizdən işlənmişdir.

Yuxarıda sadalanmış riskin formalaşmasına təsir edən amillər toplusunun tərkib hissəsi olaraq regionda siyasi və yaxud qeyri-siyasi sabitlik, regionun xüsusiyyətləri ilə əlaqədar kritik vəziyyət və təhlükəyə məruz qalma parametrləri ehtimal nəzəriyyəsində geniş tətbiq edilən "gözlənilməzlik" modeli ilə xarakterizə olunur. Bu baxımdan, texnologiyanın və texnikanın yerli şəraitə uyğunluğu, yəni texnologiyanın tədbiqində və texnikanın istismarında yerli və xarici kadrların hazırlığı və müvafiq biliklərə malik olması, quraşdırılacaq texnikanın ölkəyə gətirilməsi şərtlərinin normativ sənədlərə uyğun olması, boru istismar olunan ərazidə məskunlaşmış əhalinin məlumatlı və hazırlıqlı olması, kəmərin istismarına nəzarət və monitorinq sisteminin idarə edilməsi amilləri əsas rol oynayır.

Burada təhlükəsizlik və ekologiya, mövcud infrastrukturun vəziyyəti və digər sosial və hüquqi amillərin təsiri nəzərə alınır. Təklif olunmuş "riyazi gözlənilməzlik" eksponensial modelinin parametri olan l (mümkün böhranların intensivliyini səciyyələndirən parametr) vasitəsi ilə risk qiymətləndirilir. Bir sıra riyazi əməliyyatlar nəticəsində mümkün böhranların (terror aktların) öncə və sonra qiymətləndirilməsi üçün müvafiq riyazi modellər alınmış, onların alqoritmi təyin edilmişdir. Bununla yanaşı bir sıra üsullar işlənmişdir. "Arqumentlərin qrup şəklində uçotu" metodundan istifadə etməklə prosesə adekvat olan nəticələr əldə edilmişdir.

Hal-hazırda respublikada fəaliyyət göstərən güc və təhlükəsizlik strukturları ilə birgə bilik və informasiya bankının yaradılması, informasiya keçidinin təmin olunması, və nəhayət, yuxarıda sadalanan amillərin sintezi əsasında müvafiq alqoritmlərin işlənməsi labüdlüyü araya gəlmişdir.

Yekun olaraq, yuxarıda təklif olunmuş üsullardan istifadə etməklə, zamandan asılı olaraq, ixrac boru kəmərlərinin doldurulmasında risk parametrinin dəyişmə dinamikası, BTC və BTƏ kəmərlərinin uzunmüddətli istismarı prosesində təhlükəsizlik problemini xarakterizə edən riskin ehtimal üsullarla qiymətləndirilməsini təmin etmək və arasıkəsilməz bir proses kimi yaradılacaq hər hansı qurum tərəfindən həyata keçirilməsini vacib hesab edirəm.

## *Kəşmir münaqişəsi və onun tənzimlənməsinə dair səslənən bir sıra təkliflər*

*Həsən Məmmədzadə**

Kəşmir Britaniya Hindistanının muxtar əyalətlərindən biri idi. Lakin Britaniya hökuməti bu əyalətin özünü idarəetmə hüququnu əlindən alaraq, Kəşmirin xarici siyasətini, hərbi məsələlərini, hətta idarəçiliyin zəifləməsi təqdirdə, daxili vəziyyətin tənzimlənməsi kimi mühüm məsələlərə müdaxilə edirdi. 1947-ci ildə isə Britaniya bölgədən çəkildiyi və hakimiyyəti yeni yaranmış ölkələrə təhvil verdiyi zaman Kəşmirin tamamilə müstəqil qalmasına qərar verilmişdi.

Kəşmir qarşısında Hindistan və ya Pakistana birləşmək kimi öhdəlik qoyulmamışdı. Lakin Kəşmirin müstəqil dövlət kimi mövcudiyyəti məsələsinə Britaniyanın Hindistan üzrə katibi lord Listovel Lordlar Palatasında çıxışı ilə son qoymuşdu. O, bildirmişdi: "Təbii ki, biz hər hansı bir dövlətin beynəlxalq subyekt kimi tanınmasını təklif etməyəcəyik. Britaniya hökuməti olaraq Kəşmirin müstəqilliyini tanımadığımız üçün heç bir ölkə sizi müstəqil dövlət kimi tanımayacaqdır. Siz Hindistan və ya Pakistandan birinə qovuşmaq haqqında qərar verməlisiniz".[1] Həmin dövrdə Hindistanın hakim partiyası Milli Konqres açıq şəkildə son qərarın xalq tərəfindən verilməsinə dair mövqe nümayiş etdirmişdi.

Qeyd olunmalıdır ki, Kəşmirdən başqa Heydərabad və Cunaqarh ştatları da 15 avqust 1947-ci il Hindistan və Pakistanın müstəqilliklərini elan etməsi tarixinə kimi hansı dövlətin tərkibinə daxil olması haqqında qərar verməmişlər. Digər əyalətlər isə dini mənsubiyyətlərinə uyğun olaraq öz müqəddəratlarını təyin etmişlər. Müsəlmanların sıx yaşadıqları əyalətlər Pakistanın, digər dinlərə mənsub olanlar isə Hindistanın tərkibinə daxil olmuşlar. Lakin bəzi qeyri-müsəlmanların yaşadıqları əyalətlər dini amildən kənara çıxaraq Pakistana birləşmək istəsələr də, bu mümkün olmamışdı. Misal üçün Codhpur Maharacası Pakistana birləşmək haqqında arzularını bildirməsinə baxmayaraq, Britaniya Hindistanının keçmiş Şahzadəsi, müstəqil Hindistanın Baş Qubernatoru lord Mountbaten bu istəyin yeni yaranmaqda olan hər iki ölkənin tutduğu prinsiplərə zidd addım adlandırmış, hinduslların çoxluqda yaşadığı Codhpur əyalətinin müsəlman Pakistana birləşdirilməsinin münaqişə yarada biləcəyini qeyd etmişdi. Təbii olaraq Maharaca könülsüz olsa da, əyalətin Hindistana birləşdirləməsinə qərar vermişdi.[2]

Cunaqadh əyalətinin müsəlman lideri əyalətin əhalisinin əksəriyyətinin hindus dininə mənsub olmasına baxmayaraq, 1947-ci il avqustun 15-də Pakistana birləşmək haqqında qərar vermişdi. Hindistanın Qubernatoru eyni şərtləri irəli sürərək əyalətin bu qərarına qarşı çıxmışdı. Hindistan ordusu əyalətə daxil olaraq plebisit keçirmiş və Cunaqadhı özünün tərkib hissəsi elan etmişdi. Pakistan adı çəkilən əyalətin qərarını əsas gətirərək Hindistanın atdığı addımın qanuna zidd olduğunu bildirmiş və məsələnin BMT-nin Təhlükəsizlik Şurasında çözülməsini tələb etmişdi. Lakin BMT bu günə kimi bu məsələ ilə bağlı öz münasibətini bildirməmişdi. Qeyd olunmalıdır ki, Hindistan ordusu eyni ilə 1947-ci il sentyabrın 13-də Heydərabad əyalətinin başçısının Pakistana birləşmək haqqında qərarına zidd gedərək buranı işğal etmiş və bunu plebisitlə özünə məxsus şəkildə qanuniləşdirmişdi.[3]

Kəşmirdə vəziyyət yuxarıda adı çəkilən üç əyalətdən fərqli idi. Belə ki, Böyük Britaniya bölgədən çəkiləndən sonra Kəşmirin coğrafi mövqeyi onun Hindistan və ya Pakistana

* Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı səfirliyinin II katibi.

1 S.M. Burke and Lawrence Ziring, Pakistan's Foreign Policy: An Historical Analysis (Karachi: Oxford Unversity Press, 1990), səh. 17.

2 Jasjit Singh, Pakistan's Fourth War, Stategic Analysis (Dehli, 1999), səh. 685.

3 İbid, səh. 702.

birləşməsinə imkan verirdi. Həmin dövrdə Hindistanın demək olar ki, Kəşmirlə magistral yolu yox idi. Hindistan tərəfi Britaniya imperiyasının tərkibində olarkən hazırda Pakistanın ərazisi olan Ravalpinindi vasitəsi ilə Kəşmirlə quru yol əlaqəsi yaradırdı. O zaman Kəşmir əhalisin əksəriyyəti Ovalıqda əhalinin 93 %, Cammuda 61%, müsəlman idi. Hazırda nisbət fərqi müsəlmanların xeyrinə daha artıb. Lakin bütün bunlara baxmayaraq Doqra hökmranlığının Maharacası qeyri-müsəlman Hari Sinqin qərarı qəti olmadığı üçün Müsəlman Konfransının Kəşmir üzrə rəhbəri Çodri Qulam Abbas Kəşmirin Pakistana, Milli Konfransın bölgə üzrə rəhbəri Şeyx Abdullah isə Hindistana birləşdirilməsinə çağırışlar etmişlər.[4]

1947-ci ildə Hindistan Böyük Britaniyadan müstəqilliyini qazandıqdan və müsəlmanlar yaşayan ərazidə müstəqil Pakistan dövləti yarandıqdan sonra hər iki ölkədə kütləvi qarşıdurmalar və miqrasiya prosesləri başlamışdı. Həmin dövrdə Hindistan tərəfi Şərqi Pakistanda – Banqladeşdə son dərəcə ağır iqtisadi, sosial vəziyyət, milyonlarla qaçqınlar və mühacirlər üçün bir sıra çətinliklər törətmişdi. Ən problemli rayonlardan biri də əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Kəşmir idi.[5] Yeni dövlətlər yaranarkən müsəlmanların çoxluq təşkil etdiyi Kəşmir əyalətinin siyasi-ərazi mənsubiyyəti probleminin həll olunması həmin məntəqənin iki ölkə arasında gərginlik və hətta silahlı qarşıdurma ocağına çevrilməsinə səbəb olmuşdu. Pakistan tərəfinin qənaətinə görə bu ərazi 1947-ci ildən özünün dini mənsubiyyəti baxımından İslamabada tabe olmalı idi. Lakin Hindistan tərəfi bu istəyə məhəl qoymayaraq Kəşmirin çox hissəsini işğal etmişdi.

Hindistanın mövqeyinə görə 1947-ci ildə Kəşmirin Maharacası Cammu və Kəşmirin Hindistana birləşdirilməsi haqqında müqavilə imzalamış Pakistan isə Kəşmirin bir hissəsini işğal etmişdi. Kəşmirin müstəqilliyi və ya Pakistana birləşdirilməsi müzakirə predmeti belə deyil. Qeyd olunmalıdır ki, Kəşmir münaqişəsinin yarandığı ilk illərdə bu məsələ BMT qarşısında qaldırılmış və Hindistan rəhbərliyi Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Kəşmirdə plebisitin keçirilməsinə dair qəbul etdiyi qətnaməyə riayət edəcəyinə söz vermişdi. Hindistan tərəfinin iddiasına görə, 1972-ci ildə Hindistanla Pakistan arasında danışıqlar zamanı tərəflər bir daha plebisit məsələsinə qayıtmayıcaqlarına dair razılıq əldə etmişlər. Hazırda Hindistan tərəfi belə hesab edir ki, Kəşmir məsələsinin BMT-də müzakirəyə çıxarılması Hindistanın o vaxtkı rəhbəri Cəvahərləl Nehrunun səhvi idi və Kəşmirdə nə baş verirsə versin, bu, Hindistanın daxili işi hesab edilməli, eləcə də münaqişənin həllində kənar qüvvələrin, o cümlədən BMT-nin vasitəçiliyi qəbul olunmazdır.[6]

Rəsmi Dehlinin qənaətinə görə, Kəşmir Hindistanın ayrılmaz hissəsidir, əgər ortada hər hansı bir mübahisəli məsələdən söz gedirsə, o da Pakistanın işğal etdiyi Kəşmirin ərazisi ola bilər. BMT-nin qəbul etdiyi qətnamələr Hindistan tərəfindən qəbul olunmazdır. Dehliyə görə, Pakistanla danışıqlar yalnız Kəşmirin qalan hissəsini Pakistan işğalından qurtarmaq xatakteri daşımalıdır. Bu danışıqlar da yalnız ikitərəfli şəkildə, ayrı sözlə, beynəlxalq vasitəçilərin iştirakı olmadan aparılmalıdır. Qeyd olunmalıdır ki, Hindistan Kəşmirin beynəlmiləşdirilməməsinə 1950-ci illərdən başlamışdır. Lakin münaqişənin ilk illərində Dehli münaqişənin tənzimlənməsində üçüncü tərəfin və ya beynəlxalq təşkilatların vasitəçilik etməsinə etiraz səsini ucaltmırdı.

Pakistan tərəfi Kəşmir məsələsinə "İki millət" prinsipi ilə yanaşır. Bu prinsip 1947-ci ildə Pakistanla Hindistan arasında tətbiq olunmuşdu. Həmin prinsipə əsasən müsəlmanların yaşadıqları ərazi Pakistana, hindus və digər dinə mənsub olanların yaşadıqları ərazi Hindistana birləşməli idi. Rəsmi İslamabad bu prinsipdən çıxış edərək, Hindistanın Kəşmiri ələ keçirməsini qeyri-qanuni sayır və status kvo (Kəşmirdəki hazırkı ərazi bölgüsü) ilə barışmaq haqqında beynəlxalq ictimaiyyətin irəli sürdüyü təklifi rədd edir.[7]

1947-ci ildən bəri Hindistan-Pakistan arasında münaqişə başladığı gündən Kəşmir xalqı çətin seçim qarşısında qalıb. Kəşmirlilərin çox hissəsi öz müqəddəratlarını plebisit yolu ilə təyin etmək niyyətindədir. 1993-cü ildə Kəşmirdə bir sıra siyasi partiyaları özündə birləşdirən Bütün Partiyaların Hürriyyət Konfransı (BPHK) Kəşmirin müstəqilliyi uğrunda yeni mübarizəyə başlamışdı. Konfransa daxil olan Seyyid Əli Gilanin başçılıq etdiyi qanad dəfələrlə Kəşmirin Pakistana birləşdirilməsi uğrunda mübarizə apardıqları haqqında bəyanat vermişdi. O, Hindistanla danışıqlar aparılmasının mümkünlüyünü yalnız, rəsmi Dehlinin Kəşmiri mübahisəli məsələ kimi tanımasından sonra olduğunu bildirir. Ayrıca,

4 Tahir Amin, Mass Resistance in Kashmir: Origins, Evolutions, Options (İslamabad: Institute of Policy Studies, 1995), səh. 7.
5 Old Journeys Revisited, The Economist, London, 10 fevral 2000.
6 Agha Shahi, New Dimensions in Foreighn Policy-Pakistan after 1971 (Rawalpindi, 1974), səh. 89.
7 N.S.Gehlot, Anu Satsangi, Indo-Pak Relation twists and turns from partition to Agra Summit and beyond (Dehli, 2004), səh. 12.

Kəşmirdə bütün siyasi təşkilatlar və sadə xalq Hindistan-Pakistan arasında aparılan danışıqların yekunu olaraq son sözün, rəyin Kəşmir xalqının olmasının vacibliyini bildirirlər.

Qeyd olunmalıdır ki, 1965-ci il Hindistan-Pakistan müharibəsindən sonra iki ölkə arasında bağlanmış Daşkənd Bəyannaməsində, 1972-ci il Simla müqaviləsində Kəşmir xalqının rəyinin nəzərə alınmasına dair hər hansı bir müddəa olmamışdır. Hazırda isə BPHK daxilində Kəşmirin üçüncü tərəf kimi danışıqlarda iştirak etməsini şərt kimi irəli sürənlər və Hindistanla ikitərəfli danışıq aparan qruplar mövcuddur. Bununla da münaqişənin tənzimlənməsi istiqamətində həmişə olmasa da, Kəşmir tərəf kimi iştirak edir.

Maraqlıdır ki, Birləşmiş Ştatlar, Britaniya və Fransa kimi dünyanın böyük dövlətləri Kəşmir münaqişəsinin həllini plebisitin keçirilməsində görür və BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrinin həyata keçirilməsini tələb edirdilərsə, 2001-ci ildə ABŞ-da baş vermiş terror hadisəsindən sonra mövqelərdə dəyişmələr müşahidə olunmaqdadır. Belə ki, dünya gücləri münaqişənin Pakistan və Hindistanın razılığı ilə çözülməsi qənaətindədirlər. Təəssüflər olsun ki, bu gün beynəlxalq ictimaiyyət BMT-nin Kəşmirlə bağlı qəbul etdiyi qətnamələri ciddiyə almamaqdadır. Beynəlxalq birlik məsələnin ikitərəfli danışıqlar çərçivəsində həllinə tərəfdardır. 2001-ci il 11 sentyabr hadisəsindən sonra artıq heç bir dövlət Kəşmirdə vuruşan azadlıq mübarizlərinin müstəqilliyinə inanmır. BMT-nin qətnamələrinə baxmayaraq, 1972-ci il Simla müqaviləsi, 1999-cu il Lahor, və nəhayət, 2004-cü il İslamabad Bəyannamələri beynəlxalq birlik tərəfindən əsas sənəd və ya istinad kimi qəbul edilməkdədir.

## Kəşmir münaqişəsinin tənzimlənməsinə dair təkliflər

Bu gün Kəşmir düyününün çözülməsinə dair status kvonun saxlanması, müstəqillik, suverenliyin bərpası, bölünmə, plebisitin keçirilməsi və bir sıra digər təkliflər səslənməkdədir. Bunlardan ən ədalətlisi və ilk səslənəni plebisitin keçirilməsidir.

### Plebisit

Plebisit yolu ilə məsələnin həlli təklifini ilk dəfə 1948-ci ildə Hindistanın Baş naziri Cəvahərləl Nehru təklif etmişdi. Pakistan və Hindistan tərəfindən bu təklif qəbul olunsa da, sonralar Hindistan öz mövqeyini dəyişərək məsələni BMT-nin TŞ qarşısına çıxarmışdı. BMT münaqişənin müstəqil araşdırılması və tərəfləri ortaq mövqeyə gətirmək məqsədilə Pakistan və Hindistan Xüsusi Komitəsi yaratmışdı. Komitənin qəbul etdiyi ən mühüm qərarlar 1948-ci il avqustun 13-də və 1949-cu il yanvarın 5-də olmuşdur. BMT-nin ilk qəbul etdiyi qərarlarda münaqişənin yalnız xalqın öz istəyi ilə həll oluna biləcəyi bildirilirdi.[8] Konkret olaraq ikinci qətnamədə hər iki tərəfin Kəşmirin Pakistan və ya Hindistana birləşəcəyi haqqında qərarın BMT-nin himayəsi altında keçiriləcək demokratik seçimlə ifadə olunacağına dair razılığa gəlindiyi bildirilir.[9]

Qeyd olunduğu kimi, Hindistan əvvəlcə plebisitin keçirilməsinə razılıq versə də, sonradan fikrindən daşınmışdı. BMT-nin ilk dəfə qəbul etdiyi qətnamələr və məsələnin həlli ilə bağlı təklifi Hindistan və Pakistanın razılığa gəldiyi yeganə təklif olmuşdu. Daha sonra Hindistan tərəfi Kəşmir maharacalığı ilə bağladığı "Birləşmə" haqqında qərarı, daha sonra isə Kəşmir Milli Assambleyasının qəbul etdiyi qərarı əsas gətirərək plebisitin keçirilməsinə lüzum görmədiyini bildirmişdir. Lakin BMT-nin 1957-ci ildə qəbul etdiyi 122 nömrəli qətnamədə Kəşmirin Milli Assambleyasının hər hansı bir tərəfə birləşmək haqqında qəbul etdiyi qərarın BMT-nin prinsiplərinə zidd olduğunu əsas gətirərək qanunsuz saymışdı.[10]

## Nəzarət Xəttinin beynəlxalq sərhəd kimi tanınması

Münaqişənin həllini Kəşmiri ikiyə bölən Nəzarət Xəttinin beynəlxalq sərhəd kimi tanınmasında görənlər az deyil. Nəzarət Xətti birinci Kəşmir müharibəsinin ardınca Pakistanla Hindistan arasında bağlanmış atəşkəs haqqında razılaşmadan sonra yaradılmış sərhəddir. 1972-ci ilə qədər bu Atəşkəs Xətti adlanırdı. Həmin ildə iki ölkə arasında bağlanmış Simla müqaviləsi zamanı cüzi dəyişiklik edilməklə Atəşkəs Xətti Nəzarət Xəttinə çevrilmişdi. Hindistan tərəfi iddia edir ki, 1962-1963-cü illərdə Pakistan rəhbərliyi ilə danışıqlar zamanı rəsmi Dehli 1500 kv metr əlavə ərazini güzəştə getməklə Atəşkəs Xəttinin beynəlxalq sərhəddə çevrilməsinə, başqa sözlə, xəttin Hindistan tərəfində olan Kəşmir ərazisinin Hindistana, digər tərəfdə qalan ərazinin isə

8 UN resolutions on Kashmir, <www.un.org>.
9 İbid.
10 İbid.

Pakistana verilməsinə razılıq verirmiş. Lakin Pakistan tərəfi bu iddiaları rədd edir.[11]

Qeyd olunmalıdır ki, Kəşmirin həll olunması üçün ən geniş yayılmış, çox səslənən təklif Nəzarət Xəttinin beynəlxalq sərhəddə çevrilməsidir. Lakin Pakistan tərəfi bunun Kəşmir xalqının iradəsinə cavab vermədiyini bildirərək təklifi qətiyyətlə rədd edir. Rəsmi İslamabad 50 ildən çox davam edən münaqişənin həll olunması üçün BMT-nin qətnamələrinə əməl olunmasını tələb edir və Pakistanın, eləcə də Kəşmir xalqının maraqlarına zidd hər hansı bir qərarın qəbul edilməsinin yol verilməz olduğunu bildirir.[12]

## Seling S.Harrisonun təklifi

Seling Harrison Vaşinqtonda yerləşən Beynəlxalq Sülh naminə Karneqi Mərkəzinin üzvüdür. O, Hindistanın nəzarətində olan Kəşmirin bölünməsini təklif edir. S.Harrisonun iddia etdiyinə görə, hər iki tərəfin qane olması və bölgədə daim sülhün yaradılması üçün iki yol vardır. Birinci yol Konstitusiyaya uyğun olmaq və müdafiə baxımından Hindistanın tərkibində qalmaqla Kəşmirə müstəqilliyə çox yaxın muxtariyyət statusu verilməsidir.

İkincisi isə Pakistan 1947-ci ildən bəri işğal etdiyi əraziləri özündə saxlayır. Cammu və Kəşmir dini amilə görə bölünür, Cammuda hinduslarıın yaşadığı ərazı və buddistlərin kompakt şəkildə məskunlaşdığı Ladaxın bir hissəsi Hindistanın tərkibinə birləşdirilir, bu iki əyalətdə müsəlmanların yaşadıqları ərazi, eləcə də Kəşmirin qalan hissəsi ayrılır və buraya muxtariyyət statusundan ali status verilir.[13] Buna cavab olaraq Pakistan da öz nəzarətində olan Kəşmirə müdafiə məsələləri, kommunikasiya və pul vahidi istisna olmaqla, müttəfiqlik verir, Hindistan və Pakistan öz ordusunu BMT-nin nəzarətində saxlayır. İki Kəşmir arasında mövcud olan atəşkəs xətti beynəlxalq sərhəddə çevrilir və sərhəddə gediş-gəliş qaydaları asanlaşdırılır, kəşmirlilər Hindistan və Pakistanın maneçiliyi olmadan səyahət etmək imkanı əldə edirlər.

Qeyd olunmalıdır ki, Harrisonun təklifi Kəşmirin etnik və dini zəmində bölünməsi üzərində qurulub. Buna oxşar bölgü əslində 1947-ci ildə nəzərdə tutulmuşdu, lakin Hindistanın şərtlərə əməl etməməsi həlli çətin problemin başlanğıcını qoydu. Bu təklifdə isə rəsmi Dehlinin keçmişdə buraxdığı səhvi düzəltmək üçün yaxşı imkanı olduğu aydın görünməkdədir. Müəllifinin şərtləri ilə İslamabadın razılaşmasını ehtimal etmək olar. Lakin təklifin tərəflərə 15 il bundan əvvəl təqdim olunmasını və bu günə kimi buna uyğun irəliləyişin olmamasını nəzərə alaraq təəssüflə bildirmək olar ki, Cənubi Asiyanın ən böyük münaqişəli dövlətləri bu günə kimi öz aralarında yekdil fikrə gələ bilməyiblər.

## Asiya Cəmiyyətinin təklifi

Nyu-Yorkda yerləşən Asiya Cəmiyyəti Kəşmirin hər iki tərəfində yaşayan əhali arasında Etimad Tədbirlərinin Yaradılması məqsədilə Hindistanın Kəşmirə xüsusi status verməsini təklif edir. Cəmiyyətin qənaətinə görə Hindistan və Pakistan birlikdə Kəşmirə nəzarət etməli və orada döyüşən silahlılara kənardan dəstək verilməsinin qarşısını almalıdırlar. Nəzarət Xətti isə beynəlxalq sərhəddə çevrilməlidir. Bütün bunların həyata keçirilməsi üçün isə beynəlxalq ictimaiyyətin vasitəçiliyinin zəruriliyi vurğulanır cəmiyyətin təklifində. Lakin qeyd olunmalıdır ki, Nəzarət Xəttinin beynəlxalq sərhəddə çevrilməsinin, xüsusən də, hər iki tərəfin Kəşmirə birgə nəzarət etməsi təklifinin Pakistan tərəfindən qəbul olunması az inandırıcıdır.[14]

## Triesten variantı

1970-ci ildə Kəşmir münaqişəsinin həlli üçün Trieste-formulası təklifi meydana gəlmişdi. Qeyd olunmalıdır ki, 1954-cü ilin oktyabrında İtaliya ilə keçmiş Yuqoslaviya Respublikası Sloveniya arasında II dünya müharibəsindən sonra mübahisəli ərazi kimi qalmış Triyest şəhərinin sərhədinə müəyyən dəyişiklik edilməklə bölünmüşdü. Şəhər sakinlərinə hər iki ölkəyə sərbəst səfər etmək hüququ verilmişdi.[15]

Triyest həll variantının Kəşmir münaqişəsinin tənzimlənməsində tətbiq olunacağı təqdirdə, Ovalıq istisna olmaqla (bu ərazinin Pakistana verilməsi nəzərdə tutulurdu) Ladax, Cammu və Kəşmirin digər əraziləri Hindistanın nəzarətində qalır. Bu bölgü ilə Kəşmir ərazisi Pakistanla Hindistan arasında bərabər bölünmüş olur və hər iki tərəfdə olan Kəşmir əhalisi bir-birinə sərbəst, azad şəkildə səfər etmək imkanı əldə edir. Bu təklif 1964-cü ildə Pakistan Prezidenti Əyyub Xan və Hindistanın Baş naziri

11 Ahmad Farooque, Rethinking the National Security of Pakistan: The Price of Strategic Myopia (Karachi, 2003), səh.122.

12 Ahmad Farooque, səh. 243.

13 Selig S.Harrison, Autonomy the Way out for Kashmir Quagmire, The Telegraph newspaper, 10 mart 1992, Kalkutta, Hindistan.

14 S.M.Haidar, Kashmir and South Asian Security (İslamabad, 1992), səh. 4.

15 İqbal Nadeem, River Diplomacy, The News newspaper, İslamabad, 25 may 2004-cü il.

Cəvahərləl Nehru tərəfindən müzakirə olunmuş və demək olar ki, razılığa gəlinmişdi. Lakin həmin ilin mayında C.Nehrunun qəfil vəfatı danışıqları yarımçıq dayandırmışdı. Bir şeyi də qeyd etmək lazımdır ki, Kəşmirin 1947-ci ildəki vəziyyətindən fərqli olaraq Triyest şəhəri qeyri-monolitik idi. Kəşmir əhalisinin əksəriyyəti isə istər 1947-ci ildə, istərsə də indi müsəlmanlardan ibarətdir. Triyest variantı hər üç – Hindistan, Pakistan və Kəşmir tərəfin maraqlarına tam cavab verməsə də, bu variantın qəbul edilməsi mümkün sayılır.

## Çenab təklifi

Kəşmir münaqişəsinin həlli ilə bağlı təkliflər içərisində ən məşhurlarından olan Çenab formulası adlanan təklifin Pakistanın keçmiş xarici işlər katibi Niaz Naik tərəfindən irəli sürüldüyü bildirilir. O, bu təklifi "Xalqlar arasında Diplomatiya" çərçivəsində Hindistanın Baş naziri Atal Bihar Vacpayi və Hindistanılı diplomat Braceş Mişra ilə müzakirə etmişdi. Plana görə Cammu və Ladaxın hindus və buddist əhalisinin kompakt yaşadığı ərazilər Hindistana, müsəlman əhalinin yaşadığı ərazilər Şimal bölgəsi, Azad Kəşmir, Ovalıq, Cammu və Karqil, ümumiyyətlə, Çenab çayının qərbində yerləşən Kəşmir ərazisi Pakistana birləşməlidir.[16]

Qeyd olunmalıdır ki, bu həll variantı 1947-ci ildə Pakistanın yaranması – "İki Millət" prinsipinə müsəlmanların yaşadıqları ərazi Pakistan birləşməli, digər dinlərə mənsub olan əhalinin yaşadığı ərazilər Hindistanın tərkibində qalmalı prinsipinə uyğundur.

## Dikson təklifi

Kəşmirin üç hissəyə bölərək orada plebisitin keçirilməsi təklifi 1950-ci ildə Hindistan və Pakistan arasında münaqişənin tənzimlənməsində BMT-nin xüsusi vasitəçisi kimi fəaliyyət göstərmiş Ser Oven Diksona məxsusdur. Onun təklifinə görə Kəşmir üç bölgəyə bölünməli və orada ayrı-ayrılıqda plebisit keçirilməlidir. Birinci bölgəyə Ovalıq və Cammunun müsəlmanların çoxluqda yaşadıqları ərazilər – Punç, Racori və Doda, buna əlavə olaraq Ladax rayonunun Karqil bölgəsi daxildir. İkinci bölgəyə Cammu və Ladaxın, Lehin qalan əraziləri aiddir, və nahəyət, üçüncü bölgəyə Azad Cammu və Kəşmir, eləcə də Şimal ərazilər aiddir.[17]

Qeyd olunmalıdır ki, həmin dövrdə Kəşmir xalqı iki seçim qarşısında qalmışdı, ya Pakistan və ya Hindistana birləşmək haqqında qərar verməli idi. Lakin sonralar Kəşmirə ayrıca heç bir dövlətin tərkibinə birləşmədən müstəqillik seçmə hüququ də verilmişdir. Diksonun təklifindən yarım əsrdən çox bir zaman keçməsinə baxmayaraq, bir çox mütəxəssis bu təklifi hələ də münaqişəli tərəflər üçün qəbul olunan hesab edirlər.

## Nəticə

Hindistan və Pakistanın yaranması ilə meydana gələn Kəşmir münaqişəsi zaman-zaman daha çətin və mürəkkəb bir məsələyə çevrilib. Bu dövlətlər 1947-ci ildəki köhnə mövqelərində qaldığı halda, yeni geosiyasi vəziyyət, dünyada gedən proseslər Kəşmir münaqişəsinin həllinə fərqli yanaşma, mövqelərdə dəyişmə tələb edir. 1989-cu ildən başlayaraq İslamabadın yardımı ilə Kəşmir xalqının silahlı mübarizəyə qalxması münaqişənin tənzimlənməsi üçün Hindistan və Pakistan rəhbərliyini hərəkətə gətirməklə və problemin tezliklə həlli haqqında düşündürməyə vadar etməklə yanaşı, Kəşmir xalqının da ciddi şəkildə nəzərə alınmasını şərtləndirmişdi.

Problemin nizama salınması üçün münaqişəli tərəflər ilk növbədə əməkdaşlığın və sülh şəraitində yaşamanın daha çox fayda verdiyini anlamalıdırlar. Bunun üçün də hər iki tərəf bölgədə sülhün yaranması naminə uzun zamandan bəri möhkəm dayandıqları bəzi mövqelərindən geri çəkilməlidirlər. Təbii ki, bu məsələdə dünya ictimaiyyəti, xüsusilə bölgədə sülhün yaranmasında və münaqişənin davam etməsində maraqlı qüvvələr yaxından yardım etməlidirlər. Regionda münaqişənin davam etməsində maraqlı qüvvələr ifadəsi nə qədər paradoksal səslənsə də, bu bir həqiqətdir. Təkcə onu bildirmək kifayətdir ki, dünyanın nəhəng dövlətləri Cənubi Asiyanın iki böyük dövləti olan Hindistan və Pakistana 10 milyardlarla ABŞ dolları dəyərində silah satır.

Dünyada gedən bir sıra münaqişələrdə, xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə yanaşmada olduğu kimi beynəlxalq ictimaiyyət ikili standartla məsələyə yanaşmamalı, beynəlxalq hüquq norma və prinsipləri lazım olandan-olana, eləcə də hər hansı bir dövlətin mənafeyinə xidmət edəndən-edənə deyil, bərabər şəkildə bütün dövlətlərə tətbiq edilməlidir.

16 İbid.
17 BMT Təhlükəsizlik Şurası, Sənəd № S/2883, 24 dekabr 1952-ci il.

## *Azerbaijan – Italian relations*

*Mammad Ahmadzada**

### Historical background

About 55 kilometers from Baku in the area of Gobustan on the large rock of the southeastern foot of Beyukdash mountain was discovered ancient-Latin inscription. Inscription has a great significance as a historical source. It testifies stay of the XII lightning legion of Romans or its centurion in Gobustan during the administration of emperor Domitianus (81-96 AC). Staying of the Roman troops in Transcaucasia's territory is testified also by the written sources and arrival of Romans in Azerbaijan in 1 year AC had not been known before the detection of this stone. Inscription says: "Emperor Domitianus, Caesar Avgust Germanicus Lutskiy Maxim centurion of the XII lightning legion". Historical sources explain that Roman Empire and the ancient Azerbaijani state – the Caucasian Albania had political, economic and cultural ties as two independent states.

In the Middle Ages also many travelers from Italy visited Azerbaijan. Among them, it should be particularly noted journey of Marco Polo. Sightseeing of Azerbaijan cities and difficulties of "Silk Road" were described much more than others by travelers. In the XV century Venetian traveler and diplomat Katerino Zeno during 2 years was an ambassador to the palace of Uzun Hasan, the ruler of Azerbaijani state Akgoyunlu. In the palace of Akgoyunlu Katerino Zeno was replaced by Josafat Barbaro, who traveled entire territory of Akgoyunlu, which described in its book, printed in Venice in 1543.

Ambroggio Kontarini, was also an ambassador to the state of Akgoyunlu and left the descriptions about this earth in its "journey", which also printed in Venice. From second-half of the XV century the city-states of Italy realized West-East transit trade through Azerbaijan, and their preparatory missions of diplomats and travelers in Azerbaijan gained great economic successes. In the XVI-XVIII centuries intensive diplomatic and economic connections were conceived between the state of Sefevids and the Venetian Republic. In 1549 in Rome was published the translation to the Latin of the work of Nasreddin Tusi "Taglidi Eglidis – Statement of Euclid".

In 1918-1920 Italy established diplomatic relations with the Azerbaijan Democratic Republic and opened in Baku its consulate and military office. In that time were realized official visits of Azerbaijan delegation to Italy and Italian delegation to Azerbaijan.

Since 1972 were established the friendly relations between Baku and Naples. On September 1972 was signed the agreement for establishment of sister-cities between Baku and Naples. In the framework of cooperation in both cities were held different measures and meetings: the week of Azerbaijani culture in Naples (1976); second meeting of the USSR-Italian sister cities in Baku (1977); the days of Azerbaijan and Baku in Naples (1977), during which one of streets of Naples was nominated Baku; the discussion of Azerbaijani poet Nabi Khazri's book which was published in Italy, and the concerts of the soloists of the Opera and Ballet Theater named after M.F.Akhundov in Naples (1979); the visit of vice-mayor of Naples to Baku (1981); the days of Naples in Baku (1982), during which one of the streets of Baku was nominated Naples; the days of Baku in Naples (1983); the visit of representatives of Baku Municipality to Naples (1988).

Since the end of XIX and the beginning of the XX century in Baku were built different buildings by famous Italian architectures. There are different paintings of well-known Italian painters in museums of Azerbaijan and a lot of carpets, jewelry articles made in Azerbaijan are in different museums and private collections in Italy. The works of Dante and Petrarki were translated into Azerbaijani and were published in mass edition. The Azerbaijani singers as Shovket Mamedova, Byul-Byul, Muslim Magomayev did a special course in the famous Milan theatre "La Scala".

### Relations between the Republic of Azerbaijan and the Italian Republic Political relations

Italy recognized independence of Azerbaijan on January 1, 1992. The diplomatic relations between the Republic of Azerbaijan and the Italian Republic was established on May 8, 1992. As a result of great interest of Italy to Azerbaijan the Italian government opened its first embassy in the South Caucasian region in Baku in 1997 and a first ambassador of Italy in

* III secretary of the Embassy of the Republic of Azerbaijan in Italy.

Azerbaijan was Mr. Alessandro Fallavollita. Italy was a first chairman of the OSCE's Minsk Group acting for solution of the Armenian-Azerbaijan, Nagorno-Karabakh conflict. The opening of the Azerbaijan Embassy in Rome was realized in 2003 and a first ambassador of Azerbaijan in Italy was Mr. Elmar Mammadyarov.

The state visit of the President of the Republic of Azerbaijan H.E. Mr. Heydar Aliyev to Italy during the period from 25 to 28 September 1997 gave affirmative impact to the development of relations between two countries.

During the visit President Heydar Aliyev met with the President of the Italian Republic Mr. O.Scalfaro, the Prime Minister Mr. R.Prodi, the Chairman of Senate Mr. N.Mancio, and the President of Chamber of Deputies Mr. L.Violante. President Heydar Aliyev also had meetings with mayors of Rome and Naples, with representatives of major Italian companies (ENI, Enel, Fata, Alenia) that were interested to engage business activities in Azerbaijan and gave the interviews to a number of local newspapers and information agencies ("Il Sole 24 Ore", "La Repubblica" etc.). During the visit were signed the following documents on cooperation in different fields between the governments of Azerbaijan and Italy:

~ Agreement between the Government of the Republic of Azerbaijan and the Government of the Italian Republic concerning air services
~ Agreement between the Government of the Republic of Azerbaijan and the Government of the Italian Republic on cooperation in the field of tourism
~ Agreement between the Government of the Republic of Azerbaijan and the Government of the Italian Republic on the promotion and protection of investments
~ Joint Declaration on the Principles of Relations
~ Joint Declaration on economic cooperation between the Republic of Azerbaijan and the Italian Republic
~ Joint Declaration on Agreement between the Government of the Republic of Azerbaijan and the Italian Republic on cultural, scientific and technological cooperation
~ Memorandum of understanding between the Government of the Republic of Azerbaijan and the Government of the Italian Republic on bilateral technical cooperation over years 1997-1998

After President Aliyev's state visit, a number of high level visits and missions of Italian officials were realized to Azerbaijan: on June 1998 the visit of the Minister of Industry of Italy Mr. Bersani and in October 1998 the visit of the Undersecretary of the Foreign Affairs Mr. Fassino; on April 1999 the visit of the Undersecretary of the Foreign Affairs Mr. Martelli; on June 2000 the visit of the Undersecretary of the Foreign Affairs Mr. Ranieri (President in turn of the Council of Europe), on May 2001 the mission of the Head of the Department of the European countries of the Ministry of Foreign Affairs Mr. Moreno, on June 2-5, 2002 the visit of the Undersecretary of the Minister of Productive Activity Mr. Valduzzi and on July 2002 the visit of the Undersecretary of the Foreign Affairs Mrs. Boniver, on December 8-10, 2002 the visit of the Minister of Labour and Social Policy Mr. Maroni (during the visit was signed protocol of intend for cooperation between the appropriative ministries of two countries); on July 7-8, 2003 the visit of the Undersecretary of the Foreign Affairs, Mrs. Boniver, as a head of the Troika Ministerial Delegation of EU, on November 24-25, 2004 the visit of the Undersecretary of the Foreign Affairs, Mrs. Boniver (during the visit was signed the declaration on establishment of consultative group for bilateral economic relations).

On March 19, 2001 Mrs. Margherita Costa, Ambassador Extraordinary and Plenipotentiary of the Italian Republic in the Republic of Azerbaijan presented her letter of credentials to the President of the Republic of Azerbaijan H.E. Aliyev.

Along with these, a number of Azerbaijan high officials paid visits to Italy. On June 25-27, 2002 the Minister of Economic Development Mr. Farhad Aliyev visited Italy by the invitation of Mr. Antonio Marzano, Minister of Productive activity of Italy. During the visit Minister Aliyev had a number of meetings with representatives of Italian authority and major companies. During the meeting of two ministers was signed Intergovernmental memorandum on cooperation for development of small and medium-size (SME) enterprises. Also, on October 6-8, 2004 the Minister of Foreign Affairs Mr. Elmar Mammadyarov paid visit to Italy with the invitation of Minister of Foreign Affairs of

Italy Mr. Franco Frattini. During the visit Minister Mammadyarov met with its Italian colleague, other representatives of Italian government and parliament, participated in business forums on Azerbaijan organized in the Veneto Region.

The parliamentary relations between two countries are very intensive. It was established bilateral parliamentary friendship group between Azerbaijan and Italian. In the framework of this cooperation the Italian co-chairman of bilateral group Mr. Fiorello Provera, who is a head of the permanent commission for foreign affairs of Senate paid a visit in Azerbaijan on June 6-10, 2003 and met with political authority of Azerbaijan. Moreover, Deputy Chairman of Azerbaijan Parliament Mrs. Govhar Bakshaliyeva and Azerbaijani Co-chairman of parliamentary friendship group Mrs. Amaliya Panahova paid visit to Rome in occasion of conference of world women parliamentarians organized by the Chamber of Deputies of Italy on October 17-18, 2004 and during the visit met with the Chairman of the Chamber of Deputies of Italy Mr. Pier Ferdinando Casini and with a number of Italian parliamentarians.

On November 18, 2004 Mr. Emil Karimov, Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Azerbaijan in the Italian Republic presented his letter of credentials to the President of the Italian Republic H.E. Carlo Azelio Ciampi.

At the invitation of the President of the Italian Republic Carlo Azelio Ciampi, the President of the Republic of Azerbaijan, Ilham Aliyev, paid an official visit to Italy from the 24th to the 26th of February 2005.

During the visit President Ilham Aliyev met with Mr. Carlo Azelio Ciampi, the President of the Italian Republic, Mr. Silvio Berlusconi, the Prime Minister of the Italian Republic, Mr. Pier Ferdinando Casini, the President of the Chamber of Deputies and discussed with the Italian authorities the present situation and the further prospective of the cooperation between Azerbaijan and Italy.

